# BMTQAK

**BMT-nin Qaçqınlar üzrə Agentliyi**

# Pakistandan olan dini azlıq üzvlərinin beynəlxalq himayə tələbatlarının qiymətləndirilməsi üçün BMTQAK-ın rəhbər prinsipləri

**Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK)**
**Yanvar 2017-ci il**
**HCR/EG/PAK/17/01**

## Qeyd

BMTQAK-ın *Rəhbər prinsipləri* qərarların qəbul edilməsinə görə cavabdehlik daşıyan şəxslərə, o cümlədən BMTQAK-ın əməkdaşlarına, hökumətlərə və fərdi qaydada fəaliyyət göstərən şəxslərə sığınacaq axtaranların beynəlxalq himayə tələbatlarının qiymətləndirilməsində yardım etmək üçün Ali Komissarlıq tərəfindən dərc olunur. *Rəhbər prinsiplər* müvafiq mənşə ölkəsində (mənşə ərazisində) sosial, iqtisadi, təhlükəsizlik sahələrindəki, insan hüquqları və humanitar sahələrdəki şəraitin obyektiv qiymətləndirilməsi əsasında müəyyən şəxslər qrupunun qaçqın statusunu müəyyənləşdirmə meyarlarının hüquqi şərhidir. Bu sənəddə müvafiq beynəlxalq himayə tələbatlarının hərtərəfli təhlili aparılır və qaçqın statusu almaq üçün verilmiş ərizələrin qaçqınlarla bağlı müvafiq beynəlxalq hüquq prinsiplərinə və meyarlarına, xüsusən BMTQAK-ın Nizamnaməsinə, Qaçqınların statusuna dair 1951-ci il Konvensiyasına və ona əlavə olunmuş 1967-ci il Protokoluna, habelə müvafiq beynəlxalq sənədlərə, məsələn, Kartaxena Bəyannaməsinə, 1969-cu il tarixli ABT Konvensiyasına və Avropa İttifaqının (Aİ) Uyğunluq Direktivinə nə dərəcədə uyğun olduğunun müəyyənləşdirilməsinə dair tövsiyələr verilir. Vəziyyətdən asılı olaraq tövsiyələr qaçqınlar üçün əlavə və ya yardımçı himayə formalarına da aid ola bilər.

BMTQAK *Rəhbər prinsipləri* o məqsədlə qəbul edir ki, onlar onun Nizamnaməsinin 8-ci bəndində, eləcə də 1951-ci il Konvensiyasının 35-ci maddəsində və bu Konvensiyanın 1967-ci il Protokolunun II maddəsinə yer alan nəzarət funksiyalarına uyğun olaraq və qaçqınlıq meyarlarına uyğunluq və qaçqın statusunun müəyyənləşdirilməsi məsələlərinə dair illər ərzində topladığı təcrübəyə əsaslanmaqla qaçqın statusunun müəyyənləşdirilməsi ilə bağlı yuxarıda qeyd edilən meyarların dəqiq şərhinə və tətbiqinə yardım göstərmiş olsun. Ümid edilir ki, sığınacaq almaq üçün verilmiş ərizələrə baxarkən müvafiq dövlət qurumları və məhkəmə orqanları *Rəhbər prinsiplərdə* yer alan tövsiyə və məlumatları lazımınca nəzərə alacaqlar. *Rəhbər prinsiplər* dərin araşdırmalara, BMTQAK-ın yerlərdəki bölmələrinin qlobal şəbəkəsinin təqdim etdiyi məlumatlara, habelə yerli mütəxəssislər, tədqiqatçılar və digər mənbələr tərəfindən təqdim edilən, düzgünlüyü ciddi şəkildə yoxlanılan materiallara əsaslanır. *Rəhbər prinsiplər* BMTQAK-ın *Refworld* saytında (http://www.refworld.org) yerləşdirilib.

# Mündəricat


**Qısaltmalar (abbreviaturalar)** 4
**I. Qısa icmal** 5
**II. Ümumi məlumatlar** 6
**III. Dini azlıqlarla bağlı qanunvericilik bazası** 12
A. Konstitusiya 12
B. Cinayət Məcəlləsi: Küfr əleyhinə qanunvericilik 14
C. Cinayət Məcəlləsi: Əhmədilər əleyhinə qanunvericilik 25
D. "Hüdud dekretləri" 25
E. Ailə qanunvericiliyi 26
F. Terrorizm əleyhinə qanunlar 29
**IV. Pakistanda dini azlıqların vəziyyəti** 31
**V. Beynəlxalq himayə ilə təmin edilmə meyarlarına uyğunluq** 38
Potensial risk qrupları 40
*1. Əhmədilər* 40
*2. Bəhailər* 54
*3. Xristianlar* 55
*4. Hindular* 65
*5. Şiələr* 77
*6. Sikhlər* 86
*7. Sufilər / barelvilər* 90
*8. Zikrilər* 92
**VI. Ölkə daxilində başqa yerə köçürülmə və ya yerdəyişmə alternativi** 94
**VII. Qaçqınlar üçün beynəlxalq himayədən xaric edilmə** 96

## Qısaltmalar (abbreviaturalar)

ACLED – Silahlı münaqişə məkanları və hadisələri haqqında məlumatların toplanması layihəsi
AİHK – Asiya İnsan Hüquqları Komissiyası
ƏSVC – "Əhli Sünnə Vəl Camaat" qruplaşması
TƏQ – Terrorizm əleyhinə qanun
CAT – İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya qarşı Konvensiya
PİİŞ – Pakistan İslam İdeologiyası Şurası
UHK – Uşaq Hüquqları Komitəsi (Uşaq hüquqları haqqında Konvensiyanın icrasını monitorinq edir)
CERD – İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə (İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın icrasını monitorinq edir)
EMŞK – Elektronlaşdırılmış milli şəxsiyyət vəsiqələri
TTMÖM – Tədqiqatlar və təhlükəsizlik məsələlərinin öyrənilməsi mərkəzi
SADAB – Sığınacaq axtaranlara dəstək üzrə Avropa Bürosu
FİTƏ – Federal idarəçilikdə olan tayfa əraziləri
FŞM – Federal Şəriət Məhkəməsi
CİMP – Cinayət haqqında ilkin məlumat protokolu
İHQM – "İnsan Hüquqlarının Qlobal Müdafiəsi" təşkilatı
MSHBP – Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt
BBQ – Beynəlxalq Böhran Qrupu
BHK – Beynəlxalq Hüquqşünaslar Komissiyası
DİBHŞ – Dalit İcmalarının Beynəlxalq Həmrəylik Şəbəkəsi
BİHF – Beynəlxalq İnsan Hüquqları Federasiyası
PİHK – Pakistan İnsan Hüquqları Komissiyası (Qeyd: PİHK Milli İnsan Hüquqları Komissiyasına aidiyyəti olmayan müstəqil QHT-dir)
HRW – "Human Rayts Votç" (*Human Rights Watch*) təşkilatı
BİHK – Beynəlxalq İnsan Hüquqları Komitəsi (Qeyd: BİHK BMT-nin İnsan Hüquqları Komitəsinə aidiyyəti olmayan müstəqil QHT-dir)
LC – "Ləşkəri-Çəngvi" qruplaşması
AHBQ – Azlıqların Hüquqları üzrə Beynəlxalq Qrup
PTMMİ – Pakistanın terrorizmlə mübarizə üzrə milli idarəsi
MMBQİ – Milli məlumat bazası və qeydiyyat idarəsi
MFP – Milli Fəaliyyət Planı
AİMK – Azlıqların işləri üzrə Milli Komissiya
OCHA – Birləşmiş Millətlər Təşkilatı yanında humanitar məsələlərin koordinasiyası idarəsi
BMTİHAK – Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları üzrə Ali Komissarlığı
ƏİTƏ – Əyalət idarəçiliyində olan tayfa əraziləri
DİPHŞ – Dalit İcmalarının Pakistan Həmrəylik Şəbəkəsi
PSAİ – Pakistan Sülh Araşdırmaları İnstitutu
PMQ – Pakistanın müdafiəsi haqqında qanun
PXP – Pakistan Xalq Partiyası
SS – "Sipahi-Səhabə" qruplaşması
TTP – "Təhriki-Taliban Pakistan" qruplaşması
BMTQAK – Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı
ABŞBDAK – Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Din Azadlığı Komissiyası

# I. Qısa icmal

Bu Rəhbər prinsiplər Pakistan İslam Respublikasında (bundan sonra: "Pakistan") din və əqidə azadlığı ilə bağlı davam edən problemlər, habelə təriqət və din məsələlərindən qaynaqlanan zorakılıqlar fonunda təqdim edilir. Burada Pakistandakı hazırkı durum kontekstində beynəlxalq himayəyə ehtiyacı ola biləcək dini azlıqların vəziyyətinə dair konkret məlumatlar təqdim edilir.[1]

Bu Rəhbər prinsiplər "*Pakistandan olan dini azlıq üzvlərinin beynəlxalq himayə tələbatlarının qiymətləndirilməsi üçün BMTQAK-ın 2012-ci il tarixli rəhbər prinsipləri*"ni[2] əvəzləyir. Bu Rəhbər prinsiplərdə təfsilatlı şəkildə əks olunan BMTQAK-ın tövsiyələrini aşağıdakı kimi qısaca ümumiləşdirmək olar.

Qaçqınların statusuna dair 1951-i il Konvensiyasında[3] (1951-i il Konvensiyası) və (və ya) ona əlavə olunmuş 1967-ci il Protokolunda[4] yer alan qaçqın meyarları əsasında sığınacaq üçün edilən bütün müraciətlərə mahiyyəti üzrə baxılması qaçqın statusunun müəyyənləşdirilməsi üzrə ədalətli və effektiv prosedurlara uyğun olaraq və mənşə ölkəsi barədə mütəmadi təzələnən və aktual olan məlumatlar əsasında həyata keçirilməlidir.

BMTQAK hesab edir ki, dini azlıq üzvləri olan Pakistan vətəndaşlarının sığınacaq üçün verdiyi ərizələrə mümkün risklərlə əlaqədar olaraq xüsusi diqqətlə baxılmalıdır. BMTQAK hesab edir ki, dini azlıqların üzvləri hər bir halın konkret xüsusiyyətlərindən asılı olaraq qaçqınlar üçün beynəlxalq himayəyə ehtiyac duya bilərlər. Bu cür azlıqların tam olmayan siyahısına bunlar daxildir: i) bəhailər; ii) xristianlar; iii) hindular; iv) şiələr; v) sikhlər; vi) sufilər/barelvilər; və vii) zikrilər. BMTQAK hesab edir ki, əhmədi dini azlıq qrupunun üzvləri də, yəqin ki, beynəlxalq himayəyə ehtiyac duya bilərlər.

BMTQAK bir qayda olaraq ölkənin küfr və (və ya) əhmədilik əleyhinə qanunvericiliyinə əsasən şəxsin cinayət təqibinə məruz qaldığı hallarda ölkədaxili köçürülməni və ya yerdəyişməni məqsədəuyğun alternativ variant hesab etmir. Dövlət tərəfindən əhmədilərə qarşı ayrı-seçkiliyin geniş yayıldığını və institusional formalar aldığını, həmçinin cəmiyyətin üzvləri tərəfindən əhmədilərə qarşı törədilən və eynilə geniş yayılmış olan qəddar rəftardan dövlətin onları müdafiə etmədiyini nəzərə alaraq, BMTQAK hesab edir ki, məskunlaşdıqları ərazidə dini əsaslara görə təqibə məruz qalma qoxusu əsaslı olan əhmədilərin ölkədaxili köçürülməsi və ya yerdəyişməsi məqbul variant deyil. Bundan başqa, BMTQAK hesab edir ki, dini motivlərdən qaynaqlanan davamlı təriqət zorakılıqlarını və bəzi yaraqlı qruplaşmaların geniş coğrafi ərazilərə yayıldığını nəzərə alsaq, bir qayda olaraq, alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmə bu qruplaşmaların hədəfinə çevrilmə riski altında olan digər dini azlıq qruplarının üzvləri üçün mümkün deyil. Beynəlxalq himayə üçün müraciət edən bütün digər ərizəçilərə gəlincə, BMTQAK hesab edir ki, alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmə qiyamçılar əleyhinə davamlı olaraq keçirilən təhlükəsizlik əməliyyatlarının və hərbi əməliyyatların və yaraqlıların cavab hücumlarının təsiri altında olan ərazilərdə mümkün deyil. Ölkədaxili köçürülmənin və ya yerdəyişmənin məqsədəuyğun hesab edildiyi hallarda təklif olunan ölkədaxili köçürülmənin və ya yerdəyişmənin əsaslılığı hər bir işin konkret halları əsasında qiymətləndirilməlidir.

Pakistanda məzhəb zorakılıqlarının və yaraqlıların fəaliyyətlərinin uzunmüddətli tarixini, o cümlədən insan hüquqlarının ciddi pozuntuları barədə məlumatları nəzərə alsaq, Pakistanda dini azlıq üzvlərinin sığınacaq üçün fərdi müraciətləri ilə əlaqədar olaraq 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndində nəzərdə tutulmuş istisnaedici mülahizələr meydana çıxa bilər.

---

[1] Əgər başqa tarix göstərilməyibsə, bu Rəhbər prinsiplər 2016-cı ilin noyabrınadək BMTQAK-ın malik olduğu məlumatlara əsaslanır.

[2] BMTQAK, *Pakistandan olan dini azlıq üzvlərinin beynəlxalq himayə tələbatlarının qiymətləndirilməsi üçün BMTQAK-ın rəhbər prinsipləri*, 14 may 2012-ci il, HCR/EG/PAK/12/02, http://www.refworld.org/docid/4fb0ec662.html.

[3] Qaçqınların statusu haqqında Konvensiya, 28 iyul 1951-ci il, Birləşmiş Millətlər Təşkilatının müqavilələr toplusu, cild 189, səh. 137, http://www.unhcr.org/refworld/docid/3be01b964.html.

[4] Qaçqınların statusu haqqında Protokol, 31 yanvar 1967-ci il, Birləşmiş Millətlər Təşkilatının müqavilələr toplusu, cild 606, səh. 267, http://www.unhcr.org/refworld/docid/3ae6b3ae4.html.

Xüsusən aşağıdakı xarakteristikalara malik dini azlıqlara mənsub olan şəxslərin müraciətlərinə ehtiyatla yanaşmaq lazımdır: i) yaraqlı qrupların üzvləri, yaxud məzhəb zorakılıqlarına hər hansı digər formada cəlb olunmuş şəxslər; ii) hərbi, polis, təhlükəsizlik və kəşfiyyat qüvvələrinin üzvləri, xüsusən terrorizm əleyhinə kampaniyalarda iştirak edənlər; iii) yerli və federal administrasiyaların rəsmiləri; və iv) məhkəmə hakimiyyətinin nümayəndələri.
Bu Rəhbər prinsiplər Pakistanda təhlükəsizlik sahəsində vəziyyətə və ya Pakistanın müxtəlif regionlarında fəaliyyət göstərən yaraqlı qruplara və digər iştirakçılara dair məlumatları özündə ehtiva etmir. Bununla belə, bu cür məlumatlar sığınacaq axtaranların fərdi ərizələrinin qiymətləndirilməsində əhəmiyyət daşıya bilər və lazımi hallarda qaçqın statusuna uyğunluğa dair bu rəhbər prinsiplərdən əlavə onlar da nəzərdən keçirilməlidir. Yəqin ki, belə məlumatlar xüsusən şəxsin sığınacaq üçün müraciətinin onun qeyri-dövlət subyektləri tərəfindən təqibə məruz qalması ilə əlaqədar olduğu hallarda, yaxud təklif olunan ölkədaxili köçürülmə və ya yerdəyişmə ilə bağlı mülahizələr nəzərdən keçirildikdə əhəmiyyət daşıya bilər.

## II. Ümumi məlumatlar

Pakistan Britaniyanın hakimiyyəti altında olmuş Hindistanın bölünməsindən və doqquz aylıq vətəndaş müharibəsindən sonra 1947-ci ildə müstəqil dövlət oldu. 1971-ci ildə Şərqi Pakistan ondan ayrıldı və Banqladeş Xalq Respublikasına çevrildi. Bu gün Pakistan dörd əyalətdən (yəni Sind, Pəncab, Bəlucistan əyalətlərindən və əvvəllər Şimal-qərb sərhəd əyaləti kimi tanınan Xeybər Paxtunxva əyalətindən),[5] federal idarəçilikdə olan tayfa ərazilərindən (FİTƏ),[6] habelə paytaxt (İslamabad) ərazisindən[7] ibarətdir. Məlumatlara əsasən Pakistan əhalisinin təxminən 96 faizi müsəlmandır, lakin Pakistandakı dini azlıq icmalarının nisbi sayı barədə dəqiq rəqəmlər yoxdur.[8]

---

[5] "Şimal-qərb sərhəd əyaləti" adı 2010-cu ilin aprelində Konstitusiyaya 18-ci Düzəlişlə dəyişdirildi, Bax: Pakistan, *Konstitusiyaya 18-ci Düzəliş haqqında Qanun,* 2010, 19 aprel 2010-cu il, http://www.pakistani.org/pakistan/constitution/amendments/18amendment.html, maddə 3.

[6] FİTƏ-lər yeddi inzibati-ərazi vahidini (inzibati rayonu) əhatə edir: Bacaur, Orakzai, Mohmand, Xiber, Kurram, Şimali Vəziristan və Cənubi Vəziristan. Buraya həmçinin Bannu, Peşəvər, Kohat və Dera İsmayıl Xan rayonları ilə həmsərhəd olan tayfa əraziləri daxildir. Bax: Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 246(c).

[7] Mübahisəli Cammu və Kaşmir regionunun Paksitan tərəfindən idarə olunan ərazisi öz siyasi və inzibati strukturları olan Azad Kəşmir və Şimal ərazilərindən ibarətdir. Misal üçün bax: ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi, *Ümumdünya faktlar məcmuəsi: Pakistan*; 6 yanvar 2016-cı il, https://www.cia.gov/library/publications/the-world-factbook/geos/pk.html.

[8] Pakistan əhalisinin sonuncu dəfə siyahıya alınma tarixi 1998-ci ilə gedib çıxır. 1998-ci il siyahıyaalmasının məlumatlarına əsasən, əhalinin 95 faizi müsəlman olduğunu bildirib. Bu 95 faizdən 75 faizi sünni (onlar çoxsaylı sünni təriqətlərinə və cərəyanlarına bölünür), 25 faizi isə şiə olduğunu bildirib. Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Din Azadlığı Komissiyası (ABŞBDAK), *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan,* 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html. 1998-ci il siyahıyaalmasının məlumatlarına əsasən, ölkə əhalisinin 1,85 faizi hindular (0,25 faiz təşkil edən "toxunulmazlar kastası" və digər aşağı kastalar da daxil olmaqla), 1,59 faizi xristianlar, 0,22 faizi əhmədilər idi; 0,7 faizi isə digər dini azlıqlara mənsub idi; bax: Pakistan hökuməti yanında Əhalinin Siyahıyaalınması Təşkilatı, *1998-ci il siyahıyaalması: Əhalinin dini tərkibi* (26 yanvar 2016-cı il tarixinə olan məlumat), http://www.pbs.gov.pk/content/population-religion. Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) *"Ümumdünya faktlar məcmuəsi"ndəki* hesablamaya əsasən, əhalinin 96,4 faizi müsəlmanlardır (bunlardan 85-90 faizi sünnilər, 10-15 faizi isə şiələrdir); xristianlar və hindular da daxil olmaqla digər dinlərin nümayəndələri 3,6 faiz təşkil edir. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi, *Ümumdünya faktlar məcmuəsi: Pakistan*; 6 yanvar 2016-cı il, https://www.cia.gov/library/publications/the-world-factbook/geos/pk.html. Məlumatlara əsasən azlıqların nümayəndələri Pakistandakı dini icmaların üzvlərinin sayını şübhə altına alırlar; lakin son dövrdə siyahıyaalma aparılmadığına görə müxtəlif azlıq qruplarının üzvlərinin sayca artması və ya azalması aydınlaşdırılmayıb. Beynəlxalq İnsan Hüquqları Federasiyası (BİHF) və Pakistan İnsan Hüquqları Komissiyası (PİHK), *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, 10 mart 2015-ci il, http://www.refworld.org/docid/552cd9bd24.html, səh. 16. "Dini azlıq qruplarının üzvlərinin sayına aid qeyri-rəsmi hesablamalar fərqlənir. 2014-cü ilə aid media məlumatlarına əsasən, Milli məlumat bazası və qeydiyyat idarəsində 2,9 milyon qeyri-müsəlman qeydə alındığı halda, əslində onların sayının 3.5 milyondan çox olduğu bildirilir. Dini icma nümayəndələri azlıqların əhalinin 3-5 faizini təşkil etdiyini bildirirlər ki, bu da təxminən altı-doqquz milyon

Pakistanın məhkəmə sistemi ingilis ümumi hüquq sisteminə və islam hüququna əsaslanır və mülki və cinayət məhkəmələrindən ibarətdir[9]. Pakistanın bəzi əraziləri müstəqil məhkəmə sistemlərinə malikdir və Ali Məhkəmənin və Pakistanın beş Yüksək Məhkəməsinin yurisdiksiyasına daxil deyil. Bu regionlara[10] öz seçkili prezidenti, baş naziri, qanunverici orqanı və məhkəmə sistemi olan Azad Cammu və Kəşmir, habelə müstəqil məhkəmə sisteminə malik olan Gilgit Baltistan daxildir.[11] 2009-cu il tarixli Nizami-ədl Qaydalarına uyğun olaraq, Xeybər Paxtunxvada əyalət idarəçiliyində olan tayfa ərazilərinin (ƏİTƏ)[12] müəyyən edilmiş hissələrində şəriət hüququ tətbiq edilir və hakimlərə islam alimləri tərəfindən kömək göstərilir.[13] FİTƏ-lərdə ədalət mühakiməsi sistemi "Sərhədyanı cinayətlər haqqında Qaydalar"la (SCQ) tənzimlənir və

---

vətəndaşdır. Mətbuatın istinad etdiyi hökumətin qeydiyyat sənədlərindəki məlumatlara əsasən, ölkədə təxminən 1,4 milyon hindu, 1,3 milyon xristian, 126.000 əhmədi, 34.000 bəhai, 6.000 sikh və 4.000 atəşpərəst var. Lakin əhmədilərin rəsmi siyahıyaalmanı boykot etdiklərini nəzərə alaraq, icma mənbələri əhmədi müsəlmanların sayının təxminən 500.000 olduğunu göstərirlər". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[9] Misal üçün bax: Federal Məhkəmə Akademiyası, *Pakistanın məhkəmə sistemi*, may 2015-ci il, http://www.supremecourt.gov.pk/web/user_files/File/thejudicialsystemofPakistan.pdf, səh. 4-6; Beynəlxalq Şəffaflıq Təşkilatı (*Transparency International*), *Pakistan: Milli idarəçilikdə dürüstlük sistemi – Ölkə üzrə 2014-cü il tarixli hesabat*, 25 aprel 2014-cü il, https://www.transparency.org/whatwedo/nisarticle/pakistan_2014, səh. 58-59.

[10] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; Federal Məhkəmə Akademiyası, *Pakistanın məhkəmə sistemi*, may 2015-ci il, http://www.supremecourt.gov.pk/web/user_files/File/thejudicialsystemofPakistan.pdf, səh. 9-13.

[11] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html.

[12] Əyalət idarəçiliyində olan tayfa ərazilərinə (ƏİTƏ) daxil olan ərazilər Konstitusiyanın 246-cı maddəsinin "b" bəndində sadalanır: Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 246(b). Tayfa ərazilərinin idarə edilməsinə dair əlavə təfsilatlar üçün həmçinin Konstitusiyanın 247-ci maddəsinə bax.

[13] Nizami-ədl Qaydaları 13 aprel 2009-cu ildə qəbul edilib və ƏİTƏ-lər daxilində müəyyən edilmiş ərazilərdə yurisdiksiyaya malik olan səlahiyyətli məhkəmələrin beş kateqoriyasını müəyyən edir və onlara "illava qazi"ni təyin etmək səlahiyyəti verir, bu terminə "Şimal-qərb sərhəd əyalətində lazımi qaydada təyin edilmiş olan hakim səlahiyyətinə malik şəxs" kimi anlayış verilir və təyinat zamanı "rəsmən tanınan qurumda keçilən şəriət kursunu bitirmiş hakim səlahiyyətinə malik şəxslərə" üstünlük verilir. "Qaydalar" həmçinin Xeybər Paxtunxva hökumətinə imkan verir ki, hər bir rayonda və ya qorunan ərazidə icraçı magistratı təyin etsin. "Rayon magistratı və bütün digər icraçı magistratlar bərqərar olmuş şəriət prinsiplərinə və sözügedən ərazidə müvafiq dövrdə qüvvədə olan digər qanunlara uyğun olaraq öz funksiyalarını və vəzifələrini yerinə yetirməli və səlahiyyətlərini həyata keçirməlidirlər". İcraçı magistrat "əmin-amanlığın qorunması, qayda-qanunun mühafizəsi və dövlətin icra hakimiyyətinin və "səddi-zərayi-cinayət" tədbirlərinin həyata keçirilməsi" məqsədləri üçün "bərqərar olmuş şəriət prinsipləri əsasında şəxsə qarşı tədbir görə bilər"; burada ""səddi-zərayi-cinayət" ifadəsi cinayətlərin nəzarətdə saxlanması üçün şəriət qanunları və müvafiq qüvvədə olan istənilən digər qanun əsasında görülən bütün tədbirləri və edilən bütün hərəkətləri bildirir və əhatə edir". 2009-cu il tarixli Nizami-ədl Qaydaları Şimal-qərb sərhəd əyalətinin ƏİTƏ-lərinə şamil olunur, lakin Mansəhra rayonuna bitişik olan tayfa ərazisi və keçmiş Amb ştatı istisna təşkil edir. 2009-cu il tarixli Nizami-ədl Qaydalarının tam mətnini "Terrorizmlə bağlı Cənubi Asiya Portalı"nın saytında tapmaq olar: http://www.satp.org/satporgtp/countries/pakistan/document/papers/Nizam-e-AdlRegulation2009.htm. Həmçinin bax: Beynəlxalq Böhran Qrupu (BBQ), *Pakistan: ƏİTƏ-lərdə savaşçılığa qarşı mübarizə*, 15 yanvar 2013-cü il, http://www.refworld.org/docid/50f544262.html, səh. 1, 4, 30-31; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2010-cu il tarixli hesabat – Pakistan [hesabat 2010-cu ilin iyul-dekabr aylarını əhatə edir]*, 13 sentyabr 2011-ci il, http://www.refworld.org/docid/4e734c75b.html. Məlumatlara görə 2015-ci ilin aprelində Peşəvər Yüksək Məhkəməsi ƏİTƏ-lərdə icraçı magistratların bu "Qaydalar" əsasında fəaliyyətini konstitusiyaya zidd hesab etdi və rayon hökumətinə 2009-cu il tarixli Nizami-ədl Qaydalarında lazımi düzəlişlər etmək barədə göstəriş verdi. Misal üçün bax: "Dawn" qəzeti, *Məhkəmə zalından baxış: ƏİTƏ-lərdə magistratların fəaliyyəti ilə bağlı Peşəvər Yüksək Məhkəməsinin qərarı müzakirələrə səbəb oldu*, 4 may 2015-ci il, http://www.dawn.com/news/1179895; "*The Express Tribune*" qəzeti, *ƏİTƏ-lərin idarəçiliyi: Peşəvər Yüksək Məhkəməsi hökumətə Malakənd rayon administrasiyasından məhkəmə səlahiyyətlərinin alınması barədə göstəriş verdi*, 30 aprel 2015-ci il, http://tribune.com.pk/story/878263/governing-pataphc-directs-govt-to-retract-judicial-powers-from-malakand-district-admin/.

bu qaydalar, digər məsələlərlə yanaşı, tayfa başçılarına icazə verir ki, ədalət mühakiməsini şəriət hüququna və tayfa adətlərinə uyğun olaraq həyata keçirsinlər.[14]

1980-ci ildə Prezident Fərmanı[15] ilə təsis edilmiş Federal Şəriət Məhkəməsinə (FŞM) qanunun islamın göstərişlərinə zidd olub-olmadığını araşdırmaq və müəyyənləşdirmək, habelə cinayət məhkəmələrinin qərarlarına yenidən baxmaq və "Hüdud işləri" üzrə qərar çıxarmaq məsələsində müstəsna səlahiyyət verilib.[16] Federal Şəriət Məhkəməsinin qərarları Yüksək Məhkəmələr və aşağı instansiya məhkəmələri üçün məcburi qüvvəyə malikdir, amma onlara Ali Məhkəmə tərəfindən yenidən baxıla bilər.[17] FŞM-in qərarları hökumət üçün də məcburi qüvvəyə malikdir və hökumət FŞM tərəfindən müəyyən edilən müddətdə qərardan Ali Məhkəmənin şəriət kollegiyasına şikayət etmədiyi təqdirdə qərar avtomatik olaraq qanuni qüvvəyə minir.[18]

İnsan hüquqlarının müdafiəsini təmin etmək üçün hökumətin göstərdiyi səylərə, o cümlədən Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın (MSHBP)[19] və İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza növlərinə qarşı Konvensiyanın (İQK) ratifikasiya olunmasına baxmayaraq, müstəqil müşahidəçilər xüsusən məhkəmə hakimiyyətinin müstəqilliyi ilə, din azadlığının məhdudlaşdırılmasına səbəb olan qanunvericilik normaları ilə və hüquq-mühafizə orqanları səviyyəsində hüquqa zidd davranışla əlaqədar narahatlıqlarını ifadə etməkdə davam edirlər.[20]

---

[14] SCQ-nin ətraflı təhlili üçün bax: PİHK, *SCQ – Pis qanun heç kəsi müdafiə edə bilməz*, 2004-cü il, http://hrcp-web.org/hrcpweb/wpcontent/pdf/ff/23.pdf. 2011-ci ilin avqustunda prezident Zərdari "Sərhədyanı cinayətlər haqqında Qaydalar"a dəyişikliklər edilməsi haqqında Fərman (2011) imzalayaraq FİTƏ-lərdə inzibati, ədliyyə və siyasi islahatlara təkan verdi. Ceymstaun Fondu, "Pakistan şimal-qərb sərhədində terrorizm məsələsinin inzibati həllinə çalışır", "*Terrorism Monitor*" *jurnalı, № 9, buraxılış 35*, 15 sentyabr 2011-ci il, http://www.refworld.org/docid/4e7855f92.html. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html.

[15] Pakistan, *Konstitusiya dəyişiklikləri haqqında 1980-ci il tarixli Prezident Fərmanı*, http://www.pakistani.org/pakistan/constitution/orders/po1_1980.html, maddə 3. Konstitusiyanın 203C(2) maddəsinə əsasən, FŞM səkkiz nəfərdən çox olmamaq şərti ilə müsəlman hakimlərdən təşkil olunur; bunlardan Yüksək Məhkəmənin hakimi olmaq hüququna malik olanların sayı dörddən çox, islam hüququ üzrə alimlərin (üləmaların) sayı isə üçdən çox olmamalıdır. Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.unhcr.org/refworld/docid/47558c422.html.

[16] Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.unhcr.org/refworld/docid/47558c422.html, maddə 203D.

[17] "203-cü maddənin "D" və "F" bəndlərinə riayət etmək şərti ilə, bu Fəslin müddəaları əsasında yurisdiksiyasını həyata keçirərkən Federal Şəriət Məhkəməsinin qəbul etdiyi istənilən qərar Yüksək Məhkəmə və Yüksək Məhkəmənin tabeliyində olan bütün məhkəmələr üçün məcburi qüvvəyə malikdir". Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.unhcr.org/refworld/docid/47558c422.html, maddə 203GG. "[FŞM-in] qərarından apellyasiya şikayəti Ali Məhkəmə nəzdindəki Şəriət işləri üzrə apellyasiya kollegiyasına təqdim edilir, kollegiya Ali Məhkəmənin 3 müsəlman hakimindən və 2 nəfərdən çox olmamaqla prezidentin təyin etdiyi üləmalardan (islam alimlərindən) ibarət olur. Qanunun müəyyən müddəası islamın göstərişlərinə zidd elan edilərsə, həmin qanunu islamın göstərişlərinə uyğunlaşdırmaq üçün hökumətin həmin qanuna dəyişiklik etməyə yönələn zəruri addımlar atması tələb olunur. Federal Şəriət Məhkəməsi həmçinin "Hüdud işləri" üzrə qərarlar çıxaran cinayət məhkəmələrinin qərarlarına yenidən baxmaq və onlarda dəyişiklik etmək səlahiyyətinə malikdir". Federal Məhkəmə Akademiyası, *Pakistanın məhkəmə sistemi*, may 2015-ci il, http://www.supremecourt.gov.pk/web/user_files/File/thejudicialsystemofPakistan.pdf, səh. 13-14.

[18] Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.unhcr.org/refworld/docid/47558c422.html, maddə 203D (3).

[19] Pakistan MSHBP-ni 23 iyun 2010-cu ildə ratifikasiya edib, amma ratifikasiya zamanı bir neçə qeyd-şərt edib, o cümlədən MSHBP-nin 3, 6, 7, 18 və 19-cu maddələrinə qeyd-şərt qoyub. Onun qeyd-şərtlərinə əsasən, bu maddələr Pakistanın Konstitusiyası və şəriət hüququ ilə ziddiyyətə girdiyi təqdirdə Pakistan üçün məcburi qüvvəyə malik deyil. Əlavə təfsilatlar üçün bax: http://www.bayefsky.com/html/pakistan_t2_ccpr.php.

[20] Misal üçün bax: "Human Rayts Votç" təşkilatı (*Human Rights Watch* – HRW), *Pakistan: 2015-ci ilin hadisələri*, yanvar 2016-cı il, https://www.hrw.org/world-report/2016/countrychapters/pakistan; BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html; PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/hrcpannual-report-2015/; BMT-nin İnsan Hüquqları Şurası, *Hakimlərin və vəkillərin müstəqilliyi məsələsi üzrə xüsusi məruzəçinin*

Məlumatlara əsasən aşağı məhkəmələrin çoxu korrupsiyanın cəngindədir, onların hakimləri isə deyilənlərə görə yerli rəsmilər, nüfuzlu şəxslər və islam ekstremistləri tərəfindən qorxudulurlar.[21] Bundan başqa, həm aşağı, həm də yuxarı məhkəmələrdə iş yükünün çoxluğu tutulanların uzun müddət məhkəməyəqədər həbsdə saxlanması ilə nəticələnə bilir.[22] Polis qüvvələri daxilində korrupsiya, məlumatlara əsasən, geniş yayılıb və rüşvət almaqdan tutmuş yalançı şikayətlərin qeydiyyatına və ya ittihamlardan yayındırmalara və siyasi rəqiblərin qorxudulmasına qədər müxtəlif formalardadır.[23] Polis tərəfindən həbsdə saxlanılanların işgəncələrə məruz qaldığı barədə məlumatlar geniş yayılıb.[24] Əsassız olaraq tutmanın və həbsdə saxlamanın qanunla qadağan edildiyinə baxmayaraq,[25] məlumatlara görə, polislər insanları əsassız olaraq tutmaq və

---

*məruzəsi, Əlavə: Pakistan missiyası*, 4 aprel 2013-cü il, A/HRC/23/43/Add.2, http://www.refworld.org/docid/51b9a0794.html.

[21] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html.

[22] 2015-ci ilin yanvarında Milli Məclisə məlumat verildi ki, Ali Məhkəmədə, Yüksək Məhkəmələrdə və onların tabeliyindəki məhkəmə orqanlarında baxılmamış qalan işlərin sayı 2013-cü ildə 1,3 milyona çatıb. "*The Nation*" qəzeti, *Milli Məclisin bildirdiyinə hörə, Ali Məhkəmədə və aşağı məhkəmələrdə 1,7 milyon iş baxılmamış qalır*, 15 yanvar 2015-ci il, http://nation.com.pk/national/15-Jan-2015/1-7m-cases-pending-with-sc-lower-courts-na-told. Həmçinin bax: "Fridım Haus" təşkilatı (*Freedom House*), *"Dünyada azadlıq" hesabatı, 2016 – Pakistan*, 25 iyul 2016-cı il, http://www.refworld.org/docid/579f48bc15.html; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; Daun, *Məhkəmə hakimiyyəti barədə baş nazirin "xoşagəlməz" qeydlərinə Ali Məhkəmənin hakimləri cavab verdi*, 16 yanvar 2015-ci il, http://www.dawn.com/news/1157341; Beynəlxalq Şəffaflıq Təşkilatı, *Pakistan: Milli idarəçilikdə dürüstlük sistemi – Ölkə üzrə 2014-cü il tarixli hesabat*, 25 aprel 2014-cü il, https://www.transparency.org/whatwedo/nisarticle/pakistan_2014, səh. 57.

[23] "Hökumətin hesabatlılığı və kompensasiya institutları barədə ictimai sorğular və hesabatlar göstərir ki, polis ən çox qorxu doğuran, barəsində ən çox şikayət edilən və ən az etibar edilən dövlət qurumudur, bu qurumda aydın hesabatlılıq sistemi yoxdur və o, ən yüksək səviyyələrdə korrupsiyaya uğrayıb. Rayon səviyyəli polis orqanları çox zaman nüfuzlu siyasətçilərin, varlı torpaq sahiblərinin və cəmiyyətin digər nüfuzlu üzvlərinin nəzarəti altında olurlar". HRW, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat*, 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html, səh. 1. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; "*Geo TV*", *Məlumatda qeyd edilir ki, Sind polisinin 842 əməkdaşı korrupsiyaya cəlb olunub*; 15 oktyabr 2015-ci il, http://www.geo.tv/latest/6786-report-cites-842-officials-of-sindh-police-involved-in-corruption; "*The Express Tribune*" qəzeti, *Sind polisinin qanunsuz gəlirləri: Ali Məhkəmə qeyd etdi ki, baş müfəttiş Camali vəzifədə olduğu müddətdə korrupsiya halları üçqat artıb*, 1 avqust 2015-ci il, http://tribune.com.pk/story/930032/sindh-polices-graft-corruption-has-trebled-in-ig-jamalis-tenure-observes-sc/; "Dawn" qəzeti, *Ali Məhkəmə polis araşdırmalarına ayrılan vəsaitlərə dair yeni hesabatı rədd etdi*, 1 avqust 2015-ci il, http://www.dawn.com/news/1197652.

[24] "Polislər şübhəli şəxslərdən etiraflar və ya digər məlumatlar almaq, onları rüşvət verməyə məcbur etmək üçün, yaxud da yerli siyasətçilərin və ya torpaq sahiblərinin təzyiqi səbəbindən çox vaxt şübhəli şəxslərə işgəncə verirlər". HRW, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat*, 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html, səh. 4. Nyu-York Ştatı Universitetinin sosiologiya və cinayət ədliyyəsi fakültəsinin professoru ilə dekabr 2015-ci il tarixli telefon müsahibəsinə istinadən İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası (İQŞ) məlumat verdi ki, "Pəncab polisin "ən çox" korrupsiyaya uğradığı, xüsusən "həbs yerində qətllərin" ən çox baş verdiyi regiondur, sonuncular elə hallardır ki, bu zaman insanlar polis tərəfindən həbsdə saxlanıldıqları müddətdə öldürülürlər, amma ölümün səbəbi kimi "qarşıdurma", məsələn, "tutulmaya müqavimət göstərmə" qeyd edilir". Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası, *Pakistan: Polis orqanlarında korrupsiya; Polisə qarşı şikayətlərin qəbul edilməsinə, o cümlədən onlara baxılmasının səmərəliliyinə görə cavabdeh olan orqanlar; Polisə qarşı şikayət vermə prosedurları (2012 – yanvar 2016)*, 14 yanvar 2016-cı il, PAK105368.E, http://www.refworld.org/docid/56af1a9f4.html. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; HRW, *Pakistan: 2015-ci ilin hadisələri*, yanvar 2016-cı il, https://www.hrw.org/world-report/2016/countrychapters/pakistan; BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 49, 53; BMT-nin Xəbərlər Xidməti, *İnsan hüquqları üzrə müstəqil BMT ekspertləri ölüm cəzasına qon qoyulması üçün Pakistana yenidən müraciət etdilər*, 2 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5612264140a.html.

[25] Bax: Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 10.

həbsdə saxlamaq üçün öz səlahiyyətlərindən mütəmadi olaraq istifadə edirlər.[26] Bütün həbslər üçün hüquqi əsas təşkil edən "cinayət haqqında ilkin məlumat protokolu" (CİMP) cinayət törədildiyinə dair əsaslı sübut olduqda şikayətçinin müraciəti əsasında polis tərəfindən tərtib edilə bilər və şübhəli şəxsin 24 saat ərzində həbsdə saxlanılmasına imkan verir. Baxmayaraq ki, prinsipcə bu həbs müddətini yalnız magistrat (hakim funksiyalarına malik vəzifəli şəxs) əlavə 14 gün müddətinə uzada bilər, məlumatlara görə adətən polislər heç bir ittiham olmadan şübhəli şəxsləri həbsin qanuniliyi barədə məhkəməyə şikayət edilənə qədər həbsdə saxlayırlar, bəzi hallarda isə onların azad edilməsi üçün pul qoparmaqdan ötrü onları saxta ittihamlar əsasında həbsə alırlar.[27] Məhkəmə araşdırmaları adətən ittihamların irəli sürülməsindən altı ay sonra başlayır, baxmayaraq ki, qanuna əsasən şəxs tutulduqdan sonra 30 gün ərzində məhkəmə qarşısına çıxarılmalıdır. Həmçinin məlumatlara əsasən bəzi təqsirləndirilən şəxslər ittiham edildikləri cinayətə görə təyin edilə bilən maksimal cəzanın müddətindən daha artıq müddət ərzində məhkəməyəqədər həbsdə saxlanılırlar. İddia edildiyinə görə, terror təşkilatları ilə əlaqədə olmaqda ittiham edilən bəzi şübhəli şəxslər qeyri-məhdud müddət ərzində məhkəməyəqədər həbsdə saxlanılırlar, baxmayaraq ki, qanunda həbsdə saxlanmanın maksimal müddəti 90 gün (yaxud uzadılma məhkəmə tərəfindən təsdiqlənməklə 180 gün) nəzərdə tutulub.[28] Məlumatlara əsasən həbsxanalar məhbuslarla doludur və adətən saxlanma şəraiti pisdir.[29]

2014-cü ilin dekabrında Peşəvərdə 145 insanın ölümü ilə nəticələnmiş hücumdan[30] bir həftə sonra hökumət iyirmi bənddən ibarət Milli Fəaliyyət Planı (MFP) formasında yeni anti-terror strategiyasını bəyan etdi. Məlumatlara əsasən, MFP hökumətin dini ekstremizmə son qoymaq və dini azlıqların müdafiəsini təmin etmək öhdəliyini özündə ehtiva edir.[31] Peşəvərdə baş vermiş

---

[26] "Pakistan polisi həmçinin cəmiyyətin nüfuzlu elitasının (varlıların, siyasətçilərin, torpaq sahiblərinin, mülki və hərbi bürokratiyanın) göstərişləri əsasında işlərin qeydiyyata alınması, insanların tutulması və həbsə alınması üzrə geniş səlahiyyətlərindən istifadə edərək rəqib hesab edilən şəxslərə qarşı qorxutma və ya cəzalandırma forması qismində saxta ittihamlar irəli sürür. Çoxları əsassız olaraq həbs edilirlər. […] Bəzi ailə üzvləri dedilər ki, polislər onları hədələyərək bildiriblər ki, polisin yol verdiyi sui-istifadə hallarına qarşı şikayət etməkdə davam etsələr, onlara qarşı saxta ittihamlar irəli sürüləcək". "Human Rayts Votç" təşkilatı, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat*, 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html, səh. 3.

[27] "Məlumatlar var ki, polislər insanları əsassız olaraq həbsə alırlar ki, azadlığa buraxılmaları müqabilində onlardan rüşvət qoparsınlar və ya şübhəli şəxsləri gəlib təslim olmağa məcbur etmək üçün axtarışda olan həmin şəxslərin qohumlarını həbs edirlər. […] Məlumatlara görə dövlət orqanları tutulmuş şəxslərə təzyiq göstərmək və ya onları qorxutmaq üçün təsdiqləyici sübutlar olmadan CİMP-lər təqdim edirlər, yaxud yetərli sübutlar təqdim edildiyi hallarda şikayətçi rüşvət vermədiyi təqdirdə CİMP-ləri təqdim etmirlər". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html.

[28] Qeyri-hökumət təşkilatı (QHT) olan İnsan Hüquqları və Məhbuslara Yardım Cəmiyyətinin hesablamalarına görə "məhbusların 70 faizindən çoxu məhkəmə araşdırmasını gözləməkdədirlər. Dövlət orqanları tutulmuş şəxsləri onlara qarşı irəli sürülən ittihamlar barəsində nadir hallarda məlumatlandırırlar". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html.

[29] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 53.

[30] Talibandan ayrılmış Pakistan qruplaşması olan Təhriki-Taliban (TTP) 2014-cü ilin dekabrında şimal-qərbi Pakistanda yerləşən Peşəvərdə məktəbə hücum etdi, nəticədə ən azı 145 nəfər öldü və onların, demək olar ki, hamısı uşaqlar idi. HRW, *Xəbərlər: Pakistan məktəblərindəki qırğınlara qarşı birləşməli*, 16 dekabr 2014-cü il, https://www.hrw.org/news/2014/12/16/dispatches-uniting-against-pakistan-school-massacre.

[31] Bax: PTMMİ, *Milli Fəaliyyət Planının 20 bəndi* (tarix göstərilməyib), http://nacta.gov.pk/NAPPoints20.htm. "MFP məhkəmə, hüquq-mühafizə, hərbi və inzibati orqanların vəzifələrinin toplusundan ibarət olmaqla müəyyən edilmiş terrorçuların cəzalandırılmasına, terrorizmə dəstəyin kökünün kəsilməsinə və ölkədə müxtəlif dini təriqətlərin dinc yanaşı yaşamasının təşviqinə yönəlib ki, bütün bunlarda məqsəd Pakistan torpağında gələcəkdə baş verə biləcək terror hücumlarının qarşısını almaqdır. MFP özü-özlüyündə məcburi hüquqi qüvvəyə malik deyil; onun hər bir komponenti mövcud qanunvericilikdən, qanunvericilik dəyişikliklərindən və ya yeni qanunvericilikdən asılıdır. Hökumət rəsmən MFP-nin ümumi uğurunu qiymətləndirəcək meyarları göstərməyib. Onun icrası ilə bağlı rəsmi qiymətləndirmələr ictimaiyyətə media vasitəsilə çatdırılır. Həmin media məlumatları çox zaman federal və ya

2014-cü ilin dekabr hücumundan sonra hökumət həmçinin terrorizmlə bağlı cinayətlərə görə ölüm cəzasına qoyulmuş moratoriumu aradan qaldırdı. 2015-ci ilin martında hökumət ölümlə nəticələnməyən cinayətlər də daxil olmaqla ölüm cəzasına səbəb olan bütün 28 cinayət əməli ilə bağlı moratoriumu aradan qaldırdı; bu moratorium 2008-ci ildən bəri qüvvədə idi.[32] Məlumat verilir ki, bunun ardınca 2015-ci ildə ən azı 296 dəfə, 2016-cı ilin yanvarından avqustun ortalarına qədər isə 85 dəfə ölüm cəzası icra edilib.[33]

---

əyalət səviyyəli mülki və hərbi rəhbərliyin bağlı qapılar arxasındakı görüşlərindən sonra təqdim edilir. […] 2015-ci il ərzində media çox zaman MFP-nin hökumət tərəfindən icrasının parlament tərəfindən tənqid edildiyi, eləcə də icradakı nöqsanlarla bağlı federal hökumətin və Pakistan hərbi qüvvələrinin daxilində ittihamların səsləndiyi barədə məlumatlar verib". Bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə terrorizmə dair 2015-ci il tarixli hesabatlar – Pakistan,* 2 iyun 2016-cı il, http://www.refworld.org/docid/57518d9713.html. MFP-də nəzərdə tutulmuş fəaliyyətlər aşağıdakı əlavə məsələləri əhatə edir: "Nifrəti, ekstremizmi, təriqətçiliyi və dözümsüzlüyü təşviq edən ədəbiyyata, qəzetlərə və jurnallara qarşı ciddi tədbir görülməsi barədə qərar qəbul edilib. […] Mədrəsələrin qeydiyyatı və tənzimlənməsi üçün işlər görülür. […] Təriqətçiliyi yayan ünsürlərə qarşı qətiyyətli tədbirlər görülür". Pakistan İslam Respublikasının Vaşinqton dairəsindəki səfirliyi, *Baş nazirin xalqa müraciəti*, 24 dekabr 2014-cü il, http://www.embassyofpakistanusa.org/news700_12242014_PM.php. ABŞBDAK-ın bildirdiyinə görə, 7 sentyabr 2015-ci ildə daxili işlər naziri Çoudri Nisar Əli Xan elan etdi ki, hökumət digər şəxsləri "kafir" adlandıranlar barəsində məhkəmə təqibini həyata keçirəcək. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; "Vaşinqton Post" (*Washington Post*) qəzeti, *Pakistan terrorizmlə mübarizəyə yönələn Milli Planı elan etdi və terrorçuların ömrünə sayılı günlər qaldığını bildirdi*, 24 dekabr 2014-cü il, https://www.washingtonpost.com/news/worldviews/wp/2014/12/24/pakistanannounces-a-national-plan-to-fight-terrorism-says-terrorists-days-are-numbered/. Məlumatlara görə 2014-cü ilin dekabrının sonunda baş nazir MFP-nin icrası ilə əlaqədar komitə və 15 işçi yarımqrupu yaratdı, buraya nifrət yayan çıxışlarla və ekstremist materiallarla əlaqədar işçi yarımqrupu, habelə dini təqiblə əlaqədar əlavə işçi qrupu və mədrəsələrin tənzimlənməsi ilə əlaqədar işçi yarımqrupu daxildir. Həmçinin məlumatlara görə MFP-nin icrasına nəzarət üçün bütün əyalətlərdə hərbi və siyasi rəhbərlikdən ibarət baş komitələr yaradıldı. Pakistan Sülh Araşdırmaları İnstitutu (PSAİ), *Terrorla mübarizə: MFP kontekstində təşkilati struktur,* 8 dekabr 2015-ci il, http://pakpips.com/art.php?art=168; "*Inter Services Public Relations*" (Pakistan silahlı qüvvələrinin media orqanı), *Press reliz,* 3 yanvar 2015-ci il, https://www.ispr.gov.pk/front/main.asp?o=t-press_release&date=2015/1/3; "*The Express Tribune*" qəzeti, *Baş nazir Milli Fəaliyyət Planının icrasını təmin edəcək heyətin tərkibinin müəyyənləşdirilməsini yekunlaşdırdı*, 27 dekabr 2014-cü il, http://tribune.com.pk/story/813054/pm-finalises-16-committees-on-nationalaction-plan-implementation/.

[32] Terrorizmə qarşı Milli Fəaliyyət Planının (MFP) 20 bəndindən birincisi "terrorizm işləri üzrə məhkum edilənlərin barəsində ölüm cəzasının icrasını" nəzərdə tutur. Pakistanın terrorizmlə mübarizə üzrə milli idarəsi (PTMMİ), *Milli Fəaliyyət Planının 20 bəndi* (tarix göstərilməyib), http://nacta.gov.pk/NAPPoints20.htm. Bax: İşgəncələrə Qarşı Ümumdünya Təşkilatı, *Pakistanda ölüm cəzasının və işgəncələrin iqtisadi, sosial və mədəni səbəbləri*, sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e1399f4.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2015/2016-cı il hesabatı – Pakistan*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b2715.html; BBQ, *Pakistanda terrorizmlə mübarizə strategiyalarına yenidən baxılması: imkanlar və maneələr*, 22 iyul 2015-ci il, http://www.refworld.org/pdfid/55af7b434.pdf, səh. 5-6; "Qardian" (*The Guardian*) qəzeti, *Pakistanda ədalət mühakiməsi: "Hökumət ağına-bozuna baxmadan insanları dar ağacından asır"*, 5 iyun 2015-ci il, https://www.theguardian.com/global-development-professionals-network/2015/jun/05/justice-pakistan-terror-shafqat-hussain; Beynəlxalq Amnistiya Təşkilatı, *Pakistan: Edamların bərpası Peşəvər məktəbindəki faciənin səbəbinin "aradan qaldırılması yolu deyil"*, 17 dekabr 2014-cü il, http://www.refworld.org/docid/5493f05c4.html.

[33] Müxtəlif mənbələr bir qədər fərqli rəqəmlər göstərirlər: HRW-nin məlumatına əsasən, 2015-ci ildə ölüm cəzası 296 dəfə icra edilib, Pakistan İnsan Hüquqları Komissiyası (PİHK) adlı QHT isə məlumat verib ki, 2015-ci ildə ölüm cəzası 324 dəfə icra edilib. PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Ədalət mühakiməsinin həyata keçirilməsi*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/Admin-of-Justicefinal.pdf, səh. 2; HRW, *Pakistan: 2015-ci ilin hadisələri*, yanvar 2016-cı il, https://www.hrw.org/world-report/2016/country-chapters/pakistan. Beynəlxalq Amnistiya Təşkilatının bildirdiyinə görə, "[2015-ci il] ərzində 300-dən artıq edam halı qeydə alınıb, onların çoxu adamöldürmə, digərləri isə zorlama, adamöldürmə cəhdi, insan oğurluğu və terrorizmlə bağlı ittihamlarla əlaqədar olaraq həyata keçirilib". Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2015/2016-cı il hesabatı – Pakistan*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b2715.html. Həmçinin bax: PİHK, *2016-cı ildə edamlar*, 16 avqust 2016-cı ilədək yenilənmiş məlumat, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/09/Final-Executions-2016.xlsx-5.pdf. HRW məlumat verib ki, 2014-cü ilin sonlarından 2016-cı ilin iyununadək 416 edam həyata keçirilib. HRW, *Xəbərlər: Pakistanda ölüm cəzası riyakarlığı*, 27 iyul 2016-cı il, https://www.hrw.org/news/2016/07/27/dispatches-pakistans-death-penalty-hypocrisy.

2012-ci ilin iyununda "Milli İnsan Hüquqları Komissiyası haqqında" qanunun qəbul edilməsindən üç il sonra 2015-ci ilin mayında yeni Milli İnsan Hüquqları Komissiyası yaradıldı; lakin məlumatlara görə onun büdcəsinə vəsait ayrılmayıb.[34] Komissiyanın səlahiyyətlərinə digər məsələlərlə yanaşı bunlar daxildir: insan hüquqlarının pozuntularının araşdırılması və ya belə pozuntuların qarşısının alınmasında dövlət qulluqçuları tərəfindən səhlənkarlıq göstərilməsi hallarının araşdırılması, Pakistanın konstitusiyasına və qanunvericilik bazasına yenidən baxılması və onlara dəyişiklərin təklif olunması və milli fəaliyyət planının hazırlanması. Lakin "Komissiyanın funksiyalarına kəşfiyyat orqanlarının hərəkətləri və ya praktikası ilə bağlı araşdırma aparmaq daxil deyil".[35] 2015-ci ilin noyabrında İnsan Hüquqları Məsələləri üzrə Nazirlik ayrıca nazirik kimi bərpa edildi; bundan öncə o, 2013-cü ildə Hüquq və Ədliyyə Nazirliyi ilə birləşdirilmişdi.[36]

## III. Dini azlıqlarla bağlı qanunvericilik bazası

Pakistanın fini azlıqlarla bağlı qanunvericilik bazasının tərkib hissələrinə əsasən bunlar daxildir: Konstitusiya, Cinayət Məcəlləsi ("küfr əleyhinə qanunvericilik" və "əhmədilər əleyhinə qanunvericilik"), Hüdud dekretləri, habelə ölkənin ailə qanunvericiliyi və terrorizm əleyhinə qanunvericiliyi.

### A. Konstitusiya

Pakistan Konstitusiyasının 20-ci maddəsində deyilir: "Qanunvericiliyə, ictimai qaydaya və mənəviyyat normalarına riayət etmək şərti ilə: a) hər bir vətəndaş öz dininə etiqad etmək, onun ayinlərini icra etmək və onu təbliğ etmək hüququna malikdir; və b) hər bir dini cərəyan və hər bir təriqət dini qurumlar təsis etmək, onları dəstəkləmək və idarə etmək hüququna malikdir".[37] 2010-cu ildə Konstitusiyaya edilmiş dəyişikliklərdə nəzərdə tutulur ki, Milli Məclisdə və Senatda qeyri-müsəlmanlar üçün deputat yerləri ayrılmalıdır.[38] Bundan başqa, Konstitusiyanın 36-cı

---

[34] ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html.

[35] Pakistan, *"Milli İnsan Hüquqları Komissiyası haqqında" 2012-ci il tarixli qanun*, http://www.na.gov.pk/uploads/documents/1342437418_845.pdf, III fəsil, maddə 9(a)–(l); BHK, *Pakistan: Yeni Milli İnsan Hüquqları Komissiyasının yaradılması alqışlanır, amma o elə yarandığı andan "dişsiz" durumda ola bilər*, 8 iyun 2015-ci il, http://www.icj.org/pakistan-new-national-human-rights-commission-welcome-but-may-be-toothless-at-birth/.

[36] Hökumət İnsan Hüquqları Məsələləri üzrə Nazirliyin yaradıldığını elan etdiyi zaman məlumatlara görə onun dini azlıqlarla bağlı səlahiyyət və vəzifələrini göstərməyib. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Məlumatlara əsasən Hüquq və Ədliyyə Nazirliyinin vəzifələrinə insan hüquqları ilə bağlı şikayətlərə baxılarkən dövləti müdafiə etmək daxildir ki, bu da İnsan Hüquqları Məsələləri üzrə Nazirliyin insan hüquqlarının pozuntularını, o cümlədən dövlət tərəfindən törədilən pozuntuları düzəltmək vəzifəsi ilə ziddiyyətə girə bilər. ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2015/2016-cı il hesabatı – Pakistan*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b2715.html; Asiya Fondunun "*Weekly Insight and Analysis in Asia*" nəşri, *Pakistanın dini azlıqları üçün ümid əlamətləri*, 9 dekabr 2015-ci il, http://asiafoundation.org/in-asia/2015/12/09/signs-of-hope-for-pakistans-religious-minorities/.

[37] Öz dininə etiqad etmək və dini qurumları idarə etmək azadlığı 20-ci maddədə təsbit olunub, həmçinin preambulada deyilir ki, "sərbəst surətdə öz dinlərinə etiqad etmələri və dini ayinlərini icra etmələri və mədəni ənənələrini inkişaf etdirmələri üçün azlıqlara lazımi şərait yaradılmalıdır". Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html.

[38] 2010-cu ildə Konstitusiyaya edilmiş 18-ci düzəlişə görə, digər məsələlərlə yanaşı, qeyri-müsəlmanlar üçün Milli Məclisdə (parlamentin aşağı palatasında) on deputat yeri və Senatda dörd deputat yeri, eləcə də əyalət məclislərində qeyri-müsəlman azlıqlarının nümayəndələri üçün deputat yerləri ayrıldı. Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, 51

maddəsində əsasən: "Dövlət azlıqların qanuni hüquqlarını və maraqlarını qoruyur, o cümlədən federal və əyalət səviyyəli dövlət qulluqlarında lazımi qaydada təmsil olunmalarını təmin edir".[39] Konstitusiya həmçinin digər təməl hüquqları, məsələn, gender bərabərliyini, ifadə və mətbuat azadlığını, birləşmək və toplaşmaq azadlığını qoruyur.[40] Lakin Konstitusiya faktiki olaraq dini mənsubiyyətləri əsasında ölkə vətəndaşlarını "müsəlman" və "qeyri-müsəlman" kateqoriyalarına ayırır və müəyyən hüquq və imtiyazları yalnız müsəlmanlara verir.[41]

1973-cü ildə islam dövlət dini elan edildi[42] və qanunların müqəddəs Quranda və Sünnədə əks olunmuş islami göstərişlərə zidd olmasının yolverilməzliyini və bütün mövcud qanunların onlara uyğun hala gətirilməli olduğunu nəzərdə tutmaqla hüquq sistemini islam hüququna bağlayan dəyişikliklər konstitusiyaya daxil edildi.[43] Həmçinin nəzərdə tutuldu ki, əsas azadlıqlar, məsələn, ifadə və mətbuat azadlığı "*islamın təntənəsinin maraqları naminə qanunla tətbiq edilən hər hansı ağlabatan məhduiyyətlərə*" məruz qala bilər.[44] 1974-cü ildə əhmədilər əleyhinə iğtişaşlar dalğası baş qaldırarkən islamçı hərəkatı sakitləşdirmək üçün[45] Bhutto hökuməti konstitusiyaya dəyişiklik etməklə əhmədiləri qeyri-müsəlman azlığı elan etdi.[46]

---

və 59-cu maddələr; Pakistan, *Konstitusiyaya 18-ci Düzəliş haqqında Qanun,* 2010, http://www.pakistani.org/pakistan/constitution/amendments/18amendment.html, 16 və 18-ci maddələr.

[39] Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 36.

[40] Bax: Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, 25, 19, 17 və 16-cı maddələr.

[41] Konstitusiyanın 260-cı maddəsinin 3(b) bəndində xristianlar, hindular, sikhlər, buddistlər, atəşpərəstlər, bəhailər və əhmədilər (istər Qadiyani, istərsə də Lahor qrupuna mənsub olanlar) "qeyri-müsəlmanlar" kimi göstərilib. Bax: Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html. Həmin müxtəlif imtiyazların qısa icmalı üçün Pakistan Ali Məhkəməsinin 2014-cü il tarixli qərarına bax: *S.M.C. No.1 of 2014 and C.M.A. Nos. 217-K/2014 IN S.M.C. No.1/2014 et al.*, 19 iyun 2014-cü il, http://www.refworld.org/docid/559e57644.html, 11(a)-(e) bəndləri.

[42] Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 2.

[43] Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 227. 1991-ci ildə parlament tərəfindən qəbul edilmiş "Şəriət normalarının tətbiqi haqqında" qanun faktiki olaraq Pakistanda şəriəti ali qanuna çevirib və bütün qanunların ona uyğun surətdə şərh olunmasını tələb edir. *Pakistan: "Şəriət normalarının tətbiqi haqqında" 1991-ci il tarixli qanun*, http://www.pakistani.org/pakistan/legislation/1991/actXof1991.html.

[44] Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 19. Həmçinin digər qanunvericilik aktlarına, məsələn, "Dövlət sirləri haqqında" qanuna əsasən söz azadlığına məhdudiyyətlər qoyulub: Pakistan: *"Dövlət sirləri haqqında" qanun*, 1923-cü il tarixli XIX saylı qanun, http://pakistancode.gov.pk/english/pdf-filepdffiles/administrator46c9a3c62acc16428e73999e7d30ba2a.pdf-apaUY2Fqa-ap2W.

[45] Misal üçün bax: Cinna İnstitutu, *Əqidə məsələsi: Pakistanda dini azlıqların statusuna dair hesabat*, 7 iyun 2011-ci il, http://www.jinnah-institute.org/images/stories/jinnah_minority_report.pdf, səh. 25.

[46] 17 sentyabr 1974-cü ildə qəbul edilmiş Konstitusiyaya İkinci Düzəliş haqqında qanunla (1974) Konstitusiyaya dəyişiklik edilərək onun 260-cı maddəsinə aşağıdakı məzmunda 3-cü bənd əlavə olundu: "*Peyğəmbərlərdən sonuncusu olan Məhəmməd əleyhissəlamın təliminin son peyğəmbərlik olduğuna bütünlüklə və qeyd-şərtsiz inanmayan, sözün istənilən mənasında və istənilən formada Məhəmməd əleyhissəlamdan sonra özünün peyğəmbər olduğunu iddia edən, yaxud bunu iddia edəni peyğəmbər və ya dini islahatçı kimi qəbul edən şəxs Konstitusiyanın və ya qanunun məqsədləri üçün müsəlman deyil*". 1974-cü il tarixli İkinci Düzəlişin tam mətnini bu saytda tapmaq olar: http://www.pakistani.org/pakistan/constitution/amendments/2amendment.html. Konstitusiyanın 260-cı maddəsinin 3"a" və "b" bəndləri mətnə 1985-ci ildə "*Konstitusiyaya Üçüncü Düzəliş haqqında*" 1985-ci il tarixli qanun (Prezidentin 1985-ci il tarixli 24 saylı fərmanı) vasitəsilə daxil edilib, http://www.pakistani.org/pakistan/constitution/orders/po24_1985.html: "Bu Konstitusiyada və bütün qanunlarda və digər hüquqi aktlarda, əgər mətnin məzmunundan və ya kontekstindən başqa cür qənaət hasil olmursa: a) "Müsəlman" dedikdə qadir allahın vahidliyinə və təkliyinə, sonuncu peyğəmbər Məhəmməd əleyhissəlamın təliminin son peyğəmbərlik olduğuna bütünlüklə və qeyd-şərtsiz inanan, sözün istənilən mənasında və istənilən formada Məhəmməd əleyhissəlamdan sonra özünün peyğəmbər olduğunu iddia edən şəxsə inanmayan, yaxud bunu iddia edəni peyğəmbər və ya dini islahatçı kimi qəbul etməyən şəxs nəzərdə tutulur; və b) "Qeyri-müsəlman" dedikdə müsəlman olmayan şəxs nəzərdə tutulur və buraya xristian, hindu, sikh, buddist və ya atəşpərəst icmasına mənsub olan şəxslər, Qadiyani və ya Lahor qrupuna mənsub olan (özünü "əhmədi" və ya hər hansı başqa adla adlandıran) şəxslər, yaxud bəhailər və toxunulmazlar kastasından hər hansı birinə mənsub olan şəxslər daxildir".

2014-cü ildə qəbul etdiyi tarixi qərarda Ali Məhkəmə bildirdi ki, Konstitusiyanın 20-ci maddəsi müsəlmanlarla qeyri-müsəlmanlar arasında fərq qoymadan din azadlığı hüququnun hər bir vətəndaş üçün fərdi və kollektiv xarakter daşıdığını təsdiqləyir.[47] Məhkəmə vurğuladı ki, 20-ci maddə "şəxsə sadəcə öz dininə etiqad etməkdən ibarət fərdi hüquq vermir, həm də təkbaşına və ya başqaları ilə birlikdə öz dini ayinlərini icra etmək hüququ verir".[48] O qeyd etdi ki, din və vicdan azadlığı hüququ eyni dərəcədə bütün vətəndaşlara, dini cərəyanlara və təriqətlərə verilən hüquqdur.[49]

### B. Cinayət Məcəlləsi: Küfr əleyhinə qanunvericilik

Britaniya hüquq sistemindən miras qalan, "küfr əleyhinə qanunvericilik" adlandırılan Pakistan Cinayət Məcəlləsinin 295, 295A və 298-ci maddələri dini zorakılığın qarşısını almağa və onu məhdudlaşdırmağa yönəlib.[50] Müstəqilliyin qazanıldığı 1947-ci ildən 1977-ci ilə qədərki otuz il ərzində, məlumatlara görə, bu qanunvericilik əsasında din əleyhinə cinayətlərlə bağlı yalnız on məhkəmə qərarı çıxarılıb və Məhəmməd peyğəmbərə qarşı küfr təşkil edən və ya müqəddəs Quranı təhqir edən əməl törətdiyinə görə hər hansı qeyri-müsəlman barəsində müsəlman tərəfindən şikayət edilməsi ilə bağlı heç bir hal qeydə alınmayıb.[51]
Lakin 1980-ci və 1986-cı illər arasında Ziya-ül-Həqq hökuməti tərəfindən qanunvericilikdə önəmli dəyişikliklər edildi və Cinayət Məcəlləsinə küfrlə və din əleyhinə digər cinayətlərlə bağlı müddəalar daxil edildi.[52] Məsələn, 1980-ci illərin əvvəllərində Cinayət Məcəlləsinə daxil edilmiş 298A maddəsinə əsasən müəyyən "müqəddəs şəxsiyyətlər" barəsində "*birbaşa və ya dolayı yolla sözlə, nüfuzunu ləkələməklə, eyham vurmaqla və ya işarə etməklə*" alçaldığı ifadələr işlədilməsi üç ilədək azadlıqdan məhrum etmə və (və ya) cərimə ilə cəzalandırılan cinayət əməlidir.[53] 1982-ci ildə Məcəlləyə daxil edilmiş 295B maddəsinə əsasən Quranın təhqir edilməsi ömürlük azadlıqdan məhrumetmə ilə cəzalandırılan cinayət əməlidir. Nəhayət, 1986-cı ildə Məcəlləyə

---

[47] Məhkəmə daha sonra 20-ci maddəni şərh edərkən onun son məqsədinin cəmiyyətdə dini dözümsüzlüyün kökünün kəsilməsi olduğunu bildirdi (qərarın 16-cı bəndi). Məhkəmə din və əqidə azadlığına "şəxsin ehkam və ya əqidə sisteminə riayət etmək hüququ" kimi anlayış verərək bildirdi ki, bu riayət etmə "həmin sistemə etiqad edənlərin rəyinə görə ruhi məmnunluq gətirir" və bu azadlıq vicdan, düşüncə, ifadə, əqidə və din azadlığını özündə ehtiva edən geniş anlayış kimi şərh edilməlidir (13-cü bənd). Məhkəmənin bu terminə verdiyi anlayış yalnız Konstitusiyanın preambulasında dəqiq şəkildə qeyd edilən əqidə və vicdan azadlığı hüquqlarını faktiki olaraq Konstitusiyanın 20-ci maddəsi ilə qorunan hüquqlar sırasına daxil etmiş oldu. Məhkəmə dini əqidə azadlığı hüququna hər bir vətəndaşa verilən aşağıdakı üç fərqli hüquq kimi anlayış verdi: öz dininə etiqad etmək hüququ, dini ayinləri icra etmək hüququ və öz dinini təbliğ etmək hüququ (15(e) bəndi). Pakistan Ali Məhkəməsi, *S.M.C. No.1 of 2014 and C.M.A. Nos. 217-K/2014 IN S.M.C. No.1/2014 et al.*, 19 iyun 2014-cü il, http://www.refworld.org/docid/559e57644.html.
[48] Yenə orada, 15(e) bəndi.
[49] Yenə orada, 11(f) bəndi.
[50] Pakistanın Cinayət Məcəlləsi müstəmləkə dövründən qalmış 1860-cı il tarixli Hindistan Cinayət Məcəlləsinə əsaslanır və 1947-ci ildə müstəqillik əldə edildikdən sonra bir neçə dəfə dəyişikliklərə məruz qalıb. Din azadlığının müdafiəsinə yönələn digər maddələr sırasına qəsdən dini toplantıları dağıtmağı qadağan edən 296-cı maddə və dəfnlə əlaqədar hüquq pozuntularına aid olan 297-ci maddə daxildir. Pakistan, *Cinayət Məcəlləsi*, 1860, http://www.refworld.org/docid/485231942.html.
[51] Qeyd etmək lazımdır ki, barəsində məlumat verilən məhkəmə qərarları yalnız yuxarı məhkəmə instansiyalarının, məsələn, Ali Məhkəmənin, Yüksək Məhkəmələrin və Federal Şəriət Məhkəməsinin (FŞM) qərarlarını əhatə edir. Bu on qərardan üçü 295-ci maddə, beşi 295A maddəsi və ikisi 297-ci maddə əsasında çıxarılıb. Birinci instansiya məhkəmələrində bu maddələr üzrə qeydiyyata alınmış işlərin sayı və qərarlar barədə məlumatlar BHK-nın sərəncamında yoxdur. BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 9.
[52] Bax: 1860-cı il tarixli *Pakistan Cinayət Məcəlləsinin* 295B, 295C, 298A və 298C maddələri, http://www.refworld.org/docid/485231942.html. Həmçinin bax: BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 9.
[53] 298A maddəsində bu "müqəddəs şəxsiyyətlərin" siyahısı yer alıb: "müqəddəs peyğəmbər əleyhissəlamın hər hansı xanımı (Ümmül-möminin) və ya ailə üzvü (əhli-beyt), yaxud mömin xəlifələrdən (xülafəyi-raşidin) hər hansı biri və ya müqəddəs peyğəmbər əleyhissəlamın səhabələri (Sahaaba)". Pakistan, *Cinayət Məcəlləsi*, 1860, http://www.refworld.org/docid/485231942.html, maddə 298A.

295C maddəsi daxil edildi, həmin maddəyə əsasən, "*birbaşa və ya dolayı yolla şifahi və ya yazılı sözlərlə, yaxud vizual şəkildə göstərməklə, yaxud da nüfuzunu ləkələməklə, eyham vurmaqla və ya işarə etməklə müqəddəs Məhəmməd peyğəmbərin müqəddəs adını təhqir edən*" hər kəs ölüm və ya ömürlük həbs cəzasına məhkum olunur və həmçinin cərimə cəzası alır.
Küfr əleyhinə qanunvericilik normalarının Cinayət Məcəlləsinə daxil edilməsi, məlumatlara görə, dini dözümsüzlük üçün əlverişli mühit yaratdı və dini azlıqlara qarşı ayrı-seçkiliyin rəsmən təsbit edilməsinə şərait yaratmış oldu.[54] Həmçinin küfr əleyhinə qanunvericilik ekstremistlərin zorakılıqlarının və dini azlıqlardan olan şəxslərə qarşı məqsədyönlü hücumların şiddətlənməsinə şərait yaratdığı üçün ciddi tənqidlərə məruz qaldı.[55] Pakistanın küfr əleyhinə qanunvericiliyi dini əqidəsindən və ya mənsubiyyətindən asılı olmayaraq ölkənin bütün vətəndaşlarına şamil olunsa da, məlumatlarda bildirilir ki, bu qanunvericilik dini azlıqlara qeyri-mütənasib şəkildə tətbiq edilir.[56]
1990-cı ildə FŞM qərara aldı ki, 295C maddəsində nəzərdə tutulmuş cinayətlər bütün hallarda ölümlə cəzalandırılmalıdır və hökumətə təlimat verdi ki, 295C maddəsində müvafiq dəyişiklik etsin.[57] Hökumət son müddət kimi müəyyən edilmiş 30 aprel 1991-ci ilədək bunu etmədi və bundan sonra Ali Məhkəmə qərara aldı ki, FŞM-in 1990-cı il tarixli qərarına və Konstitusiyanın 203D(3) maddəsinə uyğun olaraq küfrlə bağlı işlərdə məcburi qaydada ölüm cəzası təyin olunmalıdır.[58] Yuxarıda qeyd edildiyi kimi, 2015-ci ilin martında hökumət ölüm cəzasına səbəb olan bütün 28 cinayət əməli ilə bağlı moratoriumu aradan qaldırdı; bu moratorium 2008-ci ildən bəri qüvvədə idi.[59] Küfrə görə ölüm cəzasının tətbiqi BMT-nin din və ya əqidə azadlığı üzrə xüsusi məruzəçilərinin ardıcıl hesabatlarında qeyri-mütənasib tədbir hesab edildi.[60]

---

[54] BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 11, 57.
[55] "Fridım Haus" təşkilatı, *"Dünyada azadlıq" hesabatı, 2015 – Pakistan*, 5 may 2015-ci il, http://www.refworld.org/docid/55506fa758.html; BMTİHAK, *"Əqidəyə əsaslanan qətllər dayandırılsın" – BMT-nin insan hüquqları üzrə ekspertləri Pakistanı əhmədi məzhəbli müsəlman azlıqlarını müdafiə etməyə çağırdılar*, 2 iyun 2014-cü il, http://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=14658&LangID=E. Həmçinin bax: BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 57.
[56] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh 11. "Pakistanda bütün küfr hallarının təxminən üçdə ikisi Pakistandakı dini azlıqların çoxunun yaşadığı Pəncab əyalətində baş verir. İttiham edilən və ya məhkum olunan şəxslər arasında müsəlmanların sayı xeyli çox olsa da, dini azlıq icmaları ölkə əhalisinin sayındakı faiz nisbətləri ilə müqayisədə qeyri-mütənasib dərəcədə küfr barədə iddiaların və həbslərin qurbanına çevrilirlər". ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html. Pakistandakı QHT şəbəkəsi "Avazi-Haq İtehad" tərəfindən toplanmış və "*Agenzia Fides*" xəbər agentliyinə göndərilmiş məlumatlara əsasən, 1987-ci ildən 2014-cü ilin oktyabrınadək 1.438 nəfər küfrdə təqsirləndirilib. Bu məlumatlar göstərir ki, ümumilikdə ölkə əhalisinin dörd faizindən az qismini təşkil edən dini azlıqlar küfrdə təqsirləndirilənlərin təxminən 50 faizini təşkil edir (501 nəfər əhmədi, 182 nəfər xristian, 26 nəfər hindu; 10 qurbanın dini mənsubiyyətini isə müəyyənləşdirmək mümkün olmayıb). "1990-cı ildən bəri küfr iddiaları ilə əlaqədar qətlə yetirilmiş 60 nəfərdən 32-ci dini azlıq nümayəndəsi, 28-ci isə müsəlmandır". "*Agenzia Fides*" xəbər agentliyi, *Asiya/Pakistan – Pakistanda küfr qurbanları barədə məlumatlar: bütün bu iztirablara görə kim cavab verəcək?* 14 noyabr 2014-cü il, http://www.fides.org/en/news/36763.
[57] Pakistan Federal Şəriət Məhkəməsi, *PLD 1991 FSC-10*, http://federalshariatcourt.gov.pk/5.html.
[58] Misal üçün bax: BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 14, 31. Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 203D(3).
[59] Ölüm cəzası ilə nəticələnə bilən 27 cinayət əməlinin siyahısını və müvafiq qanunvericilik normalarını bu mənbədə tapmaq olar: PİHK, *ölüm cəzasına səbəb olan cinayətlər* (tarix göstərilməyib), http://hrcp-web.org/hrcpweb/death-penalty-offences/ (13 oktyabr 2016-cı il tarixinə olan məlumatlar). 28-ci cinayət əməlinə gəlincə: "[2015-ci ilin] noyabrında parlament komissiyası yaşı 13 və ya daha az olan qızların zorlanmasına görə ömürlük azadlıqdan məhrumetmə və ya ölüm cəzasını təsdiq etdi". Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2015/2016-cı il hesabatı – Pakistan*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b2715.html. "[2015-

Küfr əleyhinə qanunvericiliyin və ya Hüdud dekretlərinin (III.D bəndinə bax) pozulmasına görə təyin edilən azadlıqdan məhrumetmə və ya ölüm kimi qeyri-mütənasib cəzalar təqibə bərabər sayıla bilər.[61]

2010-cu ilin sonunda və 2011-ci ildə həmin vaxt hakimiyyətdə olmuş Pakistan Xalq Partiyasının (PXP) küfr əleyhinə qanunvericilikdə islahatlar aparmaq və ya onları ləğv etmək cəhdləri, məlumatlara görə, radikal dini qrupların təzyiqi altında uğursuzluğa düçar oldu.[62] 2010-cu ilin noyabrında hökumətin dəstəyi ilə keçmiş informasiya naziri və PXP-nin üzvü xanım Şerri Rəhman küfr əleyhinə qanunvericilikdə islahatlar aparılmasına yönələn xüsusi qanun layihəsi təqdim etdi.[63] Təklif olunan dəyişikliklər, digər məqsədlərlə yanaşı, bu cür cinayətlər barəsində ölüm cəzasını ləğv etmək, dini ayrı-seçkiliyə və ya zorakılığa təhrik etməni cinayət əməli kimi müəyyən etmək, habelə saxta və ya mənasız ittihamların irəli sürülməsini cəzalandırmaq məqsədini daşıyırdı.[64] 2010-cu ilin dekabrında hökumətin sorğusu əsasında İslam İdeologiyası Şurası (IIŞ)[65] küfr əleyhinə mübahisəli qanunvericiliyi yenidən nəzərdən keçirdi və ondan sui-istifadə edilməsinin qarşısını almaq üçün müəyyən prosessual dəyişikliklər edilməsini tövsiyə etdi.[66] Lakin məlumatlara görə 2010-cu ilin dekabrında və 2011-ci ilin əvvəlində radikal islamçı qrupların və dini siyasi partiyaların bu qanun layihəsinin əleyhinə təşkil etdikləri geniş mitinqlərin təzyiqi altında[67] hökumət küfr əleyhinə qanunvericiliyə yenidən baxmaq niyyətindən

---

ci ilin] sonunda təxminən 8.300 nəfər ölüm cəzasına məhkum olunmuş məhbus vardı ki, bu da ölkənin dünyada edam cəzası ilə üzləşmiş ən çox sayda məhbusu olan ölkələrdən birinə çevrilməsi demək idi. Pakistan qanunvericiliyi adamöldürmə, zorlama, vətənə xəyanət və küfr də daxil olmaqla 28 cinayət əməlinə görə ölüm cəzası təyin edilməsinə icazə verir. Ölüm cəzasına məhkum olunanlar çox zaman cəmiyyətin ən müdafiəsiz təbəqələrinin nümayəndələri olur". HRW, *2016-cı il üçün dünya üzrə hesabat – Pakistan*, 27 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56bd99299.html. Həmçinin 32-ci mətnaltı qeydə bax.

[60] Misal üçün bax: BMT-nin Baş Assambleyası, *BMT-nin din və ya əqidə azadlığı üzrə xüsusi məruzəçisinin hesabatı, Hayner Bilefeldt – Əlavə: Hökumətlərə təqdim edilmiş işlərin və alınmış cavabların qısa icmalı*, A/HRC/16/53/Add.1, 14 fevral 2011-ci il, http://www.refworld.org/docid/4d74d7162.html, 330-335-ci bəndlər.

[61] BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər*, HCR/GIP/04/06, 28 aprel 2004-cü il, http://www.refworld.org/docid/4090f9794.html, 22-ci bənd.

[62] Misal üçün bax: PİHK, *2011-ci ildə insan hüquqlarının vəziyyəti*, mart 2012-ci il, http://hrcp-web.org/hrcpweb/wp-content/pdf/AR2011-A.pdf, səh. 82, 89-90; Cinna İnstitutu, *Əqidə məsələsi: Pakistanda dini azlıqların statusuna dair hesabat*, 7 iyun 2011-ci il, http://www.jinnah-institute.org/images/stories/jinnah_minority_report.pdf, səh. 27-29.

[63] BBC, *Pakistanın küfr əleyhinə qanunvericiliyi nədən ibarətdir?* 4 noyabr 2014-cü il, http://www.bbc.com/news/world-south-asia-12621225.

[64] "*The Express Tribune*" qəzeti, *Küfr əleyhinə qanunvericiliyə dəyişikliklər edilməsi barədə qanun layihəsi Milli Məclisin katibliyinə təqdim edildi*, 26 noyabr 2010-cu il, http://tribune.com.pk/story/82002/bill-to-amend-blasphemy-laws-submitted-in-na-secretariat/.

[65] İslam İdeologiyası Şurası (IIŞ) islami göstərişlərə dair məsləhətlər verən konstitusion orqandır. Pakistan hökuməti, İslam İdeologiyası Şurası, *IIŞ haqqında* (tarix göstərilməyib), http://cii.gov.pk/aboutcii.aspx (13 oktyabr 2016-cı ilədək olan məlumatlar). Həmçinin bax: Cinna İnstitutu, *Əqidə məsələsi: Pakistanda dini azlıqların statusuna dair hesabat*, 7 iyun 2011-ci il, http://www.jinnah-institute.org/images/stories/jinnah_minority_report.pdf, səh. 38.

[66] Bununla belə, Şura bu qanunvericiliyin ləğvinin əleyhinə çıxdı və cinayətkarlar barəsində ölüm cəzasının saxlanılmasını tövsiyə etdi. "*The Express Tribune*" qəzeti, *Ali islam qurumu küfr əleyhinə qanunvericiliyə dəyişikliklər edilməsini təklif edir*, 19 dekabr 2010-cu il, http://tribune.com.pk/story/91838/council-of-islamic-ideology-topislamic-body-proposes-changes-in-blasphemy-law/.

[67] Dini partiyaların birliyi olan Təhəffuzi-Namusi-Risalət tərəfindən təşkil edilmiş və 9 yanvar 2011-ci ildə Karaçidə keçirilmiş mitinqin iştirakçılarının sayı, məlumatlara görə, 40.000 nəfərdən çox idi. "*The Express Tribune*" qəzeti, *Minlərlə insan dəstək mitinqi keçirdi*, 10 yanvar 2011-ci il, http://tribune.com.pk/story/101294/20000-protest-blasphemy-law-change-in-pakistan-police/; "*Inter Press Service*" xəbər agentliyi, Pakistan: *Küfr əleyhinə qanunvericilik problemi yeni ilə daşınır*, 1 yanvar 2011-ci il, http://www.ipsnews.net/2011/01/pakistan-blasphemy-law-carries-over-intonew-year/. Həmçinin qanunvericiliyə dəyişikliklər edilməsi əleyhinə müsəlman dindarları tərəfindən 24 saatlıq ümummilli tətil təşkil edildi. "*BBC News*" telekanalı, *Pakistan küfr əleyhinə qanunvericiliyə dəyişikliklər edilməsi barədə qanun layihəsinə qarşı tətil keçirir*, 31 dekabr 2010-cu il, http://www.bbc.co.uk/news/world-south-asia-12097687.

daşındı.[68] Yüksək vəzifəli iki dövlət xadimi – Pəncab qubernatoru Salman Tasir[69] və Pakistanın azlıqların işləri üzrə naziri Şahbaz Bhatti,[70] iddialara əsasən, açıq-aşkar küfr əleyhinə qanunvericiliyə qarşı çıxdıqlarına görə, müvafiq olaraq, 4 yanvar və 2 mart 2011-ci ildə qətlə yetirildilər. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı (BMTİHAK) bu qətlləri "*Pakistanda dini azlıqlara qarşı geniş miqyaslı zorakılıqların və onların ibadət yerlərinin müdafiə edilməməsinin əlaməti*" kimi pislədi.[71] Qubernator Tasirin və nazir Bhattinin

---

[68] Misal üçün bax: HRW, *2012-ci il üçün dünya üzrə hesabat – Pakistan*, 22 yanvar 2012-cı il, http://www.unhcr.org/refworld/docid/4f2007cac.html; Cinna İnstitutu, *Əqidə məsələsi: Pakistanda dini azlıqların statusuna dair hesabat*, 7 iyun 2011-ci il, http://www.jinnah-institute.org/images/stories/jinnah_minority_report.pdf, səh. 4-5.

[69] "*The Economist*" jurnalı, *Pakistan barelvilərinin aqressivliyə qarşı olduqlarına inam vardı. Ola bilsin ki, daha belə inam olmayacaq*. 16 aprel 2016-cı il, http://www.economist.com/news/asia/21697033-pakistans-barelvis-used-be-trusted-anti-militants-perhaps-no-longer-bad-moon-rising. Qatil Mumtaz Qədri küfr əleyhinə qanunvericiliyə qarşı çıxdığına və həmin qanunvericilik əsasında məhkum edilmiş xristian qadın Asiya Bibiyə rəğbət bəslədiyinə görə cənab Tasir barəsində ölüm fətvası vermiş dindarların açıq-aydın təsiri altında idi. Misal üçün bax: "Qardian" qəzeti, *Salman Tasir: Ekstremizm mühitində qətl*, 5 yanvar 2011-ci il, http://www.guardian.co.uk/commentisfree/belief/2011/jan/05/salman-taseer-murder-pakistan. "Tasirin qətli siyasi liderlər tərəfindən pislənsə də, barelvilərin tanınmış təşkilatı "Camaati-Əhli-Sünnə"nin üzvü olan 500 nəfər dindar müsəlman Qədrinin hərəkətlərini alqışladılar və xalqa xəbərdarlıq etdilər ki, Tasirə yas saxlamasınlar". Bax: ABŞBDAK, *2011-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran ölkələr – Pakistan*, 28 aprel 2011-ci il, http://www.refworld.org/docid/4dbe90c1c.html. 2011-ci ilin oktyabrında Qədri qubernator Tasirin qətlinə görə ölüm cəzasına məhkum edildi. Bax: Azad Avropa/Azadlıq Radiosu, *Pakistan məhkəməsi küfr əleyhinə qanunvericilikdə islahatlar aparılmasının tərəfdarı olan qubernatorun qətlinə görə ölüm qərarı çıxardı*, 1 oktyabr 2011-ci il, http://www.refworld.org/docid/4e9ea77027.html. Bununla belə, məlumatlara görə, məhkəmə iclasına sədrlik etmiş hakim təhlükəsizliyinə görə qorxu keçirdiyi üçün ölkəni tərk etdi. Məlumatlara əsasən 2011-ci ilin avqustunda Salman Tasirin oğlu Lahorda oğurlandı. Misal üçün bax: Beynəlxalq Amnistiya Təşkilatı, *Pakistan: Qubernatorun qətlindən bir il sonra küfr əleyhinə qanunvericilikdə islahatlar aparılması daha təcili məsələdir*, 4 yanvar 2012-ci il, http://www.refworld.org/docid/4f06ad372.html. 2015-ci ilin oktyabrında Pakistan Ali Məhkəməsi Mumtaz Qədrinin ölüm cəzasını qüvvədə saxladı; o, 29 fevral 2016-cı ildə dar ağacından asıldı. Bax: "Dawn" qəzeti, *Tasirin qatili Mumtaz Qədri dar ağacından asıldı*, 1 mart 2016-cı il, http://www.dawn.com/news/1242637; "*BBC News*" telekanalı, *Salman Tasirin qətli: Pakistan Mumtaz Qədrini dar ağacından asdı*, 29 fevral 2016-cı il, http://www.bbc.com/news/world-asia-35684452; Pakistan Ali Məhkəməsi, *Cinayət işi üzrə 2015-ci il tarixli 210 və 211 saylı apellyasiya şikayətləri*, 7 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/563891794.html. Mumtaz Qədrinin ölümünün qisasını almaq üçün yaraqlılar qrupu şimal-qərbdəki Şabdaqar şəhərində məhkəmənin girişində intiharçı bomba hücumu həyata keçirdi, nəticədə azı 14 nəfər öldü, 30 nəfəri yaralandı. "*BBC News*" telekanalı, *Pakistanda bomba partlayışı: Qədrinin "qisası" üçün həyata keçirilmiş hücumda on iki nəfər öldürüldü*, 7 mart 2016-cı il, http://www.bbc.com/news/world-asia-35743295. Məlumatlara görə nümayişçilər İslamabadla Ravalpindini birləşdirən yolu bağladılar və müxtəlif kiçik şəhərlərdə nümayişlər keçirdilər. Məlumatlara əsasən 29 fevral 2016-cı ildə dini partiyalar "peyğəmbəri sevənlərin" hamısını cənab Qədrinin dəfnində iştirak etməyə çağırdılar və insanlar onun evinin yanında toplaşaraq "şəhid Mumtaz Qədriyə eşq olsun" deyə çığırdılar. "Nyu-York Tayms" qəzeti, *Qubernatorun qatilinin edamından sonra zorakılıqlar Pakistanı ağuşuna alır*, 29 fevral 2016-cı il, http://www.nytimes.com/2016/03/01/world/asia/salmaan-taseer-killer-mumtaz-qadri-executed.html. 2011-ci ilin avqustunda yaraqlılar tərəfindən oğurlanmasından təxminən beş il sonra və Mumtaz Qədrinin asılmasından bir neçə gün sonra 8 mart 2015-ci ildə qubernator Tasirin oğlu Şahbaz Tasir, məlumatlara görə, Bəlucistanda təhlükəsizlik və kəşfiyyat qüvvələri tərəfindən azad edildi. "*The Independent*" qəzeti, *Şahbaz Tasir: Qətlə yetirilmiş Pəncab qubernatoru Salman Tasirin oğurlanmış oğlu Pakistanda azad edildi*, 8 mart 2016-cı il, http://www.independent.co.uk/news/world/asia/shahbaz-taseerabducted-son-of-slain-punjab-governor-salmann-taseer-rescued-in-pakistan-a6919106.html. Həmçinin bax: BMTİHAK, *BMT ekspertləri azlıqların işləri üzrə nazirin qətlini pislədilər və azlıqların qanunla və praktikada müdafiə edilməsinə çağırdılar*, 2 mart 2011-ci il, http://newsarchive.ohchr.org/en/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=10786&LangID=E; "*The Economist*" jurnalı, *Pakistan barelvilərinin aqressivliyə qarşı olduqlarına inam vardı. Ola bilsin ki, daha belə inam olmayacaq*. 16 aprel 2016-cı il, http://www.economist.com/news/asia/21697033-pakistans-barelvis-used-be-trusted-anti-militants-perhaps-no-longer-bad-moon-rising.

[70] Məlumatlara əsasən nazir Bhatti 2 mart 2011-ci ildə silahlı dəstə tərəfindən qətlə yetirilib. Deyilənlərə görə, qətlindən əvvəl onu bir neçə dəfə ölümlə hədələyiblər, o cümlədən Taliban kimi silahlı dəstə də onu təhdid edib; həmçinin onun özü ölümünə bir neçə ay qalmış qətlə yetiriləcəyini öncədən söyləyibmiş. Röyters (*Reuters*) agentliyi, Yaraqlılar Pakistanın nazirini küfrə görə qətlə yetirdiklərini söyləyirlər, 2 mart 2011-ci il, http://in.reuters.com/article/idINIndia-55258720110302.

[71] BMTİHAK, *BMT-nin insan hüquqları qurumunun rəhbəri Pakistandakı qətlləri pislədi və küfr əleyhinə qanunvericilikdə islahatlar aparılmasına çağırdı*, 2 mart 2011-ci il,

qətlindən sonra xanım Rəhman təklif etdiyi qanun layihəsini geri götürdü.[72] Məlumatlara əsasən Şahbaz Bhattinin qətli ilə bağlı işi araşdıran Federal Araşdırmalar Agentliyinin baş prokuroru 3 may 2013-cü ildə İslamabadda silahlı adamlar tərəfindən qətlə yetirildi.[73] Məlumatlara görə bu hadisələrdən sonra küfr əleyhinə qanunvericilik barəsində hər hansı açıq tənqid səsləndirmək məsələsində rəsmilər arasında geniş yayılmış qorxu və iradəsizlik mühiti qalmaqdadır.[74] Müsbət hadisələrə gəlincə, 2015-ci ilin oktyabrında Pakistan Ali Məhkəməsi küfr əleyhinə qanunvericilikdə islahat aparılmasına çağırış etməyin küfr olmadığı barədə qərar çıxardı. Məhkəmə həmçinin bildirdi ki, dövlət günahsız şəxslərin saxta küfr iddialarından müdafiəsinin təmin edilməsinə görə cavabdehlik daşıyır.[75]

Məlumatlara görə polislər, vəkillər və hakimlər də daxil olmaqla məhkəmə sisteminin subyektləri küfr işində təqsirləndirilənlərə qarşı çox vaxt qərəzlilik nümayiş etdirir və beləliklə

---

http://newsarchive.ohchr.org/en/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=10784&LangID=E. 22 mart 2011-ci ildə parlament iclasının açılışında etdiyi illik çıxışında prezident Zərdari yüksək vəzifəli iki rəsmi şəxsin qətlini ictimaiyyət qarşısında pislədi və təcavüzkarlığa və ekstremizmə qarşı mübarizə aparacağına and içdi. "Nyu-York Tayms" (*New York Times*) qəzeti, *Pakistan prezidenti ekstremizmə qarşı mübarizə aparacağına bir daha and içdi*, 22 mart 2011-ci il, http://www.nytimes.com/2011/03/23/world/asia/23pakistan.html.

[72] Məlumatlara görə xanım Rəhman bu qərarını küfr əleyhinə qanunvericiliyə dəyişiklik edilməsinin hökumət tərəfindən istisna edilməsindən sonra qəbul etmişdi. "Qardian" qəzeti, *Dostları qorxurlar ki, Şerri Rəhman Pakistan yaraqlılarının siyahısında növbəti şəxs ola bilər*, 2 mart 2011-ci il, http://www.guardian.co.uk/world/2011/mar/02/sherry-rehmanpakistan-blasphemy-laws-hitlist; Azlıqların Hüquqları üzrə Beynəlxalq Qrup (AHBQ), *Pakistanın küfr əleyhinə qanunvericiliyi azlıqları hədəfə alır və ləğv edilməlidir – AHBQ*, 4 fevral 2011-ci il, http://www.refworld.org/docid/4dfb654128.html. Həmçinin məlumatlara əsasən o, küfr əleyhinə qanunvericiliyə qarşı çıxdığına görə bir neçə dəfə ölümlə hədələnmişdi və Kəraçi məscidinin bir ruhanisi, məlumatlara görə, açıq şəkildə bəyan etmişdi ki, o, qanun layihəsini təqdim etdiyinə görə ölümə layiqdir. Həmin ruhaniyə qarşı heç bir tədbir görülmədi. PİHK, *2011-ci ildə insan hüquqlarının vəziyyəti*, 18 mart 2012-ci il, http://hrcpweb.org/hrcpweb/wp-content/pdf/AR2011-A.pdf, səh. 90, 99-100; "*BBC News*" telekanalı, *Pakistan parlamentinin üzvü küfr əleyhinə qanunvericiliyin ləğvinə yönələn səylərindən əl çəkdi*, 3 fevral 2011-ci il, http://www.bbc.co.uk/news/world-south-asia-12355001

[73] Məlumatlara görə Şahbaz Bhattinin qardaşı Pol Bhatti ölümlə hədələndikdən sonra ölkəni tərk etməyə məcbur oldu. "*The International News*" qəzeti, *Şahbaz Bhattinin qətl işi üzrə araşdırma tısbağa addımları ilə irəliləyir*, 23 yanvar 2015-ci il, http://www.thenews.com.pk/print/20078-shahbaz-bhatti-murdercase-moving-at-a-snails-pace. "Azlıqların işləri üzrə nazir olmuş və küfr əleyhinə qanunvericilikdə islahatlar aparılmasına çağırmış xristian Şahbaz Bhattinin 2011-ci ildə qətlə yetirilməsinə görə təqsirkar olan şəxslərin məsuliyyətə cəlb olunmasında ötən il heç bir irəliləyiş olmadı". ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html.

[74] "[2015-ci il] ərzində insanlar hökumət rəsmilərini və media təmsilçilərini küfrdə ittiham etməkdə və məhkəmələr bu ittihamlar əsasında qaldırılan işlərə baxmaqda davam etdilər. [7 may 2016-cı ildə] bir neçə tanınmış dini lider federal informasiya naziri Pərviz Rəşidi küfr xarakterli açıqlamalar verməkdə ittiham etdilər və onun həbsinə çağırdılar. Dövlət orqanları ona qarşı məhkəmə işi açmadılar". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: "Fridım Haus" təşkilatı, *"Dünyada azadlıq" hesabatı, 2016 – Pakistan*, 25 iyul 2016-cı il, http://www.refworld.org/docid/579f48bc15.html. Məlumatlara görə Milli Məclisinin daimi komitəsi polis müfəttişini 2013-cü ilin martında Lahorda xristianların həyatını və əmlakını geniş kütlənin hücumlarından və yanğından qorumadığına görə dindirilməyə çağırsa da, küfr əleyhinə qanunvericilikdə islahatlar aparılmasına və ya prosessual təminatların gücləndirilməsinə ehtiyac olduğu barədə heç bir şey demədi. BBQ, *Pakistanın demokratiyaya keçidində parlamentin rolu*, 18 sentyabr 2013-cü il, *Asia Report N°249*, http://www.refworld.org/docid/523a9fba4.html, səh. 32. Məlumatlara əsasən 2016-cı ilin yanvarında İslam İdeologiyası Şurasının sədri Məhəmməd Xan Şerani küfr məsələsində ruhanilər arasında fikir ayrılığı olduğunu qeyd etdi və küfr əleyhinə qanunvericiliyin "sərtləşdirilməli" və ya yumşaldılmalı" olması məsələsi ilə bağlı yenidən müzakirə açmağa hazır olduğunu bildirdi. "Röyters" agentliyi, *Pakistanlı ruhani küfr əleyhinə qanunvericiliyə yenidən baxmağa hazır olduğunu söylədi*, 28 yanvar 2016-cı il, http://uk.reuters.com/article/uk-pakistan-islam-idUKKCN0V61BK.

[75] Pakistan Ali Məhkəməsi qərara aldı ki: "küfr cinayəti ilə bağlı qanunvericilikdə dəyişiklik edilməsinə hər hansı çağırış yanlış olaraq həmin qanunvericiliyi pozan çağırış kimi qiymətləndirilməməli və maraqlı şəxslərin həmin qanunvericiliyi qərəzli şəkildə tətbiq və ya istifadə etmələrinə qarşı yetərli təminatların qanunvericiliyə daxil edilməsinə çağırış kimi başa düşülməlidir". Pakistan Ali Məhkəməsi, *Cinayət işi üzrə 2015-ci il tarixli 210 və 211 saylı apellyasiya şikayətləri*, 7 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/563891794.html, 17-ci bənd.

həmin şəxslərin ədalətli məhkəmə araşdırması hüququnu pozmuş olurlar.[76] Cinayət Prosessual Məcəlləsinin tələbinə əsasən Cinayət Məcəlləsinin 295C maddəsi əsasında qeydiyyata alınmış işlərdə birinci instansiya məhkəməsinin iclaslarına yalnız müsəlman hakim sədrlik edə bilər.[77] Məlumatlara əsasən 295C maddəsinin qeyri-müəyyən və subyektiv mətni ayrı-ayrı hakimlərə imkan verir ki, hər hansı əməli öz islami düşüncələri əsasında şərh edərək onun müqəddəs peyğəmbərə qarşı təhqir olub-olmadığını müəyyənləşdirsinlər; nəticədə bu maddə üzrə çıxarılan məhkəmə qərarları, məlumatlara görə, "narahatlıq doğuran dərəcədə ziddiyyətli və əsassız olur".[78] Konkret olaraq, müstəqil müşahidəçilər qeyd ediblər ki, Cinayət Məcəlləsinin küfrlə bağlı müddəaları sui-istifadə hallarına yol açır, çünki küfrün dəqiq anlayışı verilməyib, 295C maddəsində göstərilən cinayətləri törətmək niyyətinin mövcudluğunu sübut etmək tələb olunmur və prosessual təminatlar yoxdur.[79] Məhkəmə müşahidəçilərinin sözlərinə görə, küfrlə bağlı işlərdə aşağı məhkəmələr çox zaman ən zəruri sübutetmə standartlarına riayət etmirlər.[80] 1990-cı

---

[76] PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Ədalət mühakiməsinin həyata keçirilməsi*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/Admin-of-Justice-final.pdf, səh. 6-8; BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 7, 26-27, 33-34.

[77] Pakistan, *Cinayət Prosessual Məcəlləsi, 1898*, http://www.refworld.org/docid/48511ea62.html, II fəsil, Dinlə bağlı cinayətlər: 295C maddəsi.

[78] BHK qeyd edir ki, qanunvericilik bazası fərdi dini əqidələrin və xurafatların məhkəmə qərarının çıxarılmasına və məhkəmənin qərəzsizliyinə təsir göstərməsinə imkan yaradır ki, bu da şəxsin işinə müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətlə baxılması hüququna ziddir. "Bir vəkil BHK-ya bildirdi ki, hakimlər küfrlə bağlı məhkəmə araşdırmalarından "teoloji şərhin həyata keçirilməsi" üçün istifadə edirlər və "hakimin dini mənsubiyyəti çox vaxt məhkəmə proseslərinə", bir çox işlərdə isə həm də məhkəmə qərarına "həlledici təsir göstərir". Misal üçün, bir məhkəmə işində Lahor Yüksək Məhkəməsi öz qərarını, belə görünür ki, qanundan daha çox, "məhkəmənin əqidəsi" ilə əsaslandırmışdı. BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 34. Məsələn, məlumatlara görə 2005-ci il tarixli qərarında Lahor Yüksək Məhkəməsi bildirmişdi: "Məhkəmədə qəti inam var ki, dünyada heç kəs müqəddəs peyğəmbərə qarşı hörmək hissinə, onun şərəfinə, müqəddəsliyinə, toxunulmazlığına və möminliyinə xələl gətirə bilməz, onun sonuncu peyğəmbər qismində aliliyinə hər hansı şübhəsi olan hər hansı şəxs sadəcə dinsizdir", Lahor Məhkəməsinin qərarından sitat, *eyni mənbə*, səh. 34, *Mənzər-ül-Həq Şah Cahanın dövlətə qarşı məhkəmə işi* (qərar dərc olunmayıb), 2005-ci il, 12-ci bənd; həmçinin bax: *eyni mənbə*, səh. 7, 14, 26-27, 29-30. Əyani misal kimi belə bir halı göstərmək olar ki, pakistanlı xristian Yunis Məsih, iddia edildiyinə görə, 9 sentyabr 2005-ci ildə Lahorda öz evinin yaxınlığındakı bir evdə dini ayin zamanı Məhəmməd peyğəmbər haqqında alçaldıcı ifadələr işlətmişdi. Məlumatlara əsasən birinci instansiya məhkəməsindəki dinləmə zamanı hakimlərdən biri xristian müttəhimə xitabən soruşmuşdu ki, "əgər Məhəmməd peyğəmbərə məhəbbəti və hörməti varsa, niyə islamı qəbul etməyib?" Məlumatlara görə məhkəmə öz qərarında bu ifadələri təkrarlamış və ölüm hökmü çıxarmışdı. *Dövlət tərəfindən Yunis Məsihə qarşı qaldırılmış məhkəmə işi*, 2007-ci il, səh. 83-84, məlumat mənbəyi: BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 36; həmçinin bax: Beynəlxalq Amnistiya Təşkilatının Birləşmiş Krallıqdakı nümayəndəliyi, *Pakistan: Xristian kişi küfr əleyhinə qanunvericilik əsasında edam cəzası ilə üzləşən çoxlu sayda insanlardan biridir*, 25 iyul 2007-ci il, https://www.amnesty.org.uk/press-releases/pakistan-christian-man-one-among-many-facing-execution-under-blasphemy-laws. Yunis Məsih 2005-ci ildən barəsindəki ittiham hökmü Lahor Yüksək Məhkəməsi tərəfindən 2013-cü ilin aprelində ləğv edildikdən sonra azadlığa buraxıldığı anadək həbsdə saxlanıldı. ABŞBDAK, *2014-cü il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran ölkələr – Pakistan*, 30 aprel 2014-cü il, http://www.refworld.org/docid/5369e5bc12.html; "*The Express Tribune*" qəzeti, *Məhkəmə küfrə görə ölüm cəzası almış xristiana bəraət verdi*, 4 aprel 2013-cü il, http://tribune.com.pk/story/531069/court-acquits-christian-on-death-row-for-blasphemy/.

[79] BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 28-31; ABŞBDAK, *2015-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html; BMT-nin İnsan Hüquqları Şurası, *Hakimlərin və vəkillərin müstəqilliyi məsələsi üzrə xüsusi məruzəçinin məruzəsi, Əlavə: Pakistan missiyası*, 4 aprel 2013-cü il, A/HRC/23/43/Add.2, http://www.refworld.org/docid/51b9a0794.html, 57, 60-cı bəndlər.

[80] "Məhkəmə müşahidəçiləri məlumat verməkdə davam edirlər ki, küfrlə bağlı işlərdə aşağı məhkəmələr çox zaman ən zəruri sübutetmə standartlarına riayət etmirlər, bu isə bəzi məhkum edilmiş şəxslərin yuxarı məhkəmələr tərəfindən barələrindəki ittiham hökmü ləğv edilənə və yetərli sübutlar olmadığına görə azad edilənə qədər illərlə həbsxanada qalmalarına gətirib çıxarır". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan,* 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

ildə FŞM qərar çıxardı ki, küfr "qəsdən və ya ehtiyatsızlıqdan törədilən hüquq pozuntusu" olaraq şəxsin "niyyətinin, məqsədinin, istəyinin və ya ən azı nəzərdə tutduğunun" kökündə təqsir elementinin durmasını tələb edir. Lakin məhkəmələr adətən 295C maddəsi üzrə ölüm cəzası təyin edərkən ittiham hökmü çıxarmaq üçün şəxsin təqsirinin sübuta yetirilməsini çox zaman tələb etmirlər.[81] Məlumatlara əsasən 295C maddəsinin qeyri-müəyyən mətni çoxlu sayda müxtəlif əməllərə, o cümlədən "xoşagəlməz təsvirlərin" və ya "küfr xarakterli karikaturaların" *Facebook*-da yerləşdirilməsinə və ya "Quranın səhifələrinin fişəng düzəltmək" üçün istifadə edilməsinə görə bu maddə üzrə cinayət təqibini həyata keçirməyə imkan yaradır.[82] Hətta Pakistanın Cinayət Məcəlləsində yer alan din əleyhinə cinayətlərə dair müddəalarda islahatlar aparılmasına çağırışlar və ya həmin müddəaların tənqid edilməsi 295C maddəsi əsasında cinayət təqibinə səbəb olur.[83] Məlumatlara əsasən küfrlə bağlı ittiham hökmlərinin çoxu apellyasiya şikayətindən sonra ləğv edilir.[84]

Dini motivlərə əsaslanan cinayətlər üzrə işlərdə iştirak edən hakimlərin və vəkillərin şəxsi təhlükəsizliklərinin qorunmaması və ya yetərincə qorunmaması, məlumatlara görə, onların səmərəli fəaliyyət göstərmələrinin qarşısını alır.[85] Məlumatlara əsasən çox zaman ekstremist qrupların üzvləri birinci instansiya məhkəməsində küfr işləri üzrə proseslərdə iştirak edən hakimləri və digər məhkəmə məmurlarını hədələyir və qorxudurlar, nəticədə məhkəmə araşdırmaları yubanır və məhkəmə prosesi uzanır, təqsirləndirilən şəxslər isə çox vaxt uzun müddət məhkəməyəqədər həbsdə qalmalı olurlar.[86] Məlumatlara görə küfr işlərində qanunla

[81] BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası,* noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 14, 31.

[82] PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Ədalət mühakiməsinin həyata keçirilməsi*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/Admin-of-Justicefinal.pdf, səh. 10-11.

[83] PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Ədalət mühakiməsinin həyata keçirilməsi*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/Admin-of-Justicefinal.pdf, səh. 9-11; BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası,* noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 28-30.

[84] "[Dini təşkilatlar və insan hüquqları sahəsində fəaliyyət göstərən QHT-lər] həmçinin bildirdilər ki, polislər saxta küfr ittihamları irəli sürmüş bir çox şəxslərə qarşı cinayət işi açmamaqda davam edirlər, cinayət işi açıldıqda isə çox zaman məhkəmələr bu təqsirləndirilən şəxslərə bəraət verirlər". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Beynəlxalq Hüquqşünaslar Komissiyası məlumat verib ki, "ictimaiyyətə açıqlanan işlərin 80 faizindən çoxunda küfrdə təqsirləndirilən şəxslər son nəticədə apellyasiya icraatında bəraət alırlar və hakimlər belə işlərin böyük əksəriyyətində açıq-aydın bildirirlər ki, şikayət qondarmadır və şəxsi qisasdan irəli gəlib". BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 7, həmçinin bax: *eyni mənbə*, səh. 48.

[85] "Küfr işlərinə baxan hakimlər, məlumatlara görə, küfr əməlini törətməkdə təqsirləndirilən şəxsləri məhkum etmələri üçün təqib edilir, qorxudulur və hədələnirlər. Məlumatlara əsasən bəzi hakimlərə məktub göndərərək və zəng edərək xəbərdarlıq edirlər ki, küfr işləri üzrə müttəhimlər bəraət alarsa, hakimlərin özləri və ailələri hücuma məruz qalacaqlar". BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 33; həmçinin bax: *eyni mənbə*, səh. 7, 34. 2013-cü ilin aprelində Hakimlərin və vəkillərin müstəqilliyi məsələsi üzrə BMT-nin xüsusi məruzəçisi məlumat verdi ki, Pakistanda məhkəmə orqanlarının fəaliyyət göstərdiyi qorxu mühiti ədalət mühakiməsinin həyata keçirilməsinə mənfi təsir göstərir, çünki hakimlər qisasdan qorxduqlarına görə şübhəli dini ekstremistləri məhkum etməyə meylli olmurlar. BMT-nin İnsan Hüquqları Şurası, *Hakimlərin və vəkillərin müstəqilliyi məsələsi üzrə xüsusi məruzəçinin məruzəsi, Əlavə: Pakistan missiyası,* 4 aprel 2013-cü il, A/HRC/23/43/Add.2, http://www.refworld.org/docid/51b9a0794.html, 52-54, 58-ci bəndlər. Həmçinin bax: "Ümumdünya Xristian Həmrəyliyi" təşkilatı, *BMT-nin Pakistana dair bəyanatı,* 7 sentyabr 2015-ci il, http://www.csw.org.uk/2015/09/07/report/2757/article.htm; BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq,* fevral 2015-ci il, http://www.refworld.org/docid/57fb91e54.html, səh. 18.

[86] Küfr işləri üzrə məhkəmə prosesləri, xüsusən birinci instansiya məhkəməsindəki proseslər çox zaman tamamilə ədalətsiz olur. Çox vaxt ekstremist dini qruplar xüsusən birinci instansiya məhkəməsi səviyyəsində məhkəmə zalına doluşur, təqsirləndirilən şəxslər və onların vəkilləri üçün, eləcə də hakimlər üçün təhdidedici mühit yaradırlar. Nəticədə çox vaxt dövlət orqanları küfrlə bağlı məhkəmə proseslərini həbsxanalarda və ya qapalı zalda keçirirlər ki, bununla da açıq məhkəmə araşdırması hüququna və təqsirləndirilən şəxsin səmərəli müdafiə hüququna xələl gətirilmiş olur". BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası,* noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 7. Küfr işlərində həbsdə saxlanma ilə məhkəmə araşdırması

müttəhimin girov müqabilində azad edilmək hüququ olduğu hallarda çox zaman buna icazə verilmir.[87]

Küfrdə təqsirləndirilən şəxslər, məlumatlara əsasən, vəkil tapmaqda böyük çətinlik çəkirlər, çünki məlumatlara görə vəkillərin çoxu küfr əleyhinə qanunvericiliyi dəstəkləyir,[88] digərləri isə şikayətçilərin və cəmiyyətin digər üzvlərinin təhdidlərindən və hücumlarından qorxurlar.[89] Bundan başqa, məlumatlara əsasən vəkillər küfr işlərində hüquqi xidmət göstərmək üçün yüksək qonorar tələb edirlər.[90] Məlumatlara görə küfrdə ittiham olunan şəxsləri təmsil edən vəkillər

---

arasındakı orta müddət, məlumatlara görə, iki ildən üç ilədək olur, bəzi hallarda isə bundan da xeyli uzun çəkir: məsələn, Vacih-ül-Hassan 1999-cu ildə həbsə alınıb və 2015-ci ilin sonunda işinə Ali Məhkəmə tərəfindən baxılacağını gözləyir. O, 16 ilini həbsxanada keçirib. *Eyni mənbə*, səh. 47-48. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; "Ümumdünya Xristian Həmrəyliyi" təşkilatı (ÜXHT), *BMT-nin Pakistana dair bəyanatı: Pakistanda insan hüquqlarının, hakimlərin və hüquq müdafiəçilərinin vəziyyətinə dair ÜXHT-nin yazılı bəyanatı,* 7 sentyabr 2015-ci il, http://www.csw.org.uk/2015/09/07/report/2757/article.htm. Hakimlərin və vəkillərin müstəqilliyi məsələsi üzrə xüsusi məruzəçi küfr işləri ilə bağlı xüsusi narahatlığını ifadə edərək məlumat verdi ki, "hətta təsdiqedici sübutlar olmadıqda belə, hakimlər təqsirləndirilən şəxslərin əleyhinə qərar çıxarmaları üçün məcburiyyətə və ya təzyiqə məruz qalırlar, vəkillər isə təhlükəsizlikləri ilə bağlı qorxu keçirmələri səbəbindən bu cür işləri icraatlarına götürməyə meylli olmamalarından əlavə, həm də müştərilərini lazımi qaydada təmsil etməmələri üçün təzyiq və məcburetmə hədəfinə çevrilirlər". BMT-nin İnsan Hüquqları Şurası, *Hakimlərin və vəkillərin müstəqilliyi məsələsi üzrə xüsusi məruzəçinin məruzəsi, Əlavə: Pakistan missiyası*, 4 aprel 2013-cü il, A/HRC/23/43/Add.2, http://www.refworld.org/docid/51b9a0794.html, 56-cı bənd. Xüsusi məruzəçi hakimlərin və vəkillərin təhdidlərə, hücumlara məruz qalması və qətlə yetirilməsi, o cümlədən bəzi hallarda hakimlərin öz məhkəmə otaqlarında güllələnməsi barədə məlumatlar alıb, nəticədə xüsusən icmalarla birbaşa təmasda olan birinci instansiya məhkəmələrinin hakimləri şübhəli dini ekstremistləri məhkum etməyə meylli olmurlar, bu isə ədalət mühakiməsinin həyata keçirilməsinə təsir göstərir. *Eyni mənbə*, 52, 53-cü bəndlər.

[87] Pakistan, *Cinayət Prosessual Məcəlləsi, 1898,* http://www.refworld.org/docid/48511ea62.html. maddə 497. Cinayət Məcəlləsinin 295A, 295B və 295C maddələrində nəzərdə tutulmuş cinayətlərdə təqsirləndirilən şəxslərin girov müqabilində azad edilmələrinə icazə verilmir. Girov müqabilində azad edilmə məhkəmənin mülahizəsinə buraxılan məsələ olsa da, məhkəmə şəxsin təqsirinin sübuta yetiriləcəyini düşünmək üçün əsaslı səbəblərin olduğu qənaətinə gələrsə, o halda Cinayət Prosessual Məcəlləsinin 497-ci maddəsi 295A, 295B və 295C maddələri əsasında küfrdə təqsirləndirilən şəxslərin girov müqabilində azad edilmə imkanından yararlanmalarının qarşısını alır. Bundan əlavə, Pakistan qanunvericiliyində həmçinin nəzərdə tutulur ki, təqsirləndirilən şəxslərin qanunla girov müqabilində azad edilməsi aşağıdakı hallarda özlərinin və ya vəkillərinin təqsiri olmadan xeyli müddət məhkəməyəqədər həbsdə saxlanılan şəxslərə şamil oluna bilər: 1) cinayət əməlinə görə ölüm cəzasından daha yüngül cəza təyin edilməlidirsə, bir ildən (qadınlar üçün altı aydan) artıq müddət ərzində həbsdə saxlandıqda və bu müddətdə məhkəmə prosesi yekunlaşmadıqda; 2) cinayət əməlinə görə ölüm cəzası təyin edilməlidirsə, bir ildən artıq (qadınlar üçün bir il) müddət ərzində həbsdə saxlandıqda və bu müddətdə məhkəmə prosesi yekunlaşmadıqda. Lakin BHK məlumat verir ki, "hətta təqsirləndirilən şəxslər qanunla girov müqabilində azad edilmək hüququna malik olduqda belə, küfrlə əlaqədar işlərdə hakimlər çox zaman onların girov müqabilində azad edilmə barədə vəsatətlərini rədd edirlər və bu hal xüsusən təqsirləndirilən şəxs Cinayət Məcəlləsinin 295C maddəsi əsasında ittiham edildikdə baş verir. Bir çox hallarda hakimlər prosesin uzanmasına görə təqsirləndirilən şəxsləri və onların vəkillərini günahkar hesab edirlər və prosesin yubanmasına qismən səbəb olmuş təqsirləndirilən şəxslərin və ya onların vəkillərinin təhlükəsizliyi ilə bağlı risklərin və üzləşdikləri digər çətinliklərin nəzərə alınmasına müsbət yanaşmırlar". BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 45; həmçinin bax: *eyni mənbə*: səh. 12-14, 44-48. Məlumatlara görə müşahidəçilər bildiriblər ki, bir qayda olaraq aşağı məhkəmələr qisas və cəzalanma qorxusuna görə müttəhimləri girov müqabilində azad etməkdən imtina edirlər. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[88] BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası,* noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 37.

[89] 7 may 2014-cü ildə kimliyi müəyyənləşdirilməyən silahlı şəxs Pakistan İnsan Hüquqları Komissiyasında insan hüquqlarının müdafiəsi sahəsində 20 ildən artıq müddət ərzində çalışan vəkili qətldə təqsirləndirilən insanları təmsil etdiyinə görə açıq-aydın qisas məqsədi ilə qətlə yetirdi. Məlumatlara əsasən, o, Pakistanın küfr əleyhinə qanunvericiliyi əsasında ittiham olunan universitet müəlliminin müdafiəsini öz üzərinə götürdüyünə görə dəfələrlə ölümlə hədələnmişdi. BMTİHAK, *Mətbuat üçün brifinq: Pakistan*, 9 may 2014-cü il, http://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=14583&LangID=E; HRW, *2015-ci il üçün dünya üzrə hesabat – Pakistan*, 29 yanvar 2015-ci il, http://www.refworld.org/docid/54cf838c15.html.

[90] Məlumatlara əsasən 2015-ci ilin sentyabrında BHK təmsilçiləri ilə müsahibə zamanı baş vəkil bildirib ki: "Bəzi diqqətçəkən istisnaları nəzərə almasaq, xeyli sayda vəkillər və QHT-lər küfrdə təqsirləndirilənlərin iztirablarına

özləri küfrdə ittiham olunmaqdan ehtiyat edirlər, nəticədə çox zaman onlar etiraz doğuran davranışın əslində küfr təşkil etmədiyini iddia etməkdən çəkinirlər.[91] Həmçinin məlumatlara görə küfr işlərində prosesə sədrlik edən hakimlər və müdafiə tərəfinin şahidləri təhdidlərə, təzyiqlərə və zorakılıq aktlarına məruz qalırlar.[92]

Təqsirləndirilən şəxsə qarşı sonradan küfr əleyhinə qanunvericilikdə nəzərdə tutulmuş cinayət ittihamının irəli sürülüb-sürülməməsindən asılı olmayaraq, küfrdə ittiham edilmə təqsirləndirilən şəxslər, eləcə də onların ailələri üçün ciddi risklər yarada bilər. Küfrdə təqsirləndirilən şəxslər, məlumatlara görə, ölümlə təhdid edilir, hücumlara, o cümlədən kütlənin hücumlarına məruz qalır,[93] istər həbsə alındıqları və məhkəmə qarşısına çıxarıldıqları zaman, istərsə də hətta bəraət aldıqdan sonra cəmiyyət üzvləri və ya təhlükəsizlik qüvvələrinin üzvləri tərəfindən qətlə yetirilirlər,[94] bu isə bəzilərini həyatları üçün qorxduqlarına görə gizlənməyə və ya ölkəni tərk

---

onların ailələrindən, yaxud bəzi hallarda beynəlxalq xeyriyyə qurumlarından və beynəlxalq təşkilatlardan pul qoparmaq üçün imkan kimi baxırlar və bu zaman böyük rezonans doğuran işlərdə qonorarların məbləği 50.000 dollara çatır". BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 39. BHK təmsilçilərinin müsahibə apardıqları vəkillər məlumat veriblər ki, küfr işlərində dövlət tərəfindən təyin olunan vəkil çox vaxt hətta minimal vəzifələrini də yerinə yetirmir, məsələn, məhkəmə iclaslarına gəlmir və beləliklə prosesdə uzunmüddətli ləngimələrə səbəb olur. *Eyni mənbə*, səh. 40.

[91] BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 37-43.

[92] Birləşmiş Millətlər Təşkilatının İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsi (CERD), *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 21-ci bənd. "Məhkəmə müşahidəçiləri məlumat veriblər ki, çox zaman hakimlər və magistratlar hökumət tərəfindən ekstremist kimi damğalanan qruplarla qarşıdurmadan və ya onların zorakılığından yayınmaq üçün məhkəmə araşdırmalarını yubadır və qeyri-müəyyən müddətə uzadırlar. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti:* yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 56; PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 12; BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 7, 33-34, 42.

[93] PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti, Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 11-12. "Küfr barədə iddialar irəli sürülən kimi küfrdə təqsirləndirilən şəxslərin təqib edilməsi hətta hüquq sistemi çərçivəsində rəsmi hərəkətlər başlanmazdan əvvəl baş verir. 1980-ci illərdən bəri bir çox hallarda küfrdə təqsirləndirilən insanlar, onların ailələri, eləcə də qonşuları sadəcə küfr barədə iddiaların nəticəsində kütlənin və mütəşəkkil ekstremist qrupların hədəfinə çevrilirlər və bu hal xüsusən həmin şəxsin dini azlıq icmasına mənsub olduğu təqdirdə baş verir. Həmçinin evlər və ibadət yerləri də bu cür hücumların hədəfinə çevrilirlər və bəzi hallarda insanlar zorla evlərindən çıxarılır, bəzən isə hətta ailələr sürgün edilirlər. Zorakılıq təhdidləri barədə öncədən məlumatlı olduğuna baxmayaraq, polislər, məlumatlara görə, çox zaman bu cür hücumları dayandırmaq üçün zəruri qabaqlayıcı tədbirlər görmür və ya onlara cəld reaksiya vermirlər və küfrdə təqsirləndirilən şəxsləri və onların icmalarını yetərli sayda qüvvələr cəlb etməklə qorumurlar". BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 6-7. Küfr ittihamları ilə bağlı cəmiyyətdəki problem ondan ibarətdir ki, bəzi hallarda insan kütlələri qanunu özləri icra edir və təqsirləndirilən şəxslərə hücum edirlər, buna görə də bu cür ittihamların irəli sürülməsi ehtimalı xüsusən dini azlıq qrupları üçün qorxuludur". Avstriya: Federal Daxili İşlər Nazirliyi, *Pakistan: Problemlər və perspektivlər*, oktyabr 2014-cü il, http://www.refworld.org/docid/54520d204.html, səh. 79. Həmçinin bax: Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2015/2016-cı il hesabatı – Pakistan*, 25 fevral 2015-ci il, http://www.refworld.org/docid/54f07db215.html; HRW, *2015-ci il üçün dünya üzrə hesabat – Pakistan*, 29 yanvar 2015-ci il, http://www.refworld.org/docid/54cf838c15.html. 2013-cü ilin martında baş vermiş bir insident zamanı xristian şəxs mübahisə zamanı küfr xarakterli fikirlər söylədiyinə görə dostu tərəfindən təqsirləndirildikdən sonra təxminən 3.000 nəfərlik kütlə 200-ə yaxın xristian evlərini yandırdı. Beynəlxalq Amnistiya Təşkilatı, *Pakistan: Xristian kişi küfr əleyhinə qanunvericilik əsasında ölüm cəzasına məhkum edildi*, 27 mart 2014-cü il, http://www.refworld.org/docid/533ab4114.html; həmçinin 264 və 292-ci haşiyə qeydlərinə bax.

[94] "Son dövrə aid qərarında Ali Məhkəmə Karaçidəki Hüquqi Yardım Cəmiyyəti tərəfindən toplanmış məlumatları qeyd etdi, həmin məlumatlarda deyilirdi ki, 1990-cı ildən bəri azı 53 nəfər küfr iddiaları ilə bağlı qanunsuz olaraq öldürülüb və buraya təkcə küfr etməkdə təqsirləndirilən şəxslər deyil, həm də onların icmalarının üzvləri, vəkilləri,

etməyə vadar edir.[95] Küfrdə təqsirləndirilən bəzi şəxslər, məlumatlara görə, polis təcridxanasında və ya məhkəməyəqədər həbs yerində saxlanılarkən işgəncələrə məruz qalır və ya qətlə yetirilirlər.[96] Məlumatlara əsasən həbsxana rəsmiləri bildiriblər ki, küfrdə təqsirləndirilən və ya küfrə görə məhkum edilən tutulmuş şəxslərin digər tutulanlar tərəfindən, yaxud hətta həbsxana əməkdaşları tərəfindən hücuma məruz qalması riski yüksəkdir. Məlumatlara görə bir çox hallarda belə şəxslər müdafiə forması olaraq təkadamlıq kamerada saxlanılırlar və bəzən bu hal illərlə davam edir.[97]

Məlumatlara əsasən çox vaxt cəmiyyətin üzvləri küfr əleyhinə qanunvericilikdən dini azlıqların nümayəndələrini təhdid və təqib etmək üçün istifadə edirlər və bir çox hallarda küfr iddiaları mövcud cəzasızlıq mühitində şəxsi haqq-hesab çəkmə və ya şəxsi qisas alma məqsədi ilə irəli sürülür.[98] İttihamların məzmunun qeyri-müəyyənliyindən[99] və 295C maddəsində nəzərdə

---

eləcə də qanunvericiliyə dəyişikliklər edilməsinə çağıran siyasətçilər daxildir". BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 26-27. HRW-nin bildirdiyinə görə, məlumatlara əsasən 1990-cı ildən bəri azı 60 nəfər küfrdə təqsirləndirildikdən sonra qətlə yetirilib. HRW, *2015-ci il üçün dünya üzrə hesabat – Pakistan*, 29 yanvar 2015-ci il, http://www.refworld.org/docid/54cf838c15.html. Misal üçün bu mənbəyə də bax: ABŞBDAK, *2015-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html.

[95] "Küfrə görə bir dəfə təqsirləndirilən insanlar, hətta bəraət aldıqda belə, nadir hallarda evlərinə qayıda bilirlər. Çoxları üçün başqa ölkədə sığınacaq axtarmaq yeganə çıxış yolu olur". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti, Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 12. Küfr iddiaları nəticəsində "saysız-hesabsız ailələr hədələnib, hücuma məruz qalıb və evlərini tərk etməyə məcbur olublar". BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 11. "Hətta küfr ittihamları üzrə bəraət hökmü elan edildikdə belə, bəraət almış şəxs çox vaxt qeyri-dövlət qrupları tərəfindən həyatına qarşı təhdidlər ucbatından ölkəni tərk etməyə məcbur olur. Bəzi hallarda bəraət almış şəxslər sayıq tərpənən kütlə tərəfindən qətlə yetirilirlər". BMT-nin İnsan Hüquqları Şurası, *Hakimlərin və vəkillərin müstəqilliyi məsələsi üzrə xüsusi məruzəçinin məruzəsi, Əlavə: Pakistan missiyası*, 4 aprel 2013-cü il, A/HRC/23/43/Add.2, http://www.refworld.org/docid/51b9a0794.html, səh. 56. Həmçinin bax: Azad Avropa/Azadlıq Radiosu, *Küfrdə təqsirləndirilən pakistanlı qız Kanadaya qaçdı*, 30 iyun 2013-cü il, http://www.refworld.org/docid/51e79b7811.html.

[96] "Küfrdə təqsirləndirilən şəxslər hətta rəsmən cinayət ədliyyəsi sisteminin əhatə dairəsində olsalar belə, köməksiz durumda qalmaqda davam edirlər. Bir çox hallarda küfrdə təqsirləndirilib məhkəmə araşdırmasını gözləyən və ya məhkum edildikdən sonra cəzasını çəkən şəxslər həbsxanada olarkən hücumlara məruz qalır, dövlət orqanları isə onları müdafiə etmirlər. Onların bəziləri hətta qətlə yetirilib. Məlumatlara görə bəzi işlərdə hüquq pozuntusu törədənlər polis əməkdaşlarıdır". BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 7. Məlumatlara əsasən 2014-cü ilin noyabrında polis nəfəri həbsdə saxlanılan şiə müsəlmanı guya küfr xarakterli fikirlər söylədiyinə görə balta ilə qətlə yetirdi. ABŞBDAK, *2015-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html; Azad Avropa/Azadlıq Radiosu, *Pakistanlı polis əməkdaşı küfrdə şübhəli bilinən şəxsi balta ilə qətlə yetirdi*, 6 noyabr 2014-cü il, http://www.refworld.org/docid/548ea84215.html. Küfrə görə ölüm cəzasına məhkum edilmiş 71 yaşlı məhbus, məlumatlara görə, Ravalpindidə Adiala həbsxanasında polis nəfərinin hücumuna məruz qalıb və həmin polis iki dəfə atəş açaraq onu yaralayıb. Asiya İnsan Hüquqları Komissiyası (AİHK), *Pakistan: Dini ekstremizmin və dözümsüzlüyün tərənnüm edilməsi*, 5 oktyabr 2014-cü il, http://www.humanrights.asia/news/ahrcnews/AHRC-STM-178-2014/?searchterm.

[97] BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 53-56.

[98] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 6. "Xristianlara qarşı küfr ittihamları irəli sürən, dövlət nümayəndəsi olmayan şəxslərin bu ittihamlarının kökündə çox zaman kin, şəxsi və ya biznes mübahisələri, habelə torpaq və əmlak mübahisələri dayanır. Həmçinin müəyyən siyasi hadisələr də belə ittihamlara təkan verə bilər". Birləşmiş Krallıq: Yuxarı Tribunal (İmmiqrasiya və sığınacaq işləri üzrə palata), *Pakistan xristianları qrupuna mənsub olan AK və SK-nın (risk altında olan xristianlar), daxili işlər nazirinə qarşı məhkəmə işi*, [2014] UKUT 00569 (IAC), 15 dekabr 2014-cü il, http://www.refworld.org/docid/549962d94.html, səh. 2, 6-cı bənd. 2014-cü ilin oktyabrında Lahor Yüksək Məhkəməsi həmkarları tərəfindən ona qarşı küfr ittihamları irəli sürüldükdən sonra küfrə görə məhkum edilmiş xristian qadın Asiya Bibinin ölüm hökmünü qüvvədə saxladı. Bax: ABŞBDAK, *2015-ci il üçün illik məruzə: Xüsusi*

tutulmuş cinayətlə bağlı sübutetmə standartının aşağı olmasından əlavə,[100] Cinayət Məcəlləsi küfr ittihamları irəli sürüldükdən sonra sübutların təqdim edilməsini tələb etmir və məlumatlara görə, saxta ittiham irəli sürənlərə qarşı heç bir cərimə və ya cəza tətbiq edilmir.[101] Məlumatlara əsasən polis dini azlıq üzvlərinə qarşı saxta küfr ittihamlarını qeydiyyata almaq üçün rüşvət alır.[102] 2004-cü ildə parlament küfr əleyhinə müddəalardan sui-istifadə edilməsini məhdudlaşdırmağa cəhd edərək Cinayət Prosessual Məcəlləsinə dəyişiklik etdi, bu dəyişikliyə əsasən yüksək vəzifəli polis əməkdaşından tələb olunurdu ki, küfr barədə şikayətləri məhkəməyə vermək üçün qeydiyyata almazdan əvvəl araşdırsın. Məlumatlara əsasən bu günə qədər bu tələb nadir hallarda yerinə yetirilib.[103] 2016-cı ilin oktyabrında İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə

---

*narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Pakistan: Qadın küfrə görə ölümə məhkum edildi*: Asiya Bibi, 27 oktyabr 2014-cü il, http://www.refworld.org/docid/544f8b9c4.html.

[99] "Küfr işlərində cinayət ittihamlarının məzmunu çox zaman qeyri-müəyyən olur. Məsələn, təqsirləndirilən şəxslər "Məhəmməd peyğəmbərə qarşı alçaldıcı ifadələr" işlətməkdə və ya "Quranı təhqir etməkdə" ittiham olunurlar, amma deyilmiş sözlər və ya edilmiş hərəkətlər ittihamlarda dəqiq göstərilmir. BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 28. Həmçinin bax: CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 21-ci bənd; Uşaq Hüquqları Komitəsi (UHK), *Pakistanın 5-ci dövri məruzəsinə dair yekun qeydlər*, 11 iyul 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CRC/C/PAK/CO/5&Lang=En, 30-cu bənd; PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Ədalət mühakiməsinin həyata keçirilməsi*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/Admin-of-Justicefinal.pdf, səh. 6-7.

[100] Məlumatlara əsasən 295C maddəsində nəzərdə tutulmuş cinayətin baş verdiyini müəyyənləşdirmək üçün Pakistan məhkəmələri obyektiv standart olan "anlaqlı şəxs" standartından istifadə etməklə iddia edilən əməlin Məhəmməd peyğəmbərə qarşı təhqir olub-olmadığını müəyyənləşdirməkdənsə təqsirləndirilən şəxsin iddia edilən əməli törədib-törətmədiyini araşdırırlar. BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 29, 40.

[101] "Birinci instansiya məhkəmələrinin 295C maddəsi üzrə çıxardıqları ittiham hökmlərindən verilmiş şikayətlərə yuxarı məhkəmələr tərəfindən baxılan və BHK tərəfindən tədqiq edilən 25 işdən 15-də (60 faiz) yuxarı məhkəmələr apellyasiya şikayətçilərinə bəraət verərək belə əsas gətiriblər ki, onlara qarşı şikayətlər ya saxta olub, ya da şəxsi və ya siyasi səbəblərdən qərəzli niyyətlə verilib. Qeyd etmək maraqlı olar ki, yalançı şahidliyi cinayət əməli elan edən qanunvericilik mövcud olsa da, hətta şikayətçilərin və şahidlərin yalan ifadələr verdiyi barədə məhkəmələr tərəfindən açıq-aydın qərar çıxarıldıqdan sonra belə, bu əməldə təqsirkar olan şəxslərə qarşı hər hansı cinayət ittihamı irəli sürüldüyü barədə BHK-da məlumat yoxdur. BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 6. "Aşağı məhkəmələr çox zaman küfrlə bağlı işlərdə yetərli sübutlar tələb etmirlər və bəzi təqsirləndirilən şəxslər və məhkumlar barələrindəki ittiham hökmü son nəticədə yuxarı məhkəmələr tərəfindən ləğv edilənə və ya azadlığa buraxılana qədər illərlə həbsxanada qalmalı olurlar. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html. Məlumatlara görə 18 sentyabr 2013-cü ildə İslam İdeologiyası Şurası saxta küfr ittihamları irəli sürənlərə ölüm cəzası verilməsini tövsiyə etdi; bu təklif etirazla qarşılandı və ertəsi gün rədd edildi. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2013-cü il tarixli hesabat – Pakistan*, 27 fevral 2014-cü il, http://www.refworld.org/docid/53284a8e21.html.

[102] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html. İslamabadda Yüksək Məhkəmədə fəaliyyət göstərən vəkil bildirib ki, polis əməkdaşına rüşvət verməklə cinayət haqqında yalançı ilkin məlumat təqdim etmək "asan" işdir və onun təqdim edilməsinin kökündə duran motivlərə "şəxsi düşmənçilik", digər şəxslərə təzyiq göstərmə və ya düşmən tayfadan olan günahsız şəxsə zərər yetirmə daxildir. Vəkilin sözlərindən sitatlar bu mənbədə əks olunub: Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada şurası, *Pakistan: Saxta sənədlər (2012 – dekabr 2014)*, 14 yanvar 2015-ci il, PAK105021.E, http://www.refworld.org/docid/54ca270f4.html. Cinayət haqqında ilkin məlumat protokolları barəsində əlavə informasiya üçün bu mənbəyə də bax: Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada şurası, *Pakistan: Cinayət haqqında ilkin məlumat protokolları (CİMP) (2010 – dekabr 2013)*, 10 yanvar 2014-cü il, PAK104714.E, http://www.refworld.org/docid/52eba0d84.html.

[103] Bax: Pakistan, *Cinayət Prosessual Məcəlləsi, 1898*, http://www.refworld.org/docid/48511ea62.html, 156A maddəsi; bu maddədə nəzərdə tutulur ki, 295C maddəsi üzrə verilən şikayətlərə xidməti vəzifəsi rayon polis rəisi vəzifəsindən aşağı olan polislər tərəfindən baxılmamalıdır. 2014-cü ilin dekabrından 2015-ci ilin dekabrınadək

Komitə (CERD) bildirdi ki, "saxta ittihamlar əsasında çoxlu sayda küfr işlərinin qaldırılmasından və saxtakarlar barəsində araşdırmaların və məhkəmə təqibinin aparılmamasından narahatdır".[104] Məlumatlara əsasən 2015-ci ilin mayında polislər bir dini qrupla gizli razılığa gələrək onun nümayəndələrini 68 vəkili küfrdə ittiham edərək cinayət haqqında ilkin məlumat təqdim etməyə sövq etdilər, iddia edildiyinə görə bunda məqsəd həmin vəkillərin öz həmkarlarından birinin polis tərəfindən qanunsuz həbsdə saxlanmasına qarşı verdikləri şikayətə görə onlardan qisas almaq idi.[105]

## C. Cinayət Məcəlləsi: Əhmədilər əleyhinə qanunvericilik

Yuxarıda qeyd edildiyi kimi (III.A bölməsinə bax), 1974-cü ildən etibarən əhmədilər Konstitusiyaya əsasən qeyri-müsəlmanlar kateqoriyasına aid ediliblər, baxmayaraq ki, onlar özlərini müsəlman hesab edirlər.[106] 1984-cü ildə o vaxtlı prezident Ziya-ül-Həqq Cinayət Məcəlləsinə dəyişikliklər edərək həmin məcəlləyə XX saylı fərman vasitəsilə 298B və 298C maddələrini daxil etməklə əhmədilər əleyhinə münasibəti daha da rəsmiləşdirdi.[107] Adətən "əhmədilər əleyhinə qanunvericilik" adlandırılan bu dəyişikliklər əhmədilərin müəyyən dini ayinlərini qanunsuz elan etdi və əhmədilərin təməl hüququ olan din azadlığı hüququnu və digər hüquqlarını pozduğuna görə tənqidlərə məruz qaldı.[108] (Əhmədilər əleyhinə qanunvericiliyin ətraflı təhlili üçün V bölmənin 1.a bəndinə bax: Potensial risk qrupları: Əhmədilər – Əhmədi şəxslərə dair qanunvericilik bazası.)

## D. Hüdud dekretləri

1979-cu ildə Ziya-ül-Həqqin hərbi rejimi tərəfindən qəbul edilmiş və Konstitusiyaya Səkkizinci Düzəliş[109] vasitəsilə qüvvəyə minmiş "Hüdud dekretləri"nə əsasən islam hüququnun ortodoksal şərhlərinə uyğun olaraq cəzalar təyin edilir və bu dekretlər ölkənin dünyəvi hüquq sistemi ilə

---

BHK-nın müsahibə apardığı vəkillər məlumat verdilər ki, bu maddə nadir hallarda tətbiq edilir. BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 14. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[104] CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 21-ci bənd.

[105] AİHK, *Pakistan: Polisin səlahiyyətini aşmasından şikayət etdiklərinə görə 68 vəkil küfr əleyhinə qanunvericiliyin gülünc müddəaları əsasında ittihamlarla üzləşdi*, 15 may 2014-cü il, http://www.humanrights.asia/news/ahrc-news/AHRC-STM-089-2014/?searchterm; BBC, *Pakistan polisi 68 pakistanlı vəkili küfrdə ittiham etdi*, 13 may 2014-cü il, http://www.bbc.com/news/world-asia-27391334. "Çəng şəhər polis rəisi cənab Əsgər dedi ki, vəkillərin etirazları cəmiyyətdəki gərginlikləri artırmış və müəyyən bir məqamda sünni və şiə vəkillər arasında mübahisəyə gətirib çıxarmışdı. O söylədi ki, ictimai qaydanı bərpa etmək üçün küfrlə bağlı iş qaldırmağa məcbur olub. O bildirdi ki, "əks halda şəhərdə silahlı toqquşmalar baş verə bilərdi. Polislər cənab Ludhianvini şikayətini geri götürməyə inandırmaqla qarşıdurmaya son qoyacaqlarına ümid edirlər". "Nyu-York Tayms" qəzeti, *Polisə etiraz etdikdən sonra 68 pakistanlı vəkil küfrdə ittiham edildi*, 13 may 2014-cü il, http://www.nytimes.com/2014/05/14/world/asia/68-pakistani-lawyers-are-charged-with-blasphemy-after-protesting-the-police.html.

[106] III.A bölməsinə və xüsusən 45 və 46-cı mətnaltı qeydlərə bax.

[107] Pakistan: *Qadiyani qrupunun, Lahor qrupunun və əhmədilərin islam əleyhinə fəaliyyətləri (qadağan etmə və cəzalandırma) haqqında 1984-cü il tarixli fərman*, http://www.refworld.org/docid/5485673d4.html.

[108] ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html.

[109] 9 noyabr 1985-ci ildə qəbul edilmiş və 11 noyabr 1985-ci ildə Pakistanın rəsmi bülleteninin xüsusi nömrəsində dərc olunmuş Konstitusiyaya Səkkizinci Düzəliş haqqında 1985-ci il tarixli qanun, http://www.pakistani.org/pakistan/constitution/amendments/8amendment.html, maddə 19. Dəyişikliklər edilmiş 270A maddəsi bütün "Hüdud dekretləri"nin dərhal qüvvəyə minməsini və səlahiyyətli qurum tərəfindən mətnlərinə dəyişiklik edilənə, ləğv edilənə və ya əlavələr edilənə qədər qüvvədə qalmasını nəzərdə tutur; həmçinin dəyişikliklər edilmiş 270A maddəsinə əsasən "Hüdud dekretləri"nə məhkəmə nəzarəti şamil olunmur.

yanaşı qüvvədədir.[110] Onlar həm müsəlmanlara, həm də qeyri-müsəlmanlara şamil olunur.[111] "Hüdud dekretləri"nə əsasən sübutetmə ilə bağlı ayrı-seçkilik xarakterli tələblər tətbiq edilir. Məsələn, "Hədd" işlərində (Qurana əsaslanan işlərdə) təqsirləndirilən şəxs qeyri-müsəlman deyilsə, qeyri-müsəlmanın ifadəsi qəbul edilmir.[112]

## E. Ailə qanunvericiliyi

Pakistanın qanunvericilik bazasında mülki və ya ümumi-hüquqi nikahların bağlanması nəzərdə tutulmayıb. Əvəzində nikahların bağlanması dini qurumlar tərəfindən həyata keçirilir.[113] Bu o deməkdir ki, hinduların nikahlarının qeydiyyatı üçün milli hüquq mexanizmi mövcud deyil. Bununla belə, 26 sentyabr 2016-cı ildə Milli Məclis "Hinduların nikahı haqqında" 2016-cı il tarixli qanun layihəsini qəbul etdi,[114] həmin qanun paytaxt İslamabad ərazisinə və Bəlucistan, Xeybər Paxtunxva və Pəncab əyalətlərinə şamil olunur.[115] 15 fevral 2016-cı ildə Sind

---

[110] Misal üçün bax: BBQ, *Pakistanda məhkəmə sisteminin islahatı*, 16 oktyabr 2008-ci il, http://www.unhcr.org/refworld/docid/48f83e932.html, səh. 3, 10-11, 14; Martin Lou, *Hüdud dekretlərinin iyirmi beş ili: baxış*, 64 Wash & Lee L. Rev. 1291-1314 (2007), http://law.wlu.edu/deptimages/Law%20Review/64-4Lau.pdf; D-r Fəqir Hüseyn, *Pakistanın məhkəmə sistemi*, (tarix göstərilməyib) (17 oktyabr 2016-cı il ədək olan informasiyalar), http://www.scribd.com/doc/54195655/Judicial-System-of-Pakistan-faqir-Hussain.

[111] Misal üçün bax: ABŞBDAK, *2012-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran ölkələr – Pakistan*, 20 mart 2012-ci il, http://www.unhcr.org/refworld/docid/4f71a674c.html.

[112] BBQ, *Pakistanda qadınlar, zorakılıq və münaqişə*, 8 aprel 2015-ci il, http://www.refworld.org/docid/55277ceb4.html; AHBQ, *Azlıqlar və yerli xalqlar barəsində ümumdünya elektron məlumat resursu – Pakistan: Ümumi icmal*, sentyabr 2010-cu il, http://www.unhcr.org/refworld/docid/4954ce652.html; BBQ, *Pakistanda məhkəmə sisteminin islahatı*, 16 oktyabr 2008-ci il, http://www.unhcr.org/refworld/docid/48f83e932.html, səh.10; Martin Lou, *Hüdud dekretlərinin iyirmi beş ili: baxış*, 64 Wash & Lee L. Rev. 1291-1314 (2007), http://law.wlu.edu/deptimages/Law%20Review/64-4Lau.pdf.

[113] Pakistan, *Müsəlman ailə qanunvericiliyi haqqında fərman, 1961-ci il*, http://www.refworld.org/docid/4c3f1e1c2.html. Müsəlman ailə qanunvericiliyi haqqında 1961-ci il tarixli fərman "Pakistanın bütün ərazisinə şamil olunur və ölkənin harasında olmasından asılı olmayaraq Pakistanın bütün müsəlman əhalisinə tətbiq edilir və nikahın qeydiyyatı, vərəsəlik, çoxarvadlılıq, talaq, nikahın talaqdan savayı başqa yolla pozulması, himayəçilik və cehiz məsələlərini əhatə edir. Bu qanunun bəzi maddələrinə Müsəlman nikahlarının pozulması haqqında 1939-cu il tarixli qanunla (http://www.refworld.org/docid/4c3f1c632.html) və Qadınların müdafiəsi haqqında 2006-cı il tarixli qanunla (http://www.na.gov.pk/uploads/documents/1321341579_812.pdf) əlavələr edilib. "Qanunda mülki və ya ümumi-hüquqi nikaha icazə verən xüsusi göstəriş yoxdursa, nikah şəhadətnamələri dini qurumlar tərəfindən imzalanır və yerli nikah reyestrində qeydiyyata alınır. […] Fərdi statusa dair qanunvericilik rəsmən kodifikasiya olunmamış qalır və cəmiyyətin adət-ənənəsinə uyğun olaraq həyata keçirilir və ya mülki məhkəmələrə müraciət edilmədən dini qurumlar tərəfindən tətbiq edilir. Azlıq icmalarının nikah, boşanma və vərəsəlik məsələlərini tənzimləyən fərdi statusa dair qanunvericiliyin tarixi ölkənin bölünməsinə qədər qüvvədə olmuş Britaniya qanunvericiliyinə gedib çıxır. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. "Qeyri-müsəlman kişilərin nikahı onlar islamı qəbul etdikdən sonra da qanuni olaraq qalır. Qeyri-müsəlman qadın islamı qəbul edibsə və onun nikahı öncə etiqad etdiyi dinin qaydalarına uyğun olaraq bağlanıbsa, dövlət bu nikahı pozulmuş hesab edir. Qeyri-müsəlman kişi ilə nikaha girdikdən sonra islamı qəbul etmiş qeyri-müsəlman qadınlardan doğulan uşaqlar qanunsuz doğulmuş sayılır və vərəsəlik hüququna malik olmurlar. Nikahı və uşaqların doğulmasını qanuniləşdirməyin yeganə yolu ərin islamı qəbul etməsidir. Hər ikisi başqa dini qəbul etmiş müsəlman kişi və müsəlman qadının uşaqları qanunsuz doğulmuş sayılır və qanuna əsasən dövlət bu uşaqları himayəsinə götürə bilər. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.htm.

[114] Pakistan, *"Hinduların nikahı haqqında" 2016-cı il tarixli qanun*, http://www.na.gov.pk/uploads/documents/1474902799_197.pdf. "Dawn" qəzeti, *Nəhayət Milli Məclis "Hinduların nikahı haqqında" qanun layihəsini qəbul etdi*, 27 sentyabr 2016-cı il, http://www.dawn.com/news/1286344. Senatın bu qanun layihəsini yubatmadan qəbul edəcəyi gözlənilirdi. "Röyters" agentliyi, *Pakistanın qanunvericilik məclisi hindu qadınların hüquqlarını qoruyan nikah haqqında qanun layihəsini qəbul etdi*, 27 sentyabr 2016-cı il, http://in.reuters.com/article/pakistan-hinduism-idINKCN11X0NB.

[115] Pəncab qanunvericilik məclisi, eləcə də Xeybər Paxtunxva və Bəlucistan qanunvericilik məclisləri onlara təqdim edilmiş "Hinduların nikahı haqqında" 2016-cı il tarixli milli qanun layihəsini təsdiq edən qərarlar qəbul etdilər. "Dawn" qəzeti, *Milli Məclis "Hinduların nikahı haqqında" qanun layihəsini qəbul etdi*, 18 avqust 2016-cı il,

qanunvericilik məclisi "Hinduların nikahı haqqında" 2016-cı il tarixli Sind qanununu qəbil etdi, məlumatlara görə bu qanun sikhlərə də şamil olunur.[116] (Həmçinin V.4(a) bölməsinə bax: Hindu şəxslərə dair qanunvericilik bazası.) Xristian nikahları "Nikah haqqında" 1872-ci il tarixli qanun əsasında tanınır.[117] Qeyri-müsəlman dini qruplarından olan, nikahları qeydiyyata alınmayan qadınlar, məlumatlara görə, vərəsəlik, tibbi xidmətlərdən istifadə etmə, səsvermə, pasport alma, əmlak alma və ya satma məsələlərində çətinliklərlə üzləşirlər.[118]

2011-ci ildə "Qadınlar əleyhinə ənənələrin qarşısının alınması (cinayət qanunvericiliyinə dəyişikliklər edilməsi) haqqında" qanun əsasında Cinayət Məcəlləsinə məcburi nikahları qadağan edən 498B maddəsi əlavə olundu.[119] Buna baxmayaraq, məlumatlara əsasən xüsusən xristian və

---

http://www.dawn.com/news/1278328. Konstitusiyanın 142-ci maddəsinin "c" bəndində nəzərdə tutulur ki, əyalət məclisi Konstitusiyaya Dördüncü Düzəlişdə yer alan federal qanunvericilik siyahısına daxil edilməyən istənilən məsələyə dair qanunvericilik normaları qəbul etmək məsələsində müstəsna səlahiyyətə malikdir; fərdi statusa dair qanunvericilik həmin siyahıya daxil edilməyib və buna görə də həmin qanunvericiliyin qəbulu əyalətlərin səlahiyyətinə aiddir. Konstitusiyanın 144-cü maddəsi əyalətlərə səlahiyyəti verir ki, əyalət məsələlərinə dair qanunvericilik qəbul etmək hüququnu hökumətə versinlər. Bax: Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, Dördüncü Düzəliş, 142, 144-cü maddələr.

[116] Pakistan, *Hinduların nikahı haqqında 2016-cı il tarixli Sind qanunu*, 15 fevral 2016-cı il, http://www.pas.gov.pk/index.php/acts/details/en/31/310. Bu qanunda "hindu" terminină belə anlayış verilir: "istənilən formada və ya qaydada induizm, caynizm və ya sikhizm dinlərinə etiqad edən istənilən şəxs". Bax: *eyni mənbə*, maddə 2(f). Həmçinin bax: ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html.

[117] Pakistan, *Xristianların nikahı haqqında 1872-ci il tarixli qanun*, http://www.punjabcode.punjab.gov.pk/public/dr/CHRISTIAN%20MARRIAGE%20ACT,%201872.doc.pdf. Məlumatlara əsasən 2016-cı ilin mayında Lahor Yüksək Məhkəməsi xristianların boşanmasını tənzimləyən "Boşanma haqqında" 1869-cu il tarixli qanuna yeni müddəa əlavə etdi, həmin müddəa arvadının ona xəyanət etdiyini ərin sübuta yetirməsinə ehtiyac olmadan ona boşanmaq hüququ verir. Pakistan, *Boşanma haqqında 1869-cu il tarixli qanun*, http://pakistancode.gov.pk/english/UY2FqaJw1-apaUY2Fqa-a5Y%3D-sg-jjjjjjjjjjjj. "Xristianların boşanmasını tənzimləyən, 1981-ci ildə dəyişikliyə məruz qalan "Boşanma haqqında" qanun kişinin arvadından boşanmasına yalnız o halda icazə verirdi ki, arvadı ona xəyanət etmiş olsun, bu isə boşanma prosesini çoxları üçün alçaldıcı prosesə çevirirdi. Bu qanun bir çox xristian qadınların boşanmaq hüququ əldə etmək üçün islamı qəbul etməyə və ya islam ənənəsi əsasında nikaha girməyə məcbur olmasına gətirib çıxarmışdı". AHBQ, *Pakistanda xristianlara qarşı qanun pozuntuları*, oktyabr 2016-cı il, http://stories.minorityrights.org/pakistan-religious-minorities/chapter/chapter-3/. "Bəzi qadınlar nikahlarını pozmaq üçün islamı qəbul etmək yolunu seçirlər". "*The Express Tribune*" qəzeti, *Xristianların boşanması haqqında qanunun 7-ci maddəsi bərpa olundu*, 30 may 2016-cı il, http://tribune.com.pk/story/1112640/section-7-christian-divorce-act-restored/. Həmçinin bax: "Dawn" qəzeti, *Xristianların boşanması haqqında qanuna Ziyanın dövründə edilmiş dəyişiklik aradan qaldırıldı*, 24 may 2016-cı il, http://www.dawn.com/news/1260356; "*The Express Tribune*" qəzeti, *Lahor Yüksək Məhkəməsi xristian ər-arvadın yalnız xəyanət ittihamı əsasında boşanmasına icazə verən qanunu ləğv etdi*, 23 may 2016-cı il, http://tribune.com.pk/story/1108601/lhc-annuls-law-allowed-christian-couples-divorce-adultery-charges/; Pakistan hökuməti, Qadınların Statusu üzrə Milli Komissiya, *Pakistanda ailə qanunvericiliyinin boşanmış qadınların hüquqlarına təsiri* (tarix göstərilməyib), http://www.ncsw.gov.pk/previewpublication/1 (2 noyabr 2016-cı il tarixinədək olan məlumatlar).

[118] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[119] Pakistan, *"Qadınlar əleyhinə ənənələrin qarşısının alınması (cinayət qanunvericiliyinə dəyişikliklər edilməsi) haqqında" 2011-ci il tarixli qanun*, http://www.na.gov.pk/uploads/documents/1329729400_262.pdf. Bu qanunla Cinayət Məcəlləsinə dəyişikliklər edilərək qadınlara qarşı bir necə cinayət əməli Məcəlləyə daxil edildi. Bu qanuna əsasən, digər əməllərlə yanaşı qadını "aldatmaqla və ya qanunsuz vasitələrlə" qanuni mirasından məhrum etmə; qadını zorla ərə vermə və ya onunla zorla evlənmə, o cümlədən bu əməli mülki mübahisələrin və ya cinayət işləri üzrə mübahisələrin həlli məqsədi ilə törətmə və müqəddəs Qurandan istifadə etməklə qadını nikaha girməyə məcbur etmə və ya buna şərait yaratma üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu əməli törədənlər həmçinin 500.000 rupi cərimə olunurlar. Lakin bu qanun təzyiq və ya məcburetmə yolu ilə qadının bağladığı nikahı (islami nikahı) etibarsız elan etmir; belə nikaha son qoymaq üçün qadın boşanma ərizəsi verməlidir. "Qadınların müdafiəsi (cinayət qanunvericiliyinə dəyişikliklər edilməsi) haqqında" 2006-cı il tarixli qanunla Cinayət Məcəlləsinə 365B maddəsi daxil edildi, həmin maddədə digər məsələlərlə yanaşı deyilirdi ki, "hər hansı qadını nikaha məcbur etmək üçün, yaxud qadının öz iradəsi əleyhinə nikah bağlamağa məcbur olacağını düşünərək onu qaçıran və ya oğurlayan şəxs" cinayət törətmiş olur və ömürlük azadlıqdan məhrum edilir və cərimə ilə

hindu qızlar və qadınlar cəzasızlıq mühitinin mövcud olduğu bir şəraitində məcburən islamı qəbul etmək və məcburi nikaha girmək riski altında qalmaqda davam edirlər (ayrı-ayrı risk qrupları barəsindəki V bölməyə də bax: V.3 – Xristianlar və V.4 – Hindular).[120] "Uşaq nikahlarının qarşısının alınması haqqında" qanunda "uşaq" termininə belə anlayış verilir: yaşı 18-dən aşağı olan oğlan və yaşı 16-dan aşağı olan qız. Bu qanunda nəzərdə tutulur ki, yaşı 18-dən yuxarı olan kişilər yaşı 16-dan aşağı olan qızla evlənməyə görə 1.000 rupiyədək cərimə və ya bir ayadək azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Həmçinin valideyn və ya qəyyum bu cür nikahı təşviq edərsə və ya ona icazə verərsə, yaxud bu cür nikahın bağlanmasının və ya toy mərasiminin keçirilməsinin qarşısını almazsa eyni cəza ilə üzləşə bilər.[121] Lakin bu qanun uşaqla bağlanmış nikahı etibarsız elan etmir.[122] Nəticədə qız məcburi evləndikdən sonra hüquqi addımlar atması üçün onun sərəncamında heç bir vasitə olmur. 14 yanvar 2016-cı ildə Pakistan parlamentinin üzvü bu milli qanuna dəyişikliklər edilməsini təklif etdi, dəyişikliklərə əsasən qadınlar üçün minimal nikah yaşı 18-ə qaldırılmalı və bu qanunvericiliyi pozanlara qarşı daha sərt cəzalar qanunvericiliyə daxil edilməli idi, amma məlumatlara görə İslam İdeologiyası Şurası təklif olunan dəyişiklikləri "islam əleyhinə" yönələn və "küfr" xarakteri daşıyan dəyişikliklər elan edərək rədd etdi.[123]

Müsbət hadisələrə gəlincə, 2014-cü ilin aprelində Sind qanunvericilik məclisi yaşı 18-dən aşağı olan hər hansı şəxsin nikaha girməsini qadağan edən qanun qəbul etdi.[124] Məlumatlara əsasən bu qanunda deyilirdi ki, uşaqla nikah bağlayan və ya buna şərait yaradan şəxs iki ildən üç ilədək azadlıqdan məhrum edilir.[125] Lakin bu qanuna artıq bağlanmış olan bu cür nikahların etibarsız elan edilməsi mexanizmi daxil edilmədi.[126] 2015-ci ilin yanvarında Pəncab qanunvericilik

---

cəzalandırılır. Pakistan, *"Qadınların müdafiəsi (cinayət qanunvericiliyinə dəyişikliklər edilməsi) haqqında" 2006-cı il tarixli qanun*, http://www.na.gov.pk/uploads/documents/1321341579_812.pdf.

[120] ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html.

[121] Pakistan, *Uşaq nikahlarının qarşısının alınması haqqında 1929-cu il tarixli qanun*, http://www.refworld.org/docid/4c3f19a02.html. Həmçinin bax: *Müsəlman ailə qanunvericiliyi haqqında 1961-ci il tarixli fərman*, http://www.refworld.org/docid/4c3f1e1c2.html.

[122] Həmçinin məlumatlara görə bu qanuna əsasən "uşaqla nikaha girmə elə cinayətdir ki, onu törədənin girov müqabilində azadlığa buraxılmasına və beləliklə cəzadan yaxa qurtarmasına imkan verilir. Bu qanunda erkən nikah bağlamalı olmuş uşağın reabilitasiyası barədə heç nə deyilmir". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Uşaqlar*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/Children.pdf, səh. 19; PİHK, *Pakistanın universal dövri icmalı: Vədlərimizə baxış (Vətəndaş cəmiyyətinin orta müddətli qiymətləndirici hesabatı)*, iyun 2015-ci il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2015/09/A-lookback-at-our-promises.pdf, səh. 44.

[123] HRW, *Xəbərlər: Pakistan qızlarının müdafiə edilməsi "küfr" deyil*, 18 yanvar 2016-cı il, https://www.hrw.org/news/2016/01/18/dispatchesprotecting-pakistans-girls-isnt-blasphemy. "Şura bildirdi ki, islam azyaşlıların nikahını qadağan etmir, belə ki, o, hər iki tərəfin cinsi yetkinliyə çatmasından sonra nikah münasibətlərinə daxil olmağa icazə verir". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html. Həmçinin bax: PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Uşaqlar*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/Children.pdf, səh. 19; "*Al Arabiya News*" telekanalı, *Pakistanlı ruhanilər "islama zidd olan" nikah haqqında qanun layihəsini əngəllədilər*, 15 yanvar 2016-cı il, http://english.alarabiya.net/en/News/asia/2016/01/15/Pakistani-clerics-block-un-Islamic-child-marriage-bill.html.

[124] "*The Express Tribune*" qəzeti, *Uşaq hüquqları: Sind qanununa əsasən yaşı 18-dən aşağı olan şəxslərin nikahı qanunla cəzalandırılacaq*, 29 aprel 2014-cü il, http://tribune.com.pk/story/701468/child-rights-sindh-makes-marriage-under-18-punishable-by-law/. "Uşaq nikahlarının qarşısının alınması haqqında" Sind qanunu adlandırılan qanunun tam mətnini bu saytda tapmaq olar: http://sindhlaws.gov.pk/setup/publications/PUB-14-000238.pdf. Həmçinin bax: "Qardian" qəzeti, *Pakistan uşaq nikahlarına son qoymaq istiqamətində asta, amma davamlı irəliləyişə nail olur*, http://www.theguardian.com/globaldevelopment/2014/jun/02/pakistan-progress-ending-child-marriage.

[125] PİHK, *Pakistanın universal dövri icmalı: Vədlərimizə baxış (Vətəndaş cəmiyyətinin orta müddətli qiymətləndirici hesabatı)*, iyun 2015-ci il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2015/09/A-look-back-at-our-promises.pdf, səh. 24.

[126] Eyni mənbə, səh. 44.

məclisi "azyaşlılarla nikah bağlanmasına son qoymaq" barədə qərar qəbul etdi. 2015-ci ilin martında Pəncabda "Uşaq nikahlarının qarşısının alınması (qanunvericiliyə dəyişikliklər edilməsi) haqqında" 2015-ci il tarixli Pəncab qanunu qəbul edildi. Məlumatlara əsasən bu qanunla uşaqlarla nikah bağlanmasına görə cəzalar altı ay müddətinə azadlıqdan məhrumetməyə və 50.000 rupi cəriməyədək artırıldı. Amma bu qanunda qızların qanuni minimal nikah yaşı 18 yaşınadək artırılmadı və eynilə bu qanun da məcburi nikahları etibarsız elan etmir.[127]

## F. Terrorizm əleyhinə qanunlar

Hökumətin hüquq-mühafizə orqanları vasitəsilə terrorizmlə mübarizə aparması üçün nəzərdə tutulan qanunvericilik bazası Terrorizm əleyhinə 1997-ci il tarixli qanunu (TƏQ) özündə ehtiva edir.[128] Dini azlıqların nümayəndələri, məlumatlara görə, küfr və ya əhmədilər əleyhinə qanunvericilik əsasında irəli sürülən ittihamlardan əlavə, bəzi hallarda həm də TƏQ əsasında irəli sürülən ittihamlarla həbs edilir və məsuliyyətə cəlb olunurlar.[129]
Müşahidəçilər məlumat verirlər ki, Pakistanın ekstremist fəaliyyətlərin və təriqət zorakılığının qarşısını almağa yönələn səyləri getdikcə daha çox hərbi xarakter alır.[130] Məlumatlara əsasən 1998-ci ildə Ali Məhkəmə qərara aldı ki, 1998-ci il tarixli XX saylı fərmanla TƏQ-ə daxil edilən, müəyyən cinayətlərdə ittiham olunan mülki şəxslərin məhkəmə işlərinə baxılması üçün

---

[127] "Röyters" agentliyi, *Pakistanın ikinci əyaləti uşaq nikahlarına qarşı sərt tədbir gördü*, 10 mart 2015-ci il, http://www.reuters.com/article/us-pakistan-law-childmarriage-idUSKBN0M619F20150310; PİHK, *Pakistanın universal dövri icmalı: Vədlərimizə baxış (Vətəndaş cəmiyyətinin orta müddətli qiymətləndirici hesabatı)*, iyun 2015-ci il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2015/09/A-lookback-at-our-promises.pdf, səh. 44.

[128] Pakistan, *Terrorizm əleyhinə 1997-ci il tarixli qanun*, http://www.punjabcode.punjab.gov.pk/public/dr/THE%20ANTITERRORISM%20ACT,%201997.doc.pdf; Pakistan, *Terrorizm əleyhinə 2014-cü il tarixli qanun (İkinci Düzəliş)*, http://www.refworld.org/docid/54f8376a4.html. Həmçinin bax: *Terrorizm əleyhinə repressiv qanuna yenidən baxmalı*, 11 aprel 2014-cü il, http://www.refworld.org/docid/534797594.html.

[129] 2016-cı ilin iyununda Pakistanın cənubundakı Badin rayonunun polisi, məlumatlara görə, TƏQ-in 6-cı və 7-ci maddələri və "Partlayıcı maddələr haqqında" qanun əsasında beş əhmədiyə qarşı CİMP-i qeydə aldı. Yerli media orqanının məqaləsinə əsasən, 12 yaşlı əhmədi oğlan və ailəsinin dörd üzvü evlərinə əldəqayırma bomba atıldıqdan sonra həbs edildilər; məlumatlara görə bu hücum zamanı oğlan xəsarət almışdı. Bax: "Dawn" qəzeti, *Badində əhmədi ailəsinin beş üzvü terrorizm ittihamları ilə həbs edildi*, 30 iyun 2016-cı il, http://www.dawn.com/news/1268212/five-ahmadi-family-members-arrested-over-terrorism-charges-in-badin; "*Rabwah Times*" qəzeti, *Pakistan polisi terrorizmə görə 12 yaşlı terror qurbanını həbs etdi*, 3 iyul 2016-cı il, https://www.rabwah.net/pakistan-police-arrest-12-year-old-terror-victim-for-terrorism/. Məlumatlara görə 2015-ci ilin dekabrında Rabva şəhərindəki əhmədi kitab mağazasının sahibi və idarəçisi həbs edildi və Cinayət Məcəlləsinin 298C maddəsi, habelə TƏQ-in 8-ci maddəsi əsasında ittiham olundu. "*Rabwah Times*" qəzeti, *Əhmədi kitab mağazasının sahibi və idarəçisi küfrə görə həbs edildi*, 12 dekabr 2015-ci il, https://www.rabwah.net/ahmadi-bookstore-owner-and-manager-arrested-under-blasphemy-law/. Məlumatlara əsasən əhmədi nəşri olan "Əl-Fəzl" qəzetini çap etdiklərinə və yaydıqlarına görə redaktora, naşirə, çapçıya və üç digər şəxsə qarşı 2013-cü ilin aprelində Cinayət Məcəlləsinin 295B, 295C maddələri və TƏQ-in 11(W) maddəsi əsasında CİMP təqdim edildi. " "*The Express Tribune*" qəzeti, *Girov müqabilində azad edilmə barədə vəsatət rədd edildi: "Əl-Fəzl"in reaktoru dəmir barmaqlıqlar arxasına göndərildi*, 10 aprel 2015-ci il, http://tribune.com.pk/story/867351/bail-dismissed-al-fazl-manager-sent-behind-bars/.

[130] Silahlı münaqişə məkanları və hadisələri haqqında məlumatların toplanması layihəsi (ACLED), *Pakistanda dini azlıqların hədəfə alınması*, 19 oktyabr 2016-cı il, http://www.crisis.acleddata.com/targeting-religious-minorities-in-pakistan/; BHK, *Pakistanda hərbi məhkəmə sisteminin ədalətsizliyi*, iyun 2016-cı, https://www.icj.org/wp-content/uploads/2016/06/Pakistan-Military-court-Advocacy-Analysis-brief-2016-ENG.pdf, səh. 3; BBQ, *Pakistanda terrorizmlə mübarizə strategiyalarına yenidən baxılması: imkanlar və maneələr*, 22 iyul 2015-ci il, http://www.refworld.org/pdfid/55af7b434.pdf, səh. i, 1. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Konqresi, Konqresin Kitabxanası, *Ekstremizmlə mübarizəyə dair hüquq normaları: Pakistan* (sonuncu yenilənmə tarixi: 25 noyabr 2015-ci il), https://www.loc.gov/law/help/fighting-extremism/pakistan.php. 2009-cu ilin dekabrında Pakistan hökuməti PTMMİ-ni təsis etdi, ona terrorizmə qarşı milli mübarizə səylərini və strategiyasını koordinasiya etmək vəzifəsi həvalə olundu. 2013-cü ildə "Pakistanın terrorizmlə mübarizə üzrə milli idarəsi haqqında" qanunla ("PTMMİ haqqında" qanun) bu quruma rəsmi status verildi. 2014-cü ilin dekabrında federal hökumət elan etdi ki, PTMMİ-ni MFP-nin tərkib hissəsi kimi aktivləşdirəcək və gücləndirəcək, hərçənd ki, bu quruma vəsait ayrılmayıb və məlumatlara görə fəaliyyət göstərmək imkanı yoxdur. Həmçinin eyni mənbədə göstərilmiş digər mənbələrə də bax.

hərbi məhkəmələrin yaradılmasına icazə verən dəyişiklik konstitusiyaya ziddir; həmin məhkəmə qərar çıxardı ki, terrorizmlə bağlı işlər TƏQ əsasında artıq yaradılmış olan, istərsə də yaradıla bilən xüsusi anti-terror məhkəmələrinin icraatına verilməlidir.[131] Lakin 16 dekabr 2014-cü ildə Peşəvərdə həyata keçirilən və məlumatlara görə 148 nəfərin ölümünə səbəb olan hücumdan bir ay sonra 2015-ci ilin yanvarında parlamentin aşağı palatasının üzvlərinin üçdə ikisi hərbi məhkəmələrə terrorizmdə şübhəli bilinən bütün şəxslərin, o cümlədən mülki şəxslərin işlərinə baxmaq səlahiyyəti verən konstitusiya dəyişikliyinin lehinə səs verdilər.[132] Məlumatlara əsasən 2015-ci ilin avqustunda Ali Məhkəmə bu konstitusiya dəyişikliyini təsdiq etdi.[133] Məlumatlara görə 2015-ci ilin yanvarında bu dəyişikliyin qəbul edilməsindən bəri "terrorizmə" dair işlərə baxmaq üçün 11 hərbi məhkəmə yaradılıb.[134]

2016-cı ilin avqustunda "Elektron cinayətlərin qarşısının alınması haqqında" 2016-cı il tarixli qanun qüvvəyə mindi;[135] müşahidəçilər narahatlıqlarını ifadə etdilər ki, bu qanun Pakistanda ifadə və söz azadlığını məhdudlaşdıracaq, eləcə də artıq əlverişsiz vəziyyətdə olan dini azlıq qruplarının dini ifadə azadlığını daha da məhdudlaşdıracaq.[136]

## IV. Pakistanda dini azlıqların vəziyyəti

---

[131] Ali Məhkəmə qərar çıxardı ki, bu işlər artıq mövcud olan və ya yaradıla bilən anti-terror məhkəmələrinin icraatına verilməlidir. Ali Məhkəmə bu qərarında Terrorizm əleyhinə 1997-ci il tarixli qanun əsasında yaradılmış məhkəmələrin riayət etməli olduqları rəhbər prinsipləri müəyyən etdi. Pakistan Ali Məhkəməsi, *1998-ci il tarixli 37, 38, 42 və 43 saylı və 1999-cu il tarixli 4 saylı konstitusiya şikayətləri, habelə mülki qaydada verilmiş 1999-cu il tarixli 1 və 5 saylı şikayətlər*, 17 fevral 1999-cu il, http://www.mqm.org/English-News/Feb-1999/sc-judgment-mtc.htm. Həmçinin bax: PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Ədalət mühakiməsinin həyata keçirilməsi*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/Admin-of-Justice-final.pdf, səh. 2-3.

[132] "[2015-ci ilin] martında hökumət ölümlə nəticələnməyən cinayətlər də daxil olmaqla ölüm cəzasına səbəb olan bütün 28 cinayət əməli ilə bağlı moratoriumu aradan qaldırdı". Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2015/2016-cı il hesabatı – Pakistan*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b2715.html. Beynəlxalq Böhran Qrupu məlumat verir ki, hərbi məhkəmələrin yaradılmasında məqsəd 1997-ci ildə yaradılmış anti-terror məhkəmələrinin qarşılaşdığı çətinlikləri aradan qaldırmaqdır. Lakin "Pakistanın müdafiəsi haqqında" qanunda (PMQ) nəzərdə tutulmuş cinayətlərin siyahısının uzun olduğunu nəzərə alaraq BBQ qeyd edir ki, hərbi məhkəmələr də, yəqin ki, analoji problemlərlə üzləşəcəklər. BBQ, *Pakistanda terrorizmlə mübarizə strategiyalarına yenidən baxılması: imkanlar və maneələr*, 22 iyul 2015-ci il, http://www.refworld.org/pdfid/55af7b434.pdf, səh. 23. Həmçinin bax: "Qardian" qəzeti, *Pakistan siyasətçiləri mülki şəxslərin işlərinə hərbi məhkəmələr tərəfindən baxılmasının lehinə səs verdilər*. 6 yanvar 2015-ci il, http://www.theguardian.com/world/2015/jan/06/pakistan-lawmakers-vote-military-courts-insurgents; "Qardian" qəzeti, *Pakistan məktəbinə hücum: Siyasi rəqiblər anti-terror planı ilə razılaşdılar*, 17 dekabr 2014-cü il, http://www.theguardian.com/world/live/2014/dec/17/pakistan-school-attack-reprisals-against-taliban-after-132-children-killed-in-peshawarrolling-report.

[133] "Əl-Cəzirə" telekanalı, *Pakistan hakimləri hərbi məhkəmələrin yaradılmasını dəstəklədi*, 5 avqust 2015-ci il, http://www.aljazeera.com/news/2015/08/pakistan-judgesuphold-creation-military-courts-150805100022055.html; "Dawn" qəzeti, *Hərbi məhkəmələr Ali Məhkəmənin dəstəyini aldılar*, 5 avqust 2015-ci il, http://www.dawn.com/news/1198533; "Qardian" qəzeti, *Pakistan hərbi məhkəmələrə mülki şəxslər barəsində ölüm hökmü çıxarmaq səlahiyyəti verdi*, 5 avqust 2015-ci il, http://www.theguardian.com/world/2015/aug/05/pakistan-empowers-military-courts-to-pass-death-sentences-on-civilians. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Sülh İnstitutu, *Xüsusi məruzə: Pakistanın terrorizm əleyhinə qanununun qiymətləndirilməsi*, avqust 2015-ci il, http://www.usip.org/sites/default/files/SR377-An-Appraisal-of-Pakistan%E2%80%99s-Anti-Terrorism-Act.pdf.

[134] BHK, *Pakistanda hərbi məhkəmə sisteminin ədalətsizliyi*, iyun 2016-cı, https://www.icj.org/wp-content/uploads/2016/06/Pakistan-Military-court-Advocacy-Analysis-brief-2016-ENG.pdf, səh. 4-5.

[135] Qanunun 10-cu və 11-ci maddələrində kiberterrorizmdən və nifrət yayan çıxışlardan bəhs edilir: Pakistan, *Elektron cinayətlərin qarşısının alınması haqqında qanun, 2016,* 18 avqust 2016-cı il, http://www.na.gov.pk/uploads/documents/1471848732_895.pdf.

[136] Beynəlxalq Jurnalistlər Federasiyası, *Pakistanın kibercinayətlər haqqında qanunu ifadə azadlığı üçün maneədir*, 12 avqust 2016-cı il, http://www.ifj.org/nc/news-single-view/backpid/1/article/pakistan-cybercrime-law-a-setback-for-freedom-of-expression/. "Dinin, ölkənin, onun məhkəmələrinin və silahlı qüvvələrinin İnternetdə tənqid edilməsi bu qanun layihəsinə əsasən rəsmi müdaxiləyə səbəb ola bilən məsələlər arasındadır". "Dawn" qəzeti, *Kibercinayətlər haqqında mübahisəli qanun layihəsi Milli Məclis tərəfindən təsdiqləndi*, 13 aprel 2016-cı il, http://www.dawn.com/news/1251853. Həmçinin bax: "19-cu maddə" (*Article 19*) təşkilatı, *Elektron cinayətlərin qarşısının alınması haqqında 2015-ci il tarixli qanun layihəsi – təhlil, iyun 2016-cı il*, 20 iyun 2016-cı il, http://www.refworld.org/docid/576ce5ba4.html.

Yuxarıda qeyd edildiyi kimi (III.B bölməsi), məlumatlara əsasən həbs yerlərində və polis təcridxanasında saxlanılan dini azlıq nümayəndələrinə qarşı rəftar, xüsusən tutulmuş şəxslər küfrdə təqsirləndirildiyi halda, digər vətəndaşlarla müqayisədə daha pisdir, belə ki, onlar çox zaman təkcə kamera yoldaşları tərəfindən deyil, həm də təhlükəsizlik qüvvələrinin üzvləri tərəfindən zorakılığa məruz qalırlar.[137] 2014-cü ildə media və QHT-lər polis əməkdaşları tərəfindən dini azlıq nümayəndələrinin qətlə yetirilməsi halları barədə məlumat veriblər.[138] Məlumatlara görə polislər dini azlıqların ibadət yerlərinin təhqir edilməsi, vandalizmə məruz qalması və dağıdılması ilə bağlı səthi araşdırmalar aparır və belə hücumların qarşısını almaq üçün tədbir görmürlər.[139]

2014-cü il tarixli qərarında Ali Məhkəmə bildirdi ki, dini azlıq qruplarının yetərincə müdafiə edilməməsinin səbəbi "dövlət tərəfindən səmərəli tədbirlərin görülməməsidir".[140] Ali Məhkəmə qeyd etdi ki, dövlət orqanları və hüquq mühafizə orqanlarının əməkdaşları azlıqların hüquqlarından və problemlərindən xəbərsizdirlər, yaxud onlara münasibətdə yetərincə həssaslıq göstərmirlər, bu isə dini azlıqların hüquqlarının müdafiəsinə maneçilik törədir.[141] Məhkəmə hökumətə təlimat verdi ki, bu vəziyyətin düzəldilməsi üçün bır sıra tədbirlər görsün.[142] Mövcud

---

[137] "Çox zaman Pakistan polisi həbsdə saxlanılan şəxslərə qarşı xüsusən cinayət istintaqı dövründə işgəncədən və digər qəddar rəftar formalarından istifadə edir. Xüsusən ən müdafiəsiz qruplardan olan şəxslər polisin yol verdiyi sui-istifadə hallarının zorakı formalarına məruz qalma riski altındadırlar". "Human Rayts Votç" təşkilatı, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat*, 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html, səh. 35. Misal üçün bu mənbəyə bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 11-12. Həmçinin 96-cı mətnaltı qeydə bax.

[138] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html; PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcpweb.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 133-134. "1990-cı ildən bəri küfr iddiaları ilə əlaqədar qətlə yetirilmiş 60 nəfərdən 32-si dini azlıq nümayəndəsi, 28-i isə müsəlmandır. Qətlə yetirilənlərdən 20-si ya polis təcridxanasında saxlandıqları zaman hücuma məruz qalıblar, ya da polis tərəfindən öldürülüblər, 19 nəfər isə kütlənin hücumu zamanı öldürülüb. "*Agenzia Fides*" xəbər agentliyi, *Asiya/Pakistan – Pakistanda küfr qurbanları barədə məlumatlar: bütün bu iztirablara görə kim cavab verəcək?* 14 noyabr 2014-cü il, http://www.fides.org/en/news/36763.

[139] 2014-cü ilin iyununda Ali Məhkəmə bu qənaətə gəldi ki, müvafiq dövlət orqanları vaxtında qabaqlayıcı tədbirlər görsəydilər, dini azlıqların ibadət yerlərinin təhqir edildiyi insidentlərin qarşısını almaq mümkün olardı. Pakistan Ali Məhkəməsi, *S.M.C. No.1 of 2014 and C.M.A. Nos. 217-K/2014 IN S.M.C. No.1/2014 et al.*, 19 iyun 2014-cü il, http://www.refworld.org/docid/559e57644.html, 8-ci bənd. Həmçinin bax: Birləşmiş Krallığın Daxili İşlər Nazirliyi, *Ölkələr barəsində informasiya və təlimatlar – Pakistan: Əhmədilər,* fevral 2015-ci il, http://www.refworld.org/docid/54ef2a7e4.html, 1.3.1-ci bənd, burada aşağıdakı mənbəyə istinad edilib: Avstriyanın sığınacaq işləri üzrə federal agentliyi, *Faktaraşdırıcı missiyaya dair hesabat – Pakistan, Dini azlıqlar (almanca)*, iyun 2013-cü il, səh. 36, http://www.ecoi.net/file_upload/1729_1374674206_ffm-bericht-pakistan-2013-06.pdf. (Avstriyanın bu faktaraşdırıcı missiyaya dair hesabatının ingiliscə tərcüməsini sorğu əsasında Birləşmiş Krallığın Daxili İşlər Nazirliyindən əldə etmək olar.)

[140] Pakistan Ali Məhkəməsi, *S.M.C. No.1 of 2014 and C.M.A. Nos. 217-K/2014 IN S.M.C. No.1/2014 et al.*, 19 iyun 2014-cü il, http://www.refworld.org/docid/559e57644.html, 19-cu bənd.

[141] Eyni mənbə, 9-cu bənd.

[142] Dini azlıq nümayəndələrinin yetərli müdafiəsinin təmin edilməsi üçün Ali Məhkəmə federal hökumətə təlimat verdi ki: 1) dini tolerantlıq strategiyası hazırlamaq vəzifəsi tapşırılan işçi qrup təşkil etsin; 2) dini və sosial tolerantlıq mədəniyyətinin təşviqi məqsədi ilə məktəb və kollec səviyyələrində tədris edilmək üçün müvafiq tədris proqramları hazırlasın; 3) sosial mediada yerləşdirilmiş nifrət yayan ifadələri işlədənlərin bundan çəkindirilməsini və nifrət yayan fikirlərlə çıxış edənlərin ədalət mühakiməsinə cəlb edilməsini təmin etmək üçün lazımi tədbirlər görsün; 4) Dini azlıqların hüquqları üzrə milli şura təşkil etsin; 5) dini azlıqların ibadət yerlərinin qorunması üçün peşəkar təlim keçilmiş xüsusi polis qüvvələri yaratsın; 6) bütün dövlət qulluğu vəzifələrində azlıqların təmsil olunması üçün kvotaların ayrılması ilə bağlı müvafiq siyasi təlimatların icrasını təmin etsin. Məhkəmə həmçinin təlimat verdi ki, qanunla təmin edilən istənilən hüquqların pozulduğu və ya azlıqların ibadət yerlərinin təhqir edildiyi bütün hallarda müvafiq hüquq mühafizə orqanları dərhal tədbir görməli, o cümlədən cinayət işi açmalıdırlar.

qanunlara yenidən baxılması və dinlərarası harmoniya siyasətinin hazırlanması məqsədi ilə 2014-cü ilin noyabrında tərkibində xristian, hindu və sikh təmsilçilərinin olduğu Azlıqların işləri üzrə Milli Komissiya (AİMK) yaradıldı. 2015-ci ilin noyabrında İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəyə təqdim etdiyi hesabatda hökumət məlumat verdi ki, AİMK-in işi gücləndirilib.[143] Azlıqların işləri üzrə dövlət nazirinin bildirdiyinə sözlərinə görə, 2015-ci ilin mayında dinlərarası harmoniya siyasətinə dair layihənin yekun variantı hazırlandı və bütün əyalət hökumətlərinə tapşırıldı ki, rayonlar səviyyəsində dinlərarası harmoniya komitələri yaratsınlar.[144] Buna baxmayaraq, hökumət cəmiyyət üzvlərinin zorakılıqlarına qarşı dini azlıq nümayəndələrinin yetərli müdafiəsini təmin etmədiyinə və dini azlıq nümayəndələrinə qarşı zorakılığa dözümlü yanaşdığına və ya göz yumduğuna görə tənqid olunmaqda davam edir.[145]
Bununla belə, məlumatlara görə 2015-ci ildə polisin peşəkarlığında və azlıq nümayəndələrinin ayrı-seçkiliyə və icmalararası zorakılığa qarşı yerli hakimiyyət orqanları tərəfindən müdafiə edilməsində bəzi irəliləyişlər baş verib.[146] 2016-cı ilin martında Lahorda bazar günü pasxa bayramı zamanı baş verən, törədilməsinə görə məsuliyyəti Pakistandakı Taliban qruplaşmasından ayrılmış qrupun öz üzərinə götürdüyü və xristianlara qarşı yönəlmiş olduğu bildirilən hücumdan sonra federal hökumət, məlumatlara görə, hərbiləşdirilmiş federal qüvvələri (xüsusi təyinatlı polis dəstələrini) səfərbər etdi; medianın məlumatlarına əsasən, hücumun istintaqı çərçivəsində 5.000 nəfər dindirildi və 200-dən artıq adam həbs edildi.[147]

---

Pakistan Ali Məhkəməsi, *S.M.C. No.1 of 2014 and C.M.A. Nos. 217-K/2014 IN S.M.C. No.1/2014 et al.*, 19 iyun 2014-cü il, http://www.refworld.org/docid/559e57644.html, 37-ci bənd.

[143] Pakistan hökuməti, *Konvensiyanın 9-cu maddəsi əsasında iştirakçı dövlətlərin təqdim etdikləri məruzələrin nəzərdən keçirilməsi; iştirakçı dövlətlərin 2014-cü il üçün təqdim edilən 21-23-cü dövri məruzələri*, 3 oktyabr 2016-cı il, 26 noyabr 2015-ci il, http://www.ecoi.net/file_upload/1930_1465471824_g1527079.pdf, səh. 10, 19-cu bənd.

[144] Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 54. Eyni zamanda bu mənbəyə də bax: "*The Express Tribune*" qəzeti, *"Azlıqların işləri üzrə komissiya" mifi*, 25 may 2016-cı il, http://tribune.com.pk/story/1110485/myth-minorities-commission/.

[145] "Dini azlıq icmalarının üzvləri bildirdilər ki, hökumət azlıqların hüquqlarının təmin edilməsində ardıcıllıq nümayiş etdirmir və dini azlıqlara qarşı rəsmi ayrı-seçkilik qalmaqdadır". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. "2015-ci ildə Pakistan hökuməti dini azadlıqların sistematik, davamlı və kobud pozuntularını törətməkdə və belə pozuntulara dözümlü yanaşmaqda davam edib". ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html. Misal üçün bu mənbəyə də bax: HRW, *2016-cı il üçün dünya üzrə hesabat – Pakistan*, 27 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56bd99299.html; "Fridım Haus" təşkilatı (*Freedom House*), *"Dünyada azadlıq" hesabatı, 2014 – Pakistan*, iyun 2015-ci il, https://freedomhouse.org/report/freedom-world/2014/pakistan; HRW, *Pakistan: Təriqət zəminində qətlləri törədənlərin tutulması, məsuliyyətə cəlb edilməsi*, 13 may 2015-ci il, https://www.hrw.org/news/2015/05/13/pakistan-arrest-prosecute-sectarian-killers; BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, 10 mart 2015-ci il, http://www.refworld.org/docid/552cd9bd24.html.

[146] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html. Lakin 2016-cı ilin sentyabrında "Human Rayts Votç" təşkilatı məlumat verdi ki, "cinayət qurbanlarının çoxu, xüsusən yoxsullar və ən müdafiəsiz qruplara mənsub olanlar, məsələn, qadınlar və etnik və ya dini azlıqlar polislərin təzyiqi və maddi sıxıntılar ucbatından polis bölmələrinə müraciət etməyə meyl göstərmirlər. […] Hüquq müdafiə fəalları deyirlər ki, ən müdafiəsiz vəziyyətdə olan həmin qruplar, habelə cinayətin nüfuzlu şəxs tərəfindən törədildiyini iddia edənlər tərəfindən verilən şikayət ərizələrinin polis tərəfindən qeydiyyata alınması ehtimalı azdır". "Human Rayts Votç" təşkilatı, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat*, 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html, səh. 21.

[147] ACLED-in məlumatlarına əsasən, "azlıq qrupuna hücumdan sonra bu cür tədbirlərin görülməsi dövlət tərəfindən atılan və onun bu qrupları müdafiə etmək öhdəliyinə sadiq olduğunu göstərən ciddi addım idi". ACLED, *Pakistanda dini azlıqların hədəfə alınması*, 19 oktyabr 2016-cı il, http://www.crisis.acleddata.com/targeting-religious-minorities-in-pakistan/. Həmçinin bax: BBC, *Lahordakı hücum: Pasxadakı partlayışdan sonra Pakistan "200 nəfəri həbs etdi"*, 29 mart 2016-cı il, http://www.bbc.com/news/world-asia-35916578; Azad Avropa/Azadlıq Radiosu, *Pasxadakı partlayışdan sonra Pakistan 5.000-dən artıq yaraqlını şübhəli şəxs qismində saxladı*, 29 mart 2016-cı il, http://www.refworld.org/docid/5768ffb815.html; AHBQ, *Lahorda pasxa günündə baş vermiş hücumun xristianlar*

Müxtəlif dövlət orqanları din və təriqət zəminində zorakılıqları törədənləri məsuliyyətə cəlb etmək istəyində olmadıqlarına və bununla da daimi cəzasızlıq mühitinə şərait yaratdıqlarına görə tənqid edildilər.[148] Hökumət tərəfindən "ekstremist" və ya "terrorçu" hesab edilən və dini azlıq nümayəndələrinə qarşı zorakılıqların bəzilərinin arxasında dayandıqları bildirilən bir neçə dini qrup hökumət tərəfindən qadağan edilsə də,[149] müşahidəçilər məlumat verirlər ki, bu qrupların bəziləri əvvəlki adları altında fəaliyyətləri qadağan edildikdən sonra adlarını dəyişərək fəaliyyət göstərməkdə davam edirlər.[150] İslamın adından zorakılığa təhrik etməni qadağan edən

---

*üçün nəticələri,* oktyabr 2016-cı il, http://stories.minorityrights.org/pakistan-religious-minorities/chapter/chapter-4/.

[148] "Dini təşkilatlar və insan hüquqları sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları saxta küfr iddiaları irəli sürmüş şəxslərin cəzalandırılmaması ilə bağlı narahatlıqlarını ifadə etməkdə davam edirlər. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan,* 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. "Dini azlıq icmalarının rəyinə görə, Pakistan hökuməti Pakistandakı Taliban qruplaşması kimi terrorçu təşkilatların onlara qarşı amansız hücumlarının qarşısını almaq və ya bu hücumları həyata keçirənləri ədalət mühakiməsi qarşısına çıxarmaq istəyində deyil, bəziləri isə düşünürlər ki, bəzi hökumət məmurları və yerli polis əməkdaşları bu zorakılıq aktlarına rəğbətlə yanaşırlar". ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan,* 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html. "Dini azlıqlar və azlıqda olan təriqətlər 2015-ci ildə bütün Pakistan ərazisində yaraqlıların hədəfinə çevrilib. Əksər hallarda pozuntu törədənlər cəzasız qalırlar". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı,* mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 2. BHK-nın bildirdiyinə görə, "insanlar küfr etməkdə təqsirləndirildikləri zaman Pakistan dövlətinin bütün qurumları (icra hakimiyyəti, parlament və məhkəmə orqanlarının nümayəndələri) qanunvericilikdə nəzərdə tutulmuş insan hüquqlarının müdafiəsi vəzifələrinin icrasından faktiki olaraq imtina edirlər, bu insanları ya bilərəkdən kütlənin və mütəşəkkil dini qruplaşmaların ixtiyarına buraxır, ya da kökündən ədalətsiz olan məhkəmə araşdırmaları ilə üz-üzə qoyurlar". BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası,* noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 6. "Ölkədaxili və beynəlxalq insan hüquqları təşkilatlarının bildirdiyinə görə, hökumətin bir qayda olaraq cəmiyyətdəki sui-istifadə hallarını araşdırmaması, bu halların təqsirkarlarını həbsə alıb məsuliyyətə cəlb etməməsi cəzasızlıq mühiti yaradıb ki, bu da dözümsüzlük və zorakılıq aktlarına şərait yaradıb. İl ərzində dövlət orqanları bir çox hallarda qurbanları kütlənin dini motivlərdən irəli gələn zorakılığından qorumayıblar". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan,* 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html. "Pakistan hökumətinin [dini azlıq icmalarına qarşı] bu zorakılıqlara reaksiyası təhlükəsizlik qüvvələrinin və digər dövlət orqanlarının personalının səriştəsizliyindən, etinasızlığından, yaxud da onlarla ekstremistlər arasında gizli sövdələşmənin olmasından xəbər verir". HRW, *Pakistan: Təriqət zəminində qətlləri törədənlərin tutulması, məsuliyyətə cəlb edilməsi,* 13 may 2015-ci il, https://www.hrw.org/news/2015/05/13/pakistan-arrestprosecute-sectarian-killers. Həmçinin bax: HRW, *2016-cı il üçün dünya üzrə hesabat – Pakistan,* 27 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56bd99299.html; BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq,* 10 mart 2015-ci il, http://www.refworld.org/docid/552cd9bd24.html.

[149] Terrorizm əleyhinə qanunun (TƏQ) 11B maddəsinə əsasən, federal hökumət aşağıdakı hallarda təşkilatı "bu qanunla qadağan olunan təşkilatlar siyahısına daxil edə bilər: a) onun terrorçuluqla əlaqəsi olduğunu; b) yaxud bu qanunla fəaliyyəti qadağan edilmiş şəxsin və ya təşkilatın birbaşa və ya dolayı sahibliyində və ya nəzarətində olduğunu; c) yaxud da bu qanunla fəaliyyəti qadağan edilmiş şəxsin və ya təşkilatın adından və ya onun göstərişi ilə fəaliyyət göstərdiyini güman etmək üçün əsaslı səbəblər olduqda". 11B maddəsində "terrorçuluqla əlaqəsi olan" termininin anlayışı verilir. 11E maddəsində qadağan edilmiş təşkilata qarşı görülə bilən tədbirlər sadalanır, buraya aşağıdakılar daxildir: təşkilatın ofislərinin qapadılması, bütün ədəbiyyatının və digər materiallarının müsadirə olunması, mətbuatda və ya digər kütləvi informasiya vasitələrində materiallarının nəşr olunmasının, çapının və ya yayımlanmasının, üzvlərinə pasport və ya yol sənədi verilməsinin qadağan olunması və s. Pakistan, *Terrorizm əleyhinə 1997-ci il tarixli qanun,* http://www.punjabcode.punjab.gov.pk/public/dr/THE%20ANTI-TERRORISM%20ACT,%201997.doc.pdf, 11A, 11B, 11E maddələri.

[150] Məlumatlara görə 2015-ci ilin dekabrında daxili işlər naziri bildirdi ki, nazirlik və əyalət hökumətləri qadağan edilmiş qruplaşmaların yeni adlar altında peyda olmasına son qoymaq üçün yeni MFP-yə uyğun olaraq lazımi tədbirləri görüblər. "*Dawn*" qəzeti, *Senat qadağan edilmiş 61 qruplaşmanın adını çəkdi, "Camaat-ud-Dava" qruplaşması isə müşahidə altındadır,* 18 dekabr 2015-ci il, http://www.dawn.com/news/1227187; PSAİ, *Qadağan edilmiş qruplaşmaların fəaliyyətinə son qoyulması,* 7 dekabr 2015-ci il, http://pakpips.com/art.php?art=174. Bununla belə, ABŞ Dövlət Departamenti qeyd etdi ki, "qadağan edilmiş qruplaşmaların çoxu hələ də fəaliyyət göstərir, bəziləri isə qadağan edilən kimi adlarını dəyişdirməklə qanunun tələblərindən yayınırlar. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan,* 14 dekabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html. Məsələn, Beynəlxalq Sülh Naminə Karnegi Fondu 2014-cü ilin aprelində məlumat verdi ki, "Təhriki-Cəfəriyə Pakistan" qruplaşması "iki dəfə qadağan edilib,

qanunvericilik aktlarının mövcudluğuna baxmayaraq,[151] məlumatlara görə dini azlıq icmalarına qarşı nifrət yayan çıxışlar üstünlük təşkil edir, aparıcı kütləvi informasiya vasitələri isə senzura tətbiq etmədən dini azlıq icmalarına qarşı nifrət yayan və zorakılığa təhrik edən çıxışlara imkan yaradırlar.[152] 2014-cü ilin iyununda aparılmış sorğuya əsasən, respondentlərin 91 faizi İnternet məkanında dini azlıqlara qarşı nifrət yayan çıxışlarla qarşılaşıblar.[153] Məlumatlara görə 2014-cü ilin dekabrında Milli Fəaliyyət Planının qəbulundan sonra polis nifrət yayan çıxışlara və səsgücləndiricilərdən sui-istifadə etməyə görə bəzi şəxsləri, o cümlədən dini liderləri və ruhaniləri həbs etdi;[154] kitab mağazaları nifrət yayan ədəbiyyat satdıqları iddia edilərək

---

amma müxtəlif adlar altında fəaliyyətini davam etdirib". Beynəlxalq Sülh Naminə Karnegi Fondu, *Vəziyyətə dair hesabat: Pakistan*, 9 aprel 2014-cü il, http://carnegieendowment.org/2014/04/09/situation-reportpakistan. Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabata əsasən, "hökumət "ekstremist" və ya "terrorçu" hesab etdiyi dini yönümlü qruplaşmaların fəaliyyətlərinə və ya onlara üzvlüyə öncə qoyduğu qadağaların tətbiqini davam etdirib". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: "*The Express Tribune*" qəzeti, *Plan yaxın gələcəkdə baş tutmayacaq: hökumət terrorizmlə mübarizə planından sakitcə geri çəkilir*, 8 mart 2015-ci il, http://tribune.com.pk/story/849724/not-in-the-short-term-govt-quietly-dilutes-its-counter-terrorism-plan/. Pakistan İnsan Hüquqları Komissiyası qeyd etdi ki, "qadağan edilmiş dini qruplaşmaların etirazları və mitinqləri ölkədə mütəmadi olaraq baş verir, vətəndaş cəmiyyəti qrupları bu cür mühitə etiraz etsələr də, hökumət qanunsuz elan etdiyi həmin qruplaşmalara qarşı çox az tədbirlər görür" PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Toplaşmaq azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-Assembly.pdf. səh. 6.

[151] Nifrət yayan çıxışlar etmə Cinayət Məcəlləsinin 153A maddəsinə əsasən cinayət əməli sayılır. Pakistan, *Cinayət Məcəlləsi*, 1860, http://www.refworld.org/docid/485231942.html.

[152] CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 15-ci bənd. Məlumatlara əsasən Pakistanın elektron kütləvi informasiya vasitələrinin tənzimlənməsi üzrə dövlət idarəsi bir neçə dini televiziya kanalının fəaliyyət göstərməsinə icazə verib və onların yayımlarına az nəzarət edir. BBQ, *Pakistanda terrorizmlə mübarizə strategiyalarına yenidən baxılması: imkanlar və maneələr*, 22 iyul 2015-ci il, http://www.refworld.org/docid/55af7b434.html, səh. 15. "Bəzi qəzetlər və digər kütləvi informasiya vasitələri, xüsusən yerli dildə çıxan mətbuat dini azlıqlara, xüsusən əhmədilərə və hindulara münasibətdə alçaldıcı ifadələrin yer aldığı məqalələri dərc etməkdə davam edirlər. Hətta bəzi təməlçi sünni qruplar əhmədilərə, şiələrə, digər sünnilərə və hindulara qarşı zorakılığa çağırışların yer aldığı ədəbiyyatı çap edirlər. Lakin Pakistanın əsas media orqanları müstəqil surətdə dini azlıqların məsələlərini qaldırır və problemləri tənqid edirlər". Avstriya: Federal Daxili İşlər Nazirliyi, *Pakistan: Problemlər və perspektivlər*, oktyabr 2014-cü il, http://www.refworld.org/docid/54520d204.html, səh. 83.

[153] Məlumatlara əsasən *Facebook* və *Twitter* səhifələrinin və yazılarının təhlili göstərir ki, istifadəçilərin şərhlərində nifrət yayan qeydlər yer alır və çox zaman belə qeydlərin konkret hədəfinə çevrilən qruplar sırasına şiələr, əhmədilər və hindular, eləcə də ateistlər daxildir. Pakistan Ali Məhkəməsi, *S.M.C. No.1 of 2014 and C.M.A. Nos. 217-K/2014 IN S.M.C. No.1/2014 et al.*, 19 iyun 2014-cü il, http://www.refworld.org/docid/559e57644.html, 19-22-ci bəndlər; həmçinin bax: AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2014 – Pakistan*, 3 iyul 2014-cü il, http://www.refworld.org/docid/53ba8dda5.html.

[154] Məlumatlara görə mikrofonlardan və ya səsgücləndiricilərdən sui-istifadəyə görə həbslərin çoxu Pəncab əyalətində onların istifadəsini tənzimləyən qanun əsasında həyata keçirilib. PSAİ, *Nifrət yayan çıxışlar və məhdudiyyət qoyulan ifadələr: balansın gözlənilməsi*, 7 dekabr 2015-ci il, http://pakpips.com/art.php?art=172. Bax: Pakistan, Mikrofonların və ya səsgücləndiricilərin istifadəsinin tənzimlənməsi və istifadəsinə nəzarət edilməsi haqqında *[*Pəncab əyalətinin*]* fərmanı, 1965, http://punjablaws.gov.pk/laws/182.html. 2016-cı ilin mayında Milli Məclis "Cinayət qanunvericiliyi (qanunvericiliyə dəyişikliklər) haqqında" qanun layihəsini qəbul etdi, bu qanun Cinayət Məcəlləsinin 298-ci maddəsinin tələblərini sərtləşdirməli idi. Bu material hazırlandığı anda qanun layihəsi hələ Senat tərəfindən təsdiqlənməmişdi. Bax: Pakistan, *Cinayət qanunvericiliyi (qanunvericiliyə dəyişikliklər) haqqında 2016-cı il tarixli qanun layihəsi*, 24 may 2016-cı il, http://www.senate.gov.pk/uploads/documents/1464075926_695.pdf, maddə 2(2). Həmçinin bax: BHK, *Pakistanda hərbi məhkəmə sisteminin ədalətsizliyi*, iyun 2016-cı, https://www.icj.org/wp-content/uploads/2016/06/Pakistan-Military-court-Advocacy-Analysis-brief-2016-ENG.pdf, səh. 8. Həmçinin bax: "Hökumət terrorizmlə mübarizə aparılmasına yönələn, təriqətlər arasında nifrət yayan çıxışlara qarşı mübarizəni konkret vəzifə kimi özündə ehtiva edən Milli Fəaliyyət Planını (MFP) elan etdi və bildirdi ki, digərlərini "kafir" adlandıran şəxslər barəsində məhkəmə təqibini həyata keçirəcək. Sonradan dövlət orqanları təriqətlər arasında nifrət yayan çıxışlar etmiş şəxslər barəsində məhkəmə təqibinə başladılar və təriqətlər arasında nifrət yayan çıxışlar etməkdə təqsirləndirilən ruhanilərin hərəkət azadlığını məhdudlaşdırdılar". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

qapadıldı, bəzi məscidlərdən və mədrəsələrdən dini materiallar müsadirə olundu.[155] Məlumatlara əsasən 2015-ci ilin yanvarından mayınadək 21 nəfər nifrət yayan çıxışlara görə məhkum edildi.[156] 2015-ci ilin oktyabrının əvvəllərində federal və əyalət hökumətləri, məlumatlara görə, təriqətlər arasında nifrət yaymaqda təqsirləndirilən yüzlərlə ruhaninin hərəkət azadlığına qadağa qoyulduğunu elan etdilər.[157] İddia edildiyinə görə, Milli Fəaliyyət Planının icra edilməli olması səbəbindən təzyiq altında olan polislər dini azlıq qruplarının üzvlərini ədalətsiz olaraq həbsə alırlar.[158] 2016-cı ildə Pakistanın məruzəsini nəzərdən keçirərkən İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə komitə dini nifrət yayan çıxışların və bu cür nifrətə əsaslanan cinayətlərin qarşısının alınması istiqamətində hökumətin səylərini, o cümlədən təqsirkarların həbsə alınmasını təqdir etdi. Bununla belə, Komitə bildirdi ki, dini nifrətə əsaslanan cinayət hadisələrinin, məsələn, dini azlıqlardan olan şəxslərin, xüsusən xəzərlərin, xristian dalit icması və hindu dalit icması üzvlərinin və əhmədilərin təqib edilməsi, kütlənin zorakılığına məruz qalması və qətlə yetirilməsi hallarının çoxluğundan və bununla bağlı istintaq və məhkəmə təqibinin aparılmamasından "dərin narahatlıq" keçirməkdə davam edir. O həmçinin "dini azlıqlara qarşı nifrət yayan çıxışların, o cümlədən polis əməkdaşlarının və siyasi partiyaların bu cür çıxışlarının, habelə mediada, sosial şəbəkələrdə və dini toplantılarda yer alan belə çıxışların" artdığı barədə məlumatlardan narahatlığını ifadə etdi.[159]

Həmçinin məlumatlara görə dövlət orqanları məhkəmə hakimiyyəti nümayəndələrini, vəkilləri, insan hüquqlarının müdafiəçilərini və dini azlıq qruplarının üzvlərinin hüquqlarını müdafiə edən digər şəxsləri yetərli müdafiə ilə təmin etmirlər, bu şəxslər təhdid edilir, qorxudulur, təqib olunur və fiziki hücumlara məruz qalırlar.[160]

---

[155] "*The Nation*" qəzeti, *Milli Fəaliyyət Planı*, 29 iyun 2016-cı il, http://nation.com.pk/columns/29-Jun-2016/national-action-plan; "*The Express Tribune*" qəzeti, *Sərt tədbirlər: MFP terrorizm üzərində qara bulud kimi dolaşır*, 23 iyun 2016-cı il, http://tribune.com.pk/story/1128401/stringentmeasures-nap-hovers-like-dark-cloud-terrorism/; "*The Indian Express*" qəzeti, *Pakistan ekstremizmlə məşğul olan 250 dini mədrəsəni qapatdı*, 25 dekabr 2016-cı il, http://indianexpress.com/article/world/world-news/pakistan-shuts-down-254-religions-seminaries-involvedin-extremism/; PSAİ, *MFP-nin əhatə etdiyi bütün məsələlərin qısa icmalı*, 14 dekabr 2015-ci il, http://pakpips.com/art.php?art=166; "*The Express Tribune*" qəzeti, *Nifrət yayan çıxışlar: "Əhli-Sünnə Vəl Camaat" qruplaşmasının rəhbəri altı ay müddətinə azadlıqdan məhrum edildi*, 6 oktyabr 2015-ci il, http://tribune.com.pk/story/967870/hatespeech-aswj-leader-sentenced-to-six-months-in-prison/; "*Pakistan Today*" qəzeti, *Ordu rəhbərinin iştirakı ilə keçirilmiş görüşdə baş nazir ruhaniləri bir araya gətirdi*, 8 sentyabr 2015-ci il, http://www.pakistantoday.com.pk/2015/09/08/national/with-army-chief-on-table-pm-brings-clergy-on-board/; Beynəlxalq Böhran Qrupu, *Pakistanda terrorizmlə mübarizə strategiyalarına yenidən baxılması: imkanlar və maneələr*, 22 iyul 2015-ci il, http://www.refworld.org/docid/55af7b434.html, səh. 18-19; "*The Express Tribune*" qəzeti, *Nifrət yayan çıxışlar: Cümə namazlarını aparan vaiz 10 il müddətinə azadlıqdan məhrum edildi*, 4 iyul 2015-ci il, http://tribune.com.pk/story/914409/hate-speech-prayer-leader-sentenced-to-10-years-in-prison/; "*The Express Tribune*" qəzeti, *Pakistan; imam şiələr əleyhinə xütbə oxuduğuna görə beş il müddətinə azadlıqdan məhrum edildi*, 20 may 2015-ci il, http://tribune.com.pk/story/889374/pakistani-imam-jailed-for-five-yearsfor-hate-speech/.

[156] "*Dawn*" qəzeti, *Nifrət yayan çıxışların susdurulması*, 21 may 2015-ci il, http://www.dawn.com/news/1183172/silencing-hate-speech.

[157] "[MFP elan edildikdən sonra] dövlət orqanları təriqətlər arasında nifrət yayan çıxışlar etmiş şəxslər barəsində məhkəmə təqibinə başladılar və təriqətlər arasında nifrət yayan çıxışlar etməkdə təqsirləndirilən ruhanilərin hərəkət azadlığını məhdudlaşdırdılar". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[158] "Hökumətin rəqəmlərinə əsasən, təriqətlər arasında nifrəti alovlandırma iddiaları əsasında [2015-ci ilin] oktyabrınadək 9.400 nəfər həbs edilib; bəzi kitab satıcıları və naşirlər iddia edirlər ki, həbsləri həyata keçirmə barədə göstərişlərin təzyiqi altında olan polislər tərəfindən ədalətsiz olaraq təqib edilirlər". Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2015/2016-cı il hesabatı – Pakistan*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b2715.html. Həmçinin bax: PSAİ, *Nifrət yayan çıxışlar və məhdudiyyət qoyulan ifadələr: balansın gözlənilməsi*, 7 dekabr 2015-ci il, http://pakpips.com/art.php?art=172.

[159] CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 15-ci bənd.

[160] "Komitə azlıqların hüquqlarının müdafiəsi sahəsində çalışan hüquq müdafiəçilərinin, vəkillərin və jurnalistlərin təhdid edilməsi, oğurlanması və qətlə yetirilməsi hallarının çoxluğundan və belə halların araşdırılması və təqsirkarların ədalət mühakiməsi qarşısına çıxarılması üçün iştirakçı dövlət tərəfindən görülən tədbirlərin

Məlumatlara əsasən dövlət orqanları hindu və xristian qadınları və qızları məcburi şəkildə islamı qəbul etməkdən və məcburi nikahlardan müdafiə etmək üçün yetərli tədbirlər görmürlər.[161] (Həmçinin III.E bölməsinə bax.) Məcburi nikahları cinayət əməli kimi müəyyən edən "Qadınlar əleyhinə ənənələrin qarşısının alınması (cinayət qanunvericiliyinə dəyişikliklər edilməsi) haqqında" 2011-ci il tarixli qanunun[162] icrası ilə əlaqədar 2014-cü ildə Aurat Fondu tərəfindən Pakistanın altı rayonunda aparılmış araşdırma nəticəsində müəyyən edildi ki, "insanlar bu qanundan xəbərsizdirlər, hətta bu qanunun tətbiqinin həvalə olunduğu hüquq mühafizə orqanlarının əməkdaşlarında, o cümlədən prokurorlarda onu tətbiqi barədə aydın təsəvvür yoxdur".[163] Bundan başqa, məlumatlara əsasən qurbanların müdafiə ilə təmin edilməsinə yönələn yetərli prosessual təminatlar da yoxdur.[164]
Məlumatlara görə tədris müəssisələri şagirdlərdən tələb edirlər ki, ərizə formalarında dini mənsubiyyətlərini göstərsinlər. Qeyri-müsəlmanlar dini mənsubiyyətləri barədə dini icmalarının rəhbəri tərəfindən təsdiqlənmiş sənəd təqdim etməli, müsəlmanlar isə Məhəmməd peyğəmbərin sonuncu peyğəmbər olduğuna inandıqlarını bəyan etməlidirlər, bu isə əhmədiləri onların sırasından xaric edir.[165] Məlumatlara əsasən qeyri-müsəlman şagirdlərə islam dərslərinin keçilməsi rəsmən tələb olunmur, lakin çox zaman məktəb təhsili sistemində bu dərslərin alternativi təklif olunmur.[166] Bundan başqa, məlumatlarda bildirilir ki, təhsil sistemində dini dözümsüzlük geniş yayılıb və dövlət məktəblərinin dərsliklərinə dini azlıqlara qarşı alçaldıcı ifadələr daxil edilib.[167] Məlumatlara görə dövlət məktəblərində istifadə edilən dərsliklərin 2016-

---

məhdudluğundan narahatdır". CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər,* 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 39-cu bənd. Həmçinin bax: BMTİHAK, *Mətbuat üçün brifinq*, 9 may 2014-cü il, http://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=14583&LangID=E; BMT-nin İnsan Hüquqları Şurası, *Hakimlərin və vəkillərin müstəqilliyi məsələsi üzrə xüsusi məruzəçinin məruzəsi, Əlavə: Pakistan missiyası*, 4 aprel 2013-cü il, A/HRC/23/43/Add.2, http://www.refworld.org/docid/51b9a0794.html, 52-ci bənd.

[161] HRW, *2016-cı il üçün dünya üzrə hesabat – Pakistan*, 27 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56bd99299.html; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Məlumatlara əsasən 2015-ci ilin noyabrının sonlarında Senatın İnsan hüquqları üzrə funksional komitəsi dinini dəyişməyə məcbur edilməni cinayət əməli kimi müəyyən etmək və küfr əleyhinə qanunvericilikdən sui-istifadə edilməsinin qarşısını almaq barədə təklifi qəbul etdi; lakin məlumatlara görə İslam İdeologiyası Şurası qəti şəkildə hər hansı belə qanunvericiliyin əleyhinə çıxdı. PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 2.

[162] Pakistan, *Qadınlar əleyhinə ənənələrin qarşısının alınması (cinayət qanunvericiliyinə Üçüncü Düzəliş) haqqında 2011-ci il tarixli qanun,* http://www.refworld.org/docid/544f70494.html.

[163] Aurat Fondu və İnformasiya Xidməti Fondu, *Pakistanda məcburi nikahlar və mirasdan məhrum edilmə: Qadınlar əleyhinə ənənələrin qarşısının alınması (cinayət qanunvericiliyinə dəyişikliklər edilməsi) haqqında 2011-ci il tarixli qanunun icrasında substantiv və struktur xarakterli qüsurların öyrənilməsi üçün tədqiqat,* oktyabr 2014-cü il, http://www.af.org.pk/pub_files/1416847483.pdf, səh. 119.

[164] Məsələn, məcburi nikahların qurbanları nikaha razılıqlarının olub-olmadığı barədə məhkəmələr tərəfindən onlara sual verilərkən adətən hələ də pozuntu törədənin ailəsinin üzvü olaraq qalmaqda davam edirlər. "Həmrəylik və Sülh Uğrunda Hərəkat", Pakistan, *Pakistanın xristian icmasında məcburi nikahlar və dinini dəyişməyə məcbur edilmə*, aprel 2014-cü il, https://d3n8a8pro7vhmx.cloudfront.net/msp/pages/162/attachments/original/1396724215/MSP_Report_-_Forced_Marriages_and_Conversions_of_Christian_Women_in_Pakistan.pdf, səh. 23-25.

[165] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[166] AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 20. Lakin 2016-cı ilin iyulunda AHBQ məlumat verdi ki, "müsbət addım olaraq, 2016-cı ilin yanvarında elan edildi ki, 1 aprel 2016-cı ildən "Əxlaqiyyat" (Etika) adlanan kitab bütün Sind dövlət məktəblərinin tədris proqramına daxil edilib və bununla da yalnız islam fənlərinin tədrisi barədə tələbin əvəzinə azlıqlardan olan şagirdlərin xristianlıq, induizm və sikhizm kimi dinlərin təlimlərini öyrənmələrinə icazə verilib". AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2016 – Pakistan*, 12 iyul 2016-cı il, http://www.refworld.org/docid/5796082215.html.

[167] UHK, *Pakistanın 5-ci dövri məruzəsinə dair yekun qeydlər,* 11 iyul 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CRC/C/PAK/CO/5&Lang=En,

cı ildə nəzərdən keçirilməsi göstərdi ki, "tədris proqramında dini azlıqlara qarşı qərəzlilik tendensiyası daha da güclənir".[168] Müsəlman ruhanilərin idarə etdiyi özəl məktəblərdə (mədrəsələrdə) təriqətlərarası və ya dini nifrəti tədris və ya təşviq etmək qanunla qadağan edilib; lakin bəzi müşahidəçilər mədrəsələrdən ekstremist baxışların yayılması, hərbi təlim keçmə və döyüşçülər sırasına cəlb etmə məqsədləri üçün istifadə edilməsindən narahatlıqlarını ifadə ediblər.[169] "Human Rayts Votç" təşkilatının bildirdiyinə görə, 2015-ci ildə hökumət, məlumatlara əsasən, "mədrəsələrin (islam məktəblərinin) fəaliyyətinin tənzimlənməsinə və ölkədə fəaliyyət göstərən könüllü silahlı dəstələrin buraxılmasına ehtiyac olduğunu etiraf etdi, amma bunun üçün çox az addımlar atdı".[170] Federal və əyalət səviyyələrində dövlət qulluğunda dini azlıq qruplarının lazımi qaydada təmsil olunmasını təmin etmək öhdəliyinin konstitusiyada nəzərdə tutulduğuna baxmayaraq,[171] həmin qruplar məlumat verdilər ki, istər federal, istərsə də əyalət

---

30-cu bənd; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. 2016-cı ilin aprelində ABŞBDAK bildirdi ki, "bu hesabatda gəlinən əsas qənaətlər ondan ibarətdir ki, Pakistanın dövlət məktəblərindəki dərsliklərin qeyri-islami inanclara və qeyri-müsəlmanlara aid hissəsi qərəzliliyi, etimadsızlığı və alçaltmanı tədris etməkdə davam edir. Bundan əlavə, dərsliklərdə Pakistanın qeyri-müsəlman vətəndaşları ölkənin düşməni kimi qəbul edilənlərə rəğbətlə yanaşan şəxslər kimi göstərilir: Pakistan xristianları qərblilərə və ya istismarçı Britaniya müstəmləkəçilərinə, Pakistan hinduları Pakistanın qatı düşməni olan hindlilərə bərabər tutulur. Belə qavrayışlar şagirdlərdə öncədən belə təsəvvür formalaşdırır ki, Pakistanın qeyri-müsəlman əhalisi yabançı və qeyri-vətənpərvərdir. Dini azlıq icmaları barədə geniş yayılan və stereotip xarakteri alan bu təsəvvürlər ondan xəbər verir ki, onlar güvənilə bilməyən, dini nöqteyi-nəzərdən aşağı səviyyədə olan və ideoloji cəhətdən fitnəkar və qeyri-tolerant olan insanlar hesab edilir. Dərsliklərdə dinlərin kompleks halında dərindən öyrədilməməsi, dini azlıqların hüquqlarının və Pakistanın inkişafına və müdafiəsinə verdikləri müsbət töhfələrin tədris edilməməsi bu cür mülahizələri daha da gücləndirir". ABŞBDAK, *Pakistanın qeyri-tolerantlığın tədrisi: dövlət məktəblərindəki dərsliklərdə dini qərəzlilik*, aprel 2016-cı il, http://www.uscirf.gov/sites/default/files/USCIRF_Pakistan_FINALonline.pdf, səh. 1. Həmçinin bax: AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2014 – Pakistan nümunəsi: Dərsliklərdə nifrət məzmunlu mətnin verilməsinin qarşısını almalı*, 3 iyul 2014-cü il, http://www.refworld.org/docid/53ba8dbe5.html.

[168] ABŞBDAK, *Pakistanda qeyri-tolerantlığın tədrisi: dövlət məktəblərindəki dərsliklərdə dini qərəzlilik*, aprel 2016-cı il, http://www.uscirf.gov/sites/default/files/USCIRF_Pakistan_FINALonline.pdf, səh. 9. Bundan başqa, məlumatlarda qeyd edilir ki, "tədris proqramının nəzərdən keçirilməsi göstərir ki, dövlət məktəblərinin şagirdlərinə dini azlıqların, xüsusən xristian və hinduların şərəfsiz, zorakı və tiran xarakterli olduqları öyrədilir". Eyni mənbəyə bax.

[169] CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 17-ci bənd. "Komitə ondan narahatdır ki, özəl mədrəsələr çox vaxt silahlı qeyri-dövlət qrupları tərəfindən uşaqların döyüşçülər sırasına cəlb olunması və onlara hərbi təlimlər keçilməsi üçün istifadə edilir". UHK, *Pakistanın 5-ci dövri məruzəsinə dair yekun qeydlər*, 11 iyul 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CRC/C/PAK/CO/5&Lang=En, 63-cü bənd. "Dünya Bankının son tədqiqatına əsasən, bu gün Pakistanda 20.000-ə yaxın mədrəsə var, orada təhsil alan şagirdlərin sayı isə bir milyondan artıqdır. […] Son iki onillik ərzində mədrəsələrin çoxu ekstremistlər yetişdirən ocağa və terrorçular üçün təhlükəsiz sığınacağa çevrilməkdə təqsirləndirililblər". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Təhsil*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/Education.pdf, səh. 18. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; PSAİ, *Pakistanın təhlükəsizliyi ilə bağlı hesabat (2015): Daxili təhlükəsizlik sxemi (2015)*, yanvar 2016-cı il, http://pakpips.com/downloads/282.pdf, səh. 45. Məlumatlara əsasən hökumətin "Milli daxili təhlükəsizlik siyasəti" adlı hesabatında (hesabatın surətinin AFP xəbər agentliyinə verildiyi bildirilir) bu qənaətə gəlinib ki, Pakistandakı 22.000 mədrəsədən bəziləri ekstremizmin yayılmasına görə məsuliyyət daşıyırlar. "*Dawn*" qəzeti, *Pakistanın yeni təhlükəsizlik siyasəti mədrəsələrdə islahatlar aparmağa yönəlib*, 2 mart 2014-cü il, http://www.dawn.com/news/1090547. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html; "*Pakistan Today*" qəzeti, *Hesabatlarda deyilir ki, Pakistanda 35.000-dən artıq mədrəsə fəaliyyət göstərir*, 31 iyul 2015-ci il, http://www.pakistantoday.com.pk/2015/07/31/national/report-says-over-35000-madrassas-operating-in-pakistan/.

[170] HRW, *2016-cı il üçün dünya üzrə hesabat – Pakistan*, 27 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56bd99299.html.

[171] Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 36.

səviyyəsində dövlət qurumlarında işəgötürənlər dini azlıqlar üçün ayrılmış beş faizlik kvotaya əməl etmirlər;[172] dini azlıq nümayəndələrinin "müəyyən səviyyədə yuxarılara buraxılmaması" onların yüksək dövlət vəzifələrinə irəli çəkilməsinin qarşısını alır.[173]
Konstitusiya Milli Məclisdə və Senatda dini azlıqlar üçün deputat yerlərinin ayrılmasını nəzərdə tutsa da, onlar əyalətlərin qanunvericilik məclislərində və Milli Məclisdə dini azlıqlar üçün ayrılmış deputat yerlərini birbaşa tutmaq imkanına malik deyillər; bunun əvəzinə ümumilikdə deputat yerlərini qazananlar kvota üzrə ayrılmış həmin yerləri tutmalı olan şəxsləri özləri seçirlər, bu isə azlıqların özlərinin öz nümayəndələrini seçmələrinə imkan vermir. Məlumatlara görə praktikada bu sistem həm də dini azlıqlardan olan qadınların deputat seçilməsinə mane olur.[174]

## V. Beynəlxalq himayə ilə təmin edilmə meyarlarına uyğunluq

Pakistandan olan sığınacaq axtaranların istər 1951-ci il Konvensiyasında nəzərdə tutulmuş qaçqınlıq meyarları, istərsə də daha geniş beynəlxalq himayə meyarları (əlavə himayə formaları da daxil olmaqla) əsasında etdikləri bütün müraciətlər qaçqın statusunun müəyyənləşdirilməsi üzrə ədalətli və effektiv prosedurlara və mənşə ölkəsi barədə mütəmadi təzələnən və aktual məlumatlara uyğun olaraq mahiyyəti üzrə araşdırılmalıdır.[175] BMTQAK hesab edir ki, dini azlıq

---

[172] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. İştirakçı dövlət (Pakistan) tərəfindən 2016-cı ilin fevralında İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitəyə təqdim edilmiş məruzədə Pakistan hökuməti qeyd etdi ki, "azlıqların inkişafı və rifahı üçün bəzi addımlar atıb. Belə ki, mərkəzi dövlət qulluğu idarələri də daxil olmaqla dövlət qurumlarındakı bütün iş yerlərində, açıq müsabiqələrdən əlavə, azlıqlar üçün 5 faizlik iş kvotası ayrılıb". Pakistan hökuməti, *İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 16 və 17-ci maddələri əsasında iştirakçı dövlətlər tərəfindən təqdim edilən məruzələrə baxılması*; *İştirakçı dövlətlərin 2010-cu il üçün nəzərdə tutulmuş ilkin məruzələri*, 4 fevral 2016-cı il, http://www.ecoi.net/file_upload/1930_1455269511_g1601817.pdf, 30-cu bənd. Lakin 2016-cı ilin oktyabrında İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə komitə qeyd etdi ki, "azlıqların rəsmən az hallarda tanınmasının və üstəlik müxtəlif azlıq qruplarının vəziyyəti barədə məlumatların olmamasının azlıq qruplarına mənsub olan şəxslərin üzləşdiyi problemlərin aradan qaldırılması üçün görülmüş tədbirlərin, o cümlədən bu qrupların siyasi sahədə və məşğulluq sahəsində bərabər əsasda təmsil olunmasına imkan yaratmaq üçün hazırda tətbiq edilən kvota sistemlərinin səmərəliliyini azaltmasından narahatdır". CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 29-cu bənd.

[173] Bundan başqa, məlumatlara əsasən, dini azlıqlardan olan şəxslərin hərbi xidmətdə irəli çəkilməsinə rəsmən heç bir məhdudiyyət qoyulmasa da, icma nümayəndələri məlumat veriblər ki, qeyri-müsəlman praktikada çox nadir hallarda polkovnikdən daha yüksək rütbə ala bilir, yüksək vəzifələrə isə təyin olunmur. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[174] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; "Fridım Haus" təşkilatı, *"Dünyada azadlıq" hesabatı, 2016 – Pakistan*, 25 iyul 2016-cı il, http://www.refworld.org/docid/579f48bc15.html. "[Senatdakı] deputat yerləri əyalətlərin qanunvericilik məclislərində keçirilən dolayı seçkilər vasitəsilə tutulur. Milli Məclisdə on deputat yeri dini azlıq üzvləri üçün ayrılır. Dövlət orqanları bu yerləri məclisə seçkilərdə partiyaların qazandıqları faiz əsasında partiyalar arasında bölüşdürürlər. Azlıqlar əyalətlərin qanunvericilik məclislərində onlara ayrılan 23 deputat yerini tutublar: Pəncabda səkkiz, Sinddə doqquz, Xeybər Paxtunxvada üç və Bəlucistanda üç yer. Qadınlar və azlıqlar kvota ilə ayrılmayan yerlər uğrunda mübarizə apara bilərlər". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html. Həmçinin bax: Seçki Sistemləri üçün Beynəlxalq Fond, *Pakistana dair informasiya bülleteni: Pakistanın Senatı*, 24 iyun 2015-ci il, http://www.ifes.org/sites/default/files/the_senate_of_pakistan.pdf; Seçki Sistemləri üçün Beynəlxalq Fond, *Pakistana dair informasiya bülleteni: Milli Məclis*, 24 iyun 2015-ci il, http://www.ifes.org/sites/default/files/the_national_assembly_of_pakistan.pdf. Həmçinin bax: III.A bölməsi, 38-ci mətnaltı qeyd.

[175] Pakistan vətəndaşları və Pakistanda daimi yaşayan şəxslər əsaslı təqib qorxusu ilə əlaqədar olaraq dini əsasdan başqa 1951-ci il Konvensiyasında nəzərdə tutulmuş digər əsasa görə də qaçqın statusunun meyarlarına uyğun sayıla

nümayəndələrinin və onların ailə üzvlərinin müraciətlərinə, eləcə də dini səbəblərə əsaslanan digər müraciətlərə, məsələn, Pakistanda dini azlıqların insan hüquqlarını müdafiə edən hüquq müdafiəçilərinin, ictimai fəalların və vəkillərin müraciətlərinə xüsusi diqqətlə baxılması tələb olunur. BMTQAK həmçinin hesab edir ki, aşağıda göstərilmiş kateqoriyalara aid olan dini azlıqların üzvləri, işin fərdi hallarından asılı olaraq, qaçqın qismində beynəlxalq himayəyə ehtiyac duya bilərlər. Aşağıdakı siyahı tam olmaya da bilər və həmin siyahı bu material yazılarkən BMTQAK-ın sərəncamında olan məlumatlara əsaslanıb. Müvafiq olaraq, dini səbəblər əsasında sığınacaq üçün müraciət etmiş şəxsin aşağıda göstərilmiş kateqoriyalardan heç birinə aid olmaması o demək deyil ki, həmin şəxs tərəfindən edilmiş müraciət avtomatik olaraq mahiyyəti üzrə baxılmalı hesab edilməməlidir.[176]

İslam dinini başqa dinə dəyişənlər risk altında ola bilərlər, çünki indi onlar həm dini azlıq nümayəndəsidirlər, həm də dininə dönük çıxmış şəxslər kimi qəbul edilə bilərlər.[177]

Nəhayət, bu Rəhbər prinsiplərdə ateistlər/aqnostiklər konkret risk qruplarına daxil edilməsələr də, BMTQAK hesab edir ki, onlar dini azlıq nümayəndələrinin üzləşdiklərinə bənzər risklərə məruz qala və dini azlıq nümayəndələri üçün göstərilmiş əsaslara bənzər əsaslara görə beynəlxalq himayəyə ehtiyac duya bilərlər.[178]

Dini azlıq üzvlərinə qarşı ayrı-seçkilik xarakterli qanunlar və praktikalar,[179] hər bir fərdi halın xüsusiyyətlərindən asılı olaraq, birlikdə və ya ayrılıqda götürülməklə 1951-ci il Konvensiyasında və ona əlavə olunmuş 1967-ci il Protokolunda nəzərdə tutulan mənada təqibə bərabər sayıla bilər.[180] Bu Rəhbər prinsiplərdə ətraflı şəkildə qeyd edildiyi kimi, dini azlıq nümayəndələri ekstremistlərə və dini motivli təqiblərə, cəmiyyət üzlərinin zorakılıqlarına və qəddar rəftarına

---

bilərlər. Belə müraciətlərə, eləcə də daha geniş beynəlxalq himayə meyarlarına, o cümlədən əlavə himayə formalarına dair tövsiyələrin verilməsi bu Rəhbər prinsiplərin əhatə dairəsi xaricindədir.

[176] Bu Rəhbər prinsiplərdə göstərilməyən digər dini azlıqların üzvləri, o cümlədən ismaililər, yəhudilər, atəşpərəstlər/zərdüştilər, buddistlər və Mehdi Fondunun üzvləri, eləcə də digərləri beynəlxalq himayəyə ehtiyac duya bilərlər.

[177] Bu mənbədə göstərilən mənbələrə bax: Birləşmiş Krallığın Daxili İşlər Nazirliyi, *Ölkələr barəsində informasiya və təlimatlar – Pakistan: Xristianlar və xristianlığı qəbul edənlər,* may 2016-cı il, versiya 2.0, http://www.refworld.org/docid/5732cd444.html, səh. 23-25, 8.1.1-8.1.6-cı bəndlər; "Ümumdünya Xristian Həmrəyliyi" təşkilatı, *Bütün partiyaların parlament qrupuna təqdimat,* 10-11 noyabr 2015-ci il, https://freedomdeclared.org/media/CSW-submission-Parliamentary-Inquiry-Pakistan-031115.pdf; "Asiya Nyus" (*Asia News*) agentliyi, *Xristianlığı qəbul etmiş pakistanlı ailə təqib edilir, ölümlə hədələnir,* 19 oktyabr 2015-ci il, http://www.asianews.it/news-en/A-Pakistani-family-converted-to-Christianity-ishounded,-victim-of-death-threats-35623.html; Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası, *Pakistan: Dinini dəyişmə, o cümlədən dinini dəyişənlərlə rəftar və dinini dəyişməyə məcbur edilmə (2009-2012),* 14 yanvar 2013-cü il, PAK104258.E, http://www.refworld.org/docid/510f8b832.html; "*Jubilee Campaign*", təşkilatı, *BMT-nin İnsan Hüquqları Şurasında xüsusi məsləhətçi statusuna malik "Jubilee Campaign" qeyri-hökumət təşkilatı tərəfindən təqdim edilmiş yazılı bəyanat,* 7 iyun 2012-ci il, http://www.ecoi.net/file_upload/1930_1340630327_g1213858.pdf.

[178] Həmçinin bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər,* 28 aprel 2004-cü il, HCR/GIP/04/06, http://www.refworld.org/docid/4090f9794.html, 4-cü bənd.

[179] Pakistanda dini azlıq üzvlərinə qarşı ayrı-seçkilik praktikaları barədə əlavə məlumat üçün lütfən potensial risk qruplarının göstərildiyi aşağıdakı bölmələrə bax.

[180] Ərizəçinin əsas insan hüquqlarını həyata keçirməsinə qarşı ciddi maneələr olduqda dini mənsubiyyətə əsaslanan ayrı-seçkilik təqibə bərabər sayıla bilər. Təqibə bərabər sayıla bilən ayrı-seçkilik nümunələri müvafiq şəxs üçün əhəmiyyətli dərəcədə zərərli nəticələr doğuran ayrı-seçkiliyi, məsələn, yaşayış üçün vəsait qazanmaq hüququnun ciddi şəkildə məhdudlaşdırılmasını və ya adi halda hamı üçün əlçatan olan təhsil müəssisələrinə qəbul edilmənin və (və ya) səhiyyə xidmətlərindən istifadənin məhdudlaşdırılmasını özündə ehtiva edir, lakin təkcə onlarla məhdudlaşmır; bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər,* HCR/GIP/04/06, 28 aprel 2004-cü il, http://www.unhcr.org/refworld/docid/4090f9794.html, 17-19-cu bəndlər. Ayrı-seçkilik xarakterli tədbirlər özü-özlüyündə ciddi xarakter daşımasa belə, məcmu halında götürülən səbəblərdən əsaslı təqib qorxusu yarada bilər. Bax: BMTQAK, *Qaçqınların statusu haqqında 1951-ci il tarixli Konvensiya və 1961-ci il tarixli Protokol əsasında qaçqın statusunun müəyyənləşdirilməsi üçün prosedurlara və meyarlara dair təlimat,* yanvar 1992-ci il, http://www.refworld.org/docid/3ae6b3314.html, 53-55-ci bəndlər.

hədəf olmaqda davam edirlər. Onlar ümumi dini dözümsüzlük və cəzasızlıq mühitinin fonunda təhlükəsizlikdə olmadıqlarını getdikcə daha çox hiss edir və qorxu keçirirlər.[181] Məlumatlara görə dövlət nümayəndələri, eləcə də qeyri-dövlət subyektləri tərəfindən dini azadlıq hüququnun və digər əsas insan hüquqlarının pozulması adi hal alıb və nadir hallarda cəzalandırılır.[182]
İnsanlar təqibdən yaxa qurtarmaq üçün dini əqidələrini, dini mənsubiyyətlərini və ya həyat tərzlərini gizlətməyə, dəyişməyə, məhdudlaşdırmağa və ya ondan imtina etməyə sövq edilməməlidir.[183]
Pakistandan olan dini azlıqların müəyyən nümayəndələrinin sığınacaq üçün müraciətlərinə baxarkən həmçinin onlara qaçqın statusu verilməsini istisna edən halların araşdırılması da tələb oluna bilər.

## Potensial risk qrupları

### *1. Əhmədilər*

Əhmədi camaatı (və ya əhmədi hərəkatı) rəsmən 1889-cu ildə Hindistanda islamın tərkibində islahatçı hərəkat olaraq formalaşıb. Hesablamalara görə Pakistanda əhmədi əhalisinin sayı 126.000-dən bir neçə milyona qədər dəyişir.[184] Pakistanda əhmədi icmasının mənzil-qərargahları

---

[181] Misal üçün bax: ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 2. "Dini azlıq nümayəndələrinə qarşı kütlənin dini zəmində zorakılıqları və terror hücumları son bir neçə ildə Pakistanda təkrarlanan tendensiyaya çevrilib. Belə insidentlərin sayı və baş vermə tezliyi ayrı-ayrı illərdə fərqli ola bilər, amma bu kədərli fakt faktlığında qalır ki, dövlət orqanları qeyri-müsəlmanlara qarşı məhz qeyri-müsəlman olduqlarına görə törədilən zorakılıqların kökünü kəsmək iqtidarında deyillər". PSAİ, *Pakistanın təhlükəsizliyi ilə bağlı hesabat (2015): Daxili təhlükəsizlik sxemi (2015)*, yanvar 2016-cı il, http://pakpips.com/downloads/282.pdf, səh. 35-36. "Komitə azlıqlara, xüsusən əhmədilərə, xəzərlərə və dalitlərə qarşı zorakılıqlardan və onların faktiki olaraq əlahiddə ərazilərdə təcrid halında olmalarından, məşğulluq, səhiyyə, təhsil xidmətlərindən və digər zəruri xidmətlərdən ədalətli əsaslarla yararlanmaq imkanına malik olmamalarından və onlara qarşı artan zorakılıqların bu durumu daha da ağırlaşdırmasından narahatdır". CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 19-cu bənd.

[182] IV bölməyə bax.

[183] BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər*, 28 aprel 2004-cü il, HCR/GIP/04/06, http://www.refworld.org/docid/4090f9794.html, 13-cü bənd; BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 4: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu kontekstində ölkə daxilində başqa yerə köçürülmə və ya yerdəyişmə alternativi*, 23 iyul 2003-cü il, HCR/GIP/03/04, http://www.refworld.org/docid/3f2791a44.html, 19-cu bənd. *Almaniya Federativ Respublikası tərəfindən Y-ə qarşı qaldırılmış işdə* Avropa İttifaqı Məhkəməsi qərara aldı ki, şəxs onu real təqib riskinə məruz qoyacaq dini ayinləri icra edirsə, müəyyən dini ayinlərin icrasından çəkinməklə bu riskdən yayınmasını ondan tələb etmək doğru deyil. Avropa İttifaqı Məhkəməsi, *Almaniya Federativ Respublikası tərəfindən Y-ə (C-71/11) və Z-ə (C-99/11) qarşı qaldırılmış iş*, 5 sentyabr 2012-ci il, http://www.refworld.org/docid/505ace862.html, 79-cu bənd.

[184] 2016-cı ilin mayında ABŞBDAK-ın və 2015-ci ilin oktyabrında ABŞ Dövlət Departamentinin apardığı hesablamalara görə ölkədə iki milyondan dörd milyonadək əhmədi var. ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html. Bunun əksinə olaraq 2016-cı ilin avqustunda ABŞ Dövlət Departamenti məlumat verdi ki, medianın istinad etdiyi 2014-cü ilə aid dövlət qeydiyyat sənədlərinə əsasən ölkədə 126.000 əhmədi var, amma "rəsmi siyahıyaalmanın əhmədilər tərəfindən boykot edildiyini nəzərə alaraq" icma mənbələrinin ağardığı hesablamalara görə Pakistanda 500.000 əhmədi var. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il,

Rəbva və Pəncab əyalətlərindədir, məlumatlara əsasən orada əhmədilər əhalinin 97 faizindən çoxunu təşkil edirlər.[185]

Əhmədilər özlərini müsəlman hesab edirlər. Lakin onların inancı islamın təməl konsepsiyalarına sünnilərin verdiyi ənənəvi şərhlərdən fərqlənir və bəzi müsəlmanlar ona qeyri-islami inanc və küfr kimi baxırlar. Pakistanda ənənəvi müsəlman icmasının əhmədilərə qarşı çıxması, məlumatlara görə, onların Məhəmməd peyğəmbərlə, konkret olaraq onun sonuncu peyğəmbər olması məsələsi ilə bağlı inanclarındakı fərqdədir.[186] Pyu Tədqiqat Mərkəzi tərəfindən 2011-ci ildə aparılmış sorğuya əsasən, Pakistandakı müsəlmanların 66 faizi bildiriblər ki, əhmədilər müsəlman deyil və yalnız onların yeddi faizi əhmədiləri müsəlman kimi qəbul etdiyini bildirib.[187] Məlumatlara görə 2015-ci ilin dekabrında Pakistan İslam İdeologiyası Şurasının

---

http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: Əl-İslam (əhmədi müsəlman icmasının rəsmi İnternet saytı), *Əhmədi müsəlman icmasının qısa tarixi*, http://www.alislam.org/library/history/ahmadiyya/index.html.

185 Hesablamalara görə Rəbva əhalisi 70.000 nəfərdir. Bax: "UrbanPK", 28 noyabr 2007-ci il, http://www.urbanpk.com/forums/index.php?showtopic=10832. 1998-ci ildə əhmədi icmasının istəyi əleyhinə şəhərin adı Pəncab Məclisinin yekdilliklə qəbul etdiyi qərarla dəyişdirilərək Çenab Naqar qoyulub. Misal üçün bu mənbədə istinad edilən mənbələrə bax: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası, *Pakistan: İslam daxilində "əhmədiyyə hərəkatı" məzhəbi, o cümlədən onun mənşəyi, əqidələri və mərasimləri (avqust 2005-ci il)*, 31 avqust 2005-ci il, http://www.unhcr.org/refworld/docid/440ed73d20.html. Müxtəsərlik üçün bu Rəhbər prinsiplərin mətnində təkcə "Rəbva" adından istifadə ediləcək. Həmçinin bax: Bayva L.S. və Xan S.E., "Əhmədiyyə icmasının kimliyinin nişanəsi kimi Rəbvanın tədqiq edilməsi: keyfiyyət araşdırması", *Sci. Int. (Lahore)*, Vol. 27(2), mart/aprel 2015-ci il, http://www.sciint.com/pdf/4923940929%20Special%20issue%202%20LS%20Bajwa%20Exploring%20Rabwah%20as%20an%20Identity%20marker%20for%20the%20Ahmadiyya%20community.pdf, səh. 1615-1618.

186 Ənənəvi islamın ehkamlarından biri islam peyğəmbərinin təliminin sonuncu olması, yəni Məhəmmədin peyğəmbərlər siyahısını "xətm edən" ən böyük və sonuncu peyğəmbər olması ideyasıdır. Məlumatlara əsasən bu ideya Quranda yer alan "Xatəm əl-Nəbiyin" ifadəsində öz əksini tapıb. Lakin əhmədilər hesab edirlər ki, onların inancının əsasını qoyan 19-cu əsrdə yaşamış hindistanlı Mirzə Qulam Əhməd yeni peyğəmbərdir. Əhmədilər "Xatəm əl-Nəbiyin" ifadəsi ilə razılaşsalar da, onların əqidələrində qanunyaradıcı olan və olmayan peyğəmbərlər ("*nəbi*" və "*rəsul*") arasında fərq qoyulur. Əhmədilər inanırlar ki, əqidələrinin banisi Allahın kəlamını gətirəndir və Allahın peyğəmbəridir ("nəbi"dir), amma "rəsul" deyil, buna görə də onlar Məhəmməd peyğəmbərin sonuncu "rəsul" olduğu barədə ciddi islami əqidəyə sadiqdirlər. Əhmədi hərəkatı ilə ənənəvi islam arasında müxtəlif doktrinal fərqlərin icmalı üçün, məsələn, bu mənbələrə bax: İmam B.A. Rəfiq, *Əhmədilik barədə həqiqət, sonuncu peyğəmbərlik*, (tarix göstərilməyib) (19 iyul 2016-cı ilədək olan məlumat), http://www.alislam.org/books/truth/index.html; Məsud Əhməd Xan, *Sonuncu peyğəmbərliyin həlledici sübutları: kafir Qadiyani inancına cavab*, (tarix göstərilməyib) (19 iyul 2016-cı ilədək olan məlumat), http://www.masud.co.uk/ISLAM/misc/finality_mas.htm; "İdarə Dəvəto-İrşad" təşkilatı, *Sonuncu peyğəmbərlik barədə islam inancı*, (tarix göstərilməyib) (19 iyul 2016-cı ilədək olan məlumat), http://www.irshad.org/brochures/finality.php; *İslamda Lahor əhmədi hərəkatı*, *Əhmədi hərəkatının iki bölməsinin inanclarının əhatəli tədqiqi (Lahor qrupu ilə Qadiyani qrupunun müqayisəsi)*, (tarix göstərilməyib) (19 iyul 2016-cı ilədək olan məlumat), http://aaiil.org/text/qadi/intro/cmprsn.shtml; Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 22; Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası, *Pakistan: Əhmədilərin vəziyyəti, o cümlədən cəmiyyətin və dövlət orqanlarının onlarla rəftarı; onların hüquqi statusu və siyasi həyatda iştirak sahəsində və təhsil və məşğulluq sahəsində hüquqları (2013-yanvar 2016)*, 13 yanvar 2016-cı il, PAK105369.E, http://www.refworld.org/docid/56af1b384.html; "Writenet" şəbəkəsi, *Pakistan: Dini azlıqların vəziyyəti*, may 2009-cu il, http://www.unhcr.org/refworld/docid/4b01856e2.html, səh. 24-30. Ə. Əbdül Əziz, *Əhmədilər həqiqi müsəlmanlardır*, 4 may 2008-ci il, http://www.alislam.org/library/ahmadis-are-true-muslims.html; K. Zirvi, *Əhmədiliyə xoş gəlmisiniz: həqiqi islam, islamda əhmədi hərəkatı* (Silver Sprinqs: *Islamic Publications Ltd*, 2002); A.A. Çoudri, *Zühuru vəd edilən məsih və mehdi* (İslamabad: *Islam International Publications*, 1995, səh. 5); V. Əhməd, *Əhmədi müsəlmanlar üçün dini bilik kitabı* (Afina: *Fazl-i-Umar Press*, 1988); S. Lavan, *Əhmədi hərəkatı: tarix və perspektivlər* (Dehli: *Manohar Book Service*, 1974).

187 Pyu Tədqiqat Mərkəzi tərəfindən 2011-ci ildə aparılmış sorğuya əsasən, müsəlmanların 66 faizi bildiriblər ki, əhmədilər müsəlman deyil, 26 faizi bu sualın cavabını bilmədiklərini bildiriblər və ya ona cavab verməyiblər. Pyu Tədqiqat Mərkəzi, *5-ci fəsil, Dini kimliyin sərhədləri*, 9 avqust 2012-ci il, http://www.pewforum.org/2012/08/09/the-worlds-muslims-unity-and-diversity-5-religious-identity/. Həmçinin bax: Pyu Tədqiqat Mərkəzi, *Pakistanda çoxları deyirlər ki, əhmədilər müsəlman deyil*, 10 sentyabr 2013-cü il, http://www.pewresearch.org/fact-tank/2013/09/10/in-pakistan-most-sayahmadis-are-not-muslim/.

iclasında sədr əhmədilərin islamı rədd edən "mürtədlər" olub-olmadıqlarını araşdırmaq üçün toplantı keçirməyə çağırıb.[188]

*a) Əhmədi şəxslərə dair qanunvericilik bazası*

1974-cü ildə Konstitusiyaya edilmiş dəyişikliklə əhmədilər "qeyri-müsəlman" azlığı elan edildilər və müvafiq olaraq, onların Pakistanın müsəlman dini icmasına mənsub hesab edilməsi qadağan olundu.[189] 1984-cü ildə prezident Ziya-ül-Həqq XX saylı fərmanla Cinayət Məcəlləsinə 298B və 298C maddələrini[190] daxil etdi. (Həmçinin III.C bölməsinə bax.) 298B maddəsinə əsasən, müəyyən müqəddəs şəxsiyyətləri və yerləri bildirmək üçün əhmədilərin epitetlərdən, təsviretmədən və adlardan istifadə etməsi üç ilədək azadlıqdan məhrumetmə və cərimə ilə cəzalandırılan cinayət əməli təşkil edir.[191] 298C maddəsi əhmədilərin özlərini "birbaşa və ya dolayısı ilə" müsəlman adlandırmalarını, "inanclarını islam adlandırmalarını və ya islam kimi təqdim etmələrini" və "öz inanclarının vaizliyini etmələrini və inanclarını təbliğ etmələrini" qadağan edir.[192] Bu maddələr ayrı-seçkilik xarakterli tədbirlərin tətbiqini nəzərdə tutur:

---

188 "Mürtədlər" dininə dönük çıxan, könüllü olaraq islamdan imtina edən şəxslərdir. Şura üzvlərindən biri cənab Tahir Əşrəfi ciddi surətdə bu müzakirənin əleyhinə çıxdı; məlumatlara əsasən o mediaya bildirdi ki, "hətta Şuranın beş üzvü onların mürtəd sayılması ilə razılaşarsa, bu, böyük problem yaradacaq və bütün ölkə ərazisində zorakılıq doğuracaq". "Qardian" qəzeti, *İki pakistanlı ruhani əhmədi təriqətinin statusu ilə bağlı iclasda dalaşdılar*, 20 dekabr 2015-ci il, http://www.theguardian.com/world/2015/dec/29/pakistan-council-of-islamic-ideology-clerics-fight-over-ahmadi-sect. Həmçinin bax: PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 7.

189 Pakistan, *Konstitusiyaya İkinci Düzəliş haqqında 1974-cü il tarixli qanun*, http://www.pakistani.org/pakistan/constitution/amendments/2amendment.html. "Müsəlman" və "qeyri-müsəlman" (yəni müsəlman olmayan şəxslər – buraya xristian, hindu, sikh, buddist və ya atəşpərəst icmasına mənsub olan şəxslər, Qadiyani və ya Lahor qrupuna mənsub olan (özünü "əhmədi" və ya hər hansı başqa adla adlandıran) şəxslər, yaxud bəhailər və toxunulmazlar kastasından hər hansı birinə mənsub olan şəxslər daxildir) terminlərinin anlayışını verən Konstitusiyanın 260-cı maddəsinin 3(a) və 3(b) bəndləri mətnə 1985-ci ildə daxil edilib. Bax: Pakistan, *Konstitusiyaya Üçüncü Düzəliş haqqında 1985-ci il tarixli qanun*, http://www.pakistani.org/pakistan/constitution/orders/po24_1985.html, maddə 6.

190 Pakistan: *Qadiyani qrupunun, Lahor qrupunun və əhmədilərin islam əleyhinə fəaliyyətləri (qadağan etmə və cəzalandırma) haqqında 1984-cü il tarixli fərman*, http://www.refworld.org/docid/5485673d4.html.

191 Cinayət Məcəlləsinin 298B maddəsində deyilir:

"Müəyyən müqəddəs şəxsiyyətlər və ya yerlər üçün nəzərdə tutulmuş epitetlərdən, təsvirlərdən və adlardan sui-istifadə edilməsi.

*1. Qadiyani və ya Lahor qrupuna mənsub olan (özünü əhmədi və ya hər hansı başqa adla adlandıran) hər hansı şəxs şifahi və ya yazılı sözlərlə, yaxud vizual şəkildə göstərməklə:*

*a) xəlifədən və ya müqəddəs peyğəmbər Məhəmməd əleyhissəlamın əshabələrindən savayı hər hansı şəxsi Əmir-əl-möminin, Xəlifətül-möminin, Xəlifətül-müslimin, Sahabi və ya Razi Allah Anho adlandırarsa və ya ona bu cür müraciət edərsə;*

*b) müqəddəs peyğəmbər Məhəmməd əleyhissəlamın xanımından savayı hər hansı şəxsi Ümmül-möminin adlandırarsa və ya ona bu cür müraciət edərsə;*

*c) müqəddəs peyğəmbər Məhəmməd əleyhissəlamın ailə üzvündən (əhli-beyt) savayı hər hansı şəxsi Əhli-beyt adlandırarsa və ya ona bu cür müraciət edərsə;*

*d) yaxud öz ibadət yerini "məscid" adlandırarsa və ya "məscid" kimi təqdim edərsə;*

*üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır və həmçinin cərimə olunur.*

*2. Qadiyani və ya Lahor qrupuna mənsub olan (özünü əhmədi və ya hər hansı başqa adla adlandıran) hər hansı şəxs şifahi və ya yazılı sözlərlə, yaxud vizual şəkildə göstərməklə ibadətə çağırış üsulunu və ya formasını "azan" adlandırarsa, yaxud müsəlmanların oxuduğu azanı təkrarlayarsa,*

*üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır və həmçinin cərimə olunur*". Pakistan, *Cinayət Məcəlləsi*, 1860, http://www.refworld.org/docid/485231942.html, maddə 298B.

192 Cinayət Məcəlləsinin 298C maddəsində deyilir:

"Qadiyani və sair qruplara mənsub olan, özünü müsəlman adlandıran, yaxud öz inancının vaizliyini edən və ya inancını təbliğ edən şəxslər.

*"Qadiyani və ya Lahor qrupuna mənsub olan (özünü əhmədi və ya hər hansı başqa adla adlandıran), özünü "müsəlman" kimi təqdim edən, yaxud inancını "islam" adlandıran və ya "islam" kimi təqdim edən, yaxud öz inancının vaizliyini edən və inancını təbliğ edən, yaxud da başqalarını öz inancını qəbul etməyə dəvət edən hər hansı şəxs şifahi və ya yazılı sözlərlə, yaxud vizual şəkildə göstərməklə, yaxud hər hansı digər formada*

əhmədilərin öz dini ayinlərini icra etmələri, təklikdə və ya başqaları ilə birlikdə ibadət etmələri, hər hansı formada dinlərini tədris etmələri, dini materialları çap etmələri və yaymaları qadağan olunur.[193] Cinayət Məcəlləsinin bu maddələri həmçinin əhmədilərin öz inanclarının banisini peyğəmbər adlandırmalarını və ya müqəddəs şəxsiyyətlərindən bəhs edərkən müsəlmanların işlətdiyi dini alqış ifadələrindən istifadə etmələrini; öz ibadət yerlərini məscid adlandırmalarını; müsəlmanların ənənəvi salamlaşma formasından istifadə etmələrini; "azan" (və ya adhan) kimi tanınan müsəlmanların ibadətə çağırış formasından istifadə etmələrini, yaxud özlərinin ibadətə çağırışını azan adlandırmalarını qanunsuz elan edir.[194]

Bundan başqa, 298B və 298C maddələrində işlənən ifadələr bu maddələrin geniş çərçivəli şərhinə imkan yaradır ki, bu da, məlumatlara əsasən, sui-istifadə hallarına yol açır. Məsələn, 298C maddəsində nəzərdə tutulur ki, əhmədi qrupuna mənsub olan hər hansı şəxs "şifahi və ya yazılı sözlərlə, yaxud vizual şəkildə göstərməklə, yaxud hər hansı digər formada müsəlmanların dini hisslərini təhqir edərsə, cəzalandırılır".[195] 298C maddəsi əsasında məhkum olunan əhmədilər üç ilədək müddətə azadlıqdan məhrumetmə və (və ya) cərimə ilə cəzalandırıla bilərlər.[196]

Əhmədilər əleyhinə yönələn bu qanunvericilik vasitəsilə dövlət məhdudlaşdırılması yolverilməz olan əhmədilərin din azadlığı hüququna Pakistanda ciddi məhdudiyyətlər qoymuş oldu.[197] Məlumatlara görə əhmədilər və küfr əleyhinə qanunvericilikdən dövlət orqanları, eləcə də cəmiyyət üzvləri çox zaman əhmədi inancına etiqad edənləri və dinini dəyişib bu inancı qəbul edənləri hədəfə almaq və təqib etmək üçün istifadə edirlər.[198] Məlumatlara əsasən 298C

---

*müsəlmanların dini hisslərini təhqir edərsə, üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır və həmçinin cərimə olunur".* Pakistan, *Cinayət Məcəlləsi*, 1860, http://www.refworld.org/docid/485231942.html, maddə 298B.

[193] Pakistan, *Cinayət Məcəlləsi*, 1860, http://www.refworld.org/docid/485231942.html, maddələr 298B və 298C.

[194] Pakistan, *Cinayət Məcəlləsi*, 1860, http://www.refworld.org/docid/485231942.html, maddələr 298B və 298C. İbadətə çağırış (azan) müsəlmanların, o cümlədən əhmədilərin ibadət mərasiminin zəruri tərkib hissəsidir.

[195] Pakistan, *Cinayət Məcəlləsi*, 1860, http://www.refworld.org/docid/485231942.html, maddə 298C.

[196] Pakistan, *Cinayət Məcəlləsi*, 1860, http://www.refworld.org/docid/485231942.html, maddə 298C.

[197] "2015-ci ildə Pakistan hökuməti dini azadlıqların sistematik, davamlı və kobud pozuntularını törətməkdə və belə pozuntulara dözümlü yanaşmaqda davam edib. Dini ayrı-seçkilik xarakteri daşıyan konstitusiya normaları və qanunvericilik, məsələn, ölkənin küfr və əhmədilər əleyhinə qanunvericiliyi din və ya əqidə azadlığına dair beynəlxalq normaları köklü şəkildə pozur və məhkəmə təqibinə məruz qalma və azadlıqdan məhrum edilmə ilə nəticələnir. ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html. ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html. "Biz artıq öncə bu qənaətə gəldik ki, əhmədilərin hüquqlarını məhdudlaşdıran qanunvericiliyin qəbulu qeyri-mütənasib tədbirdir və təməl hüquq olan dini ifadə azadlığı hüququna daha da xələl gətirmiş olur". *Pakistandan olan MN və başqaları Birləşmiş Krallığın daxili işlər nazirinə qarşı (əhmədilər – ölkədəki şərait – risklər)*, CG [2012] UKUT 00389(IAC), Birləşmiş Krallıq: Yuxarı Tribunal (İmmiqrasiya və sığınacaq işləri üzrə palata), 13 noyabr 2012-ci il, 115-ci bənd.

[198] Əhmədi rəhbərləri söylədilər ki, özlərini birbaşa və ya dolayısı ilə "müsəlman" adlandırmalarını qadağan edən hüquq normasının mətninin qeyri-müəyyənliyi adi müsəlmansayağı salamlaşmaya görə və ya uşaqlarına Məhəmməd adı verdiklərinə görə bu dini icmanın üzvlərinə qarşı vəzifəli şəxslər tərəfindən ittihamlar irəli sürülməsinə imkan yaradır". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html. Cinna İnstitutu məlumat verir ki, 1984-cü ildə əhmədilər əleyhinə qanunvericilik qəbul elan edildikdən bəri 2012-ci ildən 2015-ci ilin iyununadək "əhmədilərə qarşı dini zəmində 1.070-dən artıq, küfr əleyhinə qanunvericilik əsasında isə 303 iş qaldırılıb". Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 26. Əhmədi icmasının üzvləri iddia edirlər ki, [XX] saylı fərmanın pozulmasına görə, habelə cinayət kimi qəbul edilən əməllərə, məsələn, müsəlman adını daşımağa, saqqal saxlamağa və ya müsəlman olduğunu iddia etməyə görə minlərlə əhamədi təqibə məruz qalıb. Küfr əleyhinə qanunvericilik qəbul ediləndən bəri həmin qanunvericilik əsasında əhmədilərə qarşı təxminən 2.000 iş qaldırılıb; ümumiyyətlə, təxminən 4.000 əhmədi öz inancına görə müxtəlif qanunlar əsasında məhkəmə təqibinə məruz qalıb". BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, 10 mart 2015-ci il, http://www.refworld.org/docid/552cd9bd24.html, səh. 11. "Açıq-aydın sübutlar var ki, qeyri-dövlət subyektləri bu qanunvericilikdən əhmədiləri təhdid və təqib etmək üçün istifadə edirlər". Birləşmiş

maddəsinin mətninin qeyri-müəyyənliyinin təsirinə çox zaman əhmədilər məruz qalırlar, belə ki, bəzi hallarda hakimlər əhmədilərin öz dini inanclarını ifadə etmələrini küfr forması kimi şərh edirlər.[199] Əhmədi qruplarının bildirdiyinə görə, 2015-ci ildə dövlət orqanları il ərzində 11 əhmədini dinlə bağlı işlərdə cinayət əməlində ittiham ediblər, onlardan altısı həbsə alınıb.[200] Məlumatlara əsasən çox zaman əhmədi icmasının üzvləri şəxsi və ya biznes mübahisələrinin həlli məqsədi ilə saxta əsaslarla dini cinayətlərdə təqsirləndirilirlər.[201]

### *b) Pakistanda əhmədi şəxslərin vəziyyəti*

Əhmədi şəxslər əmhədilərin mülki və siyasi hüquqlarının məhdudlaşdırılmasını nəzərdə tutan, dövlət tərəfindən sanksiyalaşdırılan tədbirlər nəticəsində ayrı-seçkiliklə üzləşirlər. Məlumatlara əsasən Pakistan pasportlarında sahibinin dini mənsubiyyəti barədə məlumat qeyd edilir.[202] Pasport üçün müraciət edən müsəlmanlardan əhmədi hərəkatının banisinin yalançı peyğəmbər olduğu barədə bəyannamə vermələri və onun ardıcıllarının qeyri-müsəlman olduğunu bildirmələri tələb olunur, həmçinin onlar Məhəmməd peyğəmbərin sonuncu peyğəmbər olduğuna inandıqlarını bildirməlidirlər.[203] Bu bəyannamə faktiki olaraq o deməkdir ki, onlar ya

---

Krallıq: Yuxarı Tribunal (İmmiqrasiya və sığınacaq işləri üzrə palata), *Pakistandan olan MN və başqaları Birləşmiş Krallığın daxili işlər nazirinə qarşı (əhmədilər – ölkədəki şərait – risklər)*, CG [2012] UKUT 00389(IAC), 13 noyabr 2012-ci il, http://www.refworld.org/docid/50a3ccd72.html, 119-cu bənd.

[199] Konkret nümunələr üçün bax: BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html, səh. 29.

[200] "Məlumatlara əsasən bu şəxslərdən biri əhmədi dini kitablarını satdığına görə həbs edilib. Onların işlərinin necə həll edildiyi ilə bağlı bu ilin sonunadək heç bir məlumat yox idi". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Qeyri-hökumət təşkilatı olan Pakistan İnsan Hüquqları Komissiyası məlumat verir ki, 2015-ci ildə üç əhmədi 295C maddəsi əsasında küfrdə ittiham olunub. PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 12. Əhmədi rəhbərlərinin məlumatına görə, 2014-cü ildə polislər əsasən əhmədilər əleyhinə qanunvericiliklə əlaqədar olaraq ayrı-ayrı səkkiz iş çərçivəsində 24 əhmədini ittiham ediblər, Quranı təhqir etməyə görə isə polislər ayrı-ayrı hallarda 13 əhmədiyə qarşı ittiham irəli sürüblər. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html. "2013-cü il ərzində küfr əleyhinə qanunvericilik əsasında 34 yeni iş qeydiyyata alınıb və 18 əhmədi öz əqidəsi ilə əlaqədar həbs edilib, lakin eyni zamanda küfrlə bağlı ən azı bir ölüm hökmü ləğv edilib". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2013-cü il tarixli hesabat – Pakistan*, 28 iyul 2014-cü il, http://www.refworld.org/docid/53d90733b.html.

[201] Misal üçün bax: "Əhədi icmasının üzvləri missiya nümayəndələrinə məlumat verdilər ki, şəxsin sadəcə olaraq özünü əhmədi kimi təqdim etməsi ölüm təhdidlərinə səbəb ola bilər. […] Şəxsi qisas məqsədi ilə haqq-hesab çəkmə üsulu kimi saxta küfr iddiaları asanlıqla irəli sürülür". AİHK və BİHK, *Sıxışdırılan əhmədi müsəlman icmasına qarşı təqiblərin artması ilə bağlı Pakistana göndərilmiş faktaraşdırıcı missiyanın hesabatı*, 26 mart 2015-ci il, http://hrcommittee.org/External/FactFindingReportOnPersecutionOfAhmadiMuslims.pdf, səh. 37. Həmçinin III.B bölməsinə bax.

[202] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Pasporta onun sahibinin inancı barədə məlumatın daxil edilməsi tələbinin tarixi, məlumatlara görə, 1984-cü ilə gedib çıxır. "*Dawn*" qəzeti, *Pakistan pasportunun tarixi*, 16 sentyabr 2016-cı il, http://www.dawn.com/news/1283918. Pakistan pasportlarında dini mənsubiyyət qrafasının ləğv olunması barədə hökumətin təşəbbüsündən 2005-ci ilin martında imtina edildi, iddia edildiyinə görə bu, islamçı dini partiyaların təzyiqinin nəticəsi idi. Misal üçün bax: illik məruzə ABŞBDAK, *2012-ci il üçün illik məruzə – Xüsusi narahatlıq doğuran ölkələr: Pakistan*, 20 mart 2012-ci il, http://www.unhcr.org/refworld/docid/4f71a674c.html.

[203] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: AİHK və BİHK, *Sıxışdırılan əhmədi müsəlman icmasına qarşı təqiblərin artması ilə bağlı Pakistana göndərilmiş faktaraşdırıcı missiyanın hesabatı*, 26 mart 2015-ci il, http://hrcommittee.org/External/FactFindingReportOnPersecutionOfAhmadiMuslims.pdf, Əlavə 7: Pasport forması; rəsmi bəyannamələr (milli şəxsiyyət vəsiqəsi və pasport almaq üçün müsəlmanın bəyannamə verməsi, seçici siyahısında müsəlman kimi qeydə alınmaq üçün isə müsəlman andı içməsi tələb olunur), səh. 106-107. Həmçinin

inanclarını inkar etməli, ya da pasport almaq imkanından əllərini üzməlidirlər. Bu həm də o deməkdir ki, əhmədilər həcc ziyarətlərinin maliyyələşdirilməsi və bu səfərlərə yardım göstərilməsi üzrə dövlət proqramlarına ümid bəsləyə bilməzlər.[204] Milli şəxsiyyət vəsiqələrində (kimlik kartlarında) onların sahibinin dini mənsubiyyəti barədə məlumat qeyd edilməsə də, Milli məlumat bazası və qeydiyyat idarəsi (MMBQİ) ərizəçinin dini mənsubiyyəti barədə məlumat toplayır və müsəlman ərizəçilər pasport üçün müraciət etdikdə analoji məlumatları bildirməlidirlər.[205] Özünü müsəlman kimi qeyd etdirən və bəyannaməni imzalayan əhmədilər özlərini "müsəlman" kimi göstərdikləri üçün Cinayət Məcəlləsinin 298C maddəsi əsasında məhkəmə təqibi riskinə məruz qala bilərlər.[206]

1985-ci ildən 2002-ci ilədək seçki sistemi qeyri-müsəlmanların müsəlmanlarınkından ayrı olan əlahiddə seçki siyahısında qeydiyyata alınmasını tələb edirdi. 2002-ci ildə Pakistan Seçki Komissiyası islahatlar həyata keçirdi və bu ayrı-seçkilik xarakterli tələbi və müsəlmanlarla qeyri-müsəlmanlar arasındakı bu bölgünü ləğv etdi. Lakin bu dəyişikliklərə baxmayaraq, məlumatlara görə əhmədilərin ümumi seçici siyahısında qeydə alınmaları hələ də qadağan olunur və onlar yalnız əhmədilər üçün nəzərdə tutulan ayrıca siyahıda qeydə alınmalıdırlar.[207] Məlumatlara əsasən 2015-ci ilin oktyabrında Lahorda və Pəncab əyalətinin digər rayonlarında əhmədilər ayrıca seçici siyahısında qeydə alınmalarına etiraz edərək yerli seçici qeydiyyatını və yerli seçkiləri boykot etdilər.[208]

---

bax: "*Dawn*" qəzeti, *Bu gün mən sadəcə pasport ala bilmək üçün ən yaxşı dostumu kafir elan etdim*, 1 iyun 2016-cı il, http://www.dawn.com/news/1261622/the-day-i-declared-my-best-friend-kafir-just-so-i-could-get-a-passport.

[204] "Hökumət müsəlmanlar üçün həcc ziyarətlərini maliyyələşdirməkdə və bu səfərlərə yardım göstərməkdə davam edir, amma dini azlıqlardan olan zəvvarlara analoji proqramlar təklif etmir. Əhmədilər həcc ziyarətində iştirak edə bilmirlər, icma rəhbərləri dedilər ki, bunun səbəbi pasport üçün müraciət edərkən dini mənsubiyyəti göstərmək və əhmədi peyğəmbərini pisləmək tələbləridir". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan,* 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[205] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: AİHK və BİHK, *Sıxışdırılan əhmədi müsəlman icmasına qarşı təqiblərin artması ilə bağlı Pakistana göndərilmiş faktaraşdırıcı missiyanın hesabatı*, 26 mart 2015-ci il, http://hrcommittee.org/External/FactFindingReportOnPersecutionOfAhmadiMuslims.pdf, Əlavə 7: Pasport forması; rəsmi bəyannamələr (milli şəxsiyyət vəsiqəsi və pasport almaq üçün müsəlmanın bəyannamə verməsi, seçici siyahısında müsəlman kimi qeydə alınmaq üçün isə müsəlman andı içməsi tələb olunur), səh. 106-107.

[206] Harvard Universitetinin antropologiya üzrə dosenti "izah etdi ki, əhmədi şəxs dini mənsubiyyətini əhmədi kimi göstərməzsə və bunun əvəzinə müsəlman olduğunu bildirərsə, özünü müsəlman kimi "təqdim etdiyinə" və ya "göstərdiyinə" görə məsuliyyətə cəlb edilə bilər". Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası, *Pakistan: Əhmədilərin vəziyyəti, o cümlədən cəmiyyətin və dövlət orqanlarının onlarla rəftarı; onların hüquqi statusu və siyasi həyatda iştirak sahəsində və təhsil və məşğulluq sahəsində hüquqları (2013-yanvar 2016),* 13 yanvar 2016-cı il, PAK105369.E, http://www.refworld.org/docid/56af1b384.html.

[207] "Əhmədi icmasının nümayəndələri məlumat verdilər ki, əhmədi kimi qeydiyyata alınan seçicilərin adları ayrıca seçici siyahısında qeyd edilir və onlar səs verməyə cəhd edərkən fiziki təhdidlərə məruz qalırlar". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan,* 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: AİHK və BİHK, *Sıxışdırılan əhmədi müsəlman icmasına qarşı təqiblərin artması ilə bağlı Pakistana göndərilmiş faktaraşdırıcı missiyanın hesabatı,* 26 mart 2015-ci il, http://hrcommittee.org/External/FactFindingReportOnPersecutionOfAhmadiMuslims.pdf, Əlavə 7: Pasport forması; rəsmi bəyannamələr (milli şəxsiyyət vəsiqəsi və pasport almaq üçün müsəlmanın bəyannamə verməsi, seçici siyahısında müsəlman kimi qeydə alınmaq üçün isə müsəlman andı içməsi tələb olunur), səh. 106-107; eyni mənbə, Əlavə 8: Əhmədilər üçün ayrıca seçici siyahısının nümayiş etdirildiyi elanlar, səh. 108; eyni mənbə, Əlavə 9: Ayrıca seçici siyahısı barədə Pakistan Seçki Komissiyasının məktubu, səh. 109.

[208] PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 6; "*The Economic Times*" qəzeti, Pakistan əhmədiləri Pəncabda yerli hakimiyyət orqanına seçkiləri boykot etdilər, 29 oktyabr 2015-ci il, http://economictimes.indiatimes.com/news/international/world-news/pakistan-ahmadis-to-boycott-local-body-polls-inpunjab/articleshow/49581909.cms.

Həmçinin məlumatlara əsasən bəzi rayon şöbələri əhmədi şəxslərin nikahlarını qeydiyyata almaqdan imtina edirlər.[209]

Baxmayaraq ki, Konstitusiya dövlət tərəfindən maliyyələşdirilən hər hansı təhsil müəssisəsinə qəbul məsələsində dini əsaslara görə ayrı-seçkiliyi qadağan edir,[210] məlumatlara görə potensial şagirdlər dövlət tərəfindən maliyyələşdirilən və özəl təhsil müəssisələrinə qəbul edilərkən ərizə formasında dini mənsubiyyətlərini göstərməlidirlər.[211] Müsəlman olduqlarını bildirənlər yazılı şəkildə bəyan etməlidirlər ki, peyğəmbərlər siyahısının Məhəmməd peyğəmbərlə xətm olunduğuna inanırlar, bu tələb isə əhmədiləri ərizəçilər siyahısından xaric edir. Məlumatlara əsasən əhmədi olduqlarını bildirənlər ali təhsilə çıxışda ayrı-seçkiliklə üzləşirlər.[212]

Cinayət Məcəlləsinin 298B maddəsinin 1-ci bəndinə əsasən əhmədilərin öz ibadət yerlərini "məscid" adlandırmaları qadağan olunsa da, onların ibadət yerləri yaratmalarına rəsmi məhdudiyyətlər mövcud deyil.[213] Lakin praktikada çox vaxt yerli hakimiyyət orqanları əhmədilərin ibadət yerləri inşa etmələrinə icazə verməkdən imtina edirlər, mövcud yerlər isə zaman-zaman bağlanır, dağıdılır, murdarlanır və ya qanunsuz müsadirə olunur və məlumatlara görə dövlət orqanları çox vaxt belə hərəkətləri dəstəkləyir və ya onlarda iştirak edirlər.[214]

---

[209] "Valton rayon şöbəsi və Lahor rayon şöbəsi xristianların və əhmədilərin nikahlarını qeydiyyata almır və bildirirlər ki, yalnız "Müsəlman ailə qanunvericiliyi haqqında" 1961-ci il tarixli fərman əsasında bağlanan nikahları qeydə alırlar". "*The Express Tribune*" qəzeti, *Əhmədi və xristian nikahları qeydiyyata alınmır*, 28 iyul 2016-cı il, http://tribune.com.pk/story/1150717/basic-right-ahmadi-christian-marriages-not-registered/.

[210] Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 25A.

[211] Dini mənsubiyyəti bəyan etmək tələbi həmçinin özəl təhsil müəssisələrinə, o cümlədən universitetlərə də şamil olunur. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[212] "Əhmədi nümayəndələri söylədilər ki, universitetə qəbul edilmək üçün tələbələr tərəfindən imzalanmalı olan ərizələrin mətnindəki ifadələr əhmədilərin özlərini müsəlman kimi təqdim etmələrinin qarşısını alır. Onların ərizəni imzalamaqdan imtina etmələri o deməkdir ki, onlar avtomatik olaraq qəbul tələblərinə uyğun gəlməyən şəxs sayılırlar. Hökumət iddia etdi ki, əhmədilər müsəlman olmadıqlarını bildirdikləri təqdirdə qəbul tələblərinə uyğun şəxs sayıla bilərlər". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[213] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[214] "Əhmədi icması üzvlərinin sözlərinə görə, dövlət orqanları əhmədi məscidlərini bağlamaqda və ya uçurmaqda, yeni məscidlərin inşasını qadağan etməkdə davam edir, əhmədi məscidlərini uçuran, zədələyən, zorla zəbt edən və ya yandırdan şəxslərin qarşısını almaq və ya onları cəzalandırmaq üçün isə heç bir tədbir görmürlər. İcma üzvləri bildirdilər ki, dövlət orqanları yerli dini rəhbərlərin müraciəti əsasında il ərzində iki ibadət yerini qismən dağıdıblar". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. "Əhmədi icması üzvlərinin sözlərinə görə, 1984-cü ildən (əhmədilər əleyhinə qanunvericilik həmin ildə elan edilib) 2014-cü ilədək dövlət orqanları 33 əhmədi məscidini qapadıb və 52 məscidin inşasına qadağa qoyublar, eyni zamanda 31 əhmədi məscidi dağıdılıb və ya xəsarət alıb, 14 məscid yandırılıb, 19 məscid isə zorla zəbt edilib". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html. Məlumatlara əsasən 2014-cü ilin dekabrında əhmədilər polis tərəfindən Quran kitablarını məscidlərdən və minarələrdən götürməyə məcbur edildilər. ABŞBDAK, *2015-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html. Məlumatlara görə 2013-cü ildə ayrı-ayrı hallarda Lahorda əhmədilərin öz məscidlərindən istifadə etmələrinə əngəl törədilib, Pəncab əyalətinin müxtəlif ərazilərində onların məzarlıqları vandalizm aktlarına məruz qalıb. "Human Rayts Votç" təşkilatı, *2014-cü il üçün dünya üzrə hesabat – Pakistan*, 21 yanvar 2014-cü il, http://www.refworld.org/docid/52dfddc23.html. Məlumatlara görə 2013-cü ilin sentyabrında polislər əhmədilərin Sialkotdakı ibadət yerinin minarələrini uçurtdular, iddia edildiyinə görə, onlar bunu yerli ruhaninin təzyiqi altında etmişdilər. AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2014 – Pakistan*, 3 iyul 2014-cü il, http://www.refworld.org/docid/53ba8dda5.html. Həmçinin bax: PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcpweb.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 33. Məlumatlara əsasən 2012-ci ilin dekabrında Lahorda əhmədilərin 100-dən artıq məzar daşları dağıdıldı və həmçinin məlumata görə analoji insident həmin il bir qədər öncə Feysələbadda baş vermişdi. Məlumatlara əsasən polis bu hücumları həyata keçirənlərə qarşı heç bir tədbir görmədi. AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2013 – Pakistan*, 24 sentyabr 2013-cü il, http://www.refworld.org/docid/526fb73714.html.

Məlumatlara əsasən qeyri-müsəlmanların missioner fəaliyyətinə icazə verilir, bu şərtlə ki, onların vaizliyi islama qarşı yönəlməməli və missionerlər müsəlman olmadıqlarını etiraf etməlidirlər, bu isə əhmədilərin missionerliyini istisna edir.[215]

Həmçinin məlumatlara əsasən 1983-cü ildən bəri əhmədilərin yığıncaq və ya toplantılar keçirməsi dövlət orqanları tərəfindən qadağan edilib.[216] Məlumatlara görə əhmədi dini nəşrlərinin satışına qadağa qoyulub.[217] 2016-cı ilin yanvarında Rəbvada bir mağaza sahibi, məlumatlara əsasən, Quranın nüsxələrini və əhmədi nəşrlərini satmaqla əhmədi inancını təbliğ etdiyinə görə küfr ittihamları ilə beş il və terrorizm ittihamları ilə üç il müddətinə azadlıqdan məhrum edildi.[218] Məlumatlarda deyilir ki, MFP-nin qəbulundan sonra milli azlıqların müdafiəsini dəstəkləmək məqsədi ilə elan edilmiş tədbirlər, məsələn, nifrət yayan çıxışlara qarşı addımlar praktikada əhmədi nəşrlərini qadağan etmək üçün istifadə edilir.[219] Məlumatlara görə 5

---

[215] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.htm.

[216] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2010-cu il (iyul-dekabr) tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, 13 sentyabr 2011-ci il, http://www.refworld.org/docid/4e734c75b.html.

[217] "QHT-lər məlumat verdilər ki, əhmədilər istisna olmaqla dini azlıqların dini mətnlərini nəşr etmələrinə və müqəddəs kitablarını ölkəyə gətirmələrinə hökumət tərəfindən icazə verilir. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. "Hökumət ümumən dini nəşrlərin çapını məhdudlaşdırmır; lakin əhmədi dini ədəbiyyatının satışı qadağan olunub. Qanun islama və ya onun peyğəmbərinə qarşı istənilən tənqidləri və digər dini inanclara qarşı təhqirləri qadağan edir. […] Bir qayda olaraq, əhmədilər istisna olmaqla dini azlıqların müqəddəs kitabları ölkəyə sərbəst surətdə gətirilir". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html. PİHK məlumat verir ki, 2015-ci ilin sentyabrında Muttahida Üləma Şurasının tövsiyəsi ilə Pəncab hökuməti tərəfindən üç əhmədi nəşri barəsində tədbir görülüb. PİHK, *Növbəti əhmədi nəşrləri barəsində tədbir görüldü*, 22 sentyabr 2015-ci il, http://hrcommittee.org/News/18. Əhmədi qrupları məlumat verdilər ki, 2015-ci ilin mayında Pəncab hökuməti kitablar, kompakt disklər (CD), dövri nəşrlər və qəzetlər də daxil olmaqla bütün əhmədi nəşrlərini, o cümlədən əhmədi dininin yaradıcısının səksəndən artıq kitablar toplusunu rəsmən qadağan edib. Bax: PİHK, *Pəncab hökuməti əhmədilərin dini nəşrlərini qadağan etdi*, 1 may 2015-ci il, http://hrcommittee.org/News/18; "*The Persecution of Ahmadis*" nəşri, *Təcili məlumat: Pəncab hökumətinin sıxışdırılan əhmədi icmasına qarşı sonuncu amansız təqib aktı*, 10 may 2015-ci il, https://www.persecutionofahmadis.org/urgent-report-the-government-of-punjabs-latest-act-ofoutrageous-persecution-against-the-beleaguered-ahmadiyya-community/. Məlumatlara əsasən yalnız abunəçilər arasında yayılmasına icazə verilən yeganə əhmədi nəşrinin birbaşa və ya dolayısı ilə əhmədi inancını təbliğ etməsinə icazə verilmir. BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, 10 mart 2015-ci il, http://www.refworld.org/docid/552cd9bd24.html, səh. 17. PİHK məlumat verir ki, "Şakur Bhai" dükanında əhmədi nəşrlərinin satılması barədə şikayətlərə reaksiya olaraq 2015-ci ilin yanvarında polis bir sıra nəşrləri müsadirə edib. PİHK, *Hassan Muviya Rəbvanı hədəfə alır*, 5 yanvar 2015-ci il, http://hrcommittee.org/News/18. "Pəncab hökuməti rəsmi xəbərdarlıq etməklə "Təhriki-Cədid" aylıq əhmədi nəşrinin çapını qadağan etdi. "*The Persecution of Ahmadis*" nəşri, *Pakistanda əhmədilərin təqib edilməsi: xəbərlər*, yanvar 2015-ci il, https://www.persecutionofahmadis.org/wp-content/uploads/2010/03/News-Report-January-2015.pdf.

[218] Həmçinin məlumatlara əsasən bu şəxsin dükanının idarəçisi olan şiə məzhəbli şəxs terrorizm ittihamları ilə beş il müddətinə azadlıqdan məhrum edildi. Məlumatlara görə onların hər ikisi irəli sürülmüş ittihamlardan və barələrindəki ittiham hökmündən apellyasiya şikayəti veriblər. ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html.

[219] Məlumatlara əsasən əhmədi icmaları iddia edirlər ki, Pəncab hökuməti xüsusən MFP-də nəzərdə tutulmuş nifrət yayan bütün çıxışları qadağan etmək öhdəliyindən əhmədilərin əksər dini ədəbiyyatını, eləcə də bu ədəbiyyata istinad edən İnternet saytlarını qadağan etmək üçün bəhanə kimi istifadə edir. "Amerikanın Səsi", Xəbərlər (*VOA News*), *Pakistandakı azlıq ekstremizmlə mübarizə adı altında qurbana çevrilir*, 7 sentyabr 2016-cı il, http://www.voanews.com/a/pakistan-religious-minority-suffersdiscrimination-for-fighting-extremism/3496946.html. "2015-ci ildə hökumət nifrət yayan materiallara qarşı ciddi tədbir görəcəyini elan etdikdən sonra islam alimləri şurasının idarə heyətinin köməyi ilə bir çox addımlar atıldı, o cümlədən əhmədi icması tərəfindən öz üzvlərinin istifadəsi üçün nəşr edilən əhmədi dini ədəbiyyatı "nifrət yayan material" elan edildi. Cinna İnstitutu, *Pakistanda din*

dekabr 2016-cı ildə Terrorizmlə mübarizə üzrə Pəncab idarəsi (TMİ) Pakistanın əhmədi icmasının Rəbvadakı mənzil-qərargahına reyd keçirdi: məlumata əsasən qadağan edilmiş ədəbiyyatı nəşr etdiklərinə görə Cinayət Məcəlləsinin 298B və 298C maddələri əsasında dörd əhmədi həbs edildi, ümumilikdə doqquz nəfərin barəsində "cinayət haqqında ilkin məlumat protokolu" qeydiyyata alındı.[220]

Məlumatlara əsasən dövlət orqanları çox zaman əhmədi şəxsləri yetərli müdafiə ilə təmin etmirlər (həmçinin bax: IV bölmə, "Pakistanda dini azlıqların vəziyyəti").[221] Əhmədilərə qarşı cinayətlər və zorakılıq aktları, məlumatlara görə, ardıcıl olaraq araşdırılmır və belə cinayətləri törədənlər nadir hallarda ədalət mühakiməsinə cəlb olunurlar.[222] Məlumatlara əsasən təməlçi islam qrupları tərəfindən dövlət orqanlarına qarşı təhdid taktikası və təzyiqlər dövlətin dini zorakılıq və ya cinayət hadisələrinə müdaxilə etməyə, onları araşdırmağa və ya təqsirkarları məsuliyyətə cəlb etməyə meylli olmamasına şərait yaradır. Məsələn, məlumatlara görə dövlət orqanları 2014-cü ilin iyulunda əhmədi icmasına qarşı həyata keçirilmiş və bir nənə ilə onun iki nəvəsinin ölümü ilə nəticələnmiş hücumlara görə məsuliyyət daşıyanları ədalət mühakiməsinə

---

*azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 29. İctimaiyyətə açıq olan mənbələrdən bu cür addımların hansı hüquqi əsasla atıldığı aydın olmur. Əhmədi təşkilatları BMTQAK-a məlumat veriblər ki, Cinayət Prosessual Məcəlləsinin 99A maddəsi kimi maddələr əhmədilərə qarşı ayrı-seçkilik qoyulmaqla istifadə edilir. Pakistan, *Cinayət Prosessual Məcəlləsi*, Qanun № V, 1 iyul 1898-ci il, http://www.refworld.org/docid/48511ea62.html.

[220] "*Dawn*" qəzeti, *Əhmədi icması ilə əlaqəli ədəbiyyat müsadirə olundu, mətbəə qapadıldı*, 6 dekabr 2016-cı il, http://www.dawn.com/news/1300860/ahmedi-community-linked-literature-seized-printing-press-sealed; "*The Express Tribune*" qəzeti, *TMİ əhmədilərin Rəbvadakı mənzil-qərargahına reyd keçirdi*, 7 dekabr 2016-cı il, http://tribune.com.pk/story/1255832/ctd-raids-headquarters-ahmadis-rabwa/; *Asiya İnsan Hüquqları Komissiyası, Təcili müraciət: AHRC-UAC-151-2016*, 8 dekabr 2016-cı il, http://www.humanrights.asia/news/urgentappeals/AHRC-UAC-151-2016.

[221] Misal üçün bu mənbədə göstərilmiş digər mənbələrə də bax: Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası, *Pakistan: Əhmədilərin vəziyyəti, o cümlədən cəmiyyətin və dövlət orqanlarının onlarla rəftarı; onların hüquqi statusu və siyasi həyatda iştirak sahəsində və təhsil və məşğulluq sahəsində hüquqları (2013-yanvar 2016)*, 13 yanvar 2016-cı il, PAK105369.E, http://www.refworld.org/docid/56af1b384.html; AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 7. Məlumatlara görə Pakistan İnsan Hüquqları Komissiyasının sədri xanım Zöhrə Yusuf bildirib ki, polis əhmədilərin təqibində "inadkarlıq göstərir". "Qatillərə qarşı iş qaldırmaq və ya onları təqib etmək məsələsində polis tərəfindən hərəkətsizlik var. […] Faktiki olaraq söhbət əhmədi icmasından getdiyi hallarda ədalət mühakiməsi ümumiyyətlə mövcud olmur". "Əl-Cəzirə" telekanalı, *Pakistan əhmədiləri: "Ədalət mühakiməsinin mövcud olmaması"*, 7 avqust 2014-cü il, http://www.aljazeera.com/indepth/features/2014/08/pakistan-ahmadiyya-an-absence-justice-20148616414279536.html. Misal üçün bu mənbəyə də bax: "*The Express Tribune*" qəzeti, *Təhlükəli təqib: Əhmədilərin ehkamları ilə maraqlanması vətəndaşı həyatı üçün qorxu keçirməyə vadar edir*, 13 yanvar 2016-cı il, http://tribune.com.pk/story/1026456/perilous-pursuit-interest-in-ahmadiyya-tenets-makes-citizen-fear-for-life/.

[222] CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 15-ci bənd. "2010-cu ilin mayında Lahorda ibadət yerində çoxlu sayda əhmədini qətlə yetirməkdə ittiham edilərək həbsdə alınmış iki şəxs bu qırğında iştirak etdiklərinə görə [2015-ci ilin] yanvarında anti-terror məhkəməsi tərəfindən məhkum edildilər. Hücumu həyata keçirənlərdən biri ölüm cəzasına, digəri isə ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olundu. Bu, dini azlıqlara və azlıqda olan təriqətlərə qarşı zorakılıq törədənlərin saxlanıldığı və cəzalandırıldığı nadir hallardan biri idi". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcpweb.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 7. "Qadağan edilmiş dini qruplar sərbəst fəaliyyət göstərməkdə davam edirlər. Qadağan edilmiş dini qruplar Pəncab əyalət hökumətinin müşahidəsi altında nifrətə təhrik edən açıq təşviqat kampaniyasına başlayaraq vətəndaşları əhmədi icması üzvlərini qətlə yetirməyə və onların müəssisələrinə hücum etməyə çağırdılar. Dövlət orqanları bu qruplara qarşı heç bir tədbir görmədilər. Hüquq mühafizə orqanları, yerli məhkəmə sistemi və ilk növbədə dövlət qurumları bütün ölkə ərazisində dini azlıqların həyatını və əmlakını qoruya bilmirlər". Birləşmiş Krallığın Daxili İşlər Nazirliyi, *Ölkələr barəsində informasiya və təlimatlar – Pakistan: Əhmədilər*, fevral 2015-ci il, http://www.refworld.org/docid/54ef2a7e4.html, həmin mənbədə "Əl-Cəzirə" telekanalının bu materialına istinad edilir: *Pakistan əhmədiləri: "Ədalət mühakiməsinin mövcud olmaması"*, 7 avqust 2014-cü il, http://www.aljazeera.com/indepth/features/2014/08/pakistan-ahmadiyya-an-absence-justice-20148616414279536.html.

cəlb etmədilər.[223] Məlumatlara əsasən 28 avqust 2015-ci ildə Pəncab Əyalət Məclisi Pakistanın Birləşmiş Krallıqdakı keçmiş Ali komissarını əhmədilər əleyhinə qanunvericiliyi açıq şəkildə şübhə altına aldığına görə tənqid edən qərar qəbul etdi.[224]

Bundan başqa, polisin saxladığı əhmədi şəxslərə qarşı zorakılıq törətdiyi və ya həmin əhmədilərə qarşı zorakılıqların qarşısını almaq üçün hərəkət etmədiyi barədə məlumatlar var.[225]

Məlumatlara əsasən dövlət orqanları əhmədilər əleyhinə rəylərə dözümlü yanaşır və göz yumurlar. Hökumət "özünü görməməzliyə vurduğuna" və nifrət yayan çıxışlar edən və insanları əhmədi icmalarına qarşı zorakılığa təhrik edən ekstremistləri dayandırmadığına görə tənqid edilir.[226] Əhmədilərə qarşı nifrət yayan və zorakılığa təhrik edən çıxışlar, o cümlədən islam alimlərinin bu cür çıxışları, məlumatlara görə, əksər hallarda dövlət orqanları tərəfindən yoxlanılmamış və (və ya) cəzalandırılmamış qalır.[227]

Məlumatlara əsasən dövlət orqanlarının özləri əhmədi icmasına qarşı ayrı-seçkiliyə yol verirlər. Məsələn, məlumatlara görə 2016-cı ilin mayında Çinyot rayonunda yaşayış və kommersiya təyinatlı torpağın hərracı barədə Pəncab Mənzil Fondu və Şəhər Planlaşdırması Agentliyi (PMFŞPA) tərəfindən verilmiş elanda deyilirdi ki, "Qadiyani, əhmədi, Lahor, mirzəyi

---

[223] Cinna İnstitutu, *Pakistanda əhmədilərin təqib edilməsi, 2012-2015*, http://jinnah-institute.org/persecution-of-ahmadis-in-pakistan-2012-2015-data/; AİHK və BİHK, *Sıxışdırılan əhmədi müsəlman icmasına qarşı təqiblərin artması ilə bağlı Pakistana göndərilmiş faktaraşdırıcı missiyanın hesabatı*, 26 mart 2015-ci il, http://hrcommittee.org/External/FactFindingReportOnPersecutionOfAhmadiMuslims.pdf, səh. 32-33. Həmçinin 245-ci mətnaltı qeydə bax.

[224] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[225] Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 28. 2014-cü ilin fevralında əhmədi məzhəbli məktəb müəllimi Əbdül Quddus, məlumatlara görə, Pəncab əyalətində Çenab Naqardakı polis təcridxanasında işgəncələrə məruz qaldı. Məlumatlara əsasən o, aldığı xəsarətlər nəticəsində sonradan xəstəxanada öldü. Asiya Hüquqi Resurs Mərkəzi, *Pakistan: Hökumət təməl hüquq olan din azadlığı hüququnu hamı üçün təmin etməlidir*, 16 fevral 2015-ci il, http://alrc.asia/pakistan-government-must-guaranteefundamental-right-of-freedom-of-religion-to-all/. "13 may 2014-cü ildə dörd əhmədi müsəlman Pakistanın Şarakpur şəhərində küfr ittihamları ilə polis tərəfindən həbs edildi. Onlardan üçü girov müqabilində azad edilsə də, Xəlil Əhməd polis bölməsində həbsdə saxlanıldı və bölməyə ziyarətçi kimi gələn, özü ilə nahar qutusunda gizlədilmiş silah gətirən on beş yaşlı yeniyetmə tərəfindən güllə ilə qətlə yetirildi". BMTİHAK, *"Əqidəyə əsaslanan qətllər dayandırılsın" – BMT-nin insan hüquqları üzrə ekspertləri Pakistanı əhmədi məzhəbli müsəlman azlıqlarını müdafiə etməyə çağırdılar*, 2 iyun 2014-cü il, http://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=14658&LangID=E.

[226] "Söhbət əhmədi icmasına qarşı zorakılıqdan getdiyi hallarda çox zaman polis seyrçi kimi qalır ki, bunun da səbəbi dərin kök salmış dini qərəzlilikdir". Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wpcontent/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 28; "Human Rayts Votç" təşkilatı, *2014-cü il üçün dünya üzrə hesabat – Pakistan*, 21 yanvar 2014-cü il, http://www.refworld.org/docid/52dfddc23.html. Əhmədi müsəlmanlara qarşı zorakılıqlar yenidən bərpa olunduqdan və iki icma üzvü qətlə yetirildikdən, habelə bir çoxları küfr ittihamı ilə həbs edildikdən sonra 2014-cü ildə BMT-nin insan hüquqları üzrə ekspertləri hökuməti dini zəmində qətlləri dayandırmağa çağırdılar. BMTİHAK, *"Əqidəyə əsaslanan qətllər dayandırılsın" – BMT-nin insan hüquqları üzrə ekspertləri Pakistanı əhmədi məzhəbli müsəlman azlıqlarını müdafiə etməyə çağırdılar*, 2 iyun 2014-cü il, http://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=14658&LangID=E.

[227] "Əhmədi icmasına qarşı ayrı-seçkilik mediada xüsusilə ciddi şəkildə təzahür edir. Əhmədilərə qarşı nifrət təbliğatı kampaniyaları mütəşəkkil qaydada aparılır, avtobuslara bu məzmunda yapışqanlı kağızlar yapışdırılır, divarlarda təbaşirlə yazılar yazılır, broşürlər paylanır. Bütün Pakistan ərazisində keçirilən "Xətmi-Nəbuvat" hərəkatının yığıncaqlarında ruhanilər açıq şəkildə öz tərəfdarlarını əhmədiləri öldürməyə təhrik edirlər. Nifrət yayan bu çıxışlar çox zaman mediada işıqlandırılır, amma belə çıxışların qanuniliyi nadir hallarda şübhə altına alınır və əhmədilərin bu yığıncaqlarda təmsil edilmə perspektivi olmur". BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, 10 mart 2015-ci il, http://www.refworld.org/docid/552cd9bd24.html, səh. 13. Həmçinin bax: AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2014 – Pakistan*, 3 iyul 2014-cü il, http://www.refworld.org/docid/53ba8dda5.html. Məlumatlara əsasən 2014-ü ilin dekabrında populyar televiziya şousunda müsəlman lideri tərəfindən əhmədilərin "Pakistanın düşmənləri" adlandırılmasından beş gün sonra Qucranvala yaxınlığında bir əhmədi kişi qətlə yetirildi. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html; ABŞBDAK, *2015-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html.

təriqətlərinə aidiyyəti olan heç bir kimsə Çenab Naqarda müsəlman məhəlləsinin ərazi inkişaf planında iştirak edə bilməz", halbuki bu, əhmədilərin mənzil-qərargahının yerləşdiyi ərazidir.[228]

### c) Qeyri-dövlət subyektləri tərəfindən əhmədi şəxslərə qarşı rəftar

Məlumatlara əsasən repressiv və ayrı-seçkilik xarakterli qanunvericilik, dövlət tərəfindən sanksiyalaşdırılan ayrı-seçkilik praktikası ilə birlikdə, dini dözümsüzlük və cəzasızlıq ənənəsinin kök salmasına şərait yaradır.[229] Nəticədə əhmədi icmasının üzvləri, məlumatlara görə, cəmiyyət üzləri tərəfindən yol verilən sui-istifadə halları, zorakılıqlar, o cümlədən qətllər, təqib və təhdidlər qarşısında köməksiz vəziyyətdə olurlar. 2010-cu ildə Lahorda iki əhmədi məscidinə qarşı 94 nəfərin qətlinə səbəb olmuş hücumun həyata keçirilməsindən bəri[230] dini zəmində zorakılıqlar və əhmədilərin hədəfə alınaraq qətlə yetirilməsi, məlumatlara əsasən, davam edir.[231] Məsələn, məlumatlara görə 2016-cı ilin iyununda Attokda bir əhmədi kişi evindən kənarda silahlı şəxs tərəfindən güllə ilə qətlə yetirilib;[232] 2016-cı ilin mayında Kəraçidə bir əhmədi kişi silahlı şəxslər tərəfindən qətlə yetirilib;[233] 2016-cı ilin martında Kəraçidə bir əhmədi kişi Pəncabın Şeyxpur rayonunda evindən bayıra çıxarkən bıçaqlanaraq öldürülüb;[234] 2016-cı ilin yanvarında Rəbvada bir əhmədi kişiyə silahlı şəxslər tərəfindən atış açılıb və o, sonradan xəstəxanada ölüb.[235] Cinna İnstitutunun bildirdiyinə görə, əhmədilər əleyhinə cinayətlər barədə

---

[228] "*The Express Tribune*" qəzeti, *Dəstəklənən ayrı-seçkilik: Çenab Naqar torpaqları əhmədilər üçün deyil*, 18 mart 2016-cı il, http://tribune.com.pk/story/1067763/enshrined-discrimination-no-ahmadis-for-chenab-nagar-plots/.

[229] ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html; Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası, *Pakistan: Əhmədilərin vəziyyəti, o cümlədən cəmiyyətin və dövlət orqanlarının onlarla rəftarı; onların hüquqi statusu və siyasi həyatda iştirak sahəsində və təhsil və məşğulluq sahəsində hüquqları (2013-yanvar 2016)*, 13 yanvar 2016-cı il, PAK105369.E, http://www.refworld.org/docid/56af1b384.html.

[230] Məlumatlara əsasən 28 may 2010-cu ildə cümə namazları zamanı Taliban yaraqlıları iki yerdə namaza toplaşmış əhmədi dindarlara qarşı koordinasiya olunan hücumlar həyata keçirərək 94 nəfəri öldürdülər, yüzdən xeyli artıq insana isə xəsarət yetirdilər. Bax: HRW, *Pakistan: Əhmədi azlığının qırğını*, 1 iyun 2010-cu il, http://www.unhcr.org/refworld/docid/4c0cb5fec.html. Hücumdan üç gün sonra naməlum silahlılar, məlumatlara görə, hücumun qurbanlarının və hücumda iştirak etdiyi bildirilən bir nəfərin müalicə olunduğu Lahordakı Cinna xəstəxanasına hücum etdilər. Taliban öz bəyanatında pakistanlıları bu hücumlara görə "təbrik etdi" və əhmədi və şiə icmalarından olan insanları "*islamın və adi insanların düşmənləri*" adlandırdı. HRW, *2011-ci il üçün dünya üzrə hesabat – Pakistan*, 24 yanvar 2011-ci il, http://www.unhcr.org/refworld/docid/4d3e8022d.html.

[231] Misal üçün bax: AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2016 – Pakistan*, 12 iyul 2016-cı il, http://www.refworld.org/docid/5796082215.html; PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 6; ABŞBDAK, *2015-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html; BMTİHAK, *"Əqidəyə əsaslanan qətllər dayandırılsın" – BMT-nin insan hüquqları üzrə ekspertləri Pakistanı əhmədi məzhəbli müsəlman azlıqlarını müdafiə etməyə çağırdılar*, 2 iyun 2014-cü il, http://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=14658&LangID=E. Həmçinin bax: "*The Persecution of Ahmadis*" nəşri, *2015-ci il ərzində Pakistanda əhmədilərin təqib edilməsinə dair məlumat (qısa icmal)*, aprel 2016-cı il, https://www.persecutionofahmadis.org/wpcontent/uploads/2010/03/Persecution-of-Ahmadis-in-Pakistan-2015.pdf.

[232] "*The Express Tribune*" qəzeti, *Attokda əhmədi kişi qətlə yetirildi, cinayətin nifrət zəminində törədildiyi güman edilir*, 5 iyun 2016-cı il, http://tribune.com.pk/story/1116459/hate-crimeahmadi-man-killed-attock/; "*Dawn*" qəzeti, *Əhmədi icmasından olan kişi Attokda güllələnərək qətlə yetirildi*, 4 iyun 2016-cı il, http://www.dawn.com/news/1262748.

[233] "*Dawn*" qəzeti, *Kəraçidə əhmədi kişi güllələndi*, 9 may 2016-cı il, http://www.dawn.com/news/1260729; "*The Express Tribune*" qəzeti, *Kəraçidə əhmədi kişi məqsədyönlü hücum zamanı güllələnərək öldürüldü*, http://tribune.com.pk/story/1110466/tragic-incident-ahmadi-man-shot-deadtargeted-attack/; "*The International News*" qəzeti, *Əhmədi icmasının üzvü güllələnərək öldürüldü*, 26 may 2016-cı il, https://www.thenews.com.pk/print/122725-Ahmadiyya-community-member-shot-dead.

[234] "*The Express Tribune*" qəzeti, *Şeyxpur rayonunda əhmədi kişi bıçaqlanaraq öldürüldü*, 1 mart 2016-cı ildə, http://tribune.com.pk/story/1057227/ahmadi-manstabbed-to-death-near-sheikhpura/.

[235] "*The Express Tribune*" qəzeti, *Motivlər məlum deyil: Rəbvada əhmədi kişi güllələnərək öldürüldü*, 13 yanvar 2016-cı il, http://tribune.com.pk/story/1026590/motivesunknown-ahmadi-man-shot-dead-in-rabwa/.

məlumatların toplanması problem olaraq qalır və ən böyük maneələrdən biri əhmədilərə qarşı nifrət zəminində törədilən cinayət hallarını və zorakılıqları işıqlandırmaq məsələsində yerli və ümummilli medianın özünüsenzura tətbiq etməsidir.[236] Əldə olan məlumatlara əsasən, 2014-2015-ci illərdə dini motivlərdən irəli gələn hücumlar zamanı 39 əhmədi qətlə yetirilib.[237] Məlumatlara görə əhmədilərə qarşı insidentlərin çoxu Pəncab və Sind əyalətlərində baş verir, bəzi insidentlərin isə Bəlucistanda baş verdiyi bildirilir.[238] Həmçinin əhmədi məscidlərinin dağıdılması və murdarlanması halları barədə davamlı məlumatlar verilir.[239] Məlumatlara görə 2016-cı ilin dekabrında Pəncabın Çakval rayonunda yüzlərlə insan əhmədilərin ibadət yerinə

---

[236] Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 18.

[237] Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 6. "[19 avqust 2015-ci ildə] motosikletlərlə hərəkət edən dörd naməlum silahlı şəxs Pəncab əyalətinin Dera Qazi Xan rayonundakı Tonsa Şərif şəhərində aptek sahibi olan 37 yaşlı əhmədi İkramullahı qətlə yetirdilər, polis hücumun dini zəmində törədildiyini bildirdi". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: "*The Express Tribune*" qəzeti, *Polisin bildirdiyinə görə, əhmədi icmasından olan şəxs Lahor yaxınlığında qətlə yetirilib*, 20 avqust 2015-ci il, http://tribune.com.pk/story/941707/man-from-ahmadi-community-killed-near-lahore-police/. "[2015-ci il] ərzində dini zəmində əhmədilərə qarşı törədilən bəzi zorakılıq halları barədə məlumat verilib. […] [2015-ci ilin] oktyabrında Kəraçidə naməlum silahlı şəxslər atəş açaraq ibadət yerindən evə qayıdan əhmədi şəxsi və onun iki qardaşı oğlunu yaraladılar". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-ofthought.pdf, səh 6. Həmçinin bax: BİHK, *Kəraçidə üç əhmədi hücuma məruz qaldı*, 11 oktyabr 2015-ci il, http://hrcommittee.org/News/18. Məlumatlara əsasən 2015-ci ilin martında Kəraçidə əhmədi mağaza sahibi qətlə yetirildi. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: Beynəlxalq İnsan Hüquqları Komitəsi (BİHK), *Kəraçidə otuz yaşlı əhmədi güllələnərək öldürüldü*, 21 mart 2015-ci il, http://hrcommittee.org/News/18. "ABŞ vətəndaşı və əhmədi müsəlman icmasının üzvü olan və Pakistana göndərilmiş humanitar missiyanın həkimi olan Mehdi Əli Qəmər 26 may 2014-cü ildə Pakistanın Rəbva şəhərində qətlə yetirildi. O, fürsətdən istifadə edib yerli qəbiristanlıqda qohumlarının məzarını ziyarət etmək istəyərkən motosikletlərlə hərəkət edən iki naməlum şəxs tərəfindən öldürüldü". BMTİHAK, *"Əqidəyə əsaslanan qətllər dayandırılsın" – BMT-nin insan hüquqları üzrə ekspertləri Pakistanı əhmədi məzhəbli müsəlman azlıqlarını müdafiə etməyə çağırdılar*, 2 iyun 2014-cü il, http://www.ohchr.org/EN/NewsEvents/Pages/DisplayNews.aspx?NewsID=14658&LangID=E; həmçinin bax: Azad Avropa/Azadlıq Radiosu, *Pakistanda azlıq nümayəndəsi olan kardioloq qətlə yetirildi*, 27 may 2014-cü il, http://www.refworld.org/docid/53a13a71f.html. Cinna İnstitutu məlumat verir ki, 2012-ci ildən 2014-cü ilədək əhmədilərə qarşı 43 məqsədyönlü hücum həyata keçirilib, dörd hədələmə və dörd adam oğurluğu hadisəsi, ibadət yerlərinə ziyan yetirildiyi beş insident və məzarlıqlara ziyan yetirildiyi yeddi insident baş verib, habelə 13 əhmədi küfrdə ittiham olunub. Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wpcontent/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 18-19. Həmçinin bax: Cinna İnstitutu, *Pakistanda əhmədilərin təqib edilməsi, 2012-2015* (tarix göstərilməyib), http://jinnah-institute.org/persecution-of-ahmadis-in-pakistan-2012-2015-data/ (30 noyabr 2016-cı ilədək olan informasiya).

[238] "Pəncabda dini zəmində məqsədyönlü hücumlarda davamlı artım baş verib və bu zəmində cinayətlər 2012-ci ildəki 9 rəqəmindən 2014-cü ildə 18-dək artıb. Bununla belə, Sind əyalətində zorakılıq insidentlərində davamlı azalma müşahidə edilib və barəsində məlumat verilən bu cür halların sayı 2012-ci ildəki 19 rəqəmindən 2014-cü ildə 10-dək azalıb. Pəncabda insidentlərin ən çox Lahor, Siyalkot, Sarqoda, Çinyot, Feysəlabad, Heyzabad və Toba Tek Sinqh rayonlarında baş verdiyi bildirilir. Sind əyalətində Kəraçi, Heydərabad və Nəvabşah rayonları əhmədi icmasına qarşı zorakılıqların ən çox təsirinə məruz qalan rayonlar olaraq qalır". Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 19.

[239] "*Deutsche Welle*" ("Alman Dalğası") telekanalı, *Pakistan əhmədi azlıq qrupunu nə üçün təqib edir*, 23 noyabr 2015-ci il, http://www.dw.com/en/why-pakistanpersecutes-the-minority-ahmadi-group/a-18868784; "*The World Post*" qəzeti, *Küfr barədə şayiələrdən sonra Pakistanda əhmədi məscidinə hücum edildi*, 21 noyabr 2015-ci il, http://www.huffingtonpost.com/entry/ahmadi-mosque-attacked-in-pakistan-after-blasphemyrumor_us_5650a369e4b0879a5b0b4242; "*Dawn*" qəzeti, *Celumda əhmədilərin ibadət yerinə od vuruldu, küfr iddialarından sonra iğtişaşlar baş verdi*, 21 noyabr 2015-ci il, http://www.dawn.com/news/1221273. Məlumatlara görə 2015-ci ilin iyulunda iki silahlı şəxs Pakistanın Tonsa Şərif şəhərindəki əhmədi məscidinə atəş açdılar. BİHK, *Pakistanda silahlı şəxslər əhmədi məscidinə hücum etdilər*, 13 iyul 2015-ci il, http://hrcommittee.org/News/18.

hücum edib.[240] Əhmədi icmaları daim ziyana məruz qalma qorxusu altında yaşadıqlarını bildirirlər.[241] Əhmədi qadınların ənənəvi geyim tərzi, məlumatlara görə, onların vizual olaraq daha çox açıqlığına imkan yaradır ki, bu da onları əlverişsiz duruma salır. Əhmədi qruplarının sözlərinə görə, əhmədi qadınlar ibadət və ya digər mərasimlər üçün, hətta öz nikah mərasimləri üçün əhmədi məscidlərinə gedərkən daha özlərini təhlükəsizlikdə hiss etmirlər.[242]

Əhmədi şəxslərə qarşı küfr ittihamları, məlumatlara görə, kütlənin zorakılığına və qətl hallarına gətirib çıxarır. Məsələn, məlumatlara əsasən əhmədi şəxsə məxsus fabrikdə Quran səhifələrinin sobaya atıldığı barədə yerli ruhaniyə məlumat verildikdən sonra 20 noyabr 2015-ci ildə kütlə həmin fabrikə od vurdu.[243] Məlumatlara görə ertəsi gün Celumda kütlə polis kordonunu yarıb keçdi və əhmədilərin ibadət yerini yandırdı.[244] 2014-cü ilin iyulunda əhmədi şəxsin *Facebook* səhifəsində küfr məzmunlu qeydlər yerləşdirdiyi barədə iddialara reaksiya olaraq çoxsaylı kütlə, məlumatlara əsasən, həmin şəxsin evinə hücum etdi və ərazidəki digər evləri yandırdı, nəticədə bir nənə və onun iki nəvəsi öldü.[245]

Məlumatlara əsasən əhmədilərə qarşı dözümsüzlüyü və ayrı-seçkiliyi təşviq edən mitinqlər keçirilir və istər ənənəvi media vasitəsilə, istərsə də broşürlərin yayılması, üzərində yazı və ya təsvir olan yapışqanlı kağızların və divar yazılarının istifadəsi vasitəsilə nifrət kampaniyaları aparılır.[246] 2016-cı ilin sentyabrında Pakistanın elektron kütləvi informasiya vasitələrinin

---

[240] "*Dawn*" qəzeti, *Çakvalda əhmədilərin ibadət yerini "mühasirəyə almış" kütlə polis tərəfindən dağıdıldı*, 12 dekabr 2016-cı il, http://www.dawn.com/news/1302057/mob-besieging-ahmadi-place-of-worship-in-chakwal-dispersed-by-police; "*The Express Tribune*" qəzeti, *Çakvalda ordu və polis əhmədilərin ibadət yerini mühasirəyə almış kütləni dağıtdı*, 12 dekabr 2016-cı il, http://tribune.com.pk/story/1261227/protesters-wrest-control-ahmadi-worship-place-chakwal/; "Səma" (*Samaa*) telekanalı, *Çakvalda əhmədilərin ibadət yerinə hücum edildi*, 12 dekabr 2016-cı il, https://www.samaa.tv/pakistan/2016/12/ahmadi-worship-place-attacked-in-chakwal/.

[241] Tədricən missiya nümayəndələrinə aydın olur ki, Pakistandakı əhmədi icması daimi qorxu içərisində yaşayan, hər zaman geriyə baxaraq təhlükə gözləyən icmadır. O, özündən başqa heç kimin köməyinə ümid bəsləməli olmayan təcrid olunmuş icmadır. O, sanki mühasirə vəziyyətində olan icmadır". AİHK və BİHK, *Sıxışdırılan əhmədi müsəlman icmasına qarşı təqiblərin artması ilə bağlı Pakistana göndərilmiş faktaraşdırıcı missiyanın hesabatı*, 26 mart 2015-ci il, http://hrcommittee.org/External/FactFindingReportOnPersecutionOfAhmadiMuslims.pdf, səh. 31.

[242] "*Tanqeed*" ("Tənqid") jurnalı, *Qadın və əhmədi olmaq: rəylər*, yanvar 2016-cı il, http://www.tanqeed.org/2016/01/being-female-ahmadi-voices/. AİHK və BİHK, *Sıxışdırılan əhmədi müsəlman icmasına qarşı təqiblərin artması ilə bağlı Pakistana göndərilmiş faktaraşdırıcı missiyanın hesabatı*, 26 mart 2015-ci il, http://hrcommittee.org/External/FactFindingReportOnPersecutionOfAhmadiMuslims.pdf, səh. 69-72.

[243] "Bu iddianı sübut etməyə heç bir cəhd etmədən məscidlərin səsgücləndiricilərindən elan etdilər ki, əhmədinin sahib olduğu fabrikdə müqəddəs kitab təhqir edilib. Tezliklə kütlə toplaşdı və fabriki mühasirəyə aldıqdan sonra yandırdı". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 7; həmçinin bax: "*The Express Tribune*" qəzeti, *Küfr iddiaları: Celumda kütlə fabrikə od vurdu*, 21 noyabr 2015-ci il, http://tribune.com.pk/story/995654/blasphemy-allegations-mob-torches-factory-in-jhelum/.

[244] Bu insidentdən sonra kütlə Celumdan keçən əsas şose yolunu bağladı və polis əməkdaşları ilə toqquşdu. İctimai qaydanı bərpa etmək üçün ordu qüvvələrini çağırmaq lazım gəldi. İtki baş vermədi". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 7; həmçinin bax: PSAİ, *Pakistanın təhlükəsizliyi ilə bağlı hesabat (2015): Daxili təhlükəsizlik sxemi (2015)*, yanvar 2016-cı il, http://pakpips.com/downloads/282.pdf, səh. 35. Həmçinin 239-cu mətnaltı qeydə bax.

[245] Beynəlxalq Amnistiya Təşkilatı, *Pakistan: Əhmədi icmasına hücum edildi, üç nəfər öldürüldü*, 30 iyul 2014-cü il, ASA 33/011/2014, http://www.refworld.org/docid/53df8d434.html; Azad Avropa/Azadlıq Radiosu, *Pakistanda Facebook-da yerləşdirilmiş "küfr" məzmunlu qeydlərə görə üç nəfər öldürüldü*, 28 iyul 2014-cü il, http://www.refworld.org/docid/54003e53f.html; "*Wall Street Journal*" qəzeti, *Pakistanda kütlə üç əhmədini öldürdü*, 28 iyul 2014-cü il, http://www.wsj.com/articles/mob-kills-three-members-of-ahmadiyya-religious-community-in-pakistan-1406559233. Həmçinin 223-cü mətnaltı qeydə bax.

[246] Sentyabr 2015-ci il tarixli məqaləsində İctimai Yayım Xidməti məlumat verdi ki, "Lahor icması yerli molla tərəfindən yayılmış sənədi əldə edib, orada yüzlərlə əhmədinin adı sadalanır və ünvanları və telefon nömrələri göstərilir. Sənəddə elan edilir ki, onların öldürülməsi "savab hərəkətdir". İctimai Yayım Xidməti (İYX), *Pakistan əhmədiləri qeydi-müsəlman elan edə bilərmi?* 14 sentyabr 2015-ci il, http://www.pbs.org/wnet/religionandethics/blog/can-pakistan-declare-ahmadis-non-muslim/. İstefaya çıxmış polis rəisi Zübeyr Sara, məlumatlara əsasən, 11 yanvar 2015-ci ildə öz evində mövlud toplantısı keçirdi, iddia edildiyinə görə oradakı şəxslər səsgücləndiricilər vasitəsilə toplantı iştirakçılarını əhmədiləri evlərindən bayıra çıxarmağa və öldürməyə çağırdılar. "*The Persecution of Ahmadis*" nəşri, *Pakistanda əhmədilərin təqib edilməsi: xəbərlər*, yanvar

tənzimlənməsi üzrə dövlət idarəsinin şikayətlər şurası "Neo TV" telekanalının iki aparıcısının əhmədilər barəsində işlətdiyi "təxribatçı" ifadələrə qarşı əhmədi icması üzvlərinin verdikləri şikayətləri rədd etdi; məlumatlara əsasən şuranın keçirdiyi iclası Lahor Yüksək Məhkəməsi yanında Vəkillər Assosiasiyası tərəfindən rəhbərlik edilən bir qrup vəkil dayandıraraq əhmədilərin şikayətinin rədd edilməsini tələb etdilər.[247] Məlumatlara görə 2016-cı ilin aprelində siyasi mitinqdəki çıxışı zamanı keçmiş (2012-2013-cü illər) baş nazir və PXP-nin rəhbəri Raca Pərviz Əşrəf "[əhmədilərin] problemlinə toxundu və iddia etdi ki, onun partiyası "onları susduracaq, boyunlarını sındıracaq və [əhmədi] problemlini dəfn edəcək".[248] 2015-ci ilin dekabrında Lahordakı iri ticarət mərkəzində dükan sahibi olan şəxs, məlumatlara görə, dükanda əhmədilərə qarşı alçaldıcı ifadələrin yer aldığı və əhmədilərin dükana daxil olmasını qadağan edən lövhəcik asdı. Həmin dükan sahibinin polis tərəfindən tutulduğu barədə sosial mediada xəbərlər yayıldıqdan sonra yüzlərlə insan, məlumatlara görə, etiraz üçün ticarət mərkəzinin yanında toplaşdı.[249] Anti-əhmədi qruplar, o cümlədən "Xətmi-Nəbuvat" (bu ifadə "peyğəmbərliyin xətm edilməsi" mənasını verir), məlumatlara əsasən, əhmədi icmasına qarşı mütəmadi olaraq mitinq və yığıncaqlar təşkil edirlər; medianın məlumatlarına əsasən, "Xətmi-Nəbuvat" da daxil olmaqla bəzi anti-əhmədi qruplar "tərəfdarlarını əhmədiləri öldürməyə dini vəzifə kimi baxmağa çağırırlar".[250]

---

2015-ci il, https://www.persecutionofahmadis.org/wp-content/uploads/2010/03/News-Report-January-2015.pdf. Aşağıdakı mənbədə Pəncab əyalətinin Rəbva şəhərindəki əhmədi icmasının sözçüsü Qəmər Süleymanın bu sözlərindən sitat gətirilib: "Təbii ki, qorxu var. Əhmədilərin kafirlər kimi öldürülməli olduğunu bildirən broşürlər yayılır". İnteqrasiyalı Regional İnformasiya Şəbəkələri (IRIN), *Pakistanda azlıqlar təzyiq altındadır*, 17 oktyabr 2013-cü il, http://www.refworld.org/docid/5261065b4.html. Həmçinin bax: HRW, *2014-cü il üçün dünya üzrə hesabat – Pakistan*, 21 yanvar 2014-cü il, http://www.refworld.org/docid/52dfddc23.html; BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, 10 mart 2015-ci il, http://www.refworld.org/docid/552cd9bd24.html, səh. 13.

[247] "*The Express Tribune*" qəzeti, *Qanunun qoruyucuları qızmış kütləyə çevrilərsə*, 3 oktyabr 2016-cı il, http://tribune.com.pk/story/1192471/custodianslaw-turn-unruly-mob/; "*Dawn*" qəzeti, *Pakistanın elektron kütləvi informasiya vasitələrinin tənzimlənməsi üzrə dövlət idarəsi iki telekanala qarşı şikayətləri rədd etdi*, 30 sentyabr 2016-cı il, http://www.dawn.com/news/1286996/pemra-dismisses-complaints-against-two-tv-channels; "*Dawn*" qəzeti, *Proqramın qadağan edilməsi ifadə azadlığına ziddir*, 18 iyun 2016-cı il, http://www.dawn.com/news/1265608/banning-a-programme-is-against-freedom-of-expression.

[248] "*Rabwah Times*" qəzeti, *Pakistanın keçmiş baş naziri təqib olunan müsəlman icması üzvlərinin "boynunu sındırmağı" öhdəsinə götürdü*, 1 may 2016-cı il, https://www.rabwah.net/former-pakistani-pm-takes-credit-for-breaking-neck-of-persecuted-muslim-community/.

[249] PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 7; "*The Express Tribune*" qəzeti, *Dini nifrət yayma cinayəti: əhmədiləri alçaltdığına gör tutulmuş şəxs girov müqabilində azad edildi*, 15 dekabr 2015-ci il, http://tribune.com.pk/story/1010125/hate-crime-man-held-for-degrading-ahmadis-gets-bail/; "*The Express Tribune*" qəzeti, *Polis Lahorun informasiya texnologiyaları sahəsindəki ən iri dükanından əhmədilər əleyhinə lövhəcikləri qopartdı*, 11 dekabr 2015-ci il, http://tribune.com.pk/story/1008068/police-removeanti-ahmadi-posters-from-lahores-largest-it-market/.

[250] Məlumatlara əsasən 7 sentyabr 2016-cı ildə Rəbvada "Xətmi-Nəbuvat" əhmədilərin Konstitusiyada qeyri-müsəlman elan edilməsinin 42-ci ildönümünün qeyd edildiyi yığıncaq keçirdi. "*Rabwah Times*" qəzeti, *"Xətmi-Nəbuvat" ekstremist qrupu Rəbvada əhmədilər əleyhinə yığıncaq keçirdi*, 11 sentyabr 2016-cı il, https://www.rabwah.net/extremist-group-khatm-e-nabuwat-hosts-conference-against-ahmadis-in-rabwah/; "*The Express Tribune*" qəzeti, *Müxtəlif qruplar əhmədilərə qarşı əlavə sanksiyaların tətbiqinə çağırdılar*, 9 sentyabr 2016-cı il, http://tribune.com.pk/story/1178905/faithbased-various-groups-call-sanctions-ahmadis/; "*Rabwah Times*" qəzeti, *Pakistanın yüksək səviyyəli ruhanisi əhmədiləri edam etməyə çağırdı*, 27 sentyabr 2016-cı il, https://www.rabwah.net/pakistans-top-cleric-calls-for-execution-of-ahmadis/; "Əl-Cəzirə" telekanalı, *Pakistan əhmədiləri: "Ədalət mühakiməsinin mövcud olmaması"*, 7 avqust 2014-cü il, http://www.aljazeera.com/indepth/features/2014/08/pakistan-ahmadiyya-an-absence-justice-20148616414279536.html. Harvard Universitetinin antropologiya üzrə dosenti "izah etdi ki, əhmədi şəxs dini mənsubiyyətini əhmədi kimi göstərməzsə və bunun əvəzinə müsəlman olduğunu bildirərsə, özünü müsəlman kimi "təqdim etdiyinə" və ya "göstərdiyinə" görə məsuliyyətə cəlb edilə bilər". Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası, *Pakistan: Əhmədilərin vəziyyəti, o cümlədən cəmiyyətin və dövlət orqanlarının onlarla rəftarı; onların hüquqi statusu və siyasi həyatda iştirak sahəsində və təhsil və məşğulluq sahəsində hüquqları (2013-yanvar 2016)*, 13 yanvar 2016-cı il, PAK105369.E, http://www.refworld.org/docid/56af1b384.html. Misal üçün, "Xətmi-Nəbuvat" hərəkatının Pakistanda əhmədilərə qarşı nifrət yayan çıxışının qısa videoyazısına da bax: "*Rabwah TV*"

Məlumatlarda bildirilir ki, təhsil müəssislərində əhmədilərə qarşı nifrət yayan çıxışlar edilir;[251] bəzi hallarda küfr barədə iddialar müəllimlərin işdən azad edilməsinə səbəb olur.[252] Əhmədi qrupları məlumat verirlər ki, digər sektorlardakı əhmədi işçilər də təzyiqə məruz qalır və əhmədi olduqları aşkara çıxdıqda bəzən həmkarları tərəfindən işdən çıxmağa məcbur edilirlər.[253] Əhmədi mütəxəssislər və biznes sahibləri, məlumatlara görə, "ilk növbədə ənənəvi islamın bütün təriqətlərindən olan yerli dini qruplar" tərəfindən "iqtisadi sahədən kənarlaşdırma" və ya "iqtisadi boykot" adlandırdıqları hərəkətlərə məruz qalırlar; nəticədə əhmədi biznes sahiblərinin çoxu, məlumatlara görə, başqa ərazilərə köçməli olurlar.[254]

Yuxarıdakıları nəzərə alaraq BMTQAK hesab edir ki, əhmədi icmasının üzvləri, o cümlədən yaraqlı qrupların hədəfi olanlar, yaxud küfr əleyhinə və ya əhmədilər əleyhinə qanunvericilik normaları əsasında cinayət əməllərində ittiham olunanlar hər bir konkret halın fərdi xüsusiyyətlərindən asılı olaraq, dini, etnik mənsubiyyətlərinə, (güman edilən) siyasi əqidələrinə və (və ya) digər müvafiq əsaslara görə qaçqın qismində beynəlxalq himayəyə ehtiyac duya bilərlər.

## *2. Bəhailər*

Pakistanda rəsmən qeyri-müsəlman dini azlıq sayılan[255] bəhai inancının ardıcıllarının sayı, hesablamalara görə, təxminən 34.000 nəfərdir.[256]

---

telekanalı, *"Xətmi-Nəbuvat" əhmədilərin hərəkət azadlığı məhdudlaşdırılmayacağı təqdirdə zorakılıq törədəcəyi ilə hədələdi*, 24 iyun 2016-cı il, videoyazını "Vimeo" saytında tapmaq olar: https://vimeo.com/172069135. Məlumatlarda deyilir ki, 2013-cü ilin sentyabrında sünni ruhanilər əhmədilərin 1974-cü ildə Konstitusiyada qeyri-müsəlman elan edilməsinin qeyd edildiyi yığıncaq keçirdilər. Məlumatlara görə yığıncağın iştirakçıları dedilər ki, əhmədilərə qarşı müqəddəs müharibə (cihad) aparmaq onların borcudur, əhmədilər şəhəri "murdarlayırlar" və onların məscidləri "gizli sui-qəsd mərkəzləridir". AHBQ, *Azlıqlar və yerli xalqlar barəsində ümumdünya elektron məlumat resursu – Pakistan:* sentyabr 2010-cu il, AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2014 – Pakistan*, 3 iyul 2014-cü il, http://www.refworld.org/docid/53ba8dda5.html.

251 Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 28. "İddia edildiyinə görə bəzi təhsil müəssisələrində müəllimlər əhmədilərə qarşı nifrət yayan çıxışlar edir və insanları onları öldürməyə təhrik edirlər. Məlumatlara əsasən əhmədilər bundan şikayət etdikdə təhsil müəssisələrindən xaric edilirlər". BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, 10 mart 2015-ci il, http://www.refworld.org/docid/552cd9bd24.html, səh. 15.

252 2014-cü ilin dekabrında səhvən əhmədi kimi göstərilmiş bir müəllimin islamın tədris edildiyi dərsdə küfr xarakterli fikirlər bildirdiyi barədə iddialara reaksiya olaraq Attok şəhərində broşür yayıldı, orada deyilirdi: "peyğəmbərə qarşı küfr edənin cəzası başının kəsilməsidir". Attokda əhmədilər əleyhinə nümayiş keçirildi və nəticədə məktəb müdiriyyəti iki əhmədi müəllimi işdən azad etdi. "*The Persecution of Ahmadis*" nəşri, *Pakistanda əhmədilərin təqib edilməsi: xəbərlər,* yanvar 2015-ci il, https://www.persecutionofahmadis.org/wpcontent/uploads/2010/03/News-Report-January-2015.pdf, pp. 4-5; həmçinin bax: PİHK, *Attokda iki əhmədi müəllim işdən çıxarıldı*, 22 dekabr 2014-cü il, http://hrcommittee.org/News/18.

253 "Əhmədilər təhsil müəssisələrində və iş yerlərində əqidəyə əsaslanan ayrı-seçkiliyə və təzyiqə məruz qalırlar". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-ofthought.pdf, səh. 6. Həmçinin bax: "*The Persecution of Ahmadis*" nəşri, *Pakistanda əhmədilərin təqib edilməsi: xəbərlər*, yanvar 2016-cı il, https://www.persecutionofahmadis.org/wpcontent/uploads/2010/03/News-Report-January-2016.pdf.

254 Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 29-30. Məlumatlara görə Rəbvada bəzi müsəlman ruhanilər əhmədi torpağında inşa edilmiş bazarın başqa yerə köçürülməsi üçün rayon rəhbərliyinə təzyiq göstəriblər. "*The Express Tribune*" qəzeti, *Əhmədilər əleyhinə kampaniya keçirənlər ramazan bazarının başqa yerə köçürülməsini tələb edirlər*, 8 iyun 2016-cı il, http://tribune.com.pk/story/1118427/can-benefit-ramazan-subsidies/.

255 Pakistan İslam Respublikası Konstitusiyasının (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə) 260-cı maddəsinin 3(b) bəndinə əsasən bəhailərə "qeyri-müsəlmanlar" kimi anlayış verilib, http://www.refworld.org/docid/47558c422.html. Bəhailər hesab edirlər ki, onların inancının banisi tanrı elçilərinin siyahısında ən son elçidir, bu isə Məhəmmədin sonuncu və ən böyük peyğəmbər olduğu barədə ənənəvi müsəlmanların inancına ziddir; "Writenet" şəbəkəsi, Pakistan: *Dini azlıqların vəziyyəti*, may 2009-cu il, http://www.refworld.org/docid/4b01856e2.html, 32-33.

Qanuna, ictimai qaydaya və mənəviyyat normalarına riayət etmək şərti ilə hər bir dini cərəyan və təriqət nümayəndələrinin öz dini təsisatlarını yaratmaq, qoruyub və idarə etmək hüququna malik olduğu Konstitusiyada nəzərdə tutulsa da,[257] müşahidəçilər qeyd edirlər ki, rayon səviyyəsində dövlət orqanları bəhailərin ibadət yerləri inşa etmələrinə icazə verməkdən davamlı olaraq imtina edir və iddia edirlər ki, belə tədbirlər ictimai qaydanı qorumaq üçün zəruridir.[258] Pakistan hökumətinin İsraili tanımaması və nəticədə vətəndaşların oraya səfər etmələrinə icazə verməməsi də bəhailərə öz təsirini göstərir, belə ki, icmanın mənəvi və inzibati mərkəzi olan Ümumdünya Bəhai Mərkəzi İsraildə yerləşir.[259]
Məlumatlara əsasən bəhailər nikahlarını rəsmən qeydiyyata aldırmaq imkanına malik deyillər,[260] bu isə bəhai qadınların pasport almaq və ya digər mülki hüquqlarını həyata keçirmək, yaxud da nikah mübahisələri zamanı hüquqi müdafiə vasitələrindən istifadə etmək imkanlarına ciddi təsir göstərə bilər.[261] (Həmçinin III.E bölməsinə və "Pakistanda dini azlıqların vəziyyəti" adlanan IV bölməyə bax.)

Yuxarıdakıları nəzərə alaraq BMTQAK hesab edir ki, bəhai icmasının üzvləri hər bir konkret halın fərdi xüsusiyyətlərindən asılı olaraq, dini, etnik mənsubiyyətlərinə, (güman edilən) siyasi əqidələrinə və (və ya) digər müvafiq əsaslara görə qaçqın qismində beynəlxalq himayəyə ehtiyac duya bilərlər.[262]

### 3. Xristianlar

Məlumatlara əsasən Pakistanda 2,05 milyondan 2,09 milyonadək xristian var və bu xristianların 82,5 faizdən 90 faizə qədəri Pəncab əyalətində yaşayır.[263]

#### a) Pakistanda xristian şəxslərin vəziyyəti

---

[256] MMBQİ tərəfindən açıqlanan statistika göstərir ki, EMŞK üçün müraciət edərkən təqdim etdikləri ərizə formalarında 33.734 pakistanlı dini mənsubiyyətini bəhai kimi göstərib. "*The Express Tribune*" qəzeti, *35-dən artıq buddist və bəhai Pakistanı "vətəni" adlandırır*, 2 sentyabr 2012-ci il, http://tribune.com.pk/story/430059/over-35000-buddhists-bahais-call-pakistan-home/. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; "Writenet" şəbəkəsi, *Pakistan: Dini azlıqların vəziyyəti*, may 2009-cu il, http://www.refworld.org/docid/4b01856e2.html, səh. 32.

[257] Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 20.

[258] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2013-cü il tarixli hesabat – Pakistan*, 28 iyul 2014-cü il, http://www.refworld.org/docid/53d90733b.html.

[259] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[260] Pakistan Konstitusiyasına əsasən, bütün icmaların fərdi məsələləri tənzimləyən qanunvericiliklərinə malik olmaq hüququ var. Bəzi dini azlıqların nikah, boşanma və miras kimi ailə məsələləri fərdi qanunlarda təsbit olunmadığına görə bu məsələlər reallıqda adət hüququ ilə tənzimlənir. III.E bölməsinə bax.

[261] AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 15. Bununla belə, məlumatlara əsasən məhkəmələrə fərdi ərizə ilə müraciət edildikdə bəhailərin nikahı qeydiyyata alına bilər. Bax: PİHK, *2010-cu ildə insan hüquqlarının vəziyyəti*, aprel 2010-cu il, http://hrcp-web.org/hrcpweb/wp-content/pdf/ar/ar10e.pdf, səh. 36.

[262] Dini səbəblərə görə sığınacaq üçün müraciətlə bağlı əlavə təlimat üçün bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər*, HCR/GIP/04/06, 28 aprel 2004-cü il, http://www.refworld.org/docid/4090f9794.html, 17-19-cu bəndlər.

[263] "Həmrəylik və Sülh Uğrunda Hərəkat", Pakistan, *Pakistanın xristian icmasında məcburi nikahlar və dinini dəyişməyə məcbur edilmə*, aprel 2014-cü il, http://www.wunrn.org/news/2014/06_02/06_16/061614_pakistan.htm, səh. 3-4. 1998-ci il siyahıyaalmasının nəticələrinə əsasən, ölkə əhalisinin 1,59 faizi xristianlardır; bax: Pakistan hökuməti yanında Əhalinin Siyahıyaalınması Təşkilatı, *1998-ci il siyahıyaalması: Əhalinin dini tərkibi* (tarix göstərilməyib), http://www.pbs.gov.pk/content/population-religion.

Polis də daxil olmaqla dövlət orqanları xristian şəxsləri amansız hücumlardan qorumaq üçün müdaxilələr etmədiklərinə və ayrı-seçkilik və zorakılıq insidentlərini yetərincə araşdırmadıqlarına görə tənqid edilirlər,[264] hərçənd ki, məlumatlara əsasən bəzi hallarda polis xristianları cəmiyyət üzvlərinin hücumlarından qorumaq üçün müdaxilə edib və onları müdafiə edib.[265] 2014-cü ilin dekabrında Ali Məhkəmə qərara aldı ki, polis 2014-cü ilin noyabrındakı insidentə reaksiya göstərmək məsələsində səhlənkarlıq edib, məlumatlara görə həmin insident zamanı təxminən 1.500 nəfərlik kütlə küfrdə təqsirləndirilən xristian ər-arvadı qətlə yetirmişdi.[266] 2016-cı ilin noyabrında Kaşur rayonunun anti-terror məhkəməsi xristian ər-arvadın qətlində oynadıqları rola görə beş müsəlman kişini ölüm cəzasına məhkum etdi.[267]

---

[264] ABŞBDAK, *2015-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html; HRW, *Şri-Lanka: Pakistanlı azlıqları kütləvi deportasiya etməyin*, 2 iyul 2014-cü il, http://www.refworld.org/docid/53b67fd94.html. Məsələn, məlumatlara əsasən 2013-cü ilin martında polislər, qabaqcadan xəbərdar edildiklərinə baxmayaraq, xristianlara hücum ediləcəyi barədə təhdidlərə lazımi reaksiya göstərmədilər və təxminən 3.000 nəfərlik iğtişaşçı kütlənin hücumu Lahorda 100-dən 200-dək xristian ailəsinin evlərinin yandırılması ilə nəticələndi. BBQ, *Pakistanın demokratiyaya keçidində parlamentin rolu*, 18 sentyabr 2013-cü il, http://www.refworld.org/docid/523a9fba4.html, səh. 32; PİHK, *PİHK Cozef qəsəbəsindəki insidentdə polisi və administrasiyanı təqsirkar sayır*, 13 mart 2013-cü il, http://hrcp-web.org/hrcpweb/joseph-colony-incident-hrcp-holds-police-administration-responsible/; həmçinin 292-ci mətnaltı qeydə bax.

[265] Məlumatlara əsasən 2016-cı ilin sentyabrında dörd silahlı şəxs Peşəvərdə xristian qəsəbəsi adlandırılan xristian yaşayış məskəninə hücum etdikdən sonra polis hadisəyə müdaxilə etdi. "*Dawn*" qəzeti, *Peşəvərdəki xristian qəsəbəsinə hücum: mülki şəxslər qətlə yetirildi, terrorçuların hamısı öldürüldü*, 2 sentyabr 2016-cı il, http://www.dawn.com/news/1281557; "*The Express Tribune*" qəzeti, *Peşəvərdəki xristian qəsəbəsinə hücum zamanı beş nəfər öldürüldü*, 2 sentyabr 2016-cı il, http://tribune.com.pk/story/1174628/gunmen-attack-christian-colony-peshawar/. 19 avqust 2015-ci ildə vətəndaş cəmiyyəti təşkilatları məlumat verdilər ki, polis Pəncabın Qucrat şəhərindən olan xristian pastorunun və üç digər şəxsin yandırılması cəhdini dayandırmaq üçün hadisəyə müdaxilə edib. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Məlumatlara əsasən 2015-ci ilin mayında polis Lahorda bir xristian kişini və kilsəni yandırmağa cəhd edən çoxsaylı insanları dayandırmağa nail oldu. Məlumatlara görə 30 iyun 2015-ci ildə Pəncab əyalətində polis hadisəyə müdaxilə edə və xristian ər-arvadı Lahorda bir qrup müsəlman tərəfindən küfrdə təqsirləndirilərək qətlə yetirilməkdən müdafiə edə bildi. Misal üçün bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 10; Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 45-46; "*Dawn*" qəzeti, *Polis Lahor yaxınlığında xristian ər-arvadı onlara qarşı "küfr" ittihamı irəli sürən kütlədən xilas etdi*, 2 iyul 2015-ci il, http://www.dawn.com/news/1191891; Azad Avropa/Azadlıq Radiosu, *Pakistanda polis küfrdə təqsirləndirilən xristianlara divan tutma cəhdini dayandırdı*, 3 iyul 2015-ci il, http://www.refworld.org/docid/55b5f44f77.html. Pakistanda polisin davranışı ilə bağlı ümumi məlumat üçün bu mənbəyə də bax: " Human Rayts Votç" təşkilatı, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat*, 25 sentyabr 2016-cı il, 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html.

[266] "4 noyabr 2014-cü ildə Kasurda təxminən 1.500 nəfərlik kütlə küfr etdikləri bildirilən xristian ər-arvada hücum etdi və sonra onları kərpic sobasına atdı. Media, hökumət və vətəndaş cəmiyyəti təşkilatları iddia etdilər ki, həmin ər-arvad borclarını ödəyə bilmədiklərinə görə kərpic sobasının sahibi onları Quranı təhqir etməkdə təqsirləndirib". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2014-cü il tarixli hesabat – Pakistan*, 25 iyun 2015-ci il, http://www.refworld.org/docid/559bd54a28.html. Məlumatlara əsasən 16 dekabr 2014-cü ildə Ali Məhkəmə polisin bu insidentə dair hesabatını natamam sayaraq rədd etdi və səhlənkarlığa yol vermiş polis əməkdaşları barəsində tədbir görülməsi haqqında qərar çıxardı. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2014-cü il tarixli hesabat – Pakistan*, 25 iyun 2015-ci il, http://www.refworld.org/docid/559bd54a28.html. Məlumatlara görə 2014-cü ilin noyabrında baş nazir və Pakistan Üləma Şurasının (islam ruhanilərindən və hüquqşünas alimlərdən ibarət qrup) başçısı bu iki xristianın qətlini pislədirlər: Azad Avropa/Azadlıq Radiosu, *Pakistanlı islam lideri xristian ər-arvadın qətlini pislədi*, 7 noyabr 2014-cü il, http://www.refworld.org/docid/548ea85a6.html. PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 82. Məlumatlara əsasən bu insidentlərlə bağlı faktaraşdırıcı missiyanın hesabatında bu qənaətə gəlindi ki, polis rəisi həmin insidentdən bir gün əvvəl küfr iddiası ilə bağlı gərginlik yaranmasından xəbərdar idi, lakin yuxarı vəzifəli polis əməkdaşlarına bu barədə məlumat verməmişdi. "*The Express Tribune*", *Kot Radha Kişandakı hadisədə təqsirləndirilən 106 şəxs barəsində anti-terror məhkəməsində ittiham irəli sürüldü*, 21 may

Məlumatlara əsasən polis və məhkəmə orqanları zorla dinini dəyişmə və məcbur nikah hallarının qurbanı olan,[268] eləcə də küfrdə ittiham edilən xristianları yetərincə müdafiə ilə təmin etmirlər (həmçinin IV bölməyə bax: "Pakistanda dini azlıqların vəziyyəti").[269]

Məlumatlarda bildirilir ki, xristianlar da daxil olmaqla dini azlıq icmalarının üzvlərinin həbsdə olarkən sui-istifadə hallarına məruz qalması və daha pis şəraitdə saxlanması ehtimalı müsəlman məhbuslarla müqayisədə daha çoxdur.[270]

Həmçinin məlumatlara əsasən hökumət azlıqları borc müqabilində kərpic istehsalı və kənd təsərrüfatı sektorlarında məcburi əməyə cəlb olunmaqdan müdafiə etmir.[271] Qanunsuz hal olan borc müqabilində məcburi əməyə cəlb olunma praktikası, məlumatlara görə xristian şəxslərə

---

2015-ci il, http://tribune.com.pk/story/890015/atc-frames-charges-against-106-accused-in-kot-radha-kishan-case/; "*Dawn*" qəzeti, *Kot Radha Kişandakı divantutmadan sonra 59 nəfər həbsdə alındı*, 16 dekabr 2014-cü il, http://www.dawn.com/news/1151169; "*Dawn*" qəzeti, *Xristian ər-arvadı yandırıb öldürdüklərinə görə 50 kəndli saxlanıldı*, 6 noyabr 2014-cü il, http://www.dawn.com/news/1142612.

[267] Beş şəxs ölüm cəzasına məhkum edildi və həmçinin qurbanların varislərinə kompensasiya qismində 100.000 rupi ödənilməsi barədə qərar çıxarıldı; 8 şübhəli şəxs qətldəki rollarına görə iki il azadlıqdan məhrum edildi. Anti-terror məhkəməsinin qərarından yuxarı məhkəməyə apellyasiya şikayəti vermək olar. "*The Express Tribune*" qəzeti, *Kot Radha Kişan işi üzrə anti-terror məhkəməsinin qərarı presedent yarada bilərmi?* 27 noyabr 2016-cı il, http://tribune.com.pk/story/1246301/may-atcs-kot-radha-kishan-verdict-set-precedent/; "*Pakistan Christian Post*" qəzeti, *Küfr iddiaları əsasında xristian ər-arvada divan tutmuş beş nəfər ölümə məhkum edildi*, 23 noyabr 2016-cı il, http://www.pakistanchristianpost.com/detail.php?hnewsid=6192.

[268] "Ümumdünya Xristian Həmrəyliyi" təşkilatı, *BMT-nin Pakistana dair bəyanatı: Pakistanda insan hüquqlarının, hakimlərin və hüquq müdafiəçilərinin vəziyyəti barədə "Ümumdünya Xristian Həmrəyliyi" təşkilatının yazılı bəyanatı*, 7 sentyabr 2015-ci il, http://www.csw.org.uk/2015/09/07/report/2757/article.htm; BMT-nin Baş Assambleyası, İnsan Hüquqları Şurası, 29-cu sessiya, *BMT-də ümumi məsləhətçi statusuna malik olan qeyri-hökumət təşkilatı Asiya Hüquqi Resurs Mərkəzi tərəfindən təqdim edilmiş yazılı bəyanat*, 5 iyun 2015-ci il, A/HRC/29/NGO/54, https://www.ecoi.net/file_upload/1930_1434538648_g1511505.pdf, 12, 16-cı bəndlər; "Həmrəylik və Sülh Uğrunda Hərəkat", *Pakistanın xristian icmasında məcburi nikahlar və dinini dəyişməyə məcbur edilmə*, aprel 2014-cü il, http://www.wunrn.org/news/2014/06_02/06_16/061614_pakistan.htm, səh. 23-25.

[269] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; HRW, *2015-ci il üçün dünya üzrə hesabat – Pakistan*, 29 yanvar 2015-ci il, http://www.refworld.org/docid/54cf838c15.html; HRW, *Pakistan: hüquq müdafiəçisinin qətli araşdırılsın*, 14 may 2014-cü il, http://www.refworld.org/docid/5379feb94.html. Məlumatlara əsasən 4 aprel 2014-cü ildə Pəncab əyalətində məhkəmə əlində tutarlı sübut olmadığı bir halda küfr xarakterli ismarıclar yazmaqla küfr törətdikləri iddia edilən xristian ər-arvadı ölüm cəzasına məhkum etdi; məlumatlara görə işə baxmış birinci instansiya məhkəməsinin hakimi "böyük təzyiq" altında olduğunu bildirmişdi. Azad Avropa/Azadlıq Radiosu, *Küfrə görə pakistanlı xristian ər-arvada ölüm cəzası verildi*, 5 aprel 2014-cü il, http://www.refworld.org/docid/534d30cc14.html.

[270] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html. Həmçinin bax: "*Agencia Fides*" xəbər agentliyi, Asiya/Pakistan – *Xristian həbsxanada öldü: təcili araşdırma tələb olunur*, 29 yanvar 2016-cı il, http://www.fides.org/en/news/59292; Pakistanlı Xristianların Britaniya Assosiasiyası, *Pakistanın xristianofob polisləri tərəfindən həbsdə saxlandığı müddətdə dördüncü xristian şəxs öldü*, 15 yanvar 2016-cı il, http://www.britishpakistanichristians.org/blog/5th-christian-mandies-while-in-custody-of-pakistans-christianophobic-police. Məlumatlara əsasən müsəlman məhbuslarla gərginlik nəticəsində baş vermiş insidentdən sonra qəddar rəftar barədə ailələrinə şikayət etdiklərinə görə bir neçə xristian şəxs 2014-cü ilin yanvarında polislər tərəfindən təcrid edildilər və döyüldülər. PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 91.

[271] "Məcburi əməyə cəlb olunanlar (və ya "*harilər*") Pakistanda xüsusilə müdafiəsiz vəziyyətdə olan əhali qrupudur. […] "Human Rayts Votç" təşkilatının araşdırması nəticəsində müəyyən edildi ki, "*zamindarlar*" (torpaqlarını fermerlərə icarəyə verən torpaq sahibləri) harilərə zorakı təzyiq göstərmək üçün tez-tez polisdən istifadə edirlər". "Human Rayts Votç" təşkilatı, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat*, 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html, səh. 28. "Məcburi əməyin və borclu əməyinin istifadəsi bütün ölkə boyu bir çox sahələrdə geniş yayılıb və adi hala çevrilib. QHT-lərin hesablamalarına görə, iki milyona yaxın insan borc köləliyi durumundadır, bu hal əsasən Sind və Pəncab vilayətində mövcuddur, amma Bəlucistanda və Xeybər Paxtunxvada da var. Borc müqabilində işlədilənlərin xeyli hissəsi aşağı kastalara mənsub olan hindular, eləcə də sosial-iqtisadi cəhətdən aşağı təbəqələrdən olan xristianlar və müsəlmanlardır. Məcburi əmək kənd təsərrüfatı sektorunda, o cümlədən pambıq, şəkər qamışı yetişdirmə, kərpic, daş kömür, şüşə istehsalı sahələrində və xalçaçılıq sənayesində geniş yayılıb". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html.

qeyri-mütənasib şəkildə tətbiq edilir.[272] Pakistan qanunvericiliyi köləliyi və məcburi əməyin bütün formalarını qadağan etsə də,[273] məlumatlara əsasən praktikada dövlət orqanları bu qanunvericiliyin müddəalarını tətbiq etmirlər.[274]

Xristian şəxslər, məlumatlara görə, təhsil müəssisələrində də ayrı-seçkiliyə məruz qalırlar (həmçinin IV bölməyə bax: "Pakistanda dini azlıqların vəziyyəti").[275] Məlumatlarda bildirilir ki, dövlət məktəblərinin dərsliklərində dini dözümsüzlük tədris edilir, o cümlədən xristianlara qarşı alçaldıcı ifadələr işlənir.[276]

Məlumatlara əsasən 2015-ci ildə dörd xristian küfrdə ittiham olunub.[277] 2014-cü ildə isə, məlumatlara görə, xristianlara qarşı beş küfr işi qaldırılıb və azı üç xristian küfrdə təqsirli bilindikdən sonra ölüm cəzasına məhkum edilib.[278] 16 oktyabr 2014-cü ildə Lahor Yüksək

---

[272] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; "Həmrəylik və Sülh Uğrunda Hərəkat", *Pakistanın xristian icmasında məcburi nikahlar və dinini dəyişməyə məcbur edilmə*, aprel 2014-cü il, http://www.wunrn.org/news/2014/06_02/06_16/061614_pakistan.htm, səh. 4.

[273] Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 11. "Məcburi əmək sisteminin ləğv edilməsi haqqında" 1992-ci il tarixli qanun məcburi əməyi qadağan edir, bu əmələ görə iki ildən beş ilədək azadlıqdan məhrumetmə cəzası, cərimə və ya bunların hər ikisini müəyyən edir və həmçinin mövcud borcları ləğv edir və belə borcların geri alınması üçün məhkəmə iddiası qaldırmağı qadağan edir. Bax: Pakistan, *Məcburi əmək sisteminin ləğv edilməsi haqqında 1992-ci il tarixli qanun*, http://www.refworld.org/docid/4e2d81c02.html; Pakistan, *Məcburi əmək sisteminin ləğv edilməsi haqqında 1995-ci il tarixli qaydalar*, http://www.refworld.org/docid/4e2d82252.html.

[274] "Borc müqabilində məcburi əməyə cəlb edilmə Pakistanda insan alverinə yol açan ən böyük problem olsa da, hökumət 2015-ci ildə məcburi əməyə cəlb edilməyə görə yalnız yeddi ittiham hökmünün çıxarıldığı barədə məlumat verib". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *İnsan alverinə dair hesabat – Pakistan*, 30 iyun 2016-cı il, http://www.refworld.org/docid/577f95c015.html. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html.

[275] Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti:* yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 44. "Təhsilə çıxış məsələsi icma üçün əsas problem olaraq qalır. 1972-ci ildə qəbul edilmiş Hərbi vəziyyət haqqında 167 və 168 saylı fərmanlar əsasında xristian təhsil müəssisələrinin zəbt edilməsi və milliləşdirilməsi əsas sektorlarda müsəlman şagird və tələbələrlə azlıqlardan olanların rəqabət aparmasına imkan verən təminatı ləğv etmiş oldu. Əsas təhsil müəssisələri üzərində mülkiyyət hüququnu bərpa etmək üçün icma tərəfindən qaldırılan və uzun sürən məhkəmə işi qismən uğurla nəticələnsə də, milliləşmə uzunmüddətli nəticələr doğurdu. Vaxtı ilə xristianlar üçün nəzərdə tutulan kolleclərdə indi xristian şagirdlərin sayı azdır, kvota ilə xristianlar üçün nəzərdə tutulan yerlər dolmamış qalır. […] İslam yönümlü tədris proqramlarının tətbiqi dövlət məktəblərində təhsilə çıxış əldə etmək məsələsində xristian icmalarının vəziyyətini daha da ağırlaşdırdı". "Həmrəylik və Sülh Uğrunda Hərəkat", *Pakistanın xristian icmasında məcburi nikahlar və dinini dəyişməyə məcbur edilmə*, aprel 2014-cü il, http://www.wunrn.org/news/2014/06_02/06_16/061614_pakistan.htm, səh. 4; həmçinin eyni mənbədə 5-ci səhifəyə bax.

[276] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. "Həmçinin dərsliklərdə xristianlar güvənilməyə layiq olmayan missionerlər kimi göstərilir və müsəlmanlara qarşı gizli sui-qəsd hazırlamaqda davam edən istismarçı Britaniya müstəmləkəçilərinə bərabər tutulur. […] Tədris proqramının nəzərdən keçirilməsi göstərir ki, dövlət məktəblərinin şagirdlərinə dini azlıqların, xüsusən xristian və hinduların şərəfsiz, zorakı və tiran xarakterli olduqları öyrədilir". ABŞBDAK, *Pakistanda qeyri-tolerantlığın tədrisi: dövlət məktəblərindəki dərsliklərdə dini qərəzlilik*, aprel 2016-cı il, http://www.uscirf.gov/sites/default/files/USCIRF_Pakistan_FINALonline.pdf, səh. 8-9.

[277] Pakistan İnsan Hüquqları Komissiyasının bildirdiyinə görə, 2015-ci ildə Cinayət Məcəlləsinin 295C maddəsi əsasında ittiham olunmuş 22 nəfərdən dördü xristiandır. PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcpweb.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 12. Cinna İnstitutunun bildirdiyinə görə, 2012-ci ilin yanvarından 2015-ci ilin iyununadək olan dövrdə ümumilikdə 14 xristiana qarşı küfr ittihamı irəli sürülüb. Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti:* yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 6.

[278] PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 48-49; HRW, *Şri-Lanka: Pakistanlı azlıqları kütləvi deportasiya etməyin*, 2 iyul 2014-cü il, http://www.refworld.org/docid/53b67fd94.html. 3 aprel 2014-cü ildə Pəncabda birinci instansiya məhkəməsi yerli müsəlmanlara küfr xarakterli ismarıclar yazmaqda

Məhkəməsi 2010-cu ildə küfrə görə məhkum edilmiş xristian qadın Asiya Bibinin ölüm hökmünü qüvvədə saxladı. Onun hökmdən verdiyi kassasiya şikayətindən sonra 2015-ci ilin iyulunda Ali Məhkəmə şikayətə baxıldığı müddətdə hökmün icrasını dayandırdı.[279] (Həmçinin III.B bölməsinə bax: "Cinayət Məcəlləsi: Küfr əleyhinə qanunvericilik").

***b) Qeyri-dövlət subyektləri tərəfindən xristian şəxslərə qarşı rəftar***

Kütlələrin xristianları hədəfə alan hücumları və mənəviyyatsız zorakılıqları, məlumatlara görə, bütün ölkə ərazisində baş verməkdə davam edir; təhlilçilər zorakılıqların səbəbini qismən sünni ekstremist ideologiyasının yüksəlişində görürlər.[280] Yaraqlı qruplar xüsusən kilsə ayinləri və dini mərasimlər keçirilən zaman hücumlar həyata keçirirlər.[281] Məlumatlarda bildirilir ki, 2016-cı ilin

---

təqsirləndirilən xristian ər-arvadı ölüm cəzasına məhkum etdi. 28 mart 2014-cü ildə məhkəmə 2013-cü ildə müsəlman dostu ilə söhbət zamanı küfr etdiyi bildirilən xristian Savan Məsihi ölüm cəzasına məhkum etdi. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html; həmçinin 292-ci mətnaltı qeydə bax.

[279] Müsəlman qadınla mübahisə zamanı Məhəmməd peyğəmbəri təhqir etdiyi iddia edilən Asiya Bibi 2010-cu ilin noyabrında rayon məhkəməsi tərəfindən təqsirkar hesab edildi. O, Cinayət Məcəlləsinin 295C maddəsi əsasında ölüm cəzasına məhkum olundu. Məlumatlarda bildirilir ki, o, həbs edildiyi 2009-cu ildən bəri, demək olar ki, tam təcrid halında saxlanılıb və məlumatlara görə bu dövrdə əqli və fiziki sağlamlıq durumu pisləşib. Onun vəkilləri 24 noyabr 2014-cü ildə Ali Məhkəməyə apellyasiya şikayəti təqdim etdilər. Məlumatlara əsasən onun barəsində küfr iddiası ilk dəfə irəli sürüləndən bəri əri və uşaqları gizlənirlər. Misal üçün bax: PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 12; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; Beynəlxalq Amnistiya Təşkilatı, *2014-cü ildə ölüm hökmləri və edamlar*, 31 mart 2015-ci il, ACT 50/0001/2015, http://www.refworld.org/docid/552245c74.html, səh. 37; Beynəlxalq Amnistiya Təşkilatı, *Pakistan: Qadın küfrə görə ölüm cəzasına məhkum edildi: Asiya Bibi*, 27 oktyabr 2014-cü il, http://www.refworld.org/docid/544f8b9c4.html.

[280] 2015-ci ilin avqustundan 2016-cı ilin mayınadək xristianlara qarşı baş vermiş insidentlərin xronologiyası və qısa icmalı üçün bax: AHBQ, *Xronologiya: xristianlara qarşı zorakılıqlar*, oktyabr 2016-cı il, http://stories.minorityrights.org/pakistan-religious-minorities/timeline/violations-against-christians/. Həmçinin bax: AHBQ, *Pakistanda xristianlara qarşı zorakılıqlar*, oktyabr 2016-cı il, http://stories.minorityrights.org/pakistan-religiousminorities/chapter/chapter-3/; Terrorizmlə bağlı Cənubi Asiya Portalı (*South Asia Terrorism Portal*), *Cənubi Asiyada terrorizm məlumatlarının icmalı, həftəlik qiymətləndirmələr və xülasələr*, 14-cü cild, № 39, 28 mart 2016-cı il, http://www.satp.org/satporgtp/sair/Archives/sair14/14_39.htm. "Xristianların üzləşdikləri dini əqidəyə əsaslanan ən ciddi hücumların bir qismi [2015-ci ildə] baş verdi. Küfr ittihamlarından irəli gələn zorakılıqlarla üzləşməsindən əlavə, bu icmanın ibadət yerləri də terrorçuların hədəfinə çevrildi. PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcpweb.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 9. "2012-ci ilin yanvarından 2015-ci ilin iyununadək müddəti əhatə edən hesabat dövründə pakistanlı xristianlar şiddətli və davamlı təhdidlərlə, təzyiq və zorakılıq aktları ilə üzləşiblər. Xristian icması müxtəlif şiddətlilik dərəcəsi olan qırxdan artıq hücumun hədəfi olub, yeddi kilsəyə xəsarət yetirilib, 14 xristian isə küfrdə ittiham olunub". Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 6. Həmçinin bax: "*The Economist*" jurnalı, *Nə üçün Pakistanda təriqətçilik zəfər çalır*, 10 avqust 2015-ci il, http://www.economist.com/blogs/economistexplains/2015/08/economist-explains-3; "İrs" Fondu (*The Heritage Foundation*), *Pakistan ölkədəki dini azlıqları müdafiə etdiyini nümayiş etdirmək üçün Asiya Bibini azad etməlidir*, 28 iyul 2015-ci il, http://www.heritage.org/research/reports/2015/07/pakistan-must-release-asia-bibi-to-demonstrateprotection-for-its-religious-minorities. Cinna İnstitutu 2012-ci ildən 2014-cü ilədək hər bir əyalətdə baş vermiş zorakılıq insidentləri barədə məlumat verib. "Məlumatlara əsasən insidentlərin demək olar hamısı Pəncabda baş verib. Sind və Bəlucistan əyalətlərində törədilmiş bütün zorakılıq hallarının Karaçidə və Kvettada baş verdiyi bildirilir. Pəncabda zorakılıqların təsirinə ən çox məruz qalan rayonlar Lahor, Feysəlabad, Ravalpindi, Okara və Qucranvaladır". Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 18; həmçinin eyni mənbədə 5- 6, 41-43-cü səhifələrə də bax.

[281] Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 17. Məsələn, 2013-cü ilin sentyabrında dindarlar bazar günü ibadətindən çıxıb kilsəni tərk etdikləri zaman intiharçı şəxs Peşəvərdəki kilsəyə bomba hücumu həyata keçirdi və məlumatlara görə hücumda 78-85 xristian həlak oldu, 100-dən artıq insan isə xəsarət aldı. Hücuma görə məsuliyyəti "Təhriki-Taliban Pakistan" qruplaşmasının bir qolu olan "Cundulla" qrupu öz üzərinə götürdü, bu qrup

sentyabrında Peşəvərdə dörd silahlı şəxs xristianların məskunlaşdığı "xristian qəsəbəsi" adlandırılan əraziyə hücum edərək bir nəfəri öldürdülər; məlumatlara görə polis hadisəyə müdaxilə edərək dörd yaraqlını qətlə yetirdi.[282] 2016-cı ilin martında pasxa bayramının qeyd edildiyi bazar günündə Lahordakı yerli parkda üzərində bomba olan şübhəli intiharçının bombanı partlatması nəticəsində 72 nəfər həlak oldu; məlumatlara əsasən Pakistandakı Taliban qrupundan ayrılmış qrup bu hücuma görə məsuliyyəti öz üzərinə götürdü və elan etdi ki, hücumun hədəfi xristianlar olub, hərçənd ki, ölənlərin arasında çoxlu müsəlmanlar vardı.[283] Məlumatlara görə 15 mart 2015-ci ildə bir qrup yaraqlı Lahorda bazar günü ibadətində iştirak edən çoxlu sayda dindarın olduğu iki xristian kilsəsində bomba partladaraq təxminən 14-17 nəfəri qətlə yetirdi və azı 70 nəfəri yaraladı.[284] Bu hücuma cavab olaraq xristianlar 16 mart 2015-ci ildə etiraz aksiyası keçirdilər; etirazlar zorakılığa çevrildi və məlumatlara görə xristian etirazçılar iki müsəlmanı öldürdülər; vətəndaş cəmiyyəti qruplarının hesablamalarına görə polis qətldə iştirak etdiyi iddia edilən 500-dən artıq xristianı həbsə aldı.[285] Lahor şəhərində xristianların yaşadığı Yuhanabad ərazisinin sakinləri, məlumatlara görə, qisasdan və növbəti zorakılıqlardan ehtiyat edirlər.[286]

---

analoji hücumları şiələrə qarşı da həyata keçirmişdi. "*Qardian*" qəzeti, *Pakistan kilsəsində bomba partlayışı: xristianlar Peşəvərdə intiharçı şəxsin hücumunda həlak olmuş 85 nəfərin yasını saxlayırlar*, 25 sentyabr 2013-cü il, http://www.theguardian.com/world/2013/sep/23/pakistan-church-bombings-christian-minority; BBC, *Pakistandakı partlayışlar: Peşəvər kilsəsinə hücumdan sonra hiddət fonunda dəfnlər*, 23 sentyabr 2013-cü il, http://www.bbc.com/news/world-asia-24201240; "*Nyu-York Tayms*" qəzeti, *İntirahçı şəxsin Pakistandakı tarixi kilsəyə bomba hücumunda çoxlu insan həlak oldu*, 22 sentyabr 2013-cü il, http://www.nytimes.com/2013/09/23/world/asia/pakistan-church-bombing.html. Məlumatlara əsasən 23 sentyabr 2013-cü ildə xristian icmasının bəzi üzvləri elə həmin ayda bir müddət öncə Kəraçi rayonunun Korangi şəhərində Maykl qəsəbəsində intiharçının Peşəvər kilsəsinə qarşı həyata keçirdiyi bomba hücumuna etiraz etmişdilər. Eyni ərazidə yaşayan bəzi müsəlmanlar məlumat verdilər ki, xristianlar məscidə daş atmışdılar. Məlumatlara əsasən bu, kütlənin xristianların evlərini "talan etməsi" və yandırması ilə nəticələndi; hesablamalara görə 300 xristian ailəsi qorxu hissi keçirdiyinə görə şəhəri tərk etdi. Kəraçinin şərq rayonunun komissarı, məlumatlara görə, ailələrin geri qayıdışının şərtləri ilə, o cümlədən xristianların xarici səsgücləndiriciləri kilsələrdən götürmələri ilə bağlı danışıqlar apardı. Həmçinin məlumatlara əsasən insident zamanı xəsarət almış müsəlmanlar kompensasiya alsalar da xəsarət almış xristianların heç biri kompensasiya almadı. PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, http://hrcpweb.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, 130.

[282] Məlumatlara əsasən Talibanın Pakistan bölməsi olan "Camaatür-Əhrar" hücuma görə məsuliyyəti öz üzərinə götürdü. "*Dawn*" qəzeti, *Peşəvərin xristian qəsəbəsinə hücum: mülki şəxs qətlə yetirildi, bütün terrorçular öldürüldü*, 2 sentyabr 2016-cı il, http://www.dawn.com/news/1281557; "*The Express Tribune*" qəzeti, *Peşəvərin xristian qəsəbəsinə hücum zamanı beş nəfər öldürüldü*, 2 sentyabr 2016-cı il, http://tribune.com.pk/story/1174628/gunmen-attack-christian-colony-peshawar/.

[283] Lahordakı insident bazar günü axşam pasxa bayramı zamanı uşaq parkının yaxınlığında baş verdi. Məlumatlara əsasən 280-dən 362-dək insan xəsarət aldı. Məlumatlarda bildirildi ki, Lahorda baş vermiş intiharçının bomba hücumuna görə məsuliyyəti Talibanın Pakistan bölməsi olan "Camaatür-Əhrar" öz üzərinə götürüb. Həmçinin məlumatlara əsasən Pəncab hökuməti bomba hücumunun yalnız xristianları hədəfə aldığını təkzib etdi, belə ki, parkdakı insanlar bütün dini icmalara mənsub olan şəxslər idi. CNN xəbər agentliyi, Lahordakı partlayışda yeniyetmələr həyatlarını itirdilər, 31 mart 2016-cı il, http://edition.cnn.com/2016/03/29/world/pakistan-blasts-victims/; "Qardian" qəzeti, *Pakistan Lahorda 70 nəfərdən artıq insanı qətlə yetirmiş hücumun arxasında dayananların axtarışına çıxdı*, 27 mart 2016-cı il, https://www.theguardian.com/world/2016/mar/27/dozens-killed-in-blast-outside-lahore-park-pakistan. Məlumatlara əsasən dövlət orqanları bomba partlayışını törədənlərin axtarışının gedişində 200-dən artıq insanı həbs etdilər. BBC: *Lahordakı hücum: Pakistan pasxa günündə baş vermiş hücumdan sonra "200 nəfəri həbs etdi"*, 29 mart 2016-cı il, http://www.bbc.com/news/world-asia-35916578; "*The International News*" qəzeti, *Talibanın bölməsi Lahordakı "pasxa bomba partlayışının" onun tərəfindən törədildiyini bildirdi*, 28 mart 2016-cı il, https://www.thenews.com.pk/latest/108389-Taliban-faction-claims-credit-for-Easter-bomb-in-Lahore.

[284] Azad Avropa/Azadlıq Radiosu, *Pakistanın daxili işlər naziri Lahorda kilsələrə edilmiş hücumları qınadı*, 17 mart 2015-ci il, http://www.refworld.org/docid/552f9d754d.html; Azad Avropa/Azadlıq Radiosu, *Pakistan kilsələrinə edilmiş bomba hücumlarında azı 14 nəfər öldü*, 15 mart 2015-ci il, http://www.refworld.org/docid/552f9d6d46.html. Həmçinin bax: ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html; CNN xəbər agentliyi, *Pakistanda hücumlar: xristian azlığı necə yaşayır*, 4 aprel 2016-cı il, http://edition.cnn.com/2016/04/04/asia/pakistan-attack-religious-intolerance/.

[285] "İnsan hüquqlarının müdafiəsi təşkilatları məlumat verdilər ki, dövlət orqanları tutulanların çoxunu vəkillə görüşmələrinə imkan yaratmadan həbsdə saxlayıblar, bəziləri isə işgəncələrə məruz qalıb. Müttəhimlərdən 26-sını təmsil edən müdafiəçi vəkillər qrupunun bildirdiyinə görə, polislər 84 xristiana qarşı rəsmi ittihamları qeydə alıblar,

Məlumatlarda bildirilir ki, xristianlar cəmiyyət üzvləri tərəfindən də məqsədyönlü hücumlara və qətllərə məruz qalırlar.[287]

Məlumatlarda həmçinin bildirilir ki, xristianların ibadət və məzarlıq yerlərinin, bəzən isə mağaza və müəssisələrinin qanunsuz zəbt edilməsi və murdarlanması halları davam edir.[288] Məsələn, 2016-cı ilin yanvarında Lahor ətrafındakı iki kilsə, məlumatlara əsasən, yanğın törətmə məqsədi ilə hücuma məruz qaldı.[289] 2015-ci ilin noyabrında Karaçidə yayımlanan xristian İnternet telekanalı olan "*Gawahi Television*", məlumatlara əsasən, yanğın törətmə məqsədi ilə hücuma məruz qaldı, studiyaları və avadanlıqları yanğında tamamilə məhv oldu; məlumatlara görə kanalın təmsilçiləri dövlət orqanlarını hücumdan əvvəl təhdid edildikləri barədə məlumatlandırmışdılar.[290] Məlumatlarda bildirilir ki, 2015-ci ilin mayında bir silahlı qrup Pəncabdakı xristian kilsəsində vandalizm aktı törədərək pastor da daxil olmaqla altı nəfərə xəsarət yetirdi.[291]

Məlumatlarda deyilir ki, küfr əleyhinə qanunvericilik də daxil olmaqla cinayət hüquq normaları yaraqlıların təşkilatları və bəzi müsəlman icması üzvləri tərəfindən xristianları təhdid və təqib etmək üçün, habelə qisas almaq, yaxud şəxsi və ya biznes mübahisələrini həll etmək üçün istifadə olunur.[292] Məsələn, məlumatlara görə 2016-cı ilin sentyabrında xristian yeniyetmə öz

---

oktyabrın 21-dən başlayaraq onlardan 13-ü girov müqabilində azad edilib. Xristian icmasının üzvləri dedilər ki, təqsirləndirilən şəxslərdən bəziləri hətta qətllər törədilən zaman Yuhanabadda olmayıblar, amma hələ də polis təcridxanasında qalmaqdadırlar. [2015-ci ilin] sonunadək dövlət orqanları tutulmuş şəxslərin bəzilərini azad etdilər, amma məlumatlara görə 42 xristian həbsdə qaldı". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. "Bu hücumlardan dərhal sonra qəzəblənmiş xristian kütləsi bu hücumlarla hansısa əlaqəsi olduğunu düşündüyü iki nəfəri yaxaladı, onlara divan tutdu və onları yandırdı. Sonradan məlum oldu ki, onların heç birinin kilsələri hədəfə alan hücumlarda heç bir şəkildə iştirakı olmayıb". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 9; həmçinin bax: Azad Avropa/Azadlıq Radiosu, *Pakistanda xristianlar kilsəyə edilən ölümlə nəticələnmiş hücumlara etiraz etdilər*, 16 mart 2015-ci il, http://www.refworld.org/docid/552f9d7432.html.

[286] IRIN, *Terrorizm nə gətirir: Pakistanda bomba partlayışlarından sonra xristianlar arasında qorxu və qəzəb*, 19 mart 2015-ci il, http://www.refworld.org/docid/550c292e4.html.

[287] *Christian Broadcasting Network* (CBN) telekanalının xəbərləri, *Məsihdən imtina etmək tələbini rədd etdiyinə görə pakistanlı xristian ataya işgəncə verildi*, 8 fevral 2016-cı il, http://www1.cbn.com/cbnnews/world/2016/February/Pakistani-Christian-Father-Tortured-for-Refusing-to-Deny-Christ; Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 17-18.

[288] "İnsan hüquqlarının qlobal müdafiəsi" (İHQM) təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-wedo/reports/human-rights-reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 16.

[289] "*World Watch Monitor*" nəşri, *Yeni il pakistanlı xristianlara qarşı üç hücumla əlamətdar oldu*, 15 yanvar 2016-cı il, https://www.worldwatchmonitor.org/2016/01/4241296/.

[290] PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 10; "Sərhədsiz reportyorlar" təşkilatı, *"Sərhədsiz reportyorlar" təşkilatı media vasitəsilə hücumların müqabilində hökumətin hərəkətsizliyini qınadı*, 9 dekabr 2015-ci il, http://www.refworld.org/docid/566930f040b.html.

[291] "*Daily News and Analysis*" nəşri, *Vandallar Pakistanda digər bir kilsəyə hücum etdilər, 2 nəfər həbs edildi*, 27 may 2015-ci il, http://www.dnaindia.com/world/reportvandals-attack-another-church-in-pakistan-2-arrested-2089724. Analoji hücum 2014-cü ilin martında baş vermişdi. İHQM təşkilatı, *Pakistanın 2014-cü il üçün insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-we-do/reports/human-rights-reports/report/news/detail/News/2014-humanrights-report-pakistan/, səh. 16. Həmçinin bax: "*The Express Tribune*" qəzeti, *İddia edildiyinə görə Okara sakinləri tikilməkdə olan kilsəyə qarşı vandalizm aktı törətdilər*, 4 mart 2014-cü il, http://tribune.com.pk/story/678809/okara-residents-allegedly-vandalise-under-construction-church/.

[292] "Diplomat" (*The Diplomat*) jurnalı, *Pakistanda küfr ittihamı xristianların həyatına təhlükə yaradır*, 15 may 2016-cı il, http://thediplomat.com/2016/05/in-pakistanblasphemy-accusation-endangers-christian-lives/; Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnahinstitute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 41-43; İHQM təşkilatı, *Pakistanın 2014-cü il üçün insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-we-do/reports/human-rights-reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 10. Həmçinin bax: Birləşmiş Krallıq: Yuxarı Tribunal (İmmiqrasiya və sığınacaq işləri üzrə palata), *Pakistan xristianları qrupuna mənsub olan AK və SK-*

dostlarından biri tərəfindən küfrdə ittiham olundu, dostu onun *Facebook*-da yerləşdirilmiş qeydi "bəyəndiyini" bildirməsini dinə hörmətsizliyin təzahürü kimi qəbul etmişdi; regiondakı xristian ailələrin çoxu, məlumatlara əsasən, küfr ittihamlarının zorakılıqlara rəvac verəcəyindən ehtiyat edərək regionu tərk ediblər.[293] Məlumatlarda bildirilir ki, 2016-cı ilin iyulunda *Whatsapp* vasitəsilə islamı təhqir edən poema göndərməsi müsəlman dostu tərəfindən iddia edildikdən sonra bir xristian şəxs küfrdə ittiham olundu.[294] 2016-cı ilin iyununda Qucranvalada bir xristian şəxs, məlumatlara görə, küfrdə təqsirli bilindi və anti-terror məhkəməsi tərəfindən ölüm cəzasına məhkum edildi. Məlumatlara əsasən bu şəxs şantaj (pulqoparma) barədə şikayət təqdim etmiş və bundan sonra onun pulqoparmada ittiham etdiyi şəxs əslində onun küfr etdiyini iddia etmişdi.[295] Həmçinin məlumatlara görə 2015-ci ilin sentyabrında biznes fəaliyyətindəki müsəlman rəqibi kommersiya mübahisəsinə görə qisas olaraq onu küfrdə ittiham etdikdən sonra xristian şəxs polis tərəfindən həbsə alındı.[296] Cəmiyyət üzvləri tərəfindən irəli sürülən küfr iddiaları bəzi hallarda vəziyyəti gərginləşdirərək qətllərə və kütlənin hücumlarına şərait yaradır.[297] Məsələn, 2015-ci ilin iyulunda Pəncab vilayətinin Şeyxpur rayonunda bir ruhani, məlumatlara görə, xristian ər-

---

*nın (risk altında olan xristianlar), daxili işlər nazirinə qarşı məhkəmə işi*, [2014] UKUT 00569 (IAC), 15 dekabr 2014-cü il, http://www.refworld.org/docid/549962d94.html, səh. 2, 6-cı bənd. Məlumatlara əsasən 2013-cü ilin martında dostu tərəfindən küfr xarakterli fikirlər söyləməkdə təqsirləndirildikdən sonra Savan Məsih həbs edildi; bu iddia iki günlük iğtişaşlara rəvac verdi və təxminən 3.000 nəfərlik kütlə Lahorda xristianların 200-ə yaxın evini yandırdı. Məlumatlara görə Məsih 2014-cü ilin fevralında məhkəmədə söylədi ki, ona qarşı iddialar yaxınlıqdakı bazarı işlədən yerli iş adamlarının xristian ailələrini ərazidən çıxarmaq və onların torpağını ələ keçirmək istəyindən irəli gəlib. Məlumatlarda bildirilir ki, 2014-cü ilin martında Lahor məhkəməsi onu küfrə görə ölüm cəzasına məhkum etdi. Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2014/2015-ci il hesabatı – Pakistan*, 25 fevral 2015-ci il, http://www.refworld.org/docid/54f07db215.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Pakistan: Xristian kişi küfr əleyhinə qanunvericilik əsasında ölümə məhkum olundu*; 27 mart 2014-cü il, http://www.refworld.org/docid/533ab4114.html; "*The Express Tribune*" qəzeti, *Çirkin biznes: "Küfr hay-küyü torpağı zəbt etmək üçün qurulmuş kələk idi"*, 22 fevral 2014-cü il, http://tribune.com.pk/story/674731/dirty-business-blasphemy-chant-was-a-land-grab-ruse/; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html. Savan Məsih barəsindəki ittiham hökmünə qarşı 2016-cı ilin əvvəlində verilmiş apellyasiya şikayəti üzrə icraat Lahor Yüksək Məhkəməsində davam edir. Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2015/2016-cı il hesabatı – Pakistan*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b2715.html.

[293] 16 yaşı xristian oğlan Nabil Məsih, məlumatlara görə, Cinayət Məcəlləsinin 295-ci və 295A maddələri əsasında tutuldu və ittiham edildi. Məlumatlara əsasən oğlanın ailəsi gizlənib. "*The Nation*" qəzeti, *Küfr əleyhinə qanunvericilik: xristian yeniyetmə Nabil Məsih Facebook-da yerləşdirilmiş Kəbənin şəklini bəyəndiyini qeyd etdiyinə görə həbs edildi*, 20 sentyabr 2016-cı il, http://nation.com.pk/blogs/20-Sep-2016/blasphemy-law-nabeel-masih-achristian-teenager-has-been-arrested-for-liking-the-kaaba-s-picture; "Friday Times" qəzeti, *Yeniyetmə fabrik işçisi Facebook-da qeyd etdiyi rəyinə görə təqsirləndirildikdən sonra xristianlar evlərini tərk edirlər*, 23 sentyabr 2016-cı il, http://www.thefridaytimes.com/tft/click-bait/. Həmçinin bax: "*The Nation*" qəzeti, *Nabili xilas edin: Saxta küfr iddiası səbəbindən yeniyetmənin həyatı təhlükədədir*, 24 sentyabr 2016-cı il, http://nation.com.pk/blogs/24-Sep-2016/savenabeel-thechristian-teenager-s-life-is-in-danger-over-false-blasphemy-allegation.

[294] "*The Indian Express*" qəzeti, *Pakistanlı xristian Whatsapp vasitəsilə göndərdiyi poemaya görə küfrdə ittiham olundu*, 11 iyul 2016-cı il, http://indianexpress.com/article/world/world-news/pakistani-christian-charged-with-blasphemy-over-whatsapp-poem-2907792/.

[295] "*Pakistan Today*" qəzeti, *Xristian kişi, eləcə də onu təqsirləndirənlər küfrə görə ölümə məhkum edildilər*, 30 iyun 2016-cı il, http://www.pakistantoday.com.pk/2016/06/30/national/two-christians-muslim-sentenced-to-death-for-blasphemy/; "*World Watch Monitor*" nəşri, *Polisdən kömək istəyən pakistanlı xristian bunun əvəzinə "küfrə" görə ölüm cəzası ilə üzləşdi*; 1 iyul 2016-cı il, https://www.worldwatchmonitor.org/2016/07/4538482/.

[296] 2 sentyabr 2015-ci ildə həbs edilmiş xristian kişi Pərviz Məsih, məlumatlara görə, 10 oktyabr 2015-ci ildə girov müqabilində azad edildi; 2015-ci ilin dekabrınadək onun işinin nəticəsi barədə hər hansı əlavə məlumat yox idi. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[297] PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 10; İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-we-do/reports/human-rights-reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 10-11. Həmçinin 292-ci mətnaltı qeydə bax.

arvadı küfrdə təqsirləndirdi və bundan sonra onlara hücum edən kütlənin başında durdu.[298] Məlumatlarda deyilir ki, 2015-ci ilin mayında küfr iddialarından sonra kütlə bir xristian kişini yandırmağa cəhd etdi; məlumatlara görə kütlə təqsirləndirilən şəxsin yaşadığı, əsasən xristianların məskunlaşdığı məkana hücum etdi və oradakı evləri talan etdi.[299] Məlumatlara əsasən hətta küfr ittihamları üzrə işlərdə məhkəmələr tərəfindən bəraət alanlar da hədələnməkdə davam edirlər ki, bu təhdid edilənlərdən bəzilərini həyatlarına görə qorxduqları üçün ölkəni tərk etməyə vadar edib.[300]

Məlumatlarda bildirilir ki, xristianlar məşğulluq məsələsində geniş yayılmış ayrı-seçkiliyə məruz qalırlar. Məlumatlara əsasən xristianların çoxu fəhlə işindən savayı başqa iş tapmaqda çətinlik çəkirlər.[301]

Cəmiyyətin ən müdafiəsiz durumda olan təbəqələri arasında yer alan xristian qadınlar və qızlar, məlumatlara görə, xüsusilə seksual və cinsi mənsubiyyətə əsaslanan zorakılığa məruz qalma, islamı məcburi qəbul etmə və müsəlman kişi ilə məcburi nikaha girmə, habelə ayrı-seçkiliyin və zorakılığın digər formalarına məruz qalma riski altındadırlar.[302] Məlumatlara əsasən dinini

---

[298] Polis onları xilas edənə qədər kütlə onları döydü, sifətlərinə qara rəng çəkdi, boyunlarından ayaqqabılardan düzəldilmiş "çələng" asdı və onları kənddə hamının gözü qarşısında gəzdirdi. Polis ər-arvada qarşı cinayət işini qeydiyyata almaqdan imtina etdi və zorakılığa təhrikə görə ruhanini və digər bir kişini həbs etdi. PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcpweb.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 10.

[299] Onunla eyni ərazidə yaşayan sakinin sözlərinə görə psixi sağlamlığı qeyri-sabit olan Humayun adlı xristian kişi [2015-ci ilin] mayında Lahorun Dhup Sari ərazisində müqəddəs Quranın səhifələrinə qarşı hörmətsizliyə yol verməkdə təqsirləndirildi […], polislər onu həbsə aldılar və Pakistan Cinayət Məcəlləsinin 295B maddəsi əsasında ona qarşı iş qaldırdılar. […] [Kütlə] kilsəyə od vurmağa cəhd etdi, amma polislər kütləni dayandıra bildilər. Xristian sakinlərin çoxu ərazini tərk etdilər. Hətta kütlə dağılışdıqdan və əraziyə polislər cəlb olunduqdan sonra da sakinlər 2013-cü ilin martında Cozef qəsəbəsində baş vermiş insidentin təkrarlanacağından ehtiyat edərək evlərinə qayıtmağa qorxurdular", PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcpweb.org/hrcpweb/wp-content/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 10; həmçinin bax: "*Pakistan Today*" qəzeti, *Lahorda "ruhi xəstəliyi" olan xristianın Quranı təhqir etməsi kütlə tərəfindən toqquşmaya səbəb oldu*, 25 may 2015-ci il, http://www.pakistantoday.com.pk/2015/05/25/national/violent-clashes-as-mentally-ill-christian-man-burns-quran-in-lahore/.

[300] Azad Avropa/Azadlıq Radiosu, *Küfrdə təqsirləndirilən pakistanlı qız Kanadaya qaçdı*, 30 iyun 2013-cü il, http://www.refworld.org/docid/51e79b7811.html.

[301] "Xristian fəallar özəl müəssisələrə işə düzəlmək məsələsində xristianlara qarşı geniş yayılmış ayrı-seçkilik barədə məlumat verməkdə davam edirlər. Onlar dedilər ki, xristianlar fəhlə işindən savayı başqa iş tapmada çətinlik çəkirlər, hərçənd ki, son illər vəziyyət müəyyən qədər yaxşılaşıb". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; "*The Express Tribune*" qəzeti, *Pakistanlı xristianların rəyləri: qeyri-müsəlman pakistanlılar üçün bərabərliyə əsaslanan vətəndaşlıq çağırışı*, 6 avqust 2015-ci il, http://tribune.com.pk/story/933032/voices-of-pakistani-christians-call-for-equal-citizenship-for-nonmuslim-pakistanis/. "Lahorda şəhərin tullantı sistemi işçilərinin və süpürgəçilərin çoxu xristian əhalinin nümayəndələri olsa da (bu fakt onların aşağılanmasını daha da gücləndirir), onların nəzarətçilərinin çoxu müsəlmanlardır". AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2015 – Pakistan*, 2 iyul 2015-ci il, http://www.refworld.org/docid/55a4fa494.html. Həmçinin bax: PİHK, *Pakistanın universal dövri icmalı: Vədlərimizə baxış (Vətəndaş cəmiyyətinin orta müddətli qiymətləndirici hesabatı)*, iyun 2015-ci il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2015/09/A-look-back-at-our-promises.pdf, səh. 70; "*The Friday Times*" həftəlik nəşri, *Xristianlar yalnız süpürgəçilik işinə tələb olunurlar*, 23 oktyabr 2015-ci il, http://www.thefridaytimes.com/tft/christians-required-only-as-sweepers/.

[302] Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti:* yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 45; ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html. "Dini azlıq qruplarından, xüsusən hindu və xristian icmalarından olan qadınlar xüsusilə seksual zorakılığa məruz qalırlar. Bu icmalardan olan qızlar adam oğurluğu və zorlanma aktlarına daha çox məruz qalırlar. Təqsirkarlar yaxalandıqları zaman qızın islamı qəbul etdiyini iddia edirlər. Bu yolla onlar islamı yaymaq adı altında məhkəmələr tərəfindən cəzalandırılmaqdan yaxa qurtarırlar". BMT-nin Baş Assambleyası, İnsan Hüquqları Şurası, 29-cu sessiya, *BMT-də ümumi məsləhətçi statusuna malik olan qeyri-hökumət təşkilatı Asiya Hüquqi Resurs Mərkəzi tərəfindən təqdim edilmiş yazılı bəyanat*, 5 iyun 2015-ci il, A/HRC/29/NGO/54, https://www.ecoi.net/file_upload/1930_1434538648_g1511505.pdf, 16-cı bənd. Həmçinin bax: "*Vatican Insider*" nəşri, *Dünya xəbərləri: Pakistan: xristian və hindu qızlar oğurlanır və islamı qəbul etməyə məcbur edilirlər*, 23 yanvar 2016-cı il, http://www.lastampa.it/2016/01/23/vaticaninsider/eng/world-

məcburi dəyişmə və məcburi nikah hallarının miqyasını qiymətləndirmək çətindir, çünki bu cür hallarla bağlı hesabat və monitorinq aparılmır; hesablamalarda hər il Pakistanda dinini dəyişməyə və nikaha girməyə məcbur edilən xristian qızların sayını göstərən rəqəmlər 100-dən 700-dək dəyişir;[303] həmçinin məlumat verilir ki, kişilər də dinini dəyişməyə məcbur edilirlər.[304]

Yuxarıdakıları nəzərə alaraq BMTQAK hesab edir ki, xristian icmasının üzvləri, o cümlədən yaraqlı qrupların hədəfi olanlar, yaxud küfr əleyhinə qanunvericilik normaları əsasında cinayət əməllərində ittiham olunanlar, məcburi əməyə, ciddi ayrı-seçkiliyə məruz qalanlar, dinini dəyişməyə və nikaha girməyə məcbur edilənlər, habelə cəmiyyətin mənəviyyat normalarına

---

news/pakistan-christian-and-hindu-girls-are-kidnapped-and-forced-to-convertto-islam-lYYUveB0SkB0ZMGjp5fmLL/pagina.html; İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-wedo/reports/human-rights-reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 20; AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 15-16; "*BBC News*" telekanalı, *Pakistanda islamı məcburi qəbul etmə əhvalatları*, 1 sentyabr 2014-cü il, 2014, http://www.bbc.com/news/world-asia-29008267.

[303] Məlumatlara əsasən azlıq qrupları qeydiyyata alınmış dinini dəyişmə halları və mediada bu barədə gedən məlumatlar əsasında bu cür hallara məruz qalanların sayını hesablamağa cəhd ediblər. Amma məlum məsələdir ki, belə metodlar bu cür halların həqiqi sayının tam müəyyən edilməsinə imkan vermir, bunun səbəbi həm də odur ki, qurbanlar və onların ailələri dinini dəyişməyə məcbur edilmə və məcburi nikah halları barədə dövlət orqanlarına məlumat verməkdən imtina edirlər. "Məlumatlara görə bəzi hallarda qurbanların ailələri tanınmış və nüfuzlu şəxslər tərəfindən törədilən bu cür halları qeydiyyata aldırmaqdan amansız qisas qorxusu altında çəkinirlər". "Həmrəylik və Sülh Uğrunda Hərəkat", Pakistan, *Pakistanın xristian icmasında məcburi nikahlar və dinini dəyişməyə məcbur edilmə*, aprel 2014-cü il, http://www.wunrn.org/news/2014/06_02/06_16/061614_pakistan.htm, səh. 23; həmçinin eyni mənbənin 2-ci səhifəsinə (və orada istinad edilən mənbələrə) və 14-cü səhifəsinə bax. Həmçinin bax: "Dinini dəyişməyə məcbur edilmə daha çox hindu icması ilə əlaqədar olduğu düşünülən problemdir, amma xristianlar da bununla üzləşirlər. 2012-ci ildən 2014-cü ilədək 20 seksual zorakılıq və dinini dəyişməyə məcbur edilmə halı barədə bu icma tərəfindən məlumat verilib. […] Qeyri-müsəlmanlara və müsəlman azlıqlara qarşı dini mənsubiyyətə əsaslanan ayrı-seçkilik və zorakılıq hallarının çoxu barədə məlumat verilmir. Dini əmlaka qarşı hücumlar, dinini dəyişməyə məcbur edilmə, adam oğurluğu və seksual zorakılıq hallarının çoxu barədə çox zaman qisas qorxusuna görə yerli polis bölmələrinə məlumat verilmir və onlar qeydiyyata alınmır. Bu sözlər xüsusən əhmədilərə, hindulara və xristianlara aiddir". Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti:* yanvar 2016-cı il, http://jinnah-institute.org/wpcontent/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 17, 59. Həmçinin bax: "*The Christian Post*" qəzeti, *Ailəsi islamı qəbul etməkdən imtina etdikdən sonra pakistanlı xristian qız oğurlandı və zorlandı*, 4 oktyabr 2016-cı il, http://www.christianpost.com/news/pakistani-christian-girl-kidnapped-rapedafter-family-refused-convert-islam-170458/. Məlumatlara əsasən 2015-ci ilin noyabrında 13 yaşlı qız oğurlandı, zorlandı və müsəlman kişi ilə islami nikaha girməyə məcbur edildi. Pakistanlı Xristianların Britaniya Assosiasiyası, *Yeniyetmə xristian qız dinini dəyişməyə və müsəlman kişi ilə nikaha girməyə məcbur edildi*, 16 noyabr 2015-ci il, http://www.britishpakistanichristians.org/blog/adolescent-christian-girl-forcibly-converted-and-married-tomuslim-man; "*Pakistan Christian News*" nəşri, *Yetkinlik yaşına çatmayan pakistanlı xristian qız oğurlanmanın, dinini dəyişmənin və məcbur nikahın qurbanıdır*, 17 noyabr 2015-ci il, http://www.pakistanchristiannews.com/a-minor-pakistani-christian-girl-victim-of-abduction-conversion-and-forcedmarriage/. Məlumatlara əsasən 2015-ci ilin iyulunda Pəncab əyalətində ərli xristian ana oğurlandı və islam dinini qəbul etməyə məcbur edildi. "Açıq qapılar" (*Open Doors*) beynəlxalq təşkilatı, *Pakistanlı xristian ana oğurlandı, islamı qəbul etməyə və müsəlman kişi ilə nikaha girməyə məcbur edildi*, 6 avqust 2015-ci il, https://www.opendoorsusa.org/take-action/pray/tag-prayer-updates-post/pakistani-christian-mother-kidnapped-forced-to-convert-to-islammarry-muslim-man/. Məlumatlara görə 2013-cü ilin dekabrında 14 yaşlı qız oğurlandı, islam dinini qəbul etməyə və nikaha girməyə məcbur edildi. "*Pakistan Gender News*" nəşri, *14 yaşlı xristian qız oğurlandı, dinini dəyişməyə və nikaha girməyə məcbur edildi*, 10 yanvar 2014-cü il, http://www.pakistangendernews.org/14-year-old-christian-girl-abducted-forcibly-converted-married/.

[304] Məlumatlara görə 2014-cü ilin aprelində bir xristian kişi islamı qəbul etməkdən imtina etdiyinə görə iş yoldaşı tərəfindən öldürüldü. "*Morning Star News*" nəşri, *Güllə ilə öldürülmüş xristianın ailəsi intihar barədə deyilənlərə şübhə ilə yanaşır*, 17 aprel 2014-cü il, http://us6.campaignarchive2.com/?u=7ec6d7eb2533a90581f839110&id=ea5e77376d&e=ccdede1e61; ABŞBDAK, *Pakistana dair informasiya bülleteni: Pakistanda dini icmalara qarşı zorakılıq*, avqust 2014-cü il, http://www.uscirf.gov/sites/default/files/Pakistan%20Factsheet.pdf, səh. 16-17; "*Christian Today*" nəşri, Pakistanda gənc xristian islamı qəbul etmədiyinə görə öldürüldü, 21 avqust 2014-cü il, http://www.christiantoday.com/article/young.christian.man.killed.in.pakistan.for.not.converting.to.islam/36917.htm.

zidd davrandıqları hesab edilən xristianlar, hər bir konkret halın fərdi xüsusiyyətlərindən asılı olaraq, dini,[305] etnik mənsubiyyətlərinə, (güman edilən) siyasi əqidələrinə və (və ya) digər müvafiq əsaslara görə qaçqın qismində beynəlxalq himayəyə ehtiyac duya bilərlər.[306]

## *4. Hindular*

Hindular Pakistanda ən çoxsaylı qeyri-müsəlman dini azlıqdır.[307] Onlar yuxarı kastalara (1998-ci il siyahıyaalmasında bu kastalar "cati" adlandırılıb[308]) və ya aşağı kastalara (1998-ci il siyahıyaalmasında bu kastalar "toxununlmazlar" adlandırılıb, amma onlar özlərini "dalitlər" adlandırırlar) mənsub ola bilərlər.[309] Pakistandakı digər dini azlıqların nümunəsində olduğu kimi, hindu əhalinin sayı barəsində də dəqiq rəqəmlər yoxdur və hesablamalar olduqca fərqlənir. 1998-ci il siyahıyaalmasının məlumatlarına əsasən, əhalinin 1,6 faizi yuxarı kastalardan olan hindular, 0,25 faizi isə "toxununlmazlar" deyilən kastalara mənsub olan hindulardır.[310] Təhlilçilər qeyd edirlər ki, bu rəqəmlər icma təşkilatları tərəfindən şübhə altına alınır, onlar iddia edirlər ki, hazırda Pakistanda hindu əhalinin sayı 1998-ci il siyahıyaalmasının məlumatlarında

---

[305] Dinini dəyişməyə məcburi edilmə təməl hüquq olan düşüncə, vicdan və din azadlığı hüququnun ciddi pozuntusudur və adətən təqibə bərabər sayılır. Bununla belə, ərizəçi dinini dəyişməyə məcburi edilmək üçün təqibə məruz qalacağı ilə bağlı subyektiv qorxusunun mövcud olduğunu sübut etməlidir. Bu element adətən o hallarda mövcud olmuş sayılır ki, ərizəçi artıq fərqli dini əqidəyə malik olur və ya özünü hər hansı dini cərəyandan və ya icmadan kənarda tutmağı qərara alır; bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər*, HCR/GIP/04/06, 28 aprel 2004-cü il, http://www.refworld.org/docid/4090f9794.html, 20-ci bənd.

[306] Xüsusən dövlət şəxsin müdafiəsini təmin etmək istəyində və ya iqtidarında olmadıqda seksual zorakılıq və cinsi mənsubiyyətə əsaslanan zorakılıq təqibə bərabər sayıla bilər. Əlavə təlimat üçün bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 1: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu kontekstində cinsi mənsubiyyətlə əlaqədar təqib*, HCR/GIP/02/01, 7 may 2002-ci il, http://www.refworld.org/docid/3d36f1c64.html; və BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 2: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu kontekstində "müəyyən sosial qrupa mənsubluq"*, HCR/GIP/02/02, 7 may 2002-ci il, http://www.refworld.org/docid/3d36f23f4.html. BMT-nin İşgəncələrə Qarşı Komitəsinin bildirdiyinə görə, zorlama, məişət zorakılığı və insan alveri kimi cinsi mənsubiyyətə əsaslanan zorakılıq hallarına müdaxilə edərək onları dayandırmaq, cəzalandırmaq və qurbanları hüquqi müdafiə vasitəsi ilə təmin etmək üçün dövlət tərəfindən lazımi səy göstərilməməsi qeyri-dövlət subyektlərinin belə hərəkətləri cəzasız qalmaqla törətmələrini asanlaşdırır və buna şərait yaradır. Dövlətin etinasızlığı və ya hərəkətsizliyi belə hərəkətləri törətməyə həvəsləndirmə və (və ya) *de fakto* icazə vermə kimi qəbul edilə bilər. Bax: BMT-nin İşgəncələrə Qarşı Komitəsi, *2 saylı ümumi şərh: İştirakçı dövlətlər tərəfindən 2-ci maddənin icrası*, CAT/C/GC/2, 24 yanvar 2008-ci il, http://www.refworld.org/docid/47ac78ce2.html.

[307] PİHK, *Həyat risk altında: PİHK-in Əqidələri səbəbindən əlverişsiz vəziyyətdə olan icmalarla bağlı işçi qrupunun hesabatı,* aprel 2011-ci il, http://hrcpweb.org/hrcpweb/wp-content/pdf/ff/5.pdf, səh. 12-13.

[308] DİBHŞ, *İnkişafda xeyli geri qalanlar: Pakistanda toxunulmazlar kastasına mənsub hinduların acınacaqlı vəziyyəti ilə bağlı araşdırma*, 2008, http://idsn.org/wpcontent/uploads/user_folder/pdf/Old_files/asia/pdf/RR_Pakistan.pdf, səh. VII. Həmçinin bax: Pakistan hökuməti yanında Əhalinin Siyahıyaalınması Təşkilatı, *1998-ci il siyahıyaalması: Əhalinin dini tərkibi* (tarix göstərilməyib) (26 yanvar 2016-cı il tarixinədək olan məlumat), http://www.pbs.gov.pk/content/population-religion.

[309] "Britanika" ensiklopediyası, *Toxunulmazlar: hinduların sosial təbəqəsi* (tarix göstərilməyib) (28 oktyabr 2016-cı il tarixinədək olan məlumat), https://www.britannica.com/topic/untouchable; "*Dawn*" qəzeti, *Acınacaqlı durumda olan toxunulmazlar kastaları*, 18 iyun 2015-ci il, http://www.dawn.com/news/1188782; AHBQ, *Azlıqlar və yerli xalqlar barəsində ümumdünya elektron məlumat resursu – Pakistan: Hindular barədə ümumi məlumat* (tarix göstərilməyib) (28 oktyabr 2016-cı il tarixinədək olan məlumat), http://minorityrights.org/minorities/hindus-2/; DİBHŞ, *Pakistanda BMT-nin xüsusi prosedur mandatının sahiblərinə təqdim edilmiş məlumatlandırıcı qeydlər – Pakistanda dini azlıqlar: hindu toxunulmazlar kastası*, sentyabr 2014-cü il, http://www.dalits.nl/pdf/PDSNnotesep2014.pdf.

[310] Bax: Pakistan hökuməti yanında Əhalinin Siyahıyaalınması Təşkilatı, *1998-ci il siyahıyaalması: Regionlar üzrə əhalinin tərkibi* (tarix göstərilməyib) (3 avqust 2016-cı il tarixinədək olan məlumat), http://www.pbs.gov.pk/content/population-religion.

göstərilənlərdən həm mütləq, həm də nisbi mənada xeyli çoxdur.[311] Məlumatlara görə hindu əhalinin çox hissəsi cənubdakı Sind əyalətində məskunlaşıb.[312]

### *a) Hindu şəxslərə dair qanunvericilik bazası*

25 sentyabr 2016-cı ildə Milli Məclis "Hinduların nikahı haqqında" 2016-cı il tarixli qanun layihəsini qəbul etdi, həmin qanun paytaxt İslamabad ərazisinə və Bəlucistan, Xeybər Paxtunxva və Pəncab əyalətlərinə şamil olunur.[313]

---

[311] "Dlitlərin çoxunun hindu azlığına mənsub olduğu Pakistanda onların sayını göstərən rəqəmlər də şübhə altına alınır. […] 1998-ci ilə aid olan ən son rəsmi məlumatlara əsasən Pakistanda təxminən 330.000 dalit əhali var, amma tədqiqatçıların hesablamalarına görə onların real sayı azı iki milyon ola bilər". BMT-nin Baş Assambleyası, Azlıqların işləri üzrə xüsusi məruzəçinin məruzəsi, 28 yanvar 2016-cı il, A/HRC/31/56, http://www.refworld.org/docid/56dfde5d4.html, 34-cü bənd, həmin mənbədə bu mənbəyə istinad edilir: DİBHŞ, *Pakistanda kasta mənsubiyyətinə əsaslanan ayrı-seçkilik: Məlumatlandırıcı qeydlər*, may 2014-cü il, http://idsn.org/wp-content/uploads/user_folder/pdf/New_files/Pakistan/Pakistan_briefing_note.pdf, səh. 2. "Lakin digər azlıq qruplarının nümunəsində olduğu kimi bu halda da bu rəqəmlər icma təşkilatları tərəfindən güvənilə bilməyən və köhnəlmiş rəqəmlər hesab edilir. Məsələn, Pakistan Hindu Şurasının hesablamalarına görə hazırda hindu əhalinin sayı 7 milyonu keçib. Bu qrupdan olanların təxminən 94 faizi Sind əyalətinin sakinləridir və Sind hindularının yarısından çoxu Hindistanla həmsərhəd cənub-şərq rayonu olan Tarparkarda məskunlaşıblar. Pakistan hindu əhalisinin qalan hissəsi Pəncab, habelə Bəlucistan və Xeybər Paxtunxva əyalətlərinin kiçik rayonlarında yaşayırlar. AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 7. Dalit İcmalarının Beynəlxalq Həmrəylik Şəbəkəsi (DİBHŞ) də 1998-ci il siyahıyaalmasındakı rəqəmlərin köhnəldiyini hesab edir və bildirir ki, "yerlərdən əldə edilən rəqəmlər göstərir ki, müsəlman çoxluğu tərəfindən, eləcə də hinduların yuxarı kastaları tərəfindən ayrı-seçkiliyə məruz qalan toxunulmazlar kastalarının nümayəndələrinin sayı daha çoxdur". DİBHŞ, *Pakistanda BMT-nin xüsusi prosedur mandatının sahiblərinə təqdim edilmiş məlumatlandırıcı qeydlər – Pakistanda dini azlıqlar: hindu toxunulmazlar kastası*, sentyabr 2014-cü il, http://www.dalits.nl/pdf/PDSNnotesep2014.pdf, səh. 1. Məlumatlara əsasən toxunulmazlar kastaları hesab edirlər ki, Sind əyalətinin hindu əhalisinin 80 faizini təşkil edirlər və iddia edirlər ki, dövlət siyahıyaalmalarında onların sayı heç vaxt düzgün hesablanmayıb. "*Dawn*" qəzeti, *Acınacaqlı durumda olan toxunulmazlar kastaları*, 18 iyun 2015-ci il, http://www.dawn.com/news/1188782. Azlıqların İşləri üzrə Nazirliyin rəqəmlərinə əsasən, 2011-ci ilin martınadək olan dövrdə Pakistanda 2,4 milyondan artıq hindu vardı. Lakin PİHK-in işçi qrupu qeyd edib ki, Azlıqların İşləri üzrə Nazirliyin bütövlükdə qeyri-müsəlmanlarla bağlı rəqəmləri, hətta ən son dövrə aid olsa da, 1998-ci il siyahıyaalmasının rəqəmlərindən aşağıdır; PİHK-in işçi qrupu bu rəqəmlərdə müsəlman əhalisinin sayındakı artımla analoji nisbətdə artımın olmamasını şübhə altına alıb. PİHK, *Həyat risk altında: PİHK-in Əqidələri səbəbindən əlverişsiz vəziyyətdə olan icmalarla bağlı işçi qrupunun hesabatı,* aprel 2011-ci il, http://hrcpweb.org/hrcpweb/wp-content/pdf/ff/5.pdf, səh. 12-14. BMT-nin İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə komitəsinin 2009-cu il tarixli hesabatında toxunulmazlar kastalarına mənsub olan hindu əhalinin sayı bu kastaların təmsilçiləri tərəfindən təxminən iki milyon nəfər göstərilib. Kənd Yerlərinin İnkişafı üzrə Tardip Proqramı və digər təşkilatlar, *İslahat seçimi: Pakistanda etnik, linqvistik və dini azlıqların, hindu toxunulmazlar kastalarının və yerli əhalinin insan hüquqlarının vəziyyəti*, 2009, http://www2.ohchr.org/english/bodies/cerd/docs/ngo/Alternative_report_TRDP_NCJP_PILER_IDSN_Justice_and_Peace_Netherlands.pdf, səh. 9. Bəzi müşahidəçilər iddia ediblər ki, toxunulmazlar kastalarına mənsub olan hindularla bağlı rəsmi rəqəmlər bu əhalinin cəmiyyətdə üzləşdiyi ayrı-seçkiliyin miqyasını kiçiltmək niyyəti ilə bilərəkdən aşağı göstərilib. Bax: Kənd Yerlərinin İnkişafı üzrə Tardip Proqramı və digər təşkilatlar, eyni mənbə.

[312] Azlıqların İşləri üzrə Nazirlik tərəfindən təqdim edilən, 2011-ci ilin martınadək olan dövrü əhatə edən rəqəmlərə əsasən, Pakistandakı 2,4 milyon hindudan 2,28 milyonu Sind əyalətində yaşayır. PİHK, *Həyat risk altında: PİHK-in Əqidələri səbəbindən əlverişsiz vəziyyətdə olan icmalarla bağlı işçi qrupunun hesabatı,* aprel 2011-ci il, http://hrcpweb.org/hrcpweb/wp-content/pdf/ff/5.pdf, səh. 3. Hinduların toxunulmazlar kastası, məlumatlara görə, Sindin kənd ərazilərində, əsasən yarımquraqlıq zonalarında, yaxud heç bir infrastrukturu olmayan rayonlarda məskunlaşıblar. Dalit İcmalarının Pakistan Həmrəylik Şəbəkəsi (DİPHŞ) və Dalit İcmalarının Beynəlxalq Həmrəylik Şəbəkəsi (DİBHŞ), *Pakistanda toxunulmazlar kastasından olan uşaqlar: Uşaq Hüquqları Komitəsi (UHK) üçün hazırlanmış birgə hesabat, 72-ci Sessiyaqabağı İşçi Qrupu, 5-9 oktyabr 2015-ci il – Pakistan, 1 iyul 2015-ci il*, http://idsn.org/wp-content/uploads/2015/07/IDSN-and-PDSN-alternativereport-on-Scheduled-Caste-Children-in-Pakistan-July-2015-CRC-Pakistan.pdf, səh. 2-3.

[313] Pakistan, *"Hinduların nikahı haqqında" 2016-cı il tarixli qanun*, http://www.na.gov.pk/uploads/documents/1474902799_197.pdf. "Dawn" qəzeti, *Nəhayət Milli Məclis "Hinduların nikahı haqqında" qanun layihəsini qəbul etdi*, 27 sentyabr 2016-cı il, http://www.dawn.com/news/1286344. Üç əyalətin hər birinin qanunvericilik məclisi təklif olunan "Hinduların nikahı haqqında" 2016-cı il tarixli milli qanun layihəsini təsdiqləyən qərarlar qəbul etdi. "Dawn" qəzeti, *Milli Məclis "Hinduların nikahı haqqında" qanun layihəsini qəbul etdi*, 18 avqust 2016-cı il, http://www.dawn.com/news/1278323. Konstitusiyanın 142-ci maddəsinin

Qanun layihəsi Senatdan keçdikdən sonra bu qanun qüvvəyə minəcək, məlumatlara görə bunun əhəmiyyətli yubanma olmadan baş verəcəyi gözlənilir.[314] "Hinduların nikahı haqqında" 2016-cı il tarixli qanun layihəsi nikaha girən hər iki tərəfin yaşının 18 və ya daha yuxarı olmasını tələb edir.[315] Qanun layihəsinə əsasən, nikaha girən tərəflərin hər biri, əgər digər tərəf "başqa dini qəbul etməklə özünün hindu mənsubiyyətinə son qoyarsa", nikaha xitam verilməsi üçün ərizə təqdim edə bilər.[316]

15 fevral 2016-cı ildə Sind əyalətinin qanunvericilik məclisi "Hinduların nikahı haqqında" 2016-cı il tarixli Sind qanununun layihəsini təsdiq etdi və bu qanunun qüvvəsi geriyə şamil olunmaqla mövcud nikahlara da tətbiq edilir; 7 aprel 2016-cı ildə Sind qubernatoru bu qanunu Sind qanunvericilik orqanının aktı kimi təsdiqlədi.[317] "Hinduların nikahı haqqında" Sind qanununda hindu nikahlarının rəsmi qeydiyyatı nəzərdə tutulur, bu şərtlə ki, hər iki tərəfin yaşı 18 və ya daha yuxarı olmalıdır.[318] Hindu qızların oğurlanma və nikaha girməyə məcbur edilmə halları qarşısında xüsusilə müdafiəsiz vəziyyətdə olduqlarını nəzərə alaraq,[319] Sind qanunvericilik məclisi, hələ bir müddət öncə, 2014-cü ilin aprelində yaşı 18-dən aşağı olan qızların və oğlanların nikahını qanunsuz elan edən qanun qəbul etmişdi.[320] (Həmçinin III.E bölməsinə bax: "Ailə qanunvericiliyi".)

"Hinduların nikahı haqqında" 2014-cü il tarixli Sind qanununun və "Hinduların nikahı haqqında" 2016-cı il tarixli qanunun qəbuluna qədər hindu nikahlarının qeydiyyata alınması üçün heç bir hüquqi baza yox idi. Nəticədə nikah, boşanma, vərəsəlik kimi ailə hüququ məsələləri,

---

"c" bəndində nəzərdə tutulur ki, əyalət məclisi Konstitusiyaya Dördüncü Düzəlişdə yer alan federal qanunvericilik siyahısına daxil edilməyən istənilən məsələyə dair qanunvericilik normaları qəbul etmək məsələsində müstəsna səlahiyyətə malikdir; fərdi statusa dair qanunvericilik həmin siyahıya daxil edilməyib və buna görə də həmin qanunvericiliyin qəbulu əyalətlərin səlahiyyətinə aiddir. Konstitusiyanın 144-cü maddəsi əyalətlərə səlahiyyəti verir ki, əyalət məsələlərinə dair qanunvericilik qəbul etmək hüququnu hökumətə versinlər. Bax: Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, 142, 144-cü maddələr, Dördüncü Düzəliş. Həmçinin 114-cü mətnaltı qeydə bax.

314 "Röyters" agentliyi, *Pakistan Milli Məclisi hindu qadınların hüquqlarını qoruyan nikah haqqında qanun layihəsini qəbul etdi*, 27 sentyabr 2016-cı il, http://in.reuters.com/article/pakistan-hinduism-idINKCN11X0NB. Senat təsdiqlənmiş qanun layihəsini 28 sentyabr 2016-cı ildə Milli Məclisdən qəbul edib. Pakistan, *Hinduların nikahı haqqında 2016-cı il tarixli qanun layihəsi*, 28 sentyabr 2016-cı il, http://www.senate.gov.pk/en/billsDetails.php?type=1&id=-1&catid=186&subcatid=276&cattitle=Bills.

315 Pakistan, *Hinduların nikahı haqqında 2016-cı il tarixli qanun*, http://www.na.gov.pk/uploads/documents/1474902799_197.pdf, maddə 4(b).

316 Pakistan, *Hinduların nikahı haqqında 2016-cı il tarixli qanun*, http://www.na.gov.pk/uploads/documents/1474902799_197.pdf, maddə 12(1)(iii).

317 Pakistan, *Hinduların nikahı haqqında 2016-cı il tarixli Sind qanunu*, http://www.pas.gov.pk/uploads/acts/Sindh%20Act%20No.IX%20of%202016.pdf; "Röyters" agentliyi, *Müsəlman ölkəsi Pakistanın əyaləti "Hinduların nikahı haqqında" tarixi qanun layihəsini qəbul etdi*, 16 fevral 2016-cı il, http://blogs.reuters.com/faithworld/2016/02/16/province-in-muslim-pakistan-passes-landmark-hindu-marriage-bill/; "*BBC News*" telekanalı, *Pakistanın Sind əyaləti hindu nikahlarının qeydiyyata alınmasına icazə verdi*, 16 fevral 2016-cı il, http://www.bbc.com/news/world-asia-35585015.

318 Pakistan, *Hinduların nikahı haqqında 2016-cı il tarixli Sind qanunu*, http://www.pas.gov.pk/uploads/acts/Sindh%20Act%20No.IX%20of%202016.pdf, maddə 4(1)(a). "*Dawn*" qəzeti, *Sind qanunvericilik məclisi "Hinduların nikahı haqqında" qanun layihəsini təsdiq etdi*, 15 fevral 2016-cı il, http://www.dawn.com/news/1239719; "*The Express Tribune*" qəzeti, *Sind qanunvericilik məclisi "Hinduların nikahı haqqında" qanun layihəsini Pakistanda birinci olaraq təsdiq etdi*, 15 fevral 2016-cı il, http://tribune.com.pk/story/1047279/sindh-assembly-becomes-first-in-pakistan-to-pass-hindu-marriage-bill/.

319 Məlumatlara əsasən 2014-cü ildə Sinddə yetkinlik yaşına çatmayan hindu qızlarla bağlanmış 150 məcburi nikah halı qeydə alınıb. PİHK, *Pakistanın universal dövri icmalı: Vədlərimizə baxış (Vətəndaş cəmiyyətinin orta müddətli qiymətləndirici hesabatı)*, iyun 2015-ci il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2015/09/A-lookback-at-our-promises.pdf, səh. 44.

320 "*The Express Tribune*" qəzeti, *Uşaq hüquqları: Sind əyaləti yaşı 18-dən aşağı olanlarla nikah bağlanmasını qanunla cəzalandırmağı qərara aldı*, 29 aprel 2014-cü il, http://tribune.com.pk/story/701468/child-rights-sindh-makes-marriage-under-18-punishable-by-law/. "Uşaq nikahlarının qarşısının alınması haqqında qanun" adlanan həmin qanunun tam mətnini bu saytda tapmaq olar: http://sindhlaws.gov.pk/setup/publications/PUB-14-000238.pdf. (Həmçinin III.E bölməsinə bax: "Ailə qanunvericiliyi".)

məlumatlara görə, yalnız adət hüququ ilə tənzimlənirdi.[321] Məlumatlara əsasən nikahda olan hindu qadınlar nikah şəhadətnaməsi təqdim etmək imkanına malik olmadıqlarına görə oğurlanma, dinini dəyişməyə və nikaha girməyə məcbur edilmə halları qarşısında xüsusilə müdafiəsiz vəziyyətdə olurdular, baxmayaraq ki, artıq nikahda idilər.[322] Hüquqi sənədlərin olmamasının ərli hindu qadınlar üçün doğurduğu digər çətinliklər ailə və ya varəsəlik hüququ, əmlak əqdləri, səsvermə, səhiyyə xidmətlərindən istifadə etmə, habelə hərəkət azadlığının məhdudlaşdırılması məsələləri ilə əlaqədar idi.[323]

---

321 "Hinduların və sikhlərin nikahının dövlət tərəfindən qeydiyyata alınması üçün konkret hüquqi baza yoxdur, hərçənd ki, evli cütlüyün işləri üzrə yerli dini şura onlara hindu nikah sənədləri əsasında mülki nikah şəhadətnaməsi verə bilər". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Pakistan Konstitusiyasına əsasən, bütün icmalar "fərdi statusla bağlı qanunlarına" riayət etmək hüququna malikdirlər. Bax: Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), http://www.refworld.org/docid/47558c422.html, maddə 227.

322 "Xristian və hindu qızların və gənc qadınların islamı qəbul etməyə və nikaha daxil olmağa məcbur edilməsi sistem xarakterli problem olaraq qalır". ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html. Həmçinin bax: "*The Express Tribune*" qəzeti, *Öz hüquqlarını qorumaq: dinini dəyişməyə məcbur edilmə Sinddə hələ də hindular üçün problem olaraq qalır*, 15 iyul 2015-ci il, http://tribune.com.pk/story/921649/seeking-their-rights-forced-conversions-still-an-issue-for-hindus-in-sindh/; İHQM təşkilatı, *Pakistanın 2014-cü il üçün insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-we-do/reports/human-rights-reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 6, 20; "*The International News*" qəzeti, *Pakistanda yalnız toy fotoları hinduların nikahlarını sübut edə bilər*, 26 yanvar 2016-cı il, https://www.thenews.com.pk/print/20453-in-pakistan-only-wedding-photos-can-prove-hindus-marriages. "Hinduların nikahı haqqında" 2016-cı il tarixli qanun layihəsinin 11-ci maddəsinin 1-ci bəndinin "c" yarımbəndinə əsasən nikah, digər hallarla yanaşı, aşağıdakı hallarda etibarsız sayılır: "*iddiaçının razılığı zor tətbiq etməklə, məcburetmə yolu ilə, yaxud mərasimin xarakterinə və ya cavabdehlə bağlı hər hansı mühüm fakta və ya hala münasibətdə aldatma yolu ilə alınıbsa*". Bununla belə, 11-ci maddənin 2-ci bəndində deyilir: "*1-ci bənddə yer alan müddəalara baxmayaraq: A) 1-ci bəndin "c" yarımbəndində göstərilən əsaslara görə aşağıdakı hallarda nikahın ləğv edilməsi üçün iddia qaldırıla bilməz: i) iddia ərizəsi zor və ya məcburetmə aktının başa çatmasından, yaxud müvafiq hallarda aldatmanın aşkara çıxmasından bir ildən artıq vaxt keçdikdən sonra verilibsə; yaxud ii) zor aktının başa çatmasından, yaxud müvafiq hallarda aldatmanın aşkara çıxmasından sonra iddiaçı özünün tam razılığı ilə nikahdakı qarşı tərəflə özünün əri (arvadı) kimi yaşamaqda davam edirsə*". Pakistan, *Hinduların nikahı haqqında 2016-cı il tarixli qanun*, http://www.na.gov.pk/uploads/documents/1474902799_197.pdf, maddə 11(1)(c).

323 Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; İHQM, *Hindular 60 ildir ki, Pakistanda olsalar da, nikahları haqqında qanunları hələ də yoxdur*, 16 iyul 2015-ci il, http://www.ghrd.org/news/article/news/detail/News/60-years-on-hindus-in-pakistan-still-do-not-have-a-marriage-bill/; BMT-nin İnsan Hüquqları Şurası, *BMT-də ümumi məsləhətçi statusuna malik olan qeyri-hökumət təşkilatı Asiya Hüquqi Resurs Mərkəzi tərəfindən təqdim edilmiş yazılı bəyanat*, 23 fevral 2015-ci il, A/HRC/28/NGO/86, http://www.ecoi.net/file_upload/1930_1425485343_g1503349.pdf, səh. 3. Məlumatlarda bildirilir ki, nikahda olduqlarını sübut edə bilməmələri hindu qadınları polisin onlardan pul tələb etməsi halları qarşısında müdafiəsiz vəziyyətdə qoyur, belə ki, polis onları zinaya yol vermə ittihamı irəli sürəcəyi ilə hədələyir. AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 7. Ərli hindu qadınlar, məlumatlara görə, elektronlaşdırılmış milli şəxsiyyət vəsiqələri (EMŞK) almaqda çətinliklərlə üzləşirlər. Lakin məlumatlana əsasən 2012-ci ildə Ali Məhkəmə Milli məlumat bazası və qeydiyyat idarəsinə (MMBQİ) təlimat verdi ki, EMŞK-lərin verilməsi barəsindəki normativ aktlarına dəyişiklik etsin. Məlumatlarda bildirilir ki, bundan sonra MMBQİ ərli hindu qadınların EMŞK almaqdan ötrü müraciət etmələri üçün nikahlarını sübut etmək məqsədi ilə yalnız dini and içmələrini tələb edir. Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 54; "*Dawn*" qəzeti, *EMŞK üçün ərizə formalarında hindu qadınlar üçün nəzərdə tutulmuş yeni qrafa*, 23 may 2012-ci il, http://www.dawn.com/news/720791/new-column-for-hindu-women-in-cnic-form; həmçinin bax: "*The International News*" qəzeti, *Pakistanda yalnız toy fotoları hinduların nikahlarını sübut edə bilər*, 26 yanvar 2016-cı il, https://www.thenews.com.pk/print/20453-in-pakistan-only-wedding-photos-can-prove-hindus-marriages. 2014-cü ildə Ali Məhkəmə qərarında bildirdi ki, "hindu nikahlarının qeydiyyata alınmaması problemi MMBQİ tərəfindən həll olunub". Pakistan Ali Məhkəməsi, *S.M.C. No.1 of 2014 and C.M.A. Nos. 217-K/2014 IN S.M.C. No.1/2014 et al.*, 19 iyun 2014-cü il, http://www.refworld.org/docid/559e57644.html, 4-cü bənd.

### b) Pakistanda hindu şəxslərin vəziyyəti

Məlumatlara əsasən hindular əleyhinə münasibətin tarixi Hindistanın bölündüyü 1947-ci ilə gedib çıxır.[324] Məlumatlarda bildirilir ki, hindular artmaqda olan dini dözümsüzlük və cəzasızlıq mühitində ayrı-seçkiliyə və zorakılığa məruz qalırlar.[325] Məlumatlara görə hökumət hinduların ibadət yerlərinin və dəfn məkanlarının qorunmasını təmin etmir.[326] Məlumatlarda deyilir ki, 2014-cü ilədək Köçənlərin Mülkiyyətinin Etibarnaməli İdarəçiləri Şurasına həvalə olunmuş[327]

---

[324] "Röyters" agentliyi, *Pakistan hinduları və digər azlıqlar artan zorakılıq dalğası ilə üzləşirlər*, 6 may 2014-cü il, http://uk.reuters.com/article/2014/05/06/uk-pakistanminorities-idUKKBN0DL1AS20140506.

[325] "Sind əyaləti həmçinin dini qütbləşmənin artmasının, Sindin hindu əhalisinə qarşı ayrı-seçkiliyə və zorakılığa rəvac verilməsinin şahidi olub". AHBQ, *Pakistandan məlumatlar: Dini azlıqların üzləşdikləri problemlərin aşkar edilməsi*, 24 oktyabr 2016-cı il, http://minorityrights.org/publications/reportspakistan-tracing-challenges-facing-religious-minorities/, *"Hinduların Pakistandan mühacirəti"* adlanan fəslə bax: http://stories.minorityrights.org/pakistan-religious-minorities/chapter/pakistani-hindus-migrating-to-india/; həmçinin bax: AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2016 – Pakistan*, 12 iyul 2016-cı il, http://www.refworld.org/docid/5796082215.html; Amerika Hinduları Fondu, *Cənubi Asiyadakı hindular və diaspor: insan hüquqlarının tədqiqi, 2014-2015*, 31 iyul 2015-ci il, http://www.hafsite.org/sites/default/files/HHR_Report_2014_Final.pdf, səh. p. viii. Pakistan Təhriki-İnsaf Partiyasından Milli Məclisə azlıqların kvotası üzrə seçilmiş deputat Lal Malhi 2015-ci ilin iyununda həmkarlarının hindular barəsində səsləndirdikləri mənfi fikirlərdən narahatlığını bildirdi. "*Dawn*" qəzeti, *Pakistanlı hindular haraya getməlidirlər?* 23 iyun 2015-ci il, http://www.dawn.com/news/1189939; "*The Express Tribune*" qəzeti, *Tolerantlıq dərsləri: parlament üzvü həmkarlarından öz çıxışlarında hinduları ləkələməməyi xahiş etdi*, 22 iyun 2015-ci il, http://tribune.com.pk/story/907578/lessons-in-tolerance-mp-askcolleagues-not-to-denigrate-hindus-in-speeches/. Məlumatlara əsasən mediada hindular "Hindistan agentləri" kimi təsvir edilir, televiziyadakı proqram və filmlərdə hindu obrazları "opportunist", "sələmçi" və "qeyri-vətənpərvər" kimi göstərilir. BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, fevral 2015-ci il, http://www.refworld.org/docid/57fb91e54.html, səh. 13. Həmçinin bax: "*Dawn*" qəzeti, *Acınacaqlı durumda olan toxunulmazlar kastaları*, 18 iyun 2015-ci il, http://www.dawn.com/news/1188782; DİBHŞ, *Pakistanda BMT-nin xüsusi prosedur mandatının sahiblərinə təqdim edilmiş məlumatlandırıcı qeydlər – Pakistanda dini azlıqlar: hindu toxunulmazlar kastası*, sentyabr 2014-cü il, http://www.dalits.nl/pdf/PDSNnotesep2014.pdf, səh. 1. AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 3, 7-8.

[326] "Sind əyalətində şudralara və toxunulmazlara məxsus olan dəfn mərasimi yerlərinin çoxu müsəlmanlar tərəfindən zəbt edilib və aşağı kastalara mənsub olan hinduların vəfat etmiş yaxınlarının dəfn mərasimini orada keçirmələrinə icazə verilmir". BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, fevral 2015-ci il, http://www.refworld.org/docid/57fb91e54.html, səh. 9. 2012-ci ilin avqustunda Pakistan Ali Məhkəməsi, məlumatlara görə, Pəncab əyalətinin hökumətinə təlimat verdi ki, "25 dekabr 2013-cü ilədək torpaqların "torpaq mafiyasının" əlindən alınmasını və orada hindu icması üçün məzarlığın inşa edilməsini təşkil etsin". İnşaat işləri 2014-cü ilin mayında başa çatdı, amma bundan bir ildən də artıq vaxt keçsə də, məzarlıq hələ də hinduların sərəncamına verilməyib və məlumatlara əsasən faktiki olaraq dövlət orqanları tərəfindən qapadılıb, iddia edildiyinə görə bunun səbəbi müsəlmanların müqəddəs şəxsiyyətinin məzarının təhqir edilməsi və bunun həmin ərazidəki müsəlmanları qəzəbləndirməsidir. "*Daily Pakistan*" qəzeti, *Məzarlığın qapadılması Lahordakı hinduları məyus etdi*, 22 avqust 2015-ci il, http://en.dailypakistan.com.pk/pakistan/sealing-of-cemetery-frustrates-hindus-in-lahore/. "Mayda (2014-cü il) Sinddəki hindu məbədlərinə növbəti hücumlar oldu. Pakistan Hindu Şurası hindular üçün qoruyucu tədbirlərin görülməsini tələb etdi və iddia etdi ki, son beş ildə 25.000-ə yaxın hindu Hindistana mühacirət edib". Birləşmiş Krallıq: Xarici İşlər və Birlik Ölkələrinin İşləri üzrə Nazirlik, *Pakistan: Narahatlıq doğuran ölkə*, 21 yanvar 2015-ci il (məlumatların yenilənməsinin sonuncu tarixi: 30 iyun 2014-cü il), https://www.gov.uk/government/publications/pakistan-country-of-concern/pakistan-country-of-concernlatest-update-30-june-2014. Həmçinin bax: "*Dawn*" qəzeti, *Badində "müsəlman məzarlığında" hinduların dəfn mərasiminin keçirilməsi etirazlara rəvac verdi*, 27 dekabr 2013-cü il, http://www.dawn.com/news/1076542.

[327] Pakistan müstəqillik qazandığı zaman qeyri-müsəlmanların çoxu Hindistana getdilər. Müstəqillik əldə edildikdən az sonra federal qanuna əsasən qeydi-müsəlman icmaların tərk edib getdikləri əmlakların, xüsusən ibadət yerlərinin idarə olunması üçün Köçənlərin Mülkiyyətinin Etibarnaməli İdarəçiləri Şurası (KMEİŞ) yaradıldı. Bu Şuraya həmin əmlakların saxlanması və qorunması həvalə olunsa da və Şura onları satmaq hüququna malik olmasa da, Şuranın nəzarətində olan torpaqların çoxu, məlumatlara görə, baxımsız qaldı, yaxud zəbt edildi və ya satıldı. PİHK və BİHF məlumat verirlər ki, "bu sözlər xüsusən hindu icmasına mənsub olan əmlaklara aiddir". Məlumatlara əsasən Sind əyalətindəki Heydərabad şəhərində 2015-ci ilin əvvəlinədək 350 məbəddən və qurdvaradan (ibadətgah) yalnız biri KMEİŞ tərəfindən qorunub saxlanılıb, beşdən onadək məbəd özəl şəxslərin idarəçiliyindədir, qalanları isə ya zəbt olunub, ya da satılıb. Məlumatlarda bildirilir ki, Şuranın əvvəlki sədri əmlakları qanunsuz satmaqda təqsirləndirilib. Məlumatlara əsasən Şuranın çox az sayda üzvü dini azlıq qruplarındandır. PİHK və BİHF-nin bildirdiklərinə görə,

428 hindu ibadət yerlərindən yalnız 20-si fəaliyyət göstərirdi.[328] 17 aprel 2015-ci ildə Ali Məhkəmə, məlumatlara görə, Xeybər Paxtunxva əyalətinin hökumətinə təlimat verdi ki, Karakdakı hindu məbədində bərpa və yenidənqurma işləri aparsın.[329] Məlumatlara əsasən Sind hökumətinin hindu ibadət yerlərini yetərli müdafiə ilə təmin etməməsi barədə şikayətlərdən sonra 2015-ci ilin fevralında Sind əyalətinin polis rəisi Ali Məhkəməyə çağırıldı.[330]

Digər qeyri-müsəlman dini azlıqları kimi hindular da, məlumatlara görə, təhsil müəssisələrinə qəbul və işədüzəlmə məsələlərində ayrı-seçkiliyə məruz qalırlar. Məlumatlarda bildirilir ki, xüsusən toxunulmazlar kastalarından olan hindular adətən balıqçı, çəkməçi, kərpic bişirən, süpürgəçi və digər təmizlik işçisi kimi az maaşlı və aşağı ixtisaslı işlərə götürülürlər.[331] Məlumatlara əsasən toxunulmazlar kastalarından olan bəzi ailələr qızlarının salamatlığı və şəxsi təhlükəsizliyi ilə bağlı qorxu keçirdiklərinə görə onları məktəblərə göndərməkdən imtina edirlər.[332] Bundan başqa, məlumat verilir ki, dövlət məktəblərinin dərsliklərinə hindular barəsində alçaldıcı ifadələr və nifrət saçan sözlər daxil edilib.[333] Toxunulmazlar kastalarından

"bu, xüsusən hindu inancının ardıcıllarına problemlər yaradır, belə ki, onların dini ehkamları hindu məbədlərinin yalnız hindular tərəfindən idarə olunmasını tələb edir". BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, fevral 2015-ci il, http://www.refworld.org/docid/57fb91e54.html, səh. 9.

328 "*The Express Tribune*" qəzeti, *İbadət yerlərinin 95%-i kommersiya məqsədləri üçün istifadəyə verilib: Araşdırma*, 25 mart 2014-cü il, http://tribune.com.pk/story/686952/95-ofworship-places-put-to-commercial-use-survey/.

329 Yerli dini liderlər 1997-ci ildə zədələnmiş məbədin yenidən qurulmasına müqavimət göstərdilər. "*Dawn*" qəzeti, *Ali Məhkəmə hindu məbədinin yenidən qurulmasını Xeybər Paxtunxva əyalətinin hökumətindən xahiş etdi*, 16 aprel 2015-ci il, http://www.dawn.com/news/1176474; "*Odisha Sun Times*" qəzeti, *Pakistan Ali Məhkəməsi söylədi ki, hindu məbədi yenidən qurulmalıdır*, 26 avqust 2015-ci il, http://odishasuntimes.com/2015/08/26/rebuild-hindu-temple-says-pakistan-court/.

330 Birləşmiş Krallığın Xarici İşlər və Birlik Ölkələrinin İşləri üzrə Nazirliyi, *Korporativ hesabat: Pakistan (məlumatlar il ərzində 2015-ci ilin iyulunadək yenilənib)*, 15 iyul 2015-ci il, https://www.gov.uk/government/publications/pakistan-in-year-update-july-2015/pakistan-in-year-update-july-2015.

331 "*Dawn*" qəzeti, *"Soneri" fincanı dərin kök salmış fanatizmi simvolizə edir*, 12 may 2016-cı il, http://www.dawn.com/news/1235729; "*Dawn*" qəzeti, *Dalitlərin Pakistan arzusu*, 9 may 2016-cı il, http://www.dawn.com/news/1257165; PİHK, *Pakistanın universal dövri icmalı: Vədlərimizə baxış (Vətəndaş cəmiyyətinin orta müddətli qiymətləndirici hesabatı)*, iyun 2015-ci il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2015/09/A-lookback-at-our-promises.pdf, səh. 70-71; "*Pakistan Hindu Post*" nəşri, *Azlıq daxilində azlıq: toxunulmazlar kastasından olan hindular Pakistanda hüquq bərabərliyi istəyirlər*, 12 aprel 2012-ci il, http://pakistanhindupost.blogspot.ch/2012/04/minority-within-minorityscheduled.html.

332 AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 16; "*Independent*" qəzeti, *Yer üzündə hindular üçün cəhənnəm: Pakistanda təqibdən yaxa qurtarmaq üçün ümidsizlik içərisində ölkəni tərk etmələri ucbatından ailələr əzab çəkir*, 7 may 2013-cü il, http://www.independent.co.uk/news/world/asia/a-hindu-hell-on-earth-familiesare-being-torn-apart-by-their-desperation-to-flee-persecution-in-8606774.html. Məsələn hindu iş adamı məlumat verib ki, arvadının və qızının salamatlığını təmin etmək üçün hər ay haqq ödəyir. "*News on Sunday*" nəşri, *Mən Pakistanı sevirəm, amma burada yaşaya bilmirəm*, 25 may 2014-cü il, http://tns.thenews.com.pk/hindus-say-love-pakistan-cant-live/.

333 "Tədris proqramlarında dini azlıqlardan olan şagirdlərin inanclarına və ənənələrinə qarşı qərəzliliyin və dözümsüzlüyün çoxsaylı nümunələri var. Bu cür ritorikanın çox qismi xüsusi olaraq hindulara və onların ənənələrinə, o cümlədən hinduların dul qadınlara qarşı qəddar rəftar sayılan ənənələrinə və pakistanlı müsəlmanların ənənələri ilə ziddiyyət təşkil edən daha uğursuz ənənələrinə qarşı yönəlib. ABŞBDAK, *Pakistanda dözümsüzlüyün tədrisi: Dövlət məktəblərindəki dərsliklərdə dini qərəzlilik*, aprel 2016-cı il, http://www.uscirf.gov/sites/default/files/USCIRF_Pakistan_FINALonline.pdf, səh. 8. Məsələn, Pəncab əyalətinin 10-cu sinif üçün dərsliyində deyilir (urdu dilindən tərcümə): "İslam dini, mədəniyyəti, sosial sistemi qeyri-müsəlmanlarınkından fərqlidir; buna görə də onların hindularla qarşılıqlı əməkdaşlığı mümkün deyil". Eyni mənbə, səh. 7. Sind əyalətinin 8-ci sinif üçün dərsliyində isə deyilir: "Hindu irqçilər təkcə müsəlmanları deyil, bütün qeyri-hinduları məhv etmək istəyirlər". Eyni mənbə, səh. 8. Əlavə təfsilatlı nümunələr üçün aşağıdakı hesabata bax: ABŞBDAK, *Pakistanda dözümsüzlüyün tədrisi: Dövlət məktəblərindəki dərsliklərdə dini qərəzlilik*, aprel 2016-cı il, http://www.uscirf.gov/sites/default/files/USCIRF_Pakistan_FINALonline.pdf. "2009-cu ildə Pakistan yeni təhsil siyasəti qəbul etdi və "hər hansı təriqətə, yaxud dini və ya etnik azlıqlara qarşı yönələn mübahisəli materialın" tədris materialları sırasından çıxarılması barədə müddəa həmin siyasətə daxil edildi. Lakin sübutlar göstərir ki, praktikada bu problem qalmaqdadır". AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2014 – Tematik araşdırma*,

olan hindular, məlumatlara görə, ictimai yerlərə və dövlət xidmətlərinə buraxılma məsələsində məhdudiyyətlərlə üzləşirlər.[334] Məlumatlarda bildirilir ki, hindular ölkəyə Hindistandan dini ədəbiyyat gətirməkdə müəyyən çətinliklərlə qarşılaşırlar.[335] (Həmçinin IV bölməyə bax: "Pakistanda dini azlıqların vəziyyəti".)

Məlumatlarda bildirilir ki, polis adam oğurluğu, habelə dinini dəyişməyə və nikaha girməyə məcbur edilmə hallarını qeydiyyata almağa, araşdırmağa və ya belə hallara müdaxilə etməyə meyl göstərmir, belə halların qarşısında məhz hindu qadınlar və qızlar xüsusilə müdafiəsiz vəziyyətdə olurlar (V.4.a bölməsinə bax).[336] Bundan əlavə, məlumatlara görə qurbanların ailələri belə insidentlər barədə polisə xəbər verdikdən sonra bu halları törədənlər tərəfindən təqib edilir və ya ölümlə hədələnirlər.[337] 2014-cü ilin iyununda Ali Məhkəmə qərarında bildirdi ki, "hindu

---

*Pakistan: Dərsliklərdə yer alan nifrət məzmunlu mətnlərin qarşısının alınması*, 3 iyul 2014-cü il, http://www.refworld.org/docid/53ba8dbe5.html.

[334] 2016-cı ilin oktyabrında İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə bildirdi ki, "məhkəmə rüsumlarının yüksək olması və pulsuz hüquqi yardım proqramlarından yararlanmaq üçün müraciət meyarlarının və qaydasının aydın olmaması ucbatından etnik və dini azlıqlara mənsub olan şəxslərin, qaçqınların və toxunulmazlar kastalarının (dalitlərin) ədalət mühakiməsinə çıxış imkanının məhdud olmasından narahatlıq keçirməkdə davam edir". CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 23-cü bənd. Komitə həmçinin "azlıqlara, xüsusən əhmədilərə, xəzərlərə və dalitlərə qarşı zorakılıqlardan və onların faktiki olaraq əlahiddə ərazilərdə təcrid halında olmalarından, məşğulluq, səhiyyə, təhsil xidmətlərindən və digər zəruri xidmətlərdən ədalətli əsaslarla yararlanmaq imkanına malik olmamalarından və onlara qarşı artan zorakılıqların bu durumu daha da ağırlaşdırmasından" narahatlığını ifadə etdi. Eyni mənbə, 19-cu bənd. Nəhayət, Komitə bildirdi ki, "toxunulmazlar kastalarının (dalitlərin) faktiki mövcudluğundan və xüsusən məşğulluq və təhsil sahəsində onlara qarşı ayrı-seçkiliyin davam etməsindən narahatdır". Eyni mənbə, 31-ci bənd. Həmçinin bax: Dalit İcmalarının Pakistan Həmrəylik Şəbəkəsi (DİPHŞ) və Dalit İcmalarının Beynəlxalq Həmrəylik Şəbəkəsi (DİBHŞ), *Pakistanda toxunulmazlar kastasından olan uşaqlar: Uşaq Hüquqları Komitəsi (UHK) üçün hazırlanmış birgə hesabat, 72-ci Sessiyaqabağı İşçi Qrupu, 5-9 oktyabr 2015-ci il – Pakistan, 1 iyul 2015-ci il*, http://idsn.org/wp-content/uploads/2015/07/IDSN-and-PDSN-alternativereport-on-Scheduled-Caste-Children-in-Pakistan-July-2015-CRC-Pakistan.pdf, səh. 2-3.

[335] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2013-cü il tarixli hesabat – Pakistan*, 28 iyul 2014-cü il, http://www.refworld.org/docid/53d90733b.html.

[336] "*Dawn*" qəzeti, *Qadınlar dinini dəyişməyə məcbur edilmə, zorlama barədə ilkin məlumat protokolu tərtib etməkdən imtina və insan alveri halları barədə danışdılar*, 1 avqust 2015-ci il, http://www.dawn.com/news/1197650; Amerika Hinduları Fondu, *Cənubi Asiyadakı hindular və diaspor: insan hüquqlarının tədqiqi, 2014-2015*, 31 iyul 2015-ci il, http://www.hafsite.org/sites/default/files/HHR_Report_2014_Final.pdf, səh. 71-73; PİHK, *PİHK-in Əqidələri səbəbindən əlverişsiz vəziyyətdə olan icmalarla bağlı işçi qrupunun hesabatı: İnanc və yardım – Dini azlıqların ədalət mühakiməsinə çıxış imkanı*, 2014-cü il, http://hrcpweb.org/hrcpweb/wp-content/uploads/2015/09/Access-to-justice-for-religious-minorities-Expert-Group-Report.pdf, səh. 31. Xüsusən qurbanlar müdafiəsiz vəziyyətdə olan qrupların üzvüdürlərsə, məsələn, onlar qadındırsa və ya digər marginnallaşdırılmış qruplara mənsubdursa, onların cinayət barədə ilkin məlumatlarını qeydə almağa və ümumiyyətlə işləri araşdırmağa polisin meyl göstərməməsi barədə ümumi məlumat üçün bu mənbəyə də bax: "Human Rayts Votç" təşkilatı, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat,* 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html, səh. 22.

[337] AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 16. Məsələn, məlumatlara əsasən 2 oktyabr 2014-cü ildə dinini dəyişməyə və onu oğurlayanlardan biri ilə nikaha girməyə məcbur edilmiş 11 yaşlı hindu qız valideynlərinə qaytarıldı. Lakin onu oğurlayanlar, məlumatlara görə, cəzalandırılmadılar və ailəni təqib və təhdid etməkdə davam etdilər. Analoji olaraq, "Sind əyalətində 12 yaşlı [hindu qız] Ancali Meqvar 20 oktyabr 2014-cü ildə beş silahlı şəxs tərəfindən evindən oğurlandı və dinini dəyişməyə və müsəlman kişiyə ərə getməyə məcbur edildi. Ancalini oğurlayan şəxs sonradan həbs edilsə də, mülki məhkəmənin hakimi qızın 18 yaşına çatana qədər Karaçidəki sığınacaqda qalması barədə qərar çıxardı. Halbuki Sind qanunvericiliyinə əsasən hakim onu ailəsinə qaytarmalı idi, çünki o, yetkinlik yaşına çatmamışdı və qanuni nikaha girə bilməzdi. Bundan başqa, onun göndərildiyi sığınacaqda Ancalinin valideynlərinin ona baş çəkmələrinə icazə verməkdən imtina etdilər. Hazırda onun ailəsi gizlənir və ölümlə hədələndikdən sonra bu işin arxasınca getməkdən vaz keçib". Amerika Hinduları Fondu, *Cənubi Asiyadakı hindular və diaspor: insan hüquqlarının tədqiqi, 2014-2015*, 31 iyul 2015-ci il, http://www.hafsite.org/sites/default/files/HHR_Report_2014_Final.pdf, səh. 71-73; həmin mənbədə aşağıdakı mənbəyə istinad edilib: İHQM təşkilatı, *Pakistanda cəzasızlıq ənənəsi və məcburi nikahlar*, 1 aprel 2015-ci il, http://www.ghrd.org/news/article/news/detail/News/the-culture-of-impunity-and-forcedmarriages-in-pakistan/.

qızların dinini dəyişməyə məcbur edilməsi barədə iddialara gəlincə, Pəncab, Sind və Bəlucistanda cinayət işləri açılsa da, adətən sonradan müəyyən edilir ki, qızların çoxu özlərinin seçdikləri şəxslərə qoşulub qaçıblar və onlara könüllü surətdə ərə gediblər".[338] Bununla belə, hindu təmsilçiləri bildirirlər ki, məcburi nikahların və dinini məcburi dəyişmənin hindu qurbanları nikaha könüllü surətdə daxil olduqlarını insanlara bildirmələri üçün təzyiq və təhdidlərə məruz qalırlar.[339]

2014-cü ilin avqustunda Sind əyalətinin yüksək rütbəli polis əməkdaşı "Əl-Cəzirə" telekanalına söylədi ki, aşağı rütbəli polislər hinduların üzləşdiyi ayrı-seçkiliyə həssaslıqla yanaşmırlar.[340] Oruclug ayı olan ramazan zamanı yemək yediyinə (və ya satdığına) görə ahıl yaşlı hindu kişi, məlumatlara əsasən, vəzifə başında olmayan polis əməkdaşı tərəfindən 2014-cü ilin iyununda hücuma məruz qaldı.[341] Hindu icmasının üzvləri məlumat verdilər ki, zəvvar kimi Bəlucistandakı hindu məbədinə illik ziyarətlərini həyata keçirmələri üçün 2015-ci ilin aprelində Sind-Bəlucistan sərhədində polis hindulardan rüşvət tələb edib.[342]

Məlumatlara əsasən polis hinduların qeyri-mütənasib dərəcədə çox məruz qaldıqları məcburi əmək hallarını səmərəli şəkildə araşdırmaq iqtidarında olmadığını nümayiş etdirib, bunun səbəbi həmin halları törətdiyi iddia edilən şəxslərin cəmiyyətdə təsirə malik olmalarıdır, halbuki Pakistanın əmək qanunvericiliyinə əsasən məcburi əmək cinayət sayılır.[343] Məlumatlara görə bəzi hallarda polis məcburi əməyə cəlb edildikdən sonra qaçıb qurtulan və müdafiə edilmələrini istəyən şəxsləri insan alverçilərinə geri qaytarıb.[344]

### *c) Qeyri-dövlət subyektləri tərəfindən hindu şəxslərə qarşı rəftar*

---

[338] Pakistan Ali Məhkəməsi, *S.M.C. No.1 of 2014 and C.M.A. Nos. 217-K/2014 IN S.M.C. No.1/2014 et al.*, 19 iyun 2014-cü il, http://www.refworld.org/docid/559e57644.html, 4-cü bənd.

[339] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[340] "Əl-Cəzirə" telekanalı, *Dinini dəyişməyə məcbur edilmə Pakistan hindularına əzab verir*, 18 avqust 2014-cü il, http://www.aljazeera.com/indepth/features/2014/08/forcedconversions-torment-pakistan-hindus-201481795524630505.html.

[341] ACLED, *Pakistanda dini azlıqların hədəfə alınması*, 19 oktyabr 2016-cı il, http://www.crisis.acleddata.com/targeting-religious-minorities-in-pakistan/. Məlumatlara əsasən polis əməkdaşı hücum ittihamı ilə həbs edilib. "*Dawn*" qəzeti, *İddia edildiyinə görə Qotkidə ahıl hindu kişiyə işgəncə verdiyi üçün polis nəfəri həbs edildi*, 12 iyun 2016-cı il, http://www.dawn.com/news/1264243; "*The Express Tribune*" qəzeti, *Hindu kişi ramazanda yemək yediyinə görə döyüldü*, 12 iyun 2016-cı il, http://tribune.com.pk/story/1121012/hindu-man-beaten-eating-ramazan/.

[342] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[343] *Pakistan, Məcburi əmək sisteminin ləğv edilməsi haqqında 1995-ci il tarixli qaydalar*, 20 iyul 1995-ci il, http://www.refworld.org/docid/4e2d82252.html. 2016-cı ilin oktyabrında İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə məlumat verdi ki, "belə görünür ki, [Məcburi əmək sisteminin ləğv edilməsi haqqında 1992-ci il tarixli qanun] barəsində borc köləliyi vəziyyətində işləməyə məcbur olan insanlar, hüquq mühafizə orqanlarının əməkdaşları və məhkəmə orqanlarının nümayəndələri arasında məlumatlılıq olmadığına görə həmin qanun faktiki olaraq icra edilmir. CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 27-ci bənd. Misal üçün bu mənbəyə də bax: "Human Rayts Votç" təşkilatı, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat*, 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html, səh. 28-29; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; PİHK, *Pakistanın universal dövri icmalı: Vədlərimizə baxış (Vətəndaş cəmiyyətinin orta müddətli qiymətləndirici hesabatı)*, iyun 2015-ci il, http://hrcpweb.org/hrcpweb/wp-content/uploads/2015/09/A-look-back-at-our-promises.pdf, səh. 70-71; PİHK, *PİHK-in Əqidələri səbəbindən əlverişsiz vəziyyətdə olan icmalarla bağlı işçi qrupunun hesabatı: İnanc və yardım – Dini azlıqların ədalət mühakiməsinə çıxış imkanı*, 2014-cü il, http://hrcpweb.org/hrcpweb/wp-content/uploads/2015/09/Access-to-justice-for-religious-minorities-Expert-Group-Report.pdf, səh. 29-30. Həmçinin 271-ci mətnaltı qeydə bax.

[344] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *İnsan alverinə dair hesabat – Pakistan*, 20 iyun 2014-cü il, http://www.refworld.org/docid/53aab9bc7.html.

Toxunulmazlar kastalarından olan hindular, məlumatlara görə, kasta mənsubiyyətinə əsaslanan ayrı-seçkilik, sosial təcrid, marginallaşdırma hallarına və toxunulmazlıq (murdar hesab edilmə) praktikasına məruz qalırlar.[345]

Məlumatlarda bildirilir ki, müsəlmanlar və hindular arasında gərginlik yüksəkdir və iddia edilir ki, hindu şəxslərə qarşı irəli sürülən küfr iddiaları geniş kütlələrin zorakı reaksiyalarına rəvac verir.[346] Məlumatlara əsasən geniş kütlələr hindu bayramlarını qeyd edən hinduları təhdid edir və küfr ittihamları ilə bağlı tədbir görməsi üçün polisə təzyiq göstərirlər.[347] Hinduların əmlak və məbədləri, məlumatlara görə, yerli müsəlman icmalarının hücumlarına məruz qalır. Məlumatlarda bildirilir ki, 2016-cı ilin yanvarında silahlı şəxslər Kəraçidə yerləşən hindu məbədindəki dini abidəyə qarşı təhqiramiz hərəkətlər etdilər.[348] Məlumatlara görə 2015-ci ilin fevralında Sinddə üç məbədə hücum edildi, 2014-cü ilin martında isə Sind əyalətinin Larkana

---

[345] "Toxunulmazlıq praktikası kollektiv davranış qaydalarının və normalarının toplusu olaraq belə bir düşüncədən irəli gəlir ki, aşağı kastalardan olan şəxslərlə təmasda olmaq "murdarlanmaya" səbəb olur". BMT-nin Baş Assambleyası, *Azlıqların işləri üzrə xüsusi məruzəçinin məruzəsi*, 28 yanvar 2016-cı il, A/HRC/31/56, http://www.refworld.org/docid/56dfde5d4.html, 28(c) bəndi. Həmçinin bax: eyni mənbə, 28, 32, 34-cü bəndlər. 2016-cı ilin oktyabrında İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə məlumat verdi ki, "toxunulmazlar kastalarının (dalitlərin) faktiki mövcudluğundan və xüsusən məşğulluq və təhsil sahəsində onlara qarşı ayrı-seçkiliyin davam etməsindən narahatdır". CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 31-ci bənd. Həmçinin bax: Dalit İcmalarının Beynəlxalq Həmrəylik Şəbəkəsi (DİBHŞ) ilə Dalit İcmalarının Pakistan Həmrəylik Şəbəkəsinin (DİPHŞ) birgə hazırladıqları hesabat: *CEDAW Komitəsinin 54-cü sessiyasında Pakistanın 4-cü dövri məruzəsinin nəzərdən keçirilməsi üçün BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitəsinə (CEDAW Komitəsinə) təqdim edilmiş alternativ hesabat*, fevral 2013-cü il, http://www2.ohchr.org/english/bodies/cedaw/docs/ngos/JointNGOsSubmissionPakistan_ForTheSession54.pdf, səh. 2, 3, 6 və 10; DİBHŞ, *Pakistanda quraqlıq 100-dən artıq uşağı öldürdü*, 10 mart 2014-cü il, http://idsn.org/drought-in-pakistan-kills-over-100-children-most-are-dalits/.

[346] Məsələn, ruhi xəstə olduğu və bu yaxınlarda induizmdən islama keçdiyi bildirilən şəxs 2016-cı ilin iyulunda Qotkidə (Sind əyaləti) Quranın nüsxələrini yandırmaqda təqsirləndirildi. Bu ittiham barədə xəbər yayıldıqdan sonra ertəsi gün geniş müsəlman kütləsi əsas şose yolunu bağladı və küfrə yol verdiyi bildirilən şəxslə "haqq-hesab çəkməyi" tələb etdi. Məlumatlara əsasən ertəsi gün iki hindu şəxs silahlı şəxslər tərəfindən güllələndi, qurbanlardan biri aldığı xəsarətlərdən öldü. "*ABC News*" telekanalı, *Pakistanda Quran yandırıldıqdan sonra hindular müsəlman ekstremistlərin əlindən qaçıb gedirlər*, 24 avqust 2016-cı il, http://www.abc.net.au/news/2016-08-25/hindus-flee-muslim-extremists-after-koran-burned-in-pakistan/7782800; "*The Express Tribune*" qəzeti, *Küfr iddiaları: Kütlə "ədalət mühakiməsi" tələb etdiyinə görə Qotkidə gərginlik son həddədir*, 27 iyul 2016-cı il, http://tribune.com.pk/story/1149943/blasphemyallegations-ghotki-edge-mob-demands-justice/; "*The Nation*" qəzeti, *Küfr iddiası Qotkidə gərginliyi şiddətləndirdiyinə görə hindu gənc qətlə yetirildi*, 27 iyul 2016-cı il, http://nation.com.pk/national/27-Jul-2016/hindu-youth-killed-as-communal-tensions-rock-ghotki-over-blasphemy-allegation; "*Dawn*" qəzeti, *Qotkidə "küfr" insidentindən sonra ictimai gərginlik artdığına görə hindu gənc öldürüldü*, 27 iyul 2016-cı il, http://www.dawn.com/news/1273509.

[347] "Badində (Sind əyaləti) 3 hindu oğlan "holi" (hinduların rəng bayramı) münasibəti ilə rənglərlə müəyyən işarələri ifadə etdiklərinə görə küfrdə ittiham olundular və hazırda həbsdə saxlanılırlar". Avropa İttifaqı: Avropa Parlamenti, *Avropa Parlamentinin Pakistana dair qətnaməsi: Son dövrün təqib halları (2014/2694(RSP)*, 15 aprel 2014-cü il, B7 0403/2014, http://www.europarl.europa.eu/sides/getDoc.do?pubRef=-//EP//NONSGML+MOTION+B7-2014-0403+0+DOC+WORD+V0//EN, səh. 3. "Sinddə baş vermiş son bir neçə insident zamanı dini azlıqları təhdid etmək və onlara qarşı irəli sürülmüş əsassız ittihamlarla bağlı tədbir görməyə polisi məcbur etmək üçün geniş kütlələr bir yerə toplaşdı. Uşaqların "holi" rənglərini bir-birinə atdıqları "holi" bayramı günündə Badində baş vermiş bir insident zamanı çoxluq icmasının 1.500-ə yaxın üzvü hinduların küfr etdiyini iddia etdilər, çünki kimsə yolda "holi" rəngləri ilə nəsə yazmışdı". PİHK, *PİHK-in Əqidələri səbəbindən əlverişsiz vəziyyətdə olan icmalarla bağlı işçi qrupunun hesabatı: İnanc və yardım – Dini azlıqların ədalət mühakiməsinə çıxış imkanı*, 2014-cü il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2015/09/Access-to-justice-for-religious-minorities-Expert-Group-Report.pdf, səh. 17.

[348] "*Dawn*" qəzeti, *Kəraçidə məbədin təhqir olunması ilə bağlı narahatlıq*, 2 fevral 2016-cı il, http://www.dawn.com/news/1236839; "*The Indian Express*" qəzeti, *Pakistanda hindu məbədi təhqir olundu, icma təşviş içindədir*, 2 fevral 2016-cı il, http://www.newindianexpress.com/world/Hindu-Temple-in-Pakistan-Desecrated-Panic-Grips-Community/2016/02/02/article3257788.ece.

şəhərində və ətraf ərazilərdə beş hindu məbədi hücuma məruz qalmışdı.[349] 2014-cü ilin martında Larkanada kütlənin məbədlərə etdiyi hücum, məlumatlara görə, küfr iddialarından irəli gəlmişdi.[350] Məlumatlarda həmçinin hindu məzarlıqlarının təhqir olunduğu bildirilir.[351]

Yuxarıda qeyd edildiyi kimi, hüquq müdafiə və icma qrupları məlumat verirlər ki, konkret olaraq hindular (xüsusən toxunulmazlar kastalarından olanlar (dalitlər)) və xristianlar da daxil olmaqla dini azlıqlardan olan qadınların və qızların oğurlanması və seksual zorakılığa məruz qalması riski qeyri-mütənasib dərəcədə yüksəkdir; belə hücumlar qurbanların onları oğurlayanlarla nikaha girməyə məcbur edilməsi ilə nəticələnə bilər, bu zaman onları oğurlayanlar qurbanlarının islamı qəbul etdiyini iddia edirlər.[352] Təxmini hesablamalar göstərir ki, hər il azı 300 hindu qadın

---

[349] Amerika Hinduları Fondu, *Cənubi Asiyadakı hindular və diaspor: insan hüquqlarının tədqiqi, 2014-2015*, 31 iyul 2015-ci il, http://www.hafsite.org/sites/default/files/HHR_Report_2014_Final.pdf, səh. 67-68; ABŞBDAK, *2015-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html.

[350] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html; İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-we-do/reports/human-rights-reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 16; ABŞBDAK, *2015-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html; "Röyters" agentliyi, *Pakistanda küfrə görə hindu məbədi yandırıldı*, 16 mart 2014-cü il, http://www.reuters.com/article/us-pakistan-hinduidUSBREA2F0GT20140316.

[351] Məlumatlarda bildirilir ki, 2013-cü ildə Larkana şəhərində (Sind əyaləti) doqquz hindu məbədi hücuma məruz qalıb. PİHK, *Pakistanın universal dövri icmalı: Vədlərimizə baxış (Vətəndaş cəmiyyətinin orta müddətli qiymətləndirici hesabatı)*, iyun 2015-ci il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2015/09/A-look-backat-our-promises.pdf, səh. 75. Məlumatlara əsasən 2013-cü ilin oktyabr və dekabrında qəzəbli müsəlman kütlələri tərəfindən dəfn yerlərinə qarşı təhqiramiz hərəkətlər edildi və hindu cəsədləri qazılaraq qəbirdən çıxarıldı. AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 7-8; "*Dawn*" qəzeti, *Eksklüziv xəbər: Ciddi narahatlıqlar*, 6 mart 2014-cü il, http://www.dawn.com/news/1091396; "*The Express Tribune*" qəzeti, *Son "iğtişaşlar": Badində kütlə hindu kişinin cəsədini məzardan qazıb çıxardı*, 8 oktyabr 2013-cü il, http://tribune.com.pk/story/615028/final-unrest-badin-mob-digs-out-hindu-mans-grave/. Həmçinin bax: Amerika Hinduları Fondu, *Cənubi Asiyadakı hindular və diaspor: insan hüquqlarının tədqiqi, 2014-2015*, 31 iyul 2015-ci il, http://www.hafsite.org/sites/default/files/HHR_Report_2014_Final.pdf, səh. 67-68.

[352] 2016-cı ilin oktyabrında İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə məlumat verdi ki, "dalit qadın və qızların islam dinini qəbul etməyə və nikaha girməyə məcbur edilmək üçün oğurlanması halları barədə davamlı məlumatlardan dərin narahatlıq keçirir", CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 31-ci bənd. Həmçinin bax: ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html; PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Qadınlar*, mart 2016-cı il, http://hrcpweb.org/hrcpweb/wp-content/uploads/2016/04/Women_12.pdf, səh. 17; Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2015/2016-cı il hesabatı – Pakistan*, 24 fevral 2016-cı il, http://www.refworld.org/docid/56d05b2715.html; "*The Express Tribune*" qəzeti, *Öz hüquqlarını qorumaq: dinini dəyişməyə məcbur edilmə Sinddə hələ də hindular üçün problem olaraq qalır*, 15 iyul 2015-ci il, http://tribune.com.pk/story/921649/seeking-their-rights-forced-conversions-still-an-issue-for-hindus-in-sindh/.
Azlıqların Hüquqları üzrə Beynəlxalq Qrup 2015-ci ildə məlumat verdi ki, "şəhərlərə köçmə Pakistandakı azlıqların təhlükəsizlik səviyyəsini heç də həmişə artırmır. Məsələn, Karaçiyə köçmüş hindular dinini dəyişməyə və nikaha girməyə məcbur edilmə hallarının qurbanı olmaqda davam edirlər". AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2015 – Pakistan*, 2 iyul 2015-ci il, http://www.refworld.org/docid/55a4fa494.html. "Dini azlıq qruplarından, xüsusən hindu və xristian icmalarından olan qadınlar xüsusilə seksual zorakılığa məruz qalırlar. Bu icmalardan olan qızlar adam oğurluğu və zorlanma aktlarına daha çox məruz qalırlar. Təqsirkarlar yaxalandıqları zaman qızın islamı qəbul etdiyini iddia edirlər. Bu yolla onlar islamı yaymaq adı altında məhkəmələr tərəfindən cəzalandırılmaqdan yaxa qurtarırlar". BMT-nin Baş Assambleyası, İnsan Hüquqları Şurası, 29-cu sessiya, *BMT-də ümumi məsləhətçi statusuna malik olan qeyri-hökumət təşkilatı Asiya Hüquqi Resurs Mərkəzi tərəfindən təqdim edilmiş yazılı bəyanat*, 5 iyun 2015-ci il, A/HRC/29/NGO/54, https://www.ecoi.net/file_upload/1930_1434538648_g1511505.pdf, 16-cı bənd. Məlumatlarda bildirilir ki, 2015-ci ilin iyununda 15 yaşlı hindu oğlan oğurlandı və islamı qəbul etməyə məcbur edildi. Məlumatlara görə 2015-ci ilin fevralında iki hindu bacı Sinddə ailələrinin evindən oğurlandılar, yerli mədrəsəyə gətirildilər və islamı qəbul etməyə və nikaha girməyə məcbur edildilər. Amerika Hinduları Fondu, *Cənubi Asiyadakı hindular və diaspor: insan*

və ya qız dinini dəyişməyə və nikaha girməyə məcbur edilmənin qurbanı olurlar, amma bu, yəqin ki, azaldılmış rəqəmdir.[353] Məlumatlara görə bəzi mədrəsələr, xüsusən Sinddə yerləşənlər "dinini dəyişmə hallarını mütəşəkkil qaydada" təşkil edir, islamı onlara qəbul etdirmək üçün hindu qızları oğurlayırlar.[354] 2014-cü ilin mayında Pakistan Müsəlman Liqası (Navaz) Partiyasından olan deputat parlamentdə bildirdi ki, ayrı-seçkilikdən və dinini dəyişməyə məcbur edilməkdən xilas olmaq üçün hər il 5.000-ə yaxın hindu Pakistandan mühacirət edir.[355] (Həmçinin IV bölməyə bax: "Pakistanda dini azlıqların vəziyyəti".)
Məlumatlara görə xüsusən Bəlucistan əyalətində hindular girovpulu almaq məqsədi ilə uşaqların və böyüklərin oğurlanması hallarına məruz qalırlar.[356] Həmçinin dini zəmində məqsədyönlü qətl halları da baş verir,[357] habelə nifrət yayan çıxışlarda hindulara çağırış edilir ki, ya islamı qəbul etsinlər, ya da ölümlə üzləşsinlər.[358] Məlumatlarda bildirilir ki, Pakistanda üç milyondan səkkiz

---

*hüquqlarının tədqiqi, 2014-2015*, 31 iyul 2015-ci il, http://www.hafsite.org/sites/default/files/HHR_Report_2014_Final.pdf, səh. 69, 71-73.

[353] AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 15-16. "Beləliklə, problemin əsil miqyası, yəqin ki, xeyli böyükdür. Əyalətlərdə azlıq qruplarının təmsilçiliyi barədə məlumatların olmaması bu məsələ ilə bağlı rəqəmlərin düzgün təqdim edilməməsinin və problemin miqyası barədə güvənilə bilən məlumatların olmamasının digər bir səbəbidir. […] Oğurlanma, dinini dəyişməyə və nikaha girməyə məcbur edilmə halları spesifik xüsusiyyətə malikdir: qurbanların çoxu yoxsul ailələrdən olan xristian və hindulardır (çox vaxt 12-25 yaşlarında). Kənd yerlərində və diqqətdən kənarda qalan ərazilərdə 12-14 yaşında qızlarla bağlı bu cür halların çoxu barədə məlumatlar adətən az olur ki, bu da informasiyaya çıxışın çətinliyi ilə əlaqədardır. Hüquq mühafizə orqanları arasında əməkdaşlığın olmaması və belə halların lazımi qaydada qeydiyyata alınmaması və araşdırılmaması vəziyyəti daha da mürəkkəbləşdirir". İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-we-do/reports/human-rightsreports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 18.

[354] BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, fevral 2015-ci il, http://www.refworld.org/docid/57fb91e54.html, səh. 13.

[355] "Fridım Haus" təşkilatı, *"Dünyada azadlıq" hesabatı, 2015 – Pakistan*, 5 may 2015-ci il, http://www.refworld.org/docid/55506fa758.html; "*News on Sunday*" nəşri, *Mən Pakistanı sevirəm, amma burada yaşaya bilmirəm*, 25 may 2014-cü il, http://tns.thenews.com.pk/hindus-say-love-pakistan-cant-live/. Həmçinin bax: "*ABC News*" telekanalı, *Pakistanda Quran yandırıldıqdan sonra hindular müsəlman ekstremistlərin əlindən qaçıb gedirlər*, 24 avqust 2016-cı il, http://www.abc.net.au/news/2016-08-25/hindus-flee-muslim-extremists-after-koran-burned-in-pakistan/7782800.

[356] 2015-ci ildə hindu şəxslərin oğurlanması halları barədə çoxsaylı məlumatlar var. "[2 fevral 2015-ci ildə] Kvettada hindu həkim Manoj Kumar girovpulu qismində 14 milyon rupi (133.710 ABŞ dolları) ödənildikdən sonra azad edildi. [9 iyul 2015-ci ildə] Bəlucistanda hindu ticarətçi oğurlandı". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Məlumatlara əsasən 2 dekabr 2014-cü ildə Kvettada hindu həkim oğurlandı və ailəsi tərəfindən 15 milyon rupi ödənilənə qədər iki aya yaxın əsirlikdə saxlanıldı. "*The Times of India*" qəzeti, *Pakistanlı hindu həkim 2 ay əsirlikdə qaldıqdan sonra azad edildi*, 2 fevral 2015-ci il, http://timesofindia.indiatimes.com/world/pakistan/Pakistani-Hindu-doctor-released-after-2-monthsin-captivity/articleshow/46098897.cms. "HİndU icmasının rəhbərləri iddia edirlər ki, hinduların oğurlanması adi hal alıb, onları oğurlayanlar isə özlərini sərbəst hiss edirlər. […] Adi hala çevrilmiş hindu ticarətçilərin girov müqabilində oğurlanması halları onsuz da əlverişsiz vəziyyətdə olan hindular arasında təşvişə səbəb olur". "*Mediterranean Journal of Social Sciences*" jurnalı, *Ədalətsizlik və təqib: Pakistanda Sind hindularının məcburi miqrasiyası*, aprel 2015-ci il, http://www.researchgate.net/publication/276535777_Injustice_and_Persecution_Forced_Migration_of_Sindhi_Hindus_in_Pakistan.

[357] Məlumatlara əsasən 2016-cı ilin avqustunda hindu həkim Karaçidəki klinikasının yaxınlığında güllələnərək öldürüldü. "*The Express Tribune*" qəzeti, *Karaçidə hindu həkim güllələnərək öldürüldü*, 6 avqust 2016-cı il, http://tribune.com.pk/story/1156628/hindu-doctor-shot-dead-pak-colony/. Məlumatlara görə 2015-ci ildə bir hindu onların bacısına vurulduğuna görə iki müsəlman qardaş tərəfindən qətlə yetirildi. Amerika Hinduları Fondu, *Cənubi Asiyadakı hindular və diaspor: insan hüquqlarının tədqiqi, 2014-2015*, 31 iyul 2015-ci il, http://www.hafsite.org/sites/default/files/HHR_Report_2014_Final.pdf, səh. 69. Məlumatlarda bildirilir ki, 1 iyul 2014-cü ildə Bəlucistandakı yerli hindu assosiasiyasının prezidenti mağazasını açdığı zaman naməlum silahlı şəxs tərəfindən qətlə yetirildi. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html.

[358] 2014-cü ilin avqustunda Bəlucistan şəhərində divardakı yazıda zikrilərə və hindulara çağırış edilirdi ki, ya islamı qəbul etsinlər, ya da ölümlə üzləşsinlər. Bu, Avaran rayonundakı (Bəlucistan əyaləti) məqbərənin yaxınlığında altı

milyonadək məcburi əməyə cəlb olunan insan var və onların çoxu Sind və Pəncab əyalətlərindədir.[359] Məlumatlara əsasən hindular, xüsusən aşağı kastalardan olanlar və sosial-iqtisadi vəziyyəti aşağı olanlar məcburi əməyə cəlb olunmaya qarşı daha çox müdafiəsiz vəziyyətdədirlər və məlumatlara görə çox vaxt bu durum fiziki zorakılıqlarla və qurbanların hərəkət azadlığının məhdudlaşdırılması ilə müşayiət olunur.[360] Məlumatlarda deyilir ki, məcburi əmək kənd təsərrüfatı, kərpic bişirmə, dağ-mədən və məişət işləri sahəsində geniş yayılıb.[361] Həmçinin hindu uşaqların alınması, satılması, "kirayəyə" verilməsi və ya qanunsuz dilənçilik dəstələrində çalışmaq üçün oğurlanması, evlərdə kölə halında işlədilməsi, yaxud borc müqabilində kənd təsərrüfatında məcburi əməyə cəlb olunması halları barədə məlumat verilir.[362]

Yuxarıdakıları nəzərə alaraq BMTQAK hesab edir ki, hindular, o cümlədən konkret olaraq məcburi əməyin qurbanı olanlar, dinini dəyişməyə və nikaha girməyə məcbur edilənlər, habelə cəmiyyətin mənəviyyat normalarına zidd davrandığı hesab edilənlər, hər bir konkret halın fərdi xüsusiyyətlərindən asılı olaraq, dini,[363] etnik mənsubiyyətlərinə, (güman edilən) siyasi

nəfərin güllələnərək qətlə yetirilməsindən bir həftə əvvəl baş vermişdi. AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2015 – Pakistan*, 2 iyul 2015-ci il, http://www.refworld.org/docid/55a4fa494.html. Həmçinin bax: CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 15-ci bənd.

359 Həmçinin Bəlucistanda və Xeybər Paxtunxvada məcburi əməyə cəlb olunma halları barədə məlumat verilir. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Əmək*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2016/04/Labour-2016.pdf, səh. 3.

360 CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 27-ci bənd; UHK, *Pakistanın 5-ci dövri məruzəsinə dair yekun qeydlər*, 11 iyul 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CRC/C/PAK/CO/5&Lang=En, 71-ci bənd; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Məlumatlara əsasən məcburi əməyə cəlb edilənlərin çox hissəsini hindu toxunulmazlar kastaları təşkil edir, onlar əvvəlki nəsillərinin borcları da daxil olmaqla ödənilməmiş borcları nəticəsində kölə həyatı yaşamağa məcbur olurlar. PİHK, *Pakistanın universal dövri icmalı: Vədlərimizə baxış (Vətəndaş cəmiyyətinin orta müddətli qiymətləndirici hesabatı)*, iyun 2015-ci il, http://hrcp-web.org/hrcpweb/wp-content/uploads/2015/09/A-lookback-at-our-promises.pdf, səh. 70-71.

361 Amerika Hinduları Fondu, *Cənubi Asiyadakı hindular və diaspor: insan hüquqlarının tədqiqi, 2014-2015*, 31 iyul 2015-ci il, http://www.hafsite.org/sites/default/files/HHR_Report_2014_Final.pdf, səh. 74. Həmçinin bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html.

362 "Bəzi hallarda torpaq sahibləri məcburi işlədilənlərin hərəkət azadlığını silahlı mühafizəçilərdən istifadə etməklə məhdudlaşdırır, yaxud məcburi işlədilənləri onların borclarına bərabər olan qiymətə digər işəgötürənlərə satırlar". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html. Həmçinin bax: UHK, *Pakistanın 5-ci dövri məruzəsinə dair yekun qeydlər*, 11 iyul 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CRC/C/PAK/CO/5&Lang=En, 71, 75-ci bəndlər. "Bir qayda olaraq, böyüklərə nisbətən uşaqlar daha əlverişsiz vəziyyətdə olurlar. Kərpic bişirmə sahəsində çalışan uşaqlar çubuqlarla döyülərək və şallaqlanaraq xəsarət alırlar. Onlar işlərinə görə əmək haqqı almırlar və bəzən yaşlı ailə üzvlərinin qaçmasının qarşısını almaq üçün zəmanət qismində saxlanılırlar". DİPHŞ və DİBHŞ, *Pakistanda toxunulmazlar kastasından olan uşaqlar: Uşaq Hüquqları Komitəsi (UHK) üçün hazırlanmış birgə hesabat, 72-ci Sessiyaqabağı İşçi Qrupu, 5-9 oktyabr 2015-ci il – Pakistan, 1 iyul 2015-ci il*, http://idsn.org/wp-content/uploads/2015/07/IDSN-and-PDSN-alternativereport-on-Scheduled-Caste-Children-in-Pakistan-July-2015-CRC-Pakistan.pdf, səh. 6. Pakistanda borc müqabilində məcburi işlədilən uşaqlarla bağlı ümumi məlumat üçün bax: Amerika Birləşmiş Ştatlarının Əmək Nazirliyi, *2015-ci il üçün uşaq əməyinin ən pis formalarına dair qənaətlər* – Pakistan, 30 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57f4e8980.html.

363 Dinini dəyişməyə məcburi edilmə təməl hüquq olan düşüncə, vicdan və din azadlığı hüququnun ciddi pozuntusudur və adətən təqibə bərabər sayılır. Bununla belə, ərizəçi dinini dəyişməyə məcburi edilmək üçün təqibə məruz qalacağı ilə bağlı subyektiv qorxusunun mövcud olduğunu sübut etməlidir. Bu element adətən o hallarda mövcud olmuş sayılır ki, ərizəçi artıq fərqli dini əqidəyə malik olur və ya özünü hər hansı dini cərəyandan və ya icmadan kənarda tutmağı qərara alır; bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və*

əqidələrinə və (və ya) digər müvafiq əsaslara görə qaçqın qismində beynəlxalq himayəyə ehtiyac duya bilərlər.[364]

### 5. Şiələr

Məlumatlara əsasən şiələr Pakistanda ən böyük dini azlıq qrupudur: onlar Pakistan əhalisinin təxminən 15 faizindən 25 faizinə qədərini təşkil edir və bir sıra müxtəlif etnik qrupları əhatə edirlər.[365] Məlumatlarda bildirilir ki, Pakistanda təxminən 650.000-dən 900.000-dək xəzər məşəli şiələr var, onlardan təxminən 500.000 nəfəri Bəlucistandakı Kvetta şəhərində məskunlaşıb.[366] Əhmədilər kimi qeyri-müsəlman dini azlıq qruplarına tətbiq edilən ayrı-seçkilik xarakterli rəsmi qanunvericilik normalarının çoxu şiə şəxslərə şamil olunmasa da, məlumatlara əsasən onlar təriqət zəminində hücumların əsas hədəfidirlər.[367] Məlumatlarda deyilir ki, 2012-ci ildən

---

*(və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər*, HCR/GIP/04/06, 28 aprel 2004-cü il, 20-ci bənd, http://www.refworld.org/docid/4090f9794.html.

[364] Xüsusən dövlət şəxsin müdafiəsini təmin etmək istəyində və ya iqtidarında olmadıqda seksual zorakılıq və cinsi mənsubiyyətə əsaslanan zorakılıq təqibə bərabər sayıla bilər. Əlavə təlimat üçün bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 1: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu kontekstində cinsi mənsubiyyətlə əlaqədar təqib*, HCR/GIP/02/01, 7 may 2002-ci il, http://www.refworld.org/docid/3d36f1c64.html; BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 2: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu kontekstində "müəyyən sosial qrupa mənsubluq"*, HCR/GIP/02/02, 7 may 2002-ci il, http://www.refworld.org/docid/3d36f23f4.html. BMT-nin İşgəncələrə Qarşı Komitəsinin bildirdiyinə görə, zorlama, məişət zorakılığı və insan alveri kimi cinsi mənsubiyyətə əsaslanan zorakılıq hallarına müdaxilə edərək onları dayandırmaq, cəzalandırmaq və qurbanları hüquqi müdafiə vasitəsi ilə təmin etmək üçün dövlət tərəfindən lazımi səy göstərilməməsi qeyri-dövlət subyektlərinin belə hərəkətləri cəzasız qalmaqla törətmələrini asanlaşdırır və buna şərait yaradır. Dövlətin etinasızlığı və ya hərəkətsizliyi belə hərəkətləri törətməyə həvəsləndirmə və (və ya) *de fakto* icazə vermə kimi qəbul edilə bilər. Bax: BMT-nin İşgəncələrə Qarşı Komitəsi, *2 saylı ümumi şərh: İştirakçı dövlətlər tərəfindən 2-ci maddənin icrası*, CAT/C/GC/2, 24 yanvar 2008-ci il, http://www.refworld.org/docid/47ac78ce2.html.

[365] Mərkəzi Kəşfiyyat İdarəsinin *"Ümumdünya faktlar məcmuəsi"ndəki* hesablamaya əsasən, əhalinin 96,4 faizi müsəlmanlardır, bunlardan 85-90 faizi sünnilər, 10-15 faizi isə şiələrdir. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi, *Ümumdünya faktlar məcmuəsi: Pakistan – Əhali və cəmiyyət* (məlumatların son yenilənmə tarixi: 27 oktyabr 2016-cı il), https://www.cia.gov/library/publications/the-world-factbook/geos/pk.html. 1998-ci il siyahıyaalmasının məlumatlarına əsasən, əhalinin 95 faizi müsəlman olduğunu bildirib. Bu 95 faizdən 75 faizi sünni, 25 faizi isə şiə olduğunu bildirib. ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html. "Pakistan dünyada ən çox sayda şiə icması olan ikinci ölkədir və yalnız İrandan geri qalır. Hətta bu göstərici ilə də, şiələr Pakistan əhalisinin yalnız 15%-ini təşkil edirlər. Onların çoxu Pəncabda yaşayır, daha azsaylı icmaları isə Heydərabad, Kəraçi və Peşəvərdə yaşayırlar və onların mütləq əksəriyyəti tayfa ərazilərində məskunlaşıblar". İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-we-do/reports/human-rightsreports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 8. Həmçinin bax: eyni mənbə, səh. 14.

[366] AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il, http://www.refworld.org/docid/53c63d930.html, səh. 1; HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 9, bu mənbədə aşağıdakı mənbəyə istinad edilir: "*The Express Tribune*" qəzeti, *Xəzərlər kimlərdir?* 5 oktyabr 2011-ci il, http://tribune.com.pk/story/267225/who-are-the-hazara/. İslamın şiə və sünni təriqətlərinə bölünməsinin tarixi Məhəmməd peyğəmbərin vəfat etdiyi və müsəlman icmasına kimin rəhbərlik etməli olduğu barədə sualın ortaya çıxdığı dövrə gedib çıxır. About.com saytı, *Şiə və sünni müsəlmanlar arasında fərq nədədir?* 1 dekabr 2015-ci il, http://islam.about.com/cs/divisions/f/shia_sunni.htm; AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il, http://www.refworld.org/docid/53c63d930.html, səh. 1; Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası, *Pakistan: Şiə müsəlmanlar sünnilərdən nə ilə fərqlənir; Xüsusən Lahorda və Multanda şiələrə qarşı rəftar; Şiə müsəlmanlara qarşı zorakılıqlara hökumətin reaksiyası (2010-dekabr 2013)*, 9 yanvar 2014-cü il, PAK104713.E, http://www.refworld.org/docid/52eba0284.html.

[367] Məlumatlara əsasən təriqət zəminində şiələrə qarşı yönələn hücumların sayı 2008-2011-ci illərin 33 faizlik göstəricisi ilə müqayisədə 2012-2015-ci illərdə təxminən iki dəfə artaraq 62 faizə çatıb. Terrorizmlə bağlı Cənubi Asiya Portalı və Münaqişələrin Nizamlanması İnstitutu, *Pakistanda 2001-ci ildən bəri qətlə yetirilən şiələr*, 7 avqust 2016-cı il, http://www.satp.org/satporgtp/countries/pakistan/database/Shias_killed_Pakistan.htm; Terrorizmlə bağlı

2015-ci il ilədək olan dövrdə şiələrə qarşı irəli sürülən küfr iddiaları "əhəmiyyəti dərəcədə artıb" (III.B bölməsinə bax: "Cinayət məcəlləsi: Küfr əleyhinə qanunvericilik").[368] Məlumatlara görə yaraqlı ekstremist sünni qruplar[369] şiələrə "kafir", "allahsız" və "dinə dönük çıxanlar" kimi baxır və onların ölümlə cəzalandırılmalı olduğunu hesab edirlər.[370] Məlumatlara əsasən şiələr cəzasızlıq şəraitində hərəkət edən yaraqlı qrupların təriqət zəminində törətdikləri amansız hücumlara məruz qalırlar.[371] Məlumatlarda bildirilir ki, xəzər mənşəli şiələrin müdafiəsiz durumu onları bu hücumların qarşısında daha əlverişsiz vəziyyətdə qoyur ki, bu da təriqət zəmində törədilən zorakılıqların və hücumların şiə qurbanları arasında faiz göstəricisinə görə xəzərlərin daha çox olmasında özünü göstərir.[372] Nəticədə xəzər mənşəli şiələr, məlumatlara

---

Cənubi Asiya Portalı və Münaqişələrin Nizamlanması İnstitutu, *Pakistanda təriqət zəminində zorakılıqlar: 1989-2015*, 7 avqust 2016-cı il, http://www.satp.org/satporgtp/countries/pakistan/database/sectkilling.htm. Həmçinin bax: "Təriqət zəminində zorakılıq törədən ekstremist qrupların hücumları şiələrin ibadət etdikləri binaları, dini toplantılarını və dini liderlərini hədəfə alıb ki, bu da [2015-ci] il ərzində yüzlərlə insanın ölümü ilə nəticələnib. Şiələrə qarşı hücumlarla bağlı açıq məlumat bazasında yer alan informasiyalara əsasən, ölkə boyu ayrı-ayrı 38 hücumda 251 nəfər qətlə yetirilib və 316 nəfər xəsarət alıb". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 47-48; PSAİ, *Pakistanın təhlükəsizliyi ilə bağlı hesabat (2015): Daxili təhlükəsizlik sxemi (2015)*, yanvar 2016-cı il, http://pakpips.com/downloads/282.pdf, səh. 7, 20-21, 28; "Müdafiəni təmin etmək vəzifəsi üzrə qlobal mərkəz", *Pakistan: Pakistanda təriqət zəminində davamlı hücumlar mülki şəxsləri potensial olaraq dəhşətli kütləvi cinayətlərə məruz qalma riski ilə üz-üzə qoyur*, 15 avqust 2015-ci il, http://www.globalr2p.org/regions/pakistan; İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-we-do/reports/human-rightsreports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 14; "Qlobal səslər" (*Global Voices*) qrupu, *Şiələrə qarşı qətllərin artması qarşısında hökumətləri susduğu bir zamanda bu pakistanlılar səslərini ucaldırlar*, 2 mart 2015-ci il, https://globalvoices.org/2015/03/02/with-thegovernment-silent-on-shia-killings-pakistani-activists-raise-their-voice/; AHBQ, *Təhlükəsizlik axtarışı: Pakistanda dini azlıq icmalarının marginallaşdırılmasının güclənməsi*, 9 dekabr 2014-cü il, http://www.refworld.org/docid/556eaaf24.html, səh. 19.

[368] Cinna İnstitutu, *2012-2015-ci illərdə Pakistanda şiə icmasına qarşı zorakılıqlar*, iyun 2015-ci il, http://jinnah-institute.org/violence-against-theshia-community-in-pakistan-2012-2015/.

[369] Məlumatlara əsasən Pakistanda şiələrə qarşı hücumların çoxuna görə məsuliyyət daşıyan yaraqlı qruplar bunlardır: "Sipahi-Səhabə" (SS), "Ləşkəri-Çəngvi" (LC), "Təhriki-Taliban Pakistan" (TTP) və TTP ilə sıx əlaqəli olan "Cundulla". Həmçinin V.3.b bölməsinə bax: "Qeyri-dövlət subyektləri tərəfindən şiə şəxslərə qarşı rəftar".

[370] Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 3016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 49-50; HRW, *Xəbərlər: Xəzər mənşəli Pakistan şiələri mühasirə vəziyyətində*, 6 oktyabr 2014-cü il, https://www.hrw.org/news/2014/10/06/dispatches-pakistans-shia-hazara-under-siege; HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 11, 14-15; AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il, http://www.refworld.org/docid/53c63d930.html, səh. 1.

[371] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; "Müdafiəni təmin etmək vəzifəsi üzrə qlobal mərkəz", *Pakistan: Pakistanda təriqət zəminində davamlı hücumlar mülki şəxsləri potensial olaraq dəhşətli kütləvi cinayətlərə məruz qalma riski ilə üz-üzə qoyur*, 15 avqust 2015-ci il, http://www.globalr2p.org/regions/pakistan; HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 4-5, 9-18.

[372] AHBQ, *Xəzər mənşəli Pakistan şiələri*, oktyabr 2016-cı il, http://stories.minorityrights.org/pakistan-religious-minorities/chapter/212/. "Hücumlar qarşısında olduqca müdafiəsiz durumda olan və hökumət tərəfindən çox məhdud dərəcədə müdafiə edilən qrup xəzər mənşəli Pakistan şiələridir, onlar ən çox nəzərə çarpan etnik azlıq qrupu kimi dini əqidələrinə görə təriqətlərarası ayrı-seçkiliyə məruz qalırlar. Əsasən Kvettada (Bəlucistan əyaləti) yaşayan xəzərlərin son illərdə LC və TTP kimi yaraqlı sünni qrupların hədəfinə çevrilməsi halları artıb". AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2016 – Pakistan*, 12 iyul 2016-cı il, http://www.refworld.org/docid/5796082215.html. Xəzərlər dillərinə və sifət cizgilərinə görə digərlərindən seçilən etnik qrupdur. "Human Rayts Votç" təşkilatı məlumat verir ki, 2013-cü ildə qətlə yetirilmiş şiələrin təxminən yarısı xəzərlərdir. HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 2. Həmçinin bax: "*Foreign Policy Journal*" jurnalı, *"İslam Dövləti" qruplaşmasının dövründə şiə xəzərlərin qətlə yetirilməsi*, 9 yanvar 2015-ci il, http://www.foreignpolicyjournal.com/2015/01/09/stemming-shia-hazara-killings-in-the-islamic-state-era/; "Əl-

görə, daim qorxu içərisində yaşayırlar,[373] hücumlara məruz qalma riski onların hərəkət azadlığını və müvafiq olaraq, yaşayış üçün gəlir əldə etmək və təhsil almaq imkanlarını ciddi şəkildə məhdudlaşdırır.[374]

### *a) Pakistanda şiə şəxslərin vəziyyəti*

Hökumət şiə müsəlmanları hücumlardan müdafiə etmədiyinə və Pakistanda sünnilərə qarşı törədilən amansız hücumları araşdırmamaqla və təqsirkarları məsuliyyətə cəlb etməməklə yaraqlıların təşkilatlarının cəzasızlıq şəraitində fəaliyyət göstərmələrinə imkan verdiyinə görə tənqid edilir.[375] Bəzi situasiyalarda regional hakimiyyət orqanları tərəfindən şiələr üçün əlavə

---

Cəzirə" telekanalı, *Pakistanlı xəzərlər: Bu, həbsxana həyatına bənzəyir"*, 14 dekabr 2014-cü il, http://www.aljazeera.com/humanrights/2014/12/pakistan-hazara-it-likeliving-jail-2014123114655754509.html.

[373] Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 48-50. "Cəzasızlıq ənənəsi Kvettanın xəzər icmasına mənəvi əzab verir, təhlükəsizliklə bağlı narahatlıqlar isə onları faktiki təcrid halına salıb. 2012-ci ildən bəri Kvetta xəzərləri öz fəaliyyətlərini xəzərlərin üstünlük təşkil etdikləri Marriabad və Xəzər qəsəbələrinin ətrafı ilə məhdudlaşdırmağa məcbur olublar. Nəticədə onların iqtisadi çətinlikləri artıb, məktəblərə təhlükəsiz gediş-gəliş imkanları azalıb və hərəkət azadlıqları ciddi şəkildə məhdudlaşıb". HRW, *Pakistan şiələri hücumların hədəfində*, 7 iyul 2014-cü il, https://www.hrw.org/news/2014/07/07/pakistans-shia-underattack. Xəzər mənşəli bir şiə "Human Rayts Votç" təşkilatına bildirdi ki, "hazırda öz ərazimizdən kənara yollanmağımız olduqca təhlükəlidir. Əgər bunu etsək, həyatlarımız üçün böyük təhlükə yaranar. Əvvəllər bizlərdən biznes işləri üçün Kvettaya getmək istəyənlərin çoxu adətən avtobusla hərəkət edirdi. Amma indi biz avtobuslara minməkdən vaz keçirik, çünki bu çox risklidir. Biz hava nəqliyyatı ilə hərəkət etmək məcburiyyətindəyik, bu isə çox bahalıdır. Bu səbəblərdən biz hədsiz dərəcədə əziyyət çəkirik". Xəzər mənşəli digər bir şiə isə bildirdi ki, "Xəzər qəsəbəsindən kənara çıxmağımız faktiki olaraq mümkün deyil və əgər bunu etsək, bu, həyatımız üçün baha başa gələr". HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 42. Həmçinin bax: "*Foreign Policy Journal*" jurnalı, *"İslam Dövləti" qruplaşmasının dövründə şiə xəzərlərin qətlə yetirilməsi*, 9 yanvar 2015-ci il, http://www.foreignpolicyjournal.com/2015/01/09/stemming-shia-hazara-killings-in-the-islamic-state-era/; AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il, http://www.refworld.org/docid/53c63d930.html, səh. 1.

[374] "Kvettada (Bəlucistan əyaləti) şiə məzhəbli xəzər etnik azlığının üzvləri ayrı-seçkiliklə və zorakılıq təhdidləri ilə üzləşməkdə davam edirlər. Mətbuatın və digər mənbələrin məlumatlarına əsasən onlar Kvettada xəzərlərin məskunlaşdığı iki anklavdan kənara sərbəst çıxa bilmirlər. Həmin anklavlarda istehlak mallarını yalnız yüksək qiymətlərlə almaq olar və xəzərlər bildirirlər ki, işə düzəlmək və ya ali təhsil almaq imkanına malik deyillər. Olar həmçinin iddia edirlər ki, dövlət orqanları şəxsiyyət vəsiqələrinin və pasportların verilməsində xəzərlərə qarşı ayrı-seçkiliyə yol verirlər. Zorakılıq insidentlərinin baş verməsindən yayınmaq üçün dövlət orqanları şiələr tərəfindən dini mərasimlərin keçirilməsini xəzər anklavları ilə məhdudlaşdırırlar". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html. Həmçinin bax: Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 48-50. Pakistandakı xəzər mənşəli şiələrlə əlaqədar olaraq "Human Rayts Votç" təşkilatı məlumat verir ki, "səfərə çıxmaq, alış-verişə yollanmaq, məktəbə gedib-gəlmək, işə getmək üçün heç bir təhlükəsiz marşrut yoxdur". HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 5.

[375] CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 15-ci bənd. "*The Nation*" qəzeti, *Dövlət soyqırım zorakılıqları ilə barışdığına görə Pakistanda şiələrin təqibi spiralvarı qaydada davam edir*, 22 fevral 2016-cı il, http://nation.com.pk/blogs/22-Feb-2016/shia-persecution-continues-to-spiral-in-pakistan-as-the-state-acquiesces-to-genocidal-violence; HRW, *2016-cı il üçün dünya üzrə hesabat – Pakistan*, 27 yanvar 2016-cı il, http://www.refworld.org/docid/56bd99299.html; Beynəlxalq Amnistiya Təşkilatı, *Pakistan: Karaçidə ismaili məzhəbli şiə müsəlmanlara hücum "cəzasızlıq mühitinin" nəticəsidir*, 13 may 2015-ci il, http://www.refworld.org/docid/5555c2bb4.html; BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, 10 mart 2015-ci il, http://www.refworld.org/docid/552cd9bd24.html. İnsan hüquqlarının müdafiəçisi Əli Rəza izah etdi ki, "şiələrin ən çox hədəfə alındığı şəhərlərə Karaçi, Kvetta və Peşəvər daxildir. Bunlar elə yerlərdir ki, hücumları həyata keçirənlər orada mühasirə vəziyyətində olan icmaya hüquq mühafizə orqanlarından qorxub-çəkinmədən asanlıqla hücum edə bilirlər. "*Pakistan Today*" qəzeti, *Xəzər mənşəli şiələrə qarşı bizim görə bilmədiyimiz soyqırım və bədxahlıqlar*, 6 iyun 2015-ci il, http://www.pakistantoday.com.pk/2015/06/06/national/hazara-shia-genocide-and-the-evils-we-dont-see/. Həmçinin bax: İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-

təhlükəsizlik tədbirləri görməyə cəhdlər edildiyinə baxmayaraq, şiələrin təhlükəsizliyi sahəsində vəziyyətin yaxşılaşmadığı bildirilir.[376] Bəlucistanın mülki hüquq mühafizə orqanları, məlumatlara görə, "ekstremistlərin hücumlarının və təriqətçilərin aqressivliyinin qarşısını almaqda köməksiz olduqlarını və bunu etmək iqtidarında olmadıqlarını" qeyd ediblər.[377] Məlumatlara əsasən hətta polis hadisə yerində olduqda belə, hücumları dayandırmaq iqtidarında olmur; təhlilçilər dövlət orqanlarının fəaliyyətini təsvir edərkən onların şiələrə qarşı zorakılıq və ayrı-seçkilik hallarına etinasız, səriştəsiz yanaşdıqlarını, yaxud hətta buna imkan yaratdıqlarını

---

ci il, http://www.ghrd.org/what-we-do/reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 14-15. "Xəzər mənşəli şiələrin sistematik olaraq qətlə yetirilməsində soyqırımın bütün əlamətləri nəzərə çarpsa da, bir-birini əvəzləyən Pakistan hökumətləri bu məsələyə bu cür baxmırlar". "*Foreign Policy Journal*" jurnalı, *"İslam Dövləti" qruplaşmasının dövründə şiə xəzərlərin qətlə yetirilməsi*, 9 yanvar 2015-ci il, http://www.foreignpolicyjournal.com/2015/01/09/stemming-shia-hazara-killings-in-the-islamic-state-era/. "İrandan Bəlucistan əyalətinin cənub-qərbindəki Taftan şəhərinə yollanan şiə zəvvarların avtobusuna [21 yanvar 2014-cü ildə] edilmiş hücum nəticəsində azı 22 zəvvar öldü, onlarla zəvvar isə yaralandı. Hökumət bu insidentlə bağlı hər hansı şübhəli şəxsi həbs etmədi. "Diplomat" jurnalı, *Pakistan şiələri hücumların hədəfində: Hökumət Bəlucistan şiələrinin qırğınının qarşısını almaq üçün hərəkət etmir*, 5 iyul 2014-cü il, http://thediplomat.com/2014/07/pakistans-shia-under-attack/. Pakistanın və Bəlucistanın hakimiyyət orqanları 2008-ci ildən bəri şiələrə qarşı hücumlarla əlaqəsi olan onlarla şübhəli şəxsi tutduqlarını iddia etsələr də, məlumatlara əsasən yalnız çox az sayda şəxslərə qarşı hər hansı cinayət ittihamı irəli sürülüb. HRW, *Pakistan şiələri hücumların hədəfində*, 7 iyul 2014-cü il, https://www.hrw.org/news/2014/07/07/pakistans-shia-underattack. Cəzasızlıq barədə iddialar yaraqlı ekstremist təşkilatların rəhbərlərinə da şamil olunur. "2002-ci ildən etibarən LC-nin əməliyyatlar üzrə rəhbəri Malik İshaq idi. O, çoxu şiələr olan 70-ə yaxın insanın həlak olması ilə nəticələnmiş 44-ə yaxın hücumda iştirak etməkdə təqsirləndirildi, amma barəsində heç vaxt ittiham hökmü çıxarılmadı və 40 halla əlaqədar irəli sürülmüş bütün ittihamlar üzrə bəraət aldı, iddia edildiyinə görə buna səbəb şahidlərə qarşı zorakılıq və təhdidlər və hakimlər arasında mövcud olan qorxu idi. İshaqın məsuliyyətə cəlb edilməsinin baş tutmaması Pakistanın cinayət ədliyyəsi sistemində ciddi qüsurlar olduğunu və bu qüsurlar nəticəsində cəzasızlığın çiçəkləndiyini ortaya çıxardı". HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 4. Məlumatlara əsasən Kvetta polis idarəsinin rəisi "Human Rayts Votç" təşkilatının nümayəndələrinə etiraf edib ki, polis "LC-nin ekstremist hücumları və zorakılıqları ilə mübarizədə hər hansı uğura nail olmayıb". Eyni mənbə, səh. 48. Şiələr HRW-yə dedilər ki, media və polis təqsirkarlar qismində yaraqlı qrupların üzvlərini göstərməyə meylli deyillər, bunun əvəzinə çox zaman hücum halları barədə reportaj və hesabatlarda məlumat verirlər ki, hücumlar "naməlum" və ya "kimliyi müəyyənləşdirilməyən" şəxslər tərəfindən törədilib. Eyni mənbə, səh. 49. Həmçinin eyni mənbənin 4, 13-16, 47-ci səhifələrinə bax. Məlumatlara əsasən 29 iyul 2015-ci ildə Malik İshaq və iki oğlu çoxsaylı qətl ittihamları əsasında tutularaq mühafizəçi polislər tərəfindən nəqliyyatla aparıldıqları zaman silahlı şəxslər mühafizəçi polislərə hücum etdikdən sonra Malik İshaqla oğulları polis tərəfindən qətlə yetiriliblər. "Müdafiəni təmin etmək vəzifəsi üzrə qlobal mərkəz", *Pakistan: Pakistanda təriqət zəminində davamlı hücumlar mülki şəxsləri potensial olaraq dəhşətli kütləvi cinayətlərə məruz qalma riski ilə üz-üzə qoyur*, 15 avqust 2015-ci il, http://www.globalr2p.org/regions/pakistan.

[376] Məlumatlara əsasən 2013-cü ilin iyununda Bəlucistanda yeni hökumət təşkil ediləndən bəri təhlükəsizlik qüvvələri Kvettada xəzər mənşəli şiələrin, habelə İrana səfər edən şiə zəvvarların təhlükəsizliyini bir qədər gücləndiriblər. Lakin 2014-cü ilin yanvarında İrandan qayıdan zəvvarları daşıyan avtobusa edilən və xəzər mənşəli 28 şəxsin ölümünə səbəb olan hücumdan sonra hökumət, məlumatlara görə, hadisəyə reaksiya olaraq daşıma xidmətini ittiham etdi. Eynilə, 2014-cü ilin yanvarında azı 24 şiə zəvvarın öldürüldüyü insidentə reaksiya olaraq hökumət bildirdi ki, quru yolla onların təhlükəsizliyini təmin etmək mümkün olmadığına görə zəvvarlar təyyarə və ya bərə də daxil olmaqla alternativ nəqliyyat növləri tapmalıdırlar. HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 4, 41. Həmçinin bax: PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcpweb.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 112.

[377] HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 47. Həmçinin bax: eyni mənbə, səh. 48-49. Məlumatlara əsasən Pakistan İnsan Hüquqları Komissiyasının sədri Asma Cahangir "Əl-Cəzirə" telekanalına deyib: "Xəzərlər ciddi təhdid altındadırlar. Belə görünür ki, təriqət düşmənçiliyi aparan qruplaşmalar Bəlucistanda dərin kök saldığına görə hökumət aciz durumdadır. Aydın məsələdir ki, onlara xarici və daxili qüvvələr dəstək verir. Bunun real sübutu yoxdur, amma ciddi əlamətləri var". "Əl-Cəzirə" telekanalı, *Pakistanlı xəzərlər: Bu, həbsxana həyatına bənzəyir"*, 14 dekabr 2014-cü il, http://www.aljazeera.com/humanrights/2014/12/pakistan-hazara-it-likeliving-jail-2014123114655754509.html.

bildiriblər.[378] Şiə şəxslər müdafiələrinin və təhlükəsizliklərinin daha yaxşı təmin olunmasını dövlət orqanlarından tələb edərək geniş etiraz aksiyaları keçiriblər.[379]

Kvettada xəzər icmasına qarşı yönələn 2013-cü ilin fevral hücumundan sonra Ali Məhkəmə iş qaldıraraq Bəlucistanın baş prokurorunu və baş vəkilini ifadə verməyə çağırdı, onlar digər məsələlərlə yanaşı mövcud situasiya ilə və dövlət orqanlarının bu hücuma reaksiyası ilə bağlı izahat verməli idilər.[380] Məlumatlara əsasən baş hakim İftixar Çoudri yazılı qərarında bu qənaətə gəldi ki, "hökumət insanları və onların əmlakını müdafiə etməkdə acınacaqlı uğursuzluğa məruz qalıb"; məlumatlara əsasən məhkəmə qərar çıxardı ki, zərərçəkənlərə dərhal kompensasiya ödənilsin və hökumət qanunçuluğu bərpa etmək üçün plan hazırlasın.[381]

### *b) Qeyri-dövlət subyektləri tərəfindən şiə şəxslərə qarşı rəftar*

Məlumatlara əsasən Pakistanda şiələrə qarşı hücumların çoxuna görə məsuliyyət daşıyan yaraqlı qruplar bunlardır: "Əhli-Sünnə Vəl Camaat" (ƏSVC) (əvvəlki adı "Sipahi-Səhabə" – SS),[382]

---

[378] "Bəlucistanda hökumətin və təhlükəsizlik qüvvələrinin istər baş verənlərlə barışmaları, istərsə də vahid strategiyaya malik olmamaları vəziyyətin yaxşılaşacağına ümidləri azaldır. Polisin və sərhədçilərin bütün şəhər boyu apardığı əməliyyatlar ən yaxşı halda ayrı-ayrı hallarla məhdudlaşır və sünni ekstremizminin təsirini azalda bilmir". "*Foreign Policy Journal*" jurnalı, *"İslam Dövləti" qruplaşmasının dövründə şiə xəzərlərin qətlə yetirilməsi*, 9 yanvar 2015-ci il, http://www.foreignpolicyjournal.com/2015/01/09/stemming-shia-hazara-killings-in-the-islamic-state-era/. "Pakistan hökumətinin bu zorakılıqlara reaksiyası təhlükəsizlik qüvvələrinin və digər dövlət orqanlarının personalının səriştəsizliyindən, etinasızlığından, yaxud da onlarla ekstremistlər arasında gizli sövdələşmənin olmasından xəbər verir. […] Pakistan mediası məlumat verib ki, hökumət 9 iyun [2014-cü il] qırğınından əvvəl qarşıdakı hücum barəsində kəşfiyyat orqanlarının xəbərdarlıqlarına əhəmiyyət verməmişdi". Məlumatlara əsasən daxili işlər naziri Çoudri Nisar Əli Xan həmin hücuma zəvvarların Kvetta ilə Hindistan sərhədi arasındakı yolla səfər etmələrini qadağan etməklə reaksiya verdi və dedi ki, yolun "tam təhlükəsizliyini" təmin etmək mümkün deyil. HRW, *Pakistan şiələri hücumların hədəfində*, 7 iyul 2014-cü il, https://www.hrw.org/news/2014/07/07/pakistans-shia-underattack. "Hökumətin [bu cür hücumları cilovlamaq iqtidarında olmaması] ilə bağlı ən "yumşaq" […] izahat ondan ibarətdir ki, dövlət və onun təhlükəsizlik qüvvələri öz vətəndaşlarının elementar təhlükəsizliyini təmin etmək bacarığına və imkanına malik deyil. […] Ən "sərt" izahat isə ondan ibarətdir ki, dövlətin bu işlərdə əli var". "Əl-Cəzirə" telekanalı, *Xəzər mənşəli Pakistan şiələri mühasirə vəziyyətində yaşayırlar*, 18 yanvar 2013-cü il, http://www.aljazeera.com/indepth/features/2013/01/2013117124512947691.html. Məlumatlara əsasən 2014-cü ilin noyabrında polis nəfəri həbsdə saxlanılan şiə müsəlmanı guya küfr xarakterli fikirlər söylədiyinə görə balta ilə qətlə yetirdi. ABŞBDAK, *2015-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 1 may 2015-ci il, http://www.refworld.org/docid/554b356077.html; Azad Avropa/Azadlıq Radiosu, *Pakistanlı polis əməkdaşı küfrdə şübhəli bilinən şəxsi balta ilə qətlə yetirdi*, 6 noyabr 2014-cü il, http://www.refworld.org/docid/548ea84215.html.

[379] "*Dawn*" qəzeti, *Xəzərlərin qətlləri ilə əlaqədar olaraq Kvettada etirazlar baş qaldırdı*, 8 iyun 2015-ci il, http://www.dawn.com/news/1186757; BBC, *Kvetta: Şiə xəzərlər Pakistanda bomba hücumunda ölənləri dəfn etməkdən imtina etdilər*, 18 fevral 2013-cü il, http://www.bbc.com/news/world-asia-21495975.

[380] Konstitusiyaya əsasən Pakistan Ali Məhkəməsi öz təşəbbüsü ilə "hər hansı təməl hüquqlardan birinə istinad etməklə ictimai əhəmiyyət daşıyan məsələ üzrə məcburi qüvvəyə malik qərarlar qəbul etmək səlahiyyətinə malikdir". Pakistan, *Pakistan İslam Respublikasının Konstitusiyası* (2015-ci ilin yanvarınadək olan dəyişikliklərlə), 10 aprel 1973-cü il, http://www.refworld.org/docid/47558c422.html, maddə 184.

[381] Məlumatlara əsasən "xəzər icması üzvlərini müdafiə etmək üçün daha ciddi tədbirlərin" görüldüyü barədə Bəlucistanın hakimiyyət orqanları tərəfindən sonradan təqdim edilmiş hesabata cavab olaraq Ali Məhkəmə bildirdi ki, "bu hesabat nəinki qeyri-qənaətbəxşdir, həm də dəhşətlidir". Həmçinin məlumatlara görə məhkəmə qeyd etdi ki, "ilkin ehtimala görə, ya kəşfiyyat orqanları öz vəzifələrinin icrasına səhlənkarlıqla yanaşırlar, ya da kəşfiyyat məlumatlarını polis və digər hüquq mühafizə orqanları ilə bölüşmürlər". HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 51. "Human Rayts Votç" təşkilatı 2014-cü ilin iyununda məlumat verdi ki, 2013-cü ilin dekabrında baş hakim İftixar Çoudri istefaya çıxdıqdan sonra bu qərarların icrasına nəzarət edilməyib. Bax: eyni mənbə, səh. 51.

[382] "Sipahi-Səhabə" (SS) qruplaşması 1985-ci ildə təşkil edilib və məlumatlara görə islamın sünni cərəyanını aqressiv surətdə təşviq edir. SS-in fəaliyyəti 2002-ci ildə Pakistanda qadağan edilib, amma ondan sonra o, "Əhli-Sünnə Vəl Camaat" (ƏSVC) adı ilə yenidən təşkil edilib, sonradan 2012-ci ildə sonuncunun fəaliyyəti də qadağan olunub. AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il, http://www.refworld.org/docid/53c63d930.html, səh. 2; HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 10.

"Ləşkəri-Çəngvi" (LC),[383] "Təhriki-Taliban Pakistan" (TTP)[384] və TTP ilə sıx əlaqəli olan "Cundulla". Təhlilçilər vurğulayırlar ki, təriqət zəminində mülki şəxslərə qarşı hücumlar xüsusən şiə icması üçün getdikcə artan təhlükə yaradır.[385] Məlumatlarda bildirilir ki, ən azı 2012-ci ildən bəri təriqət zəminində şiə qruplara qarşı yönələn zorakılıqların sayında artım baş verib[386] və bu hücumların hədəfi əsasən sıravi şiələr olublar.[387] Məlumatlara görə yaraqlı qruplar şiələrin kütləvi şəkildə yığışdığı ərazilərə, məsələn, məktəblərə, alış-veriş yerlərinə və bazarlara, eləcə də avtobuslara və digər nəqliyyat vasitələrinə hücumlar zamanı bomba partlayışı törədən intiharçılardan və qumbaralardan istifadə ediblər. Məlumatlarda deyilir ki, onlar İrana gedən və oradan qayıdan şiə zəvvarlara hücumlar edir, konkret olaraq ibadət vaxtlarında və dini bayramlar

---

383 "Ləşkəri-Cəngvi" (LC) qruplaşması, məlumatlara görə, Pakistanı sünni dövlətinə çevirmək məqsədi ilə SS hərəkatından ayrılmış qrup olaraq təşkil edilib. Təriqət zəminində zorakılıqlara səbəb olduğuna görə 2001-ci ildə LC-nin fəaliyyəti Pakistanda qadağan olunub. AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il, http://www.refworld.org/docid/53c63d930.html, səh. 2. Məlumatlara əsasən LC-nin çıxışları şiələrə və İrana qarşı yönəlib. "TTP Pakistanda hücumlarını gücləndirdikcə LC Bəlucistanda və ən əsası, dərin köklərə malik olduğu və öz başlanğıcını götürdüyü Pakistanın güclü və çiçəklənən Pəncab vilayətində onun əsas hərbi tərəfdaşına çevrilib. HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 3-4.

384 "Təhriki-Taliban Pakistan" (TTP) xüsusən Kəraçidə iki bomba partlayışına görə məsuliyyəti öz zərinə götürdüyü vaxtdan – 2013-cü ilin sonlarından etibarən şiə müsəlmanların məqsədyönlü qətlləri ilə əlaqələndirilir. AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il, http://www.refworld.org/docid/53c63d930.html, səh. 2; HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 11-12. TTP ilə sıx əlaqəli olan "Cundulla" qruplaşması da, məlumatlara görə, şiələrə qarşı hücumlar həyata keçirir və 2015-ci ildə şiələrə qarşı bir neçə hücuma görə məsuliyyəti öz üzərinə götürüb. Məlumatlara əsasən "Cundulla" 2014-cü ilin noyabrında "İslam Dövləti" qruplaşmasını dəstəkləməyi öhdəsinə götürüb. Ceymstaun Fondu, *Pakistanda "İslam Dövləti" qruplaşmasının artan nüfuzu təriqət zəminində zorakılıqlara rəvac verir*, 26 iyun 2015-ci il, http://www.refworld.org/docid/559d00ea4.html.

385 Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 47-51; "Müdafiəni təmin etmək vəzifəsi üzrə qlobal mərkəz", *Pakistan: Pakistanda təriqət zəminində davamlı hücumlar mülki şəxsləri potensial olaraq dəhşətli kütləvi cinayətlərə məruz qalma riski ilə üz-üzə qoyur*, 15 avqust 2015-ci il, http://www.globalr2p.org/regions/pakistan; TTMÖM, *Təhlükəsizliklə bağlı illik hesabat, yanvar – dekabr 2015-ci il*, http://crss.pk/wp-content/uploads/2010/07/CRSS-Annual-Security-Report-2015.pdf, səh. 53. Bəzi müşahidəçilər bildirirlər ki, son illər şiələrə qarşı hücumların sayında nəzərə çarpan artım baş verib və bunun səbəbi ən azı qismən ondan ibarətdir ki, "İslam Dövləti" qruplaşması Pakistanda öz mövcudluğunu bərqərar edib: "Əvvəllər şiələrə qarşı silahlı hücum kampaniyalarının başında "Sipahi-Səhabə", "Ləşkəri-Çəngvi" və "Cundulla" kimi qadağan olunmuş yaraqlı sünni qruplar dururdu və onların hamısı Taliban qruplaşmasının ölkədəki birliyi olan "Təhriki-Taliban Pakistan" (TTP) ilə sıx əlaqədə idi. Amma "İslam Dövləti" qruplaşmasının cihadçı Pakistan mühitinə gəlişi ilə şiələr əleyhinə zorakılıqların miqyasında genişlənmə baş verdi ki, bunun da səbəbi qismən təkfirçi cihad qruplarının qəti şəkildə anti-şiə mövqeyində olan "İslam Dövləti" ilə ittifaqa daxil olmasıdır". Ceymstaun Fondu, *Pakistanda "İslam Dövləti" qruplaşmasının artan nüfuzu təriqət zəminində zorakılıqlara rəvac verir*, 26 iyun 2015-ci il, http://www.refworld.org/docid/559d00ea4.html. Həmçinin bax: "*Foreign Policy Journal*" jurnalı, *"İslam Dövləti" qruplaşmasının dövründə şiə xəzərlərin qətlə yetirilməsi*, 9 yanvar 2015-ci il, http://www.foreignpolicyjournal.com/2015/01/09/stemming-shia-hazara-killings-in-the-islamic-state-era/.

386 Tədqiqatlar və təhlükəsizlik məsələlərinin öyrənilməsi mərkəzinin (TTMÖM) təqdim etdiyi rəqəmlər göstərir ki, 2103-cü ildən 2015-ci ilədək ümumilikdə təriqət zəminində şiələrə qarşı 530, o cümlədən xəzər mənşəli şiələrə qarşı 257 zorakılıq insidenti baş verib. Lakin TTMÖM qeyd edib ki, xəzər mənşəli şiələrə qarşı qeydə alınmış insidentlərin böyük əksəriyyəti (257-dən 206-sı) 2013-cü ildə baş verib. Tədqiqatlar və təhlükəsizlik məsələlərinin öyrənilməsi mərkəzi, *Təhlükəsizliklə bağlı illik hesabat, yanvar – dekabr 2015-ci il*, http://crss.pk/wp-content/uploads/2010/07/CRSS-Annual-Security-Report-2015.pdf, səh. 53.

387 "*Foreign Policy Journal*" jurnalı, *"İslam Dövləti" qruplaşmasının dövründə şiə xəzərlərin qətlə yetirilməsi*, 9 yanvar 2015-ci il, http://www.foreignpolicyjournal.com/2015/01/09/stemming-shia-hazara-killings-in-the-islamic-state-era/; HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 1. "Human Rayts Votç" təşkilatının Kəraçidə yerləşən Pakistan bölməsinin direktoru Əli Dayan Hassan "Əl-Cəzirə" telekanalına bildirib ki, "bu zorakılıqlar birtərəflidir. Mahiyyət etibarı ilə yaraqlı sünni qruplar – əsasən "Sipahi-Səhabə" və "Ləşkəri-Çəngvi" qruplaşmaları şiələri hədəfə alırlar və onların hədəfi gündəlik dolanacaqlarının arxasınca gedən sıravi şiələr olur. Hədəfə alınanlar yaraqlı qrupların üzvləri deyil, […] adi insanlardır". "Əl-Cəzirə" telekanalı, *Xəzər mənşəli Pakistan şiələri mühasirə vəziyyətində yaşayırlar*, 18 yanvar 2013-cü il,
http://www.aljazeera.com/indepth/features/2013/01/2013117124512947691.html.

dövründə, xüsusən müsəlmanların müqəddəs ayı olan məhərrəm ayında aşura mərasimi zamanı məscidləri hədəfə alırlar.[388] Həmçinin məlumatlara görə onlar şiə məzhəbli mütəxəssisləri və vəzifəli şəxsləri, o cümlədən həkimləri, vəkilləri, siyasətçiləri, tanınmış iş adamlarını və yerli ticarətçiləri hədəfə alırlar.[389]

Məlumatlarda bildirilir ki, əsasən təriqət zəminində şiələrə qarşı yönələn hücumların 2008-2011-ci illər üzrə sayını göstərən 714 rəqəmi ilə müqayisədə 2012-2015-ci illər üzrə sayı artaraq 1.270-ə çatıb.[390] Məlumatlara görə 2016-cı ilin yanvarından noyabrınadək təriqət zəminində

---

[388] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; "Müdafiəni təmin etmək vəzifəsi üzrə qlobal mərkəz", *Pakistan: Pakistanda təriqət zəminində davamlı hücumlar mülki şəxsləri potensial olaraq dəhşətli kütləvi cinayətlərə məruz qalma riski ilə üz-üzə qoyur*, 15 avqust 2015-ci il, http://www.globalr2p.org/regions/pakistan; PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 111-112, 135-136; "*The Express Tribune*" qəzeti, *300.000 əhali Bəlucistanı tərk edib: PİHK*, 15 oktyabr 2014-cü il, http://tribune.com.pk/story/775747/300000-people-have-left-balochistan-hrcp/; "Diplomat" jurnalı, *Pakistan şiələri hücumların hədəfində: Hökumət Bəlucistan şiələrinin qırğınının qarşısını almaq üçün hərəkət etmir*, 5 iyul 2014-cü il, http://thediplomat.com/2014/07/pakistans-shiaunder-attack/; HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 38-40; AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il, http://www.refworld.org/docid/53c63d930.html, səh. 2; PSAİ, *Pakistanın təhlükəsizliyi ilə bağlı hesabat (2014)*, http://pakpips.com/annual_report.php.

[389] "[21 mart 2015-ci ildə] naməlum qatillər Qurcanvalada ilahiyyatçı alim Seyid Məzahir Əli Buxarini qətlə yetirdilər. [27 fevral 2015-ci ildə] Kəraçinin Orangi qəsəbəsində naməlum qatillər şiə məzhəbli xəstəxana işçisini güllələyib öldürdülər. [9 may 2015-ci ildə] naməlum silahlı şəxslər Kəraçinin Şimali Nazimabad rayonunda şiə məzhəbli homeopat həkim Ənvər Əli Abidini güllələdilər. [28 avqust 2015-ci ildə] qatillər Kəraçinin Gülşəni-İqbal rayonunda şiə vəkil Seyid Əmir Heydər Şahı öz avtomobilində qətlə yetirdilər". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Həmçinin bax: "*Pakistan Today*" qəzeti, *Xəzər mənşəli şiələrə qarşı bizim görə bilmədiyimiz soyqırım və bədxahlıqlar*, 6 iyun 2015-ci il, http://www.pakistantoday.com.pk/2015/06/06/national/hazara-shia-genocide-and-the-evils-we-dont-see/; PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcpweb.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 48, 58; "*Let Us Build Pakistan*" ("Gəlin Pakistanı quraq") bloqu, *Şiə həkimlərin soyqırımına dair məlumat bazası: Pakistanda 1 yanvar 2014-cü ildən 10 yanvar 2015-ci ilədək 18 şiə həkim məqsədyönlü şəkildə qətlə yetirilib*, 10 yanvar 2015-ci il, https://lubpak.com/archives/330424; AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il, http://www.refworld.org/docid/53c63d930.html, səh. 3; "Vaşinqton Post" qəzeti, *Pakistanda təriqət zəminində qətllər artır, bu isə onların regional səviyyədə yayılması qorxusunu yaradır,* 15 yanvar 2014-cü il, https://www.washingtonpost.com/world/sectarian-killings-soar-in-pakistan-raising-fears-of-regionalspillover/2014/01/15/14467cbc-7a1c-11e3-8963-b4b654bcc9b2_story.html.

[390] Qeydə alınmış ölüm hallarının illər üzrə bölgüsü belədir: 2012-ci ildə 399; 2013-cü ildə 504; 2014-cü ildə 116; və 2015-ci ildə 251 ölüm. Terrorizmlə bağlı Cənubi Asiya Portalı və Münaqişələrin Nizamlanması İnstitutu, *Pakistanda 2001-ci ildən bəri qətlə yetirilən şiələr*, 7 avqust 2016-cı il, http://www.satp.org/satporgtp/countries/pakistan/database/Shias_killed_Pakistan.htm; Terrorizmlə bağlı Cənubi Asiya Portalı və Münaqişələrin Nizamlanması İnstitutu, *Pakistanda təriqət zəminində zorakılıqlar: 1989-2015*, 7 avqust 2016-cı il, http://www.satp.org/satporgtp/countries/pakistan/database/sectkilling.htm. Bu mənbədə göstərilən 2013-cü ildən 2015-ci ilin oktyabrınadək baş vermiş insidentlər BMTQAK-ın digər ictimai mənbələri ilə tutuşdurulub. Cinna İnstitutu məlumat verir ki, 2012-ci ilin yanvarından 2015-ci ilin iyununadək "bomba partlayışlarının və məqsədyönlü hücumların sayı misli görünməmiş səviyyəyə çatıb, belə ki, 1.304 insan [şiələr] partlayışlar nəticəsində ölüb, 601 nəfər isə məqsədyönlü qətllərin qurbanı olub". Cinna İnstitutu, *2012-2015-ci illərdə Pakistanda şiə icmasına qarşı zorakılıqlar*, iyun 2015-ci il, http://jinnah-institute.org/violence-against-theshia-community-in-pakistan-2012-2015/. "Human Rayts Votç" təşkilatı 2012-ci ildə azı 450 şiənin, 2013-cü ildə isə azı 400 şiənin qətlə yetirildiyini qeydə alıb. HRW, *"Biz yeriyən ölülərik": Bəlucistanda (Pakistan) xəzər mənşəli şiələrin qətlə yetirilməsi*, 30 iyun 2014-cü il, http://www.refworld.org/docid/53b2748e4.html, səh. 1. AHBQ məlumat verir ki, şiələrə qarşı hücumlarla bağlı vətəndaş cəmiyyəti təşkilatları şəbəkəsi tərəfindən göstərilən rəqəmlər digər subyektlər tərəfindən göstərilənlərdən yüksəkdir, bunun səbəbi əsasən ondan ibarətdir ki, həmin vətəndaş cəmiyyəti təşkilatları yerli mediada barəsində məlumat verilməyən insidentləri qeydə alırlar. Məsələn, Beynəlxalq İmam Hüseyn Şurası 2013-cü ildə məqsədyönlü hücumlar və bomba partlayışları zamanı ümumilikdə 675 şiənin qətlə yetirildiyi, 1.061 nəfərin isə xəsarət aldığı barədə məlumat verib. AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il,

hücumlar zamanı 24 şiə qətlə yetirilib, üçü isə xəsarət alıb.[391] Şiələrə qarşı hücumların ölkənin bütün hissələrində baş verdiyi bildirilir.[392] Məlumatlara əsasən şiələrə qarşı nifrət yayan fikirlər

---

http://www.refworld.org/docid/53c63d930.html, səh. 2. Şiələrə qarşı 2015-ci ildə baş vermiş daha geniş hücumlar sırasına aşağıdakılar daxildir:

- 13 dekabr 2015-ci ildə şiələrin çoxluq təşkil etdiyi federal idarəçilikdə olan tayfa ərazisində – Kurram dairəsində, Paraçinarda yerləşən bazarda azı 23 şəxs qətlə yetirildi, azı 30 nəfər isə yaralandı. "*The Express Tribune*" qəzeti, *Paraçinardakı partlayışda azı 23 nəfər öldü, 30 nəfər xəsarət aldı*, 13 dekabr 2015-ci il, http://tribune.com.pk/story/1009233/four-dead-several-wounded-in-parachinar-blast/.
- 23 oktyabr 2015-ci ildə Cakobabadda (Sind əyaləti) aşura mərasimi zamanı bu dini mərasimin iştirakçılarını hədəfə almış intiharçının bomba hücumu zamanı azı 22 şiə öldü, 30 nəfər isə yaralandı. "Əl-Cəzirə" telekanalı, *Pakistanda intiharçının şiələri hədəfə almış bomba hücumunda ölənlər oldu*, 23 oktyabr 2015-ci il, http://www.aljazeera.com/news/2015/10/deadly-blast-hits-shia-ashura-procession-pakistan-151023155325944.html; "*BBC News*" telekanalı, *Pakistanda iğtişaş: Cakobabadda intiharçının bomba hücumunda dini mərasimdə iştirak edən şiələr həlak oldular*, 23 oktyabr 2015-ci il, http://www.bbc.com/news/world-asia-34622989.
- 13 may 2015-ci ildə yaraqlılar Kəraçidə ibadətə yollanan ismaili məzhəbli şiələrin avtobusuna hücum edərək azı 43 nəfəri öldürdülər, 13 nəfəri isə yaraladılar. BBC, *Pakistan: Silahlı şəxslər Kəraçidə ismaili məzhəbli şiələrin avtobusuna hücum zamanı 45 nəfəri qətlə yetirdilər*, 13 may 2015-ci il, http://www.bbc.com/news/world-asia-32717321; "*The Telegraph*" qəzeti, *Silahlı şəxslər Pakistanda avtobusa hücum zamanı 43 şiə müsəlmanı öldürdülər*, 13 may 2015-ci il, http://www.telegraph.co.uk/news/worldnews/asia/pakistan/11601832/Gunmen-kill-43-Shia-Muslims-on-Pakistan-bus.html.
- 13 fevral 2015-ci ildə Peşəvərdəki şiə məscidi bədənlərinə bomba bağlamış yaraqlıların hücumuna məruz qaldı, hücumda təxminən 19 nəfər öldü, 40 nəfər yaralandı. "Qardian" qəzeti, *Pakistanda ibadət zalında partlayışlar və odlu silah atəşləri*, 13 fevral 2015-ci il, http://www.theguardian.com/world/2015/feb/13/deadly-fighting-breaks-out-pakistan-mosque-peshawar.
- 30 yanvar 2015-ci ildə Sinddəki şiə məscidində insanlar ibadət üçün toplaşdıqları zaman bomba partladıldı, azı 40 nəfər öldü, 50 nəfər xəsarət aldı. BBC, *Pakistandakı Şikarpur şəhərində şiə məscidindəki partlayışda onlarla insan öldü*, 30 yanvar 2015-ci il, http://www.bbc.com/news/world-asia-31056086; BMT-nin Qaçqınların və vətəndaşlığı olmayan şəxslərin işləri üzrə xüsusi komitəsi, *BMT rəhbəri Pakistanın cənubunda şiə məscidinə qarşı ölümlə nəticələnmiş bomba hücumunu pislədi*, 30 yanvar 2015-ci il, http://www.refworld.org/docid/54d21e994.html.

[391] Bunlar 2016-cı ilin yanvarından 27 noyabr tarixinədək olan rəqəmlərdir. Terrorizmlə bağlı Cənubi Asiya Portalı və Münaqişələrin Nizamlanması İnstitutu, *Pakistanda 2001-ci ildən bəri qətlə yetirilən şiələr*, 27 noyabr 2016-cı il tarixinədək yenilənmiş məlumatlar, http://www.satp.org/satporgtp/countries/pakistan/database/Shias_killed_Pakistan.htm; Terrorizmlə bağlı Cənubi Asiya Portalı və Münaqişələrin Nizamlanması İnstitutu, *Pakistanda təriqət zəminində zorakılıqlar: 1989-2015*, 23 oktyabr 2016-cı il tarixinədək yenilənmiş məlumatlar, http://www.satp.org/satporgtp/countries/pakistan/database/sect-killing.htm.

[392] "Pakistanda şiələrə qarşı zorakılıqlar hazırda bütün ölkə ərazisində geniş yayılıb. Amma bu baxımdan Kvertta, Kəraçi, Kurram inzbati-ərazi vahidi, Gilgit-Baltistan və Dəra İsmayıl Xan kimi coğrafi məkanlar əsas qaynar nöqtələr olaraq qalır. Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 48; PSAİ, *Pakistanın təhlükəsizliyi ilə bağlı hesabat (2015): Daxili təhlükəsizlik sxemi (2015)*, yanvar 2016-cı il, http://pakpips.com/downloads/282.pdf, səh. 21-22, 28. Terrorizmlə bağlı Cənubi Asiya Portalının (TCAP) İnternet saytında 2013-cü ildən 2015-ci ilin oktyabrınadək bu ərazilərə edilmiş hücumlar sadalanır: Bolan, Kvetta, Çanqay və Mastunq (Bəlucistan əyaləti); Ravalpindi, Lahor, Qucanvala, Bhakkar və Maltan (Pəncab əyaləti); Peşəvər, Hanqu və Gilgit (Xeybər Paxtunxva əyaləti); Kəraçı, Cakobabad və Şikarpur (Sind əyaləti); Orazaki və Paraçinar (FİTƏ). 2013-cü ildən 2015-ci ilin oktyabrınadək baş vermiş insidentlər barədə TCAP-ın məlumatları BMTQAK tərəfindən digər ictimai mənbələrin məlumatları ilə tutuşdurulub. Bax: Terrorizmlə bağlı Cənubi Asiya Portalı və Münaqişələrin Nizamlanması İnstitutu, *Pakistanda 2001-ci ildən bəri qətlə yetirilən şiələr*, 25 oktyabr 2015-ci il, http://www.satp.org/satporgtp/countries/pakistan/database/Shias_killed_Pakistan.htm; Terrorizmlə bağlı Cənubi Asiya Portalı və Münaqişələrin Nizamlanması İnstitutu, *Pakistanda təriqət zəminində zorakılıqlar: 1989-2015*, 25 oktyabr 2015-ci il, http://www.satp.org/satporgtp/countries/pakistan/database/sect-killing.htm. Həmçinin bax: "Bu hücumların coğrafi məkanları da mühüm əhəmiyyət daşıyır, onlar göstərir ki, Pakistanda şiələrə qarşı son aylarda edilmiş hücumlar təriqət üzvlərinin məskunlaşdığı Kəraçi (Sind əyaləti) və Kvetta (Bəlucistan əyaləti) kimi ənənəvi məkanlardan kənara çıxaraq Xeybər Paxtunxva (məsələn, Peşəvər və Hanqu şəhərləri) və Pəncab (məsələn, İslamabad və Ravalpindi şəhərləri) əyalətləri və FİTƏ (məsələn, Kurram inzibati-ərazi vahidi) kimi geniş ərazilərə yayılıb, halbuki əvvəllər bu ərazilərdə təriqət zəminində zorakılıqlar o qədər də yayılmamışdı". Ceymstaun Fondu, *Pakistanda "İslam Dövləti" qruplaşmasının artan nüfuzu təriqət zəminində zorakılıqlara rəvac verir*, 26 iyun 2015-ci il, http://www.refworld.org/docid/559d00ea4.html.

cəmiyyətin bütün təbəqələri tərəfindən səsləndirilir.[393] Həmçinin məlumatlara görə ekstremist qruplar şiə şəxsləri qətlə yetirmək barədə açıq çağırışlar edir[394] və bu kimi metodlardan onlar arasında qorxu yaymaq və onları ölkəni tərk etməyə məcbur etmək üçüm istifadə edirlər.[395] Məsələn, məlumatlara əsasən 2013-cü ilin aprelində Xeybər Paxtunxvada "Ləşkəri-İslam" qruplaşmasına aid olduğu bildirilən broşür yayıldı, orada şiələrin on gün ərzində ərazini tərk etmələri tələb edilir və bu xəbərdarlığa əməl etməyəcəkləri təqdirdə şiələr bunun ciddi nəticələr doğuracağı ilə təhdid edilirdilər.[396]

Yuxarıdakıları nəzərə alaraq BMTQAK hesab edir ki, şiə icmasının üzvləri, hər bir konkret halın fərdi xüsusiyyətlərindən asılı olaraq, dini, etnik mənsubiyyətlərinə, (güman edilən) siyasi əqidələrinə və (və ya) digər müvafiq əsaslara görə qaçqın qismində beynəlxalq himayəyə ehtiyac duya bilərlər.[397]

---

393 CERD, *Pakistanın birləşdirilmiş 21-23-cü dövri məruzələrinə dair yekun qeydlər*, 3 oktyabr 2016-cı il, http://tbinternet.ohchr.org/_layouts/treatybodyexternal/Download.aspx?symbolno=CERD/C/PAK/CO/21-23&Lang=En, 15-ci bənd. "Kvettada şiələr əleyhinə divar yazıları adi hala çevrilib. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; Cinna İnstitutu, *Pakistanda din azadlığının vəziyyəti*, yanvar 2016-cı il, http://jinnah-institute.org/wp-content/uploads/2016/01/Minority-Report-2016.pdf, səh. 51-52. "Əhmədi icmasının nümunəsində olduğu kimi şiə icmasına qarşı nifrət də geniş yayılır və çap materiallarının yayılması və nifrətin təşviqinə yönələn ictimai kampaniyaların keçirilməsi vasitəsilə gücləndirilir ki, bu da bu icmalara qarşı hücumlara təkan verir". İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-we-do/reports/human-rights-reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 14. Məlumatlarda bildirilir ki, şiələr əleyhinə kampaniyalar məscidlərdə, məktəblərdə, ictimai yerlərdə aparılır və sosial mediada daha da genişlənir. *Facebook* kimi sosial media vasitəsi, məlumatlara əsasən, nifrəti təşviq edən və insanları zorakılığa təhrik edən fikirlərin yayılması üçün platformaya çevrilir; bəzi ekstremist qrupların, məlumatlara görə, öz saytları və profil səhifələri var ki, orada şiələrə qarşı zorakılıq kampaniyaları önə çəkilir. AHBQ, *"Hər şey məhv olur", – Pakistanda şiələrə qarşı zorakılıq səviyyəsinin artması*, 11 iyun 2014-cü il, http://www.refworld.org/docid/53c63d930.html, səh. 3.

394 "Şiələrə qarşı davamlı nifrət kampaniyası il boyu davam edib, o cümlədən bu kampaniya təbaşirlə divarlarda yazılan yazılar və ruhanilərin ifşaedici çıxışları vasitəsilə aparılıb, bu yazılarda və çıxışlarda onlar kafirlər adlandırılır və onları öldürməyə çağırışlar edilir". PİHK, *2013-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2014-cü il, http://www.hrcpweb.org/hrcpweb/report14/AR2013.pdf, səh. 87. 2011-ci ildə LC tərəfindən hazırlanmış və məlumatlara görə Kvettada yayılmış açıq məktubda deyilirdi: "*Bütün şiələr öldürülməyə layiqdirlər. Biz Pakistanı natəmiz adamlardan azad edəcəyik. Pakistan pak adamların torpağı deməkdir, şiələrin isə bu ölkədə yaşamaq haqqı yoxdur. Bizdə hörmətli alimlərin şiələri kafir elan etmiş fərman və imzaları var. Döyüşçülərimiz Əfqanıstanda şiə xəzərlərə qarşı uğurlu cihad apardıqları kimi, bizim də Pakistanda vəzifəmiz bu natəmiz təriqəti və onun ardıcıllarını Pakistanın hər bir şəhərindən, hər bir kəndindən və hər bir künc-bucağından yox etməkdir. Əvvəllər olduğu kimi, Pakistanda, konkret olaraq Kvettada xəzərlərə qarşı uğurlu cihadımız davam edir və gələcəkdə də davam edəcək. Biz Pakistanı şiələr üçün məzarlığa çevirəcəyik, atılan bombalar və intiharçıların bomba partlayışları onların evlərini dağıdacaq. Biz yalnız o zaman dinclik tapacağıq ki, pak insanların bu torpağında həqiqi islamın bayrağını dalğalandıra biləк. İndi şiə xəzərlərə qarşı cihad bizim borcumuza çevrilib*". "Asia Times" nəşri, *Pakistanda asanlıqla qan tökülür*, 5 oktyabr 2011-ci il, http://www.atimes.com/atimes/South_Asia/MJ05Df01.html.

395 "Media məlumatlarında qeyd edilir ki, azlıq təşkil edən təriqətlərə, xüsusən Bəlucistandakı xəzər icmasına mənsub olan bəzi ailələr Pakistanın daha təhlükəsiz hesab etdikləri iri şəhərlərinə köçməkdə davam edirlər". PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti: Düşüncə, vicdan və din azadlığı*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/wpcontent/uploads/2016/04/freedom-of-thought.pdf, səh. 12-13. Həmçinin bax: "Diplomat" jurnalı, *Pakistanda şiələrin soyqırımından xəbər verən ilkin əlamətlər*, 2 may 2014-cü il, http://thediplomat.com/2014/05/early-warning-signs-of-shiagenocide-in-pakistan/.

396 AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2015 – Pakistan*, 2 iyul 2015-ci il, http://www.refworld.org/docid/55a4fa494.html; İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-wedo/reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 14.

397 Dini səbəblərə görə sığınacaq üçün müraciətlə bağlı əlavə təlimat üçün bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər*, HCR/GIP/04/06, 28 aprel 2004-cü il, http://www.refworld.org/docid/4090f9794.html.

## *6. Sikhlər*

Pakistanda yaşayan sikhlərin sayı ilə bağlı göstərilən rəqəmlər 6.000-dən 20.000-dək dəyişir.[398] Sikhizmin banisi Quru Nanak müasir dövrdə Pakistan adlandırılan ölkədə doğulub və bu ölkə sikhizmin ən müqəddəs yerlərinin olduğu məkandır.[399] Məlumatlara görə sikh icmalarının çoxu Xeybər Paxtunxvada və federal idarəçilikdə olan tayfa ərazilərinin (FİTƏ) bir neçə inzibati-ərazi vahidində (tayfa rayonlarında), habelə Pəncabda yaşayırlar, sikhlərin toplum halında ən çox məskunlaşdıqları yerin Lahor olduğu bildirilir.[400]

### *a) Sikh şəxslərə dair qanunvericilik bazası*

Məlumatlara əsasən sikhlərin nikahının qeydiyyata alınması üçün milli hüquq mexanizmi yoxdur.[401] Bununla belə, 2016-cı ildə Sind əyalətinin qanunvericilik məclisi "Hinduların nikahı haqqında" 2016-cı il tarixli Sind qanununu qəbul edib, həmin qanun sikhlərə də şamil olunur.[402] 26 sentyabr 2016-cı ildə Milli Məclis "Hinduların nikahı haqqında" qanun layihəsini qəbul etdi,

---

[398] Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Din Azadlığı Komissiyasının avqust 2016-cı il tarixli hesabatına əsasən, 2014-cü ildə medianın istinad etdiyi hökumətin qeydiyyat sənədlərindəki məlumatlara görə ölkədə təxminən 6.000 sikh var. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Aşağıdakı mənbədə daha yüksək rəqəmlər göstərilir: SADAB, *Mənşə ölkəsi barədə məlumatlara dair məruzə – Pakistan: Ölkə barədə ümumi icmal*, avqust 2015-ci il, http://www.refworld.org/docid/55e061f24.html, səh. 94, bu mənbədə aşağıdakı mənbəyə istinad edilib: Dinlərarası harmoniya məsələləri üzrə dövlət naziri, *Avstriyanın sığınacaq və immiqrasiya işləri üzrə federal agentliyinin faktaraşdırıcı missiyasının apardığı müsahibə*, 15 mart 2013-cü il; həmçinin bax: "*The Express Tribune*" qəzeti, *Qarşılıqlı hörmət: Mədəni müxtəlifliyə dəyər verilməsi, dinlərarası harmoniyaya tələb olunur*, 8 avqust 2014-cü il, http://tribune.com.pk/story/745760/mutual-respect-appreciation-of-cultural-diversity-inter-faith-harmonyurged/.

[399] PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 124-125.

[400] SADAB, *Mənşə ölkəsi barədə məlumatlara dair məruzə – Pakistan: Ölkə barədə ümumi icmal*, avqust 2015-ci il, http://www.refworld.org/docid/55e061f24.html, səh. 94, bu mənbədə aşağıdakı mənbəyə istinad edilib: Dinlərarası harmoniya məsələləri üzrə dövlət naziri, *Avstriyanın sığınacaq və immiqrasiya işləri üzrə federal agentliyinin faktaraşdırıcı missiyasının apardığı müsahibə*, 15 mart 2013-cü il.

[401] 2016-cı ilin avqustunda ABŞBDAK məlumat verdi ki, "hinduların və sikhlərin nikahının dövlət tərəfindən qeydiyyata alınması üçün konkret hüquqi baza yoxdur, hərçənd ki, evli cütlüyün işləri üzrə yerli dini şura onlara hindu nikah sənədləri əsasında mülki nikah şəhadətnaməsi verə bilər". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. Qeyd edək ki, bu fikir "Hinduların nikahı haqqında" 2016-cı il tarixli Sind qanunu qəbul ediləndən öncə bildirilib. Məlumatlara əsasən 2008-ci ilin yanvarında prezident Müşərrəf "Sikhlərin nikahı haqqında" 2008-ci il tarixli qanunu təsdiq edib. Amma belə görünür ki, sikh icması həmin qanunun qəbulundan az sonra ona dəyişikliklər edilməsini tələb edib və görünür, bu qanun əsasında heç bir nikah qeydiyyata alınmayıb. "*Thaindian News*" portalı, *Pakistan sikhləri nikahlarını Müşərrəf tərəfindən təsdiq edilmiş qanun əsasında qeydiyyata aldırmaqdan imtina edirlər*, 15 aprel 2008-ci il, http://www.thaindian.com/newsportal/business/pakistani-sikhs-refuse-to-register-marriages-under-act-approved-bymusharraf_10038029.html.

[402] Pakistan, *Hinduların nikahı haqqında 2016-cı il tarixli Sind qanunu*, 15 fevral 2016-cı il, http://www.pas.gov.pk/index.php/acts/details/en/31/310. "Hinduların nikahı haqqında" 2016-cı il tarixli Sind qanununda "hindu" terminin belə anlayış verilir: "istənilən formada və ya qaydada induizm, caynizm və ya sikhizm dinlərinə etiqad edən istənilən şəxs". Bax: *eyni mənbə*, maddə 2(f). Məlumatlara əsasən Pakistan Sikh Şurası bu qanunun sikhlərə də şamil olunmasına etiraz edərək bildirib ki, sikhlər üçün ayrıca qanunun qəbul edilməsi daha məqsədəuyğundur. "*Daily Times*" qəzeti, *Nikahların qeydiyyatı haqqında qanun Sinddə azlıqlar arasında mübahisəyə səbəb oldu*, 17 iyun 2016-cı il, http://dailytimes.com.pk/sindh/17-Jun-16/marriage-registration-law-brings-disputewithin-minorities-in-sindh; "*The Express Tribune*" qəzeti, *Hindu icması yeni qanun layihəsini alqışlayır, sikhlər isə onun qəbulunu ayrı-seçkilik adlandırır*, 16 fevral 2016-cı il, http://tribune.com.pk/story/1047480/hindu-community-hails-new-bill-sikhs-call-it-discriminatory/. Məlumatlara əsasən "Hinduların nikahı haqqında" 2016-cı il tarixli Sind qanununun qüvvəsi geriyə şamil olunmaqla öncə evlənmiş cütlüklərin nikahlarının qeydiyyata alınmasına icazə verir. ABŞBDAK, *2016-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran 1-ci səviyyəli ölkələr sırasına aid edilməsi ABŞBDAK tərəfindən tövsiyə olunan ölkələr – Pakistan*, 2 may 2016-cı il, http://www.refworld.org/docid/57307ced15.html.

lakin "Hinduların nikahı haqqında" 2016-cı il tarixli Sind qanunundan fərqli olaraq bu qanunun müddəaları "sikhlərə" şamil olunmur.[403] (Əlavə təfsilatlar üçün bax: "Hindu şəxslərə dair qanunvericilik bazası " adlanan V.4(a) bölməsi və III.E bölməsi.)

### *b) Pakistanda sikh şəxslərin vəziyyəti*

Məlumatlara əsasən sikhlər yaraqlı qrupların məqsədyönlü hücumlarına məruz qalır və qətllə yetirilirlər; sikhlərin baş örtüyü (turban) onların tanınmasını asanlaşdırır və beləliklə də onları məqsədyönlü hücumların qarşısında müdafiəsiz vəziyyətə salır.[404] Sikh icmasının üzvləri, məlumatlara görə, bu cür məqsədyönlü hücumlara və hüquq mühafizə orqanlarının onları yetərli müdafiə ilə təmin etməməsinə, habelə bu halların araşdırılmamasına və təqsirkarların məsuliyyətə cəlb edilməməsinə qarşı etiraz aksiyaları keçirirlər (həmçinin IV bölməyə bax: "Pakistanda dini azlıqların vəziyyəti").[405] Məlumatlarda bildirilir ki, bəzi hallarda polis sikhlərə qarşı zorakılıqları qeydə almağa meyl göstərmir, ona görə ki, zorakılıqların yaraqlı qruplar tərəfindən törədildiyi iddia edilir.[406] Sikhlərin dövlətin yetərli müdafiəsinə güvənə bilməməsi, məlumatlara görə, sikh icması üzvlərinin gündəlik həyatının müxtəlif aspektlərinə öz təsirini göstərir, məsələn, məlumatlarda deyilir ki, bəzi sikhlər hücumlardan ehtiyat etdiklərinə görə uşaqlarını məktəbə göndərməməyi qərara alırlar.[407]

Nikahlarını qeydiyyata aldırmaq üçün hüquqi mexanizmlərə çıxış imkanı olmayan sikh qadınlar, məlumatlara görə, bunun mənfi nəticələrindən əziyyət çəkə bilərlər: nikahlarının etibarlılığını sübut edə bilmədikdə sikh qadınlar pasport ala bilmirlər və böyük ehtimalla ailə və vərəsəlik məsələlərində, əmlak əqdlərində, səsvermədə və səhiyyə xidmətlərinə çıxış əldə etməkdə çətinliklərlə üzləşə bilərlər.[408]

Məlumatlara əsasən sikh icmasının üzvləri dövlət tərəfindən sanksiyalaşdırılan ayrı-seçkiliyə məruz qalmaqda davam edirlər, məsələn, bu cür hal ali təhsilə buraxılma kontekstində baş

---

[403] Pakistan, *Hinduların nikahı haqqında 2016-cı il tarixli qanun*, http://www.na.gov.pk/uploads/documents/1474902799_197.pdf, maddə 1(3).

[404] "*Muslim Times*" qəzeti, *Pakistan sikhləri 73 ildən sonra məbədlərini açdılar, amma hücumlardan ehtiyat edirlər*, 28 aprel 2016-cı il, https://themuslimtimes.info/2016/04/28/pakistani-sikhs-open-temple-after-73-years-risking-attacks/; "*Dawn*" qəzeti, *Pakistanın azalmaqda olan sikh icması təhlükəsizliklərinin daha yaxşı qorunmasını istəyir*, 17 aprel 2015-ci il, http://www.dawn.com/news/1176521; PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 124; "Diplomat" jurnalı, *Sikhlərin qətlə yetirilməsi*, 30 sentyabr 2014-cü il, http://thediplomat.com/2014/09/the-killing-of-the-sikhs/; "*The Express Tribune*" qəzeti, *Soyuqqanlı hərəkət: Əyalət paytaxtında daha bir sikh hücuma hədəf oldu*, 7 sentyabr 2014-cü il, http://tribune.com.pk/story/758915/in-cold-blood-yet-another-sikh-targeted-inprovincial-capital/.

[405] Beynəlxalq Amnistiya Təşkilatı, *Beynəlxalq Amnistiya Təşkilatının 2014/2015-ci il hesabatı – Pakistan*, 25 fevral 2015-ci il, http://www.refworld.org/docid/54f07db215.html. Məlumatlara əsasən 2014-cü ilin avqustunda Peşəvərdə baş vermiş məqsədyönlü qətl aktına reaksiya olaraq sikh icmasının üzvləri hökumət tərəfindən müdafiələrinin təmin edilməməsinə etiraz etdilər və qətli törədənlərin tutulmasını tələb etdilər. "*Dawn*" qəzeti, *Silahlı şəxslər Peşəvər bazarında sikhlərə atəş açdılar, bir nəfər öldü*, 6 avqust 2014-cü il, http://www.dawn.com/news/1123648.

[406] "*Inter Press Service*" xəbər agentliyi, *Pakistan sikhləri "orta əsrlərin" dini təqibi ilə üzləşirlər*, 20 noyabr 2014-cü il, http://www.ipsnews.net/2014/11/pakistani-sikhs-back-in-the-dark-ages-of-religious-persecution/; "*The Express Tribune*" qəzeti, *Pakistanlı qeyri-müsəlman olmağın həyat üçün təhlükəliliyi*, 30 avqust 2014-cü il, http://tribune.com.pk/story/755479/the-insecurity-of-life-as-a-pakistani-non-muslim/. Həmçinin 146-cı mətnaltı qeydə bax.

[407] "*Dawn*" qəzeti, *Pakistanın azalmaqda olan sikh icması təhlükəsizliklərinin daha yaxşı qorunmasını istəyir*, 17 aprel 2015-ci il, http://www.dawn.com/news/1176521; PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 124-125; "Röyters" agentliyi, *Tarixi vətənlərində pakistanlı sikhlər daimi təhdid altında yaşayırlar*, 3 oktyabr 2014-cü il, http://in.reuters.com/article/2014/10/03/pakistan-sikh-idINKCN0HS0Z520141003; "Diplomat" jurnalı, *Sikhlərin qətlə yetirilməsi*, 30 sentyabr 2014-cü il, http://thediplomat.com/2014/09/the-killing-of-the-sikhs/; "*The Express Tribune*" qəzeti, *Soyuqqanlı hərəkət: Əyalət paytaxtında daha bir sikh hücuma hədəf oldu*, 7 sentyabr 2014-cü il, http://tribune.com.pk/story/758915/in-cold-blood-yet-another-sikh-targeted-inprovincial-capital/.

[408] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

verir.[409] 2015-ci ilin sentyabrında sikh icması, məlumatlara görə, seçki sistemindəki qeyri-bərabərliyə və azlıqlara mənsub olan qadınların seçkiyə qatılmasının qarşısının alınmasına etiraz edərək Sind əyalətində yerli hakimiyyət orqanına seçkiləri boykot etdi.[410]

### *c) Qeyri-dövlət subyektləri tərəfindən sikh şəxslərə qarşı rəftar*

Məlumatlarda bildirilir ki, sikhlər məqsədyönlü hücumlara, girovpulu almaq məqsədi ilə uşaqların və böyüklərin oğurlanması və yaraqlı könüllülər və silahlı qruplaşmalar tərəfindən qətlə yetirilmə hallarına məruz qalırlar.[411] Məlumatlara əsasən 2016-cı ilin aprelində sikh lideri və əyalət deputatı olan şəxs Xeybər Paxtunxvada ucqar ərazidə yerləşən evinin yaxınlığında öldürüldü.[412] Həmçinin məlumatlara görə sikhlər yaraqlı qruplaşmaların nəzarət etdiyi ərazilərdə

---

[409] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html. "Sikh liderləri dedilər ki, bəzi hallarda sikh tələbələrin Köçənlərin Mülkiyyətinin Etibarnaməli İdarəçiləri Şurasından icazə sənədi almaları tələb olunur, bu isə, onların dediyinə görə, uzun prosesdir və sikhləri ali təhsil dalınca getməkdən vaz keçməyə vadar edir". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html.

[410] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html.

[411] "[2014-cü il] ərzində silahlı şəxslər çoxlu sikhləri hədəfə alıb və qətlə yetiriblər. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html. "İnsan Hüquqlarının Qlobal Müdafiəsi" adlı qeyri-hökumət təşkilatının bildirdiyinə görə, "adətən sikh icmasına qarşı zorakılıqların az qismi barədə məlumat verilir. Sikhlərlə pis rəftar edilməsinin üstünlük təşkil edən metodlarına bunlar daxildir: adam oğurluğu, fiziki zorakılıq və naməlum cinayətkarlar tərəfindən qətlə yetirilmə. Oğurluq halları baş verərkən əsassız girovpulu tələbləri irəli sürülür və ailə pul ödəməkdən imtina edəcəyi təqdirdə qurbanların öldürüləcəyi ilə hədələnir. 2014-cü ildə Xeybər Paxtunxvada adam oğurluqları nəticəsində çoxlu sayda sikh öldürülüb". İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-wedo/reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 15-16. Həmçinin bax: PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, sh. 124-125. Məlumatlara əsasən 6 sentyabr 2014-cü ildə naməlum hücumçular Harcit Sinqhi Peşəvərdəki dükanında güllələyib öldürdülər. 6 sentyabr 2014-cü il, http://newsweekpakistan.com/sikh-shopkeeper-killed-in-peshawar/. Məlumatlara görə 5 avqust 2014-cü ildə naməlum şəxslər Peşəvərdəki bazar ərazisində olan sikh şəxslərə atəş açaraq birini öldürdülər, digərini yaraladılar. "*Dawn*" qəzeti, *Peşəvər bazarında silahlılar sikh şəxslərə atəş açdılar, bir nəfər öldü*, 6 avqust 2014-cü il, http://www.dawn.com/news/1123648. 23 yanvar 2014-cü ildə iki silahlı şəxs sikh mənşəli mağaza sahibi Baqvan Sinqhi evə getdiyi zaman öldürdülər. "*The Express Tribune*" qəzeti, *Günün günorta çağında qətl: Ayrı-ayrı hücumlarda ruhani və sikh güllə ilə öldürüldülər*, 23 yanvar 2014-cü il, http://tribune.com.pk/story/662202/in-broad-daylight-cleric-sikh-gunned-down-in-separateattacks/. Həmçinin bax: "*Inter Press Service*" xəbər agentliyi, *Pakistan sikhləri "orta əsrlərin" dini təqibi ilə üzləşirlər*, 20 noyabr 2014-cü il, http://www.ipsnews.net/2014/11/pakistani-sikhs-back-in-the-dark-ages-of-religious-persecution/; "Röyters" agentliyi, *Tarixi vətənlərində pakistanlı sikhlər daimi təhdid altında yaşayırlar*, 3 oktyabr 2014-cü il, http://in.reuters.com/article/2014/10/03/pakistan-sikh-idINKCN0HS0Z520141003; "Diplomat" jurnalı, *Sikhlərin qətlə yetirilməsi*, 30 sentyabr 2014-cü il, http://thediplomat.com/2014/09/the-killing-of-the-sikhs/; "*The Express Tribune*" qəzeti, *Soyuqqanlı hərəkət: Əyalət paytaxtında daha bir sikh hücuma hədəf oldu*, 7 sentyabr 2014-cü il, http://tribune.com.pk/story/758915/in-cold-blood-yet-another-sikh-targeted-inprovincial-capital/; "*The Express Tribune*" qəzeti, "*The Express Tribune*" qəzeti, *Pakistanlı qeyri-müsəlman olmağın həyat üçün təhlükəliliyi*, 30 avqust 2014-cü il, http://tribune.com.pk/story/755479/the-insecurity-of-life-as-a-pakistani-non-muslim/. "*The Express Tribune*" qəzeti, *Məqsədyönlü qətllər: Yeniyetmə sikh güllə ilə qətlə yetirildi*, 7 avqust 2014-cü il, http://tribune.com.pk/story/745434/targeted-killing-sikh-teenager-shot-dead/. AHBQ məlumat verdi ki, "2014-cü ildə adətən Pakistanda az hallarda ciddi ayrı-seçkiliyin təsirinə məruz qalan zikrilər və sikhlər kimi dini azlıqlara qarşı da amansız hücumlar müşahidə edildi". AHBQ, AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2015 – Pakistan*, 2 iyul 2015-ci il, http://www.refworld.org/docid/55a4fa494.html. TTMÖM məlumat verir ki, 2015-ci ildə təriqət zəminində törədilən zorakılıqlar nəticəsində ölənlər arasında sikhlər yoxdur, 2014-cü ildə üç, 2013-cü ildə isə bir sikh öldürülüb. TTMÖM, *Təhlükəsizliklə bağlı illik hesabat, yanvar – dekabr 2015-ci il*, http://crss.pk/wpcontent/uploads/2010/07/CRSS-Annual-Security-Report-2015.pdf, səh. 53.

[412] "*Muslim Times*" qəzeti, *Pakistan sikhləri 73 ildən sonra məbədlərini açdılar, amma hücumlardan ehtiyat edirlər*, 28 aprel 2016-cı il, https://themuslimtimes.info/2016/04/28/pakistani-sikhs-open-temple-after-73-years-risking-attacks/; "*Hindu Post*" nəşri, *Pakistanda sikh lideri güllələnərək öldürüldü*, 27 aprel 2016-cı il,

cizyə (islam qanunlarının qüvvədə olduğu ərazilərdə yaşayan qeyri-müsəlmanlardan tutulan vergi) ödəməyə məcbur edilirlər.[413] Məlumatlara əsasən cizyəni ödəyə bilməyənlər qətlə yetirilmə riski ilə üzləşirlər.[414]

Sikhlərin ibadət yerləri və məzarlıqları, məlumatlara görə, yaraqlı qruplar tərəfindən qanunsuz zəbt olunur və təhqir edilir.[415] Məlumatlarda bildirilir ki, bəzi hallarda təhlükəsizlik sahəsində vəziyyətin pisləşməsi səbəbindən sikhlərin ibadət yerləri və dükanları bağlı qalır.[416] Sikhlərin müqəddəs kitabı olan "*Quru Qranth Sahib*" bir sıra hallarda təhqir olunub və sikh icması təqsirkarların bu hərəkəti edərək cəzasız qalmalarına qarşı etiraz aksiyaları keçirib.[417]

Yuxarıdakıları nəzərə alaraq BMTQAK hesab edir ki, sikh şəxslər, xüsusən yaraqlı könüllülərin və silahlı qruplaşmaların fəaliyyət göstərdiyi ərazilərdən olanlar, hər bir konkret halın fərdi xüsusiyyətlərindən asılı olaraq, dini, etnik mənsubiyyətlərinə, (güman edilən) siyasi

http://www.hindupost.in/news/sikh-leader-shot-dead-in-pakistan/; "Röyters" agentliyi, *Pakistanın sikh azlığından olan tanınmış şəxs Taliban yaraqlıları tərəfindən qətlə yetirildi*, 23 aprel 2016-cı il, http://blogs.reuters.com/faithworld/2016/04/23/prominent-figure-in-pakistans-sikhminority-killed-by-taliban-gunmen/.

413 PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 124. Məlumatlarda bildirilir ki, yalnız sikh icması "öz dininə etiqad etmək, icma muxtariyyətindən yararlanmaq və xarici təcavüzə qarşı müsəlmanlar tərəfindən müdafiə olunmaq müqabilində" cizyə ödəməlidir. "Digər azlıqlar deyil, yalnız sikh icması bu haqqı qeyri-dövlət subyektlərinə [yaraqlılara] ödəməlidir. Müdafiə üçün ödənilən bu haqqı ödəməməyə görə sikhlərin ictimai yerlərdə qətlə yetirildiyi barədə bir neçə məlumat alınıb. Sikh icması nümayəndələrinin sözlərinə görə, bu xəracın ödənilməsini tələb edən bir neçə qrup var. Əgər sikhlər Peşəvərə getməlidirlərsə, "Manqal Baqh" qrupuna xərac ödəməlidirlər, əgər Malakand rayonuna gedirlərsə, "Fəzlullah" qrupuna xərac ödəməlidirlər və s. Xəracın məbləği adətən adambaşına 25.000 rupidir (18,88 avro). İcma nümayəndələri söylədilər ki, bu məsələni dövlətin nazirlikləri qarşısında qaldırdıqları zaman onlara acizanə surətdə deyiblər ki, Talibandan müdafiə olunmaq üçün nazirliklər də müəyyən növ xərac ödəyirlər". BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, fevral 2015-ci il, http://www.refworld.org/docid/57fb91e54.html, səh. 17.

414 BİHF və PİHK, *Azlıqlar hücumların hədəfində: Pakistanda əqidəyə əsaslanan ayrı-seçkilik və zorakılıq*, fevral 2015-ci il, http://www.refworld.org/docid/57fb91e54.html, səh. 17; "*The Express Tribune*", *Özünüzü bizim yerimizə qoyun: Azlıqlar insanlar arasında qardaşlıq hissi itirildiyinə görə artmaqda olan ayrı-seçkiliyi pislədilər*, 26 yanvar 2014-cü il, http://tribune.com.pk/story/663510/the-shoes-i-walk-in-minoritiesblame-growing-discrimination-for-the-loss-of-a-feeling-of-fellowship/.

415 İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, 12 may 2015-ci il, http://www.ghrd.org/what-wedo/reports/report/news/detail/News/2014-human-rights-report-pakistan/, səh. 16; "*Inter Press Service*" xəbər agentliyi, *Pakistan sikhləri "orta əsrlərin" dini təqibi ilə üzləşirlər*, 20 noyabr 2014-cü il, http://www.ipsnews.net/2014/11/pakistani-sikhs-back-in-the-dark-ages-ofreligious-persecution/.

416 PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 124-125; "Röyters" agentliyi, *Tarixi vətənlərində pakistanlı sikhlər daimi təhdid altında yaşayırlar*, 3 oktyabr 2014-cü il, http://in.reuters.com/article/2014/10/03/pakistan-sikh-idINKCN0HS0Z520141003; "*The Hindu*" qəzeti, *Pakistanlı sikhlər "məqsədyönlü qətllərə" qarşı etiraz kampaniyası keçirəcəkləri barədə hökumətə xəbərdarlıq etdilər*, 9 sentyabr 2014-cü il, http://www.thehindu.com/news/international/south-asia/pakistani-sikhs-threaten-agitation-againsttargeted-killings/article6391952.ece.

417 İHQM təşkilatı, *2014-cü il üçün Pakistanın insan hüquqlarına dair illik hesabatı*, mart 2015-ci il, http://hrcp-web.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 125-126; "*World Bulletin*" nəşri, *Müqəddəs kitabın yandırılmasına görə Pakistanın sikh icmasında gərginlik var*, 23 may 2014-cü il, http://www.worldbulletin.net/haber/137155/pakistans-sikh-community-tense-over-holy-book-burning. Məlumatlara əsasən 2014-cü ilin mayında Pakistan Sikh Şurası hökumətə xəbərdarlıq etdi ki, sikhlərin müqəddəs kitabının yandırıldığı silsilə insidentlərə görə məsuliyyət daşıyanlar 31 may 2014-cü llədək həbs edilməsələr, ölkə boyu etirazlara başlayacaqlar. Pakistan Sikh Şurası, *Sikh Şurası müqəddəs kitabı təhqir etməkdə şübhəli bilinənlərin tutulması üçün hökumətə beş gün vaxt verdi*, 27 may 2014-cü il, http://pakistansikhcouncil.org/news/sikh-council-gives-five-day-deadline-togovt-for-arrest-of-desecration-suspects/; "*Dawn*" qəzeti, *Sikhlər dini məkanlara qarşı hücumlara, müqəddəs kitabın təhqir olunmasına etiraz etdilər*, 23 may 2014-cü il, http://www.dawn.com/news/1108159.

əqidələrinə və (və ya) digər müvafiq əsaslara görə qaçqın qismində beynəlxalq himayəyə ehtiyac duya bilərlər.[418]

### *7. Sufilər / barelvilər*

Barelvi hərəkatı Pakistanda sünni islamın əsas qoludur;[419] o, məlumatlara əsasən, ölkənin qeyri-puştu əhalisi arasında sünni islamın üstünlük təşkil edən formasıdır.[420] Barelvilər sufilərin[421] bir çox mərasim və ayinlərinə riayət edirlər, o cümlədən müqəddəslərə və müqəddəs yerlərə sitayiş edir və ilahi mahnıları və rəqsləri ifa edirlər.[422] Taliban və digər təməlçi sünni qrupların mənsub olduqları islami dübəndi cərəyanı (məktəbi) sufi mərasim və ayinlərini qeyri-islami sayır və dini ehkamlara zidd hesab edir.[423]

2000-ci illərin sonlarından sufi inancının ardıcılları və onların dini mərasim yerləri Talibanla əlbir olan yaraqlı qruplar tərəfindən getdikcə artan hücumlara məruz qalır.[424] Məsələn,

---

[418] Dini səbəblərə görə sığınacaq üçün müraciətlə bağlı əlavə təlimat üçün bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər*, HCR/GIP/04/06, 28 aprel 2004-cü il, http://www.refworld.org/docid/4090f9794.html, 17-19-cu bəndlər.

[419] "Barelvi məzhəbi Pakistanda sünni təriqəti daxilində əsas cərəyandır. Sünni islam daxilindəki bu məzhəb dübəndilərin təliminin sərtliyinə və mühafizəkarlığına cavab olaraq 1906-cı ildə Əhməd Rəza Xan Barelvi tərəfindən yaradılıb. "*Global Security*" nəşri, *Pakistanda islam* (məlumatların sonuncu yenilənmə tarixi: 11 avqust 2014-cü il), http://www.globalsecurity.org/military/world/pakistan/islam.htm. Dübəndilər və barelvilər Hindistan subkontinentində sünni müsəlmanların iki əsas qrupudur. Bax: "*Global Security*" nəşri, *İslamda barelvilik* (məlumatların sonuncu yenilənmə tarixi: 5 iyul 2011-ci il), http://www.globalsecurity.org/military/intro/islambarelvi.htm.

[420] Pəncab barelvi hərəkatının dayaq mərkəzidir; bax: "*Time*" qəzeti, *Talibanın hədəfə aldığı Pakistanın sufi müsəlmanları müqavimət göstərir*, 10 noyabr 2010-cu il, http://www.time.com/time/world/article/0,8599,2030741,00.html; və "*Global Security*" nəşri, *İslamda barelvilik* (məlumatların sonuncu yenilənmə tarixi: 7 may 2011-ci il), http://www.globalsecurity.org/military/intro/islam-barelvi.htm.

[421] Sufizm sünni, şiə və digər islam qruplarını əhatə edən mistik islam hərəkatıdır. O, ardıcıllarını və digər şəxsləri ruhən qidalandırmaq məqsədini daşıyır və öz ismarıclarını musiqi, poeziya və rəqslər vasitəsilə yayır; bax: Ceymstaun Fondu, *Pakistandakı Taliban qruplaşması sufilərin Pakistandakı müqəddəs ocaqlarına qarşı hücum kampaniyasını davam etdirir*, 22 aprel 2011-ci il, http://www.unhcr.org/refworld/docid/4db6bf722.html; Azad Avropa/Azadlıq Radiosu, *Müqəddəs ocağa qarşı edilən, 40-dan artıq insanın qətlə yetirilməsinə səbəb olan hücumdan sonra Lahorda yüksək təhlükəsizlik tədbirləri görülüb*, 2 iyul 2010-cu il, http://www.unhcr.org/refworld/docid/4c56d29328.html; BBC, *Sufizm* (məlumatların sonuncu yenilənmə tarixi: 8 sentyabr 2009-cu il), http://www.bbc.co.uk/religion/religions/islam/subdivisions/sufism_1.shtml.

[422] Misal üçün bax: ABŞBDAK, *2012-ci il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran ölkələr – Pakistan*, 20 mart 2012-ci il, http://www.refworld.org/docid/4f71a674c.html; "*Time*" qəzeti, *Talibanın hədəfə aldığı Pakistanın sufi müsəlmanları müqavimət göstərir*, 10 noyabr 2010-cu il, http://www.time.com/time/world/article/0,8599,2030741,00.html; və "*Global Security*" nəşri, *İslamda barelvilik* (məlumatların sonuncu yenilənmə tarixi: 7 may 2011-ci il), http://www.globalsecurity.org/military/intro/islam-barelvi.htm.

[423] Misal üçün bax: "Qardian" qəzeti, *Pakistanda islamın sifəti sərtləşdikcə müqəddəslər ortalıqdan çıxır*, 15 yanvar 2014-cü il, http://www.theguardian.com/world/2014/jan/15/islam-pakistan-barelvi-saudi-wahhabi; ABŞBDAK, *2012-cı il üçün illik məruzə: Xüsusi narahatlıq doğuran ölkələr – Pakistan*, 20 mart 2012-ci il, http://www.refworld.org/docid/4f71a674c.html; Ceymstaun Fondu, *Pakistandakı Taliban qruplaşması sufilərin Pakistandakı müqəddəs ocaqlarına qarşı hücum kampaniyasını davam etdirir*, 22 aprel 2011-ci il, http://www.refworld.org/docid/4db6bf722.html.

[424] 26 avqust 2014-cü ildə yaraqlılar, məlumatlara əsasən, Bəlucistan əyalətinin Mastunq rayonunda sufilərin müqəddəs ocağını partlatdılar, nəticədə bir qadın öldü. "*The Nation*" qəzeti, *Mastunq: Partlayış Şeyx Taqi türbəsini dağıtdı*, 26 avqust 2014-cü il, http://nation.com.pk/national/26-Aug-2014/mastung-blast-destroyssheikh-taqi-s-shrine. Məlumatlara əsasən 2014-cü ilin fevralında Karaçidə silahlı şəxslər sufi dini toplantısına hücum edərək ibarət etməyə toplaşmış insanlara atəş açdılar, nəticədə səkkiz nəfər öldü, digər səkkizi isə xəsarət aldı. "*New York Times*" qəzeti, *Sufi toplantısına hücumda 8 nəfər öldü*, 9 fevral 2014-cü il, http://www.nytimes.com/2014/02/10/world/asia/8-killed-in-attack-on-sufi-gathering.html. Məlumatlarda bildirilir ki, 2014-cü ilin yanvarında Karaçidə sufilərin müqəddəs ocağı yaxınlığında altı nəfər öldürüldü və cəsədləri orada tərk edildi. Polisin hesabatına əsasən, hücum edənlərin orada qoyduğu kağızdakı yazıda deyilirdi ki, bu adamlar həmin

məlumatlara əsasən 2016-cı ilin iyulunda üç sufi müğənni silahlı düşmənlərin hücumuna məruz qaldı, 2016-cı ilin iyununda isə bir sufi müğənni avtomobillə işə gedərkən güllələndi.[425] Barelvilərin yüksək rütbəli ruhanilərinin sözlərinə görə, barelvi məscidləri barışmaz qruplar tərəfindən istər qeyri-zorakı (məsələn, məsciddə ibadət edən icma üzvləri sırasına daxil olmaqla və onların imamı vəzifəsinə təyin edilməyə nail olmaqla; yaxud mollaya məvacib ödəməyi təklif etməklə və sonradan məscidi zəbt etməklə), istərsə də zorakı yollarla zəbt edilmə hallarının hədəfinə çevrilir.[426]
Məlumatlara əsasən 2014-cü ilin mayında bütün Pakistan ərazisindəki ruhanilər iddia etdilər ki, populyar "Geo Nyus" (*Geo News*) telekanalı sufi mahnısını yayımlamaqla küfrə yol verib. Bu media orqanının öz qəzetlərində rəsmən üzr istədiyinə və həmin verilişə cəlb olunmuş bütün personalının fəaliyyətini dayandırdığına baxmayaraq, məlumatlara görə bütün ölkə boyu nümayişlər keçirildi, eləcə də vəkillər assosiasiyası vəkilləri tətil etməyə çağırdı.[427] 2014-cü ilin noyabrında Gilgit-Baltistanda məhkəmə bu televiziyanın şousuda iştirak edən aktrisanı və onun ərini, eləcə də "Geo" media şəbəkəsinin sahibini efirdə küfrə yol verdiklərinə görə 26 il müddətinə azadlıqdan məhrum etdi. Məlumatlara əsasən 10 dekabr 2014-cü ildə Ali Məhkəmə bu hökmün icrasını dayandıran müvəqqəti qərar çıxardı.[428] (III.B bölməsinə bax: "Cinayət Məcəlləsi: Küfr əleyhinə qanunvericilik".)
Məlumatlara görə 2015-ci ilin martında Beynəlxalq İslam Universitetinin rəhbərliyi universitetin tələbə şəhərciyində yerləşən, adətən çoxlu sayda tələblərin ibadət etdiyi barelvi məscidini qapatdı və bu qapatmanın səbəbi kimi təhlükəsizlik mülahizələrini göstərdi. Məlumatlara əsasən tələbələr etiraz əlaməti olaraq bu qapatmadan sonra bir neçə həftə məscidin bayırında ibadət etdilər.[429]

Yuxarıdakıları nəzərə alaraq BMTQAK hesab edir ki, barelvilər də daxil olmaqla sufi inancının ənənə və rituallarının ardıcılları, xüsusən Talibanla əlaqəli qrupların fəaliyyət

---

müqəddəs ocağı ziyarət etdiklərinə görə öldürülüblər. Məlumatlara görə bu yazı "Təhriki-Taliban Fəzlullah" qrupuna məxsus idi və hadisəyə görə məsuliyyəti o daşıyırdı. Terrorizmlə bağlı Cənubi Asiya Portalı, *Pakistan: Xronologiya – 2014* (bax: 7 yanvar 2014-cü il insidenti), http://www.satp.org/satporgtp/countries/pakistan/timeline/2014.htm; "Röyters" agenylii, *Sufi müsəlmanların müqəddəs ocağını ziyarət etdiklərinə görə altı pakistanlı öldürüldü*, 7 yanvar 2014-cü il, http://www.reuters.com/article/2014/01/07/us-pakistan-shrine-beheadingsidUSBREA060FB20140107. 2014-cü ilin fevralında Xeybər Paxtunxvada populyar olan bəlucistanlı sufi şair, məlumatlara görə, yaraqlılar tərəfindən yandırıldı. Terrorizmlə bağlı Cənubi Asiya Portalı, *Pakistan: Xronologiya – 2014*, http://www.satp.org/satporgtp/countries/pakistan/timeline/2014.htm. Məlumatlara əsasən 10 yanvar 2014-cü ildə silahlı şəxslər Xeybər Paxtunxva əyalətinin Mərdan rayonundakı sufi müqəddəs ocağında iki işçini öldürdülər. "*Dawn*" qəzeti, *Silahlı şəxslər Peşəvərdə sufi müqəddəs ocağında iki işçini öldürdülər*, 10 yanvar 2014-cü il, http://www.dawn.com/news/1079605/gunmen-kill-two-workers-at-sufi-shrine-in-peshawar. Həmçinin bax: "Qardian" qəzeti, *Pakistanda islamın sifəti sərtləşdikcə müqəddəslər ortalıqdan çıxır*, 15 yanvar 2014-cü il, http://www.theguardian.com/world/2014/jan/15/islam-pakistan-barelvisaudi-wahhabi.

425 Məsələn, məlumatlara görə 17 iyul 2016-cı ildə silahlı hücumçular üç sufi müğənniyə hücum etdilər. "*The Daily Star*" qəzeti, *Çuadanqada 3 baul (sufi müğənni) hücuma məruz qaldı*, 17 iyul 2016-cı il, http://www.thedailystar.net/country/3-bauls-hacked-chuadanga-1255072. Məlumatlarda bildirilir ki, 22 iyun 2016-cı ildə sufi müğənni avtomobillə işə gedərkən güllələndi. Məlumatlara əsasən sufi müğənniyə qarşı hücuma görə məsuliyyəti Taliban öz üzərinə götürdü və onun küfrlə məşğul olduğunu bəyan etdi. "*The Economist*" jurnalı, *Nifrət və məhəbbət*, 2 iyul 2016-cı il, http://www.economist.com/news/obituary/21701453-amjad-sabripakistans-favourite-qawwali-singer-was-killed-june-22nd-aged-45-hate-and-love.

426 "Qardian" qəzeti, *Pakistanda islamın sifəti sərtləşdikcə müqəddəslər ortalıqdan çıxır*, 15 yanvar 2014-cü il, http://www.theguardian.com/world/2014/jan/15/islam-pakistan-barelvisaudi-wahhabi.

427 "Qardian" qəzeti, *Pakistanın "Geo News" telekanalı küfr ittihamları tendensiyasının ən son hədəfinə çevrilir*, 22 may 2014-cü il, http://www.theguardian.com/world/2014/may/22/pakistan-geo-news-blasphemy-pakistan-sufi-song-wedding; BBC, *Pakistanın "Geo TV" telekanalı uğrunda mübarizə*, 21 may 2014-cü il, http://www.bbc.com/news/world-asia-27508088.

428 Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html.

429 "*Pakistan Today*" qəzeti, *Beynəlxalq İslam Universiteti barelvi məscidini qapatdı*, 22 mart 2015-ci il, http://www.pakistantoday.com.pk/2015/03/22/national/international-islamic-university-shuts-down-barelvi-mosque/.

göstərdiyi ərazilərdən olanlar, hər bir konkret halın fərdi xüsusiyyətlərindən asılı olaraq, dini, etnik mənsubiyyətlərinə, (güman edilən) siyasi əqidələrinə və (və ya) digər müvafiq əsaslara görə qaçqın qismində beynəlxalq himayəyə ehtiyac duya bilərlər.[430]

### *8. Zikrilər*

Zikri müsəlmanların inanc və ənənələri ənənəvi sünni islamınkından fərqlənir.[431] Məlumatlara əsasən digər müsəlmanlar zikrilərə dinə dönük çıxanlar kimi baxır və onları *bhangi* (kirli insanlar) və *cahil* (geridə qalmış) adlandırırlar; məlumatlarda deyilir ki, bəzi ifrat ortodoksal sünni müsəlmanlar zikrilərin qeyri-müsəlman elan edilməsi barədə çağırışlar edirlər.[432] Hesablamalara görə zikri icması üzvlərinin sayı 500.000 nəfərdən 800.000 nəfərədək dəyişir; səsvermə zamanı zikrilər sünni müsəlman kimi qeydə alındığına görə Pakistanda zikrilərin dəqiq sayı müəyyənləşdirilməyib.[433] Məlumatlara əsasən zikri əhalinin əksəriyyəti Pakistanın, xüsusən Bəlucistan əyalətinin kənd yerlərində yaşayır; zikrilərin çoxu etnik bəluclardır.[434] Amma məlumatlara görə Bəlucistan əyalətində baş verən məqsədyönlü hücumlar zikri ailələrini Pakistanın digər ərazilərinə köçməyə məcbur edib.[435]

---

[430] Dini səbəblərə görə sığınacaq üçün müraciətlə bağlı əlavə təlimat üçün bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaççınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər*, HCR/GIP/04/06, 28 aprel 2004-cü il, http://www.refworld.org/docid/4090f9794.html.

[431] "Əhmədilər Mirzə Qulam Əhmədə daha aşağı dərəcəli peyğəmbər kimi baxsalar da hər halda onu peyğəmbər hesab etdikləri kimi, zikrilər də bu məzhəbi yaratmış Nur Pakı peyğəmbər, habelə vəd olunan xilaskar (Mehdi) hesab edirlər. […] Zikrilərin ibadət etmə üsulu ənənəvi müsəlmanlarınkından fərqlənir. Zikrilərin ibadətinə sufizmin təsiri böyükdür, belə ki, onlar ənənəvi üsulla namaz qılmaq əvəzinə dualar oxuyur və müqəddəs ayələri söyləyirlər. Həmçinin ibadət edərkən üzü Məkkəyə doğru çevrilmək məcburi deyil. Zikrilər həccə, yəni Məkkə ziyarətinə getmirlər, halbuki bu, islamın ümumi qaydalarına görə əsas dini borc sayılır. […] Ənənəvi müsəlmanları qıcıqlandıran digər bir praktika zikrilərin ibadət etmək üçün bir araya gəlmə üsuludur, belə ki, adətən onlar məsciddə deyil, açıq hava altında yerə kiçik palaz salıb daşların üzərində ibadət edirlər. Hətta zikrilər "xana" deyilən xüsusi tikililərdə görüşsələr belə, adətən bu tikililərdə əzan üçün minbər olmur və divarda ibadətçilərin üzünü Məkkəyə – qibləyə doğru yönləndirən hücrə olmur". "Writenet" şəbəkəsi, *Pakistan: Dini azlıqların vəziyyəti*, may 2009-cu il, http://www.refworld.org/pdfid/4b01856e2.pdf, səh. 23-24. Həmçinin bax: "*Dawn*" qəzeti, *Hədəfdə*, 16 sentyabr 2014-cü il, http://www.dawn.com/news/1132189.

[432] BBQ, *Pakistanda zorakılıqların baş verdiyi şəhərlərdə asayişin qorunması*, 23 yanvar 2014-cü il, *Asia Report N°255*, http://www.refworld.org/docid/52e117608.html, səh. 18; "Writenet" şəbəkəsi, *Pakistan: Dini azlıqların vəziyyəti*, may 2009-cu il, http://www.refworld.org/pdfid/4b01856e2.pdf, səh. 24. Həmçinin bax: "Zikrilər Bəlucistanın Kvadar rayonunda məskunlaşmış təxminən 200.000 nəfərlik azlıq qrupudur. Zikrilər özlərini müsəlman hesab etsələr də, sünni dini liderlər bu iddianı rədd edirlər, çünki zikrilərin dini mərasimləri, o cümlədən Türbət qəsəbəsində (Bəlucistan əyaləti) həyata keçirilən və həccə bənzər olan mərasim digər müsəlman qruplarının riayət etdikləri mərasimlərdən əhəmiyyətli dərəcədə fərqlənir. Mollalar zikrilərin qeyri-müsəlman elan edilməsi barədə çağırışlar etsələr də, bunun üçün heç bir addım atılmayıb və adətən zikrilər öz dinlərinə etiqad etməkdə sərbəstdirlər. Məlumatlara görə zikrilərə qarşı zorakılıqlar nadir hallarda baş verir, lakin cəmiyyətdə onlara qarşı ayrı-seçkilik və təqiblər adi hal alıb". Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2004-cü il tarixli hesabat – Pakistan*, 15 sentyabr 2004-cü il, http://www.refworld.org/docid/416ce9e52ba.html.

[433] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; "Writenet" şəbəkəsi, *Pakistan: Dini azlıqların vəziyyəti*, may 2009-cu il, http://www.refworld.org/pdfid/4b01856e2.pdf, səh. 23-24. "Writenet" şəbəkəsi məlumat verir ki, bəzi mənbələrin göstərdiyi rəqəmlərdə bu say bir neçə milyona çatır. Eyni mənbə, səh. 23.

[434] Azad Avropa/Azadlıq Radiosu, *Pakistanın təhlükəsizlik qüvvələri azlıq qrupuna hücumda təqsirləndirildi*, 2 sentyabr 2014-cü il, http://gandhara.rferl.org/content/balochistan-zikri/26562816.html; "Əl-Cəzirə" telekanalı, *Pakistanda silahlı şəxslər azlıq icmasını hədəfə aldılar*, 29 avqust 2014-cü il, http://www.aljazeera.com/news/asia/2014/08/gunmen-target-minority-sect-pakistan-20148299211109311.html; "Writenet" şəbəkəsi, *Pakistan: Dini azlıqların vəziyyəti*, may 2009-cu il, http://www.refworld.org/pdfid/4b01856e2.pdf, səh. 23-24.

[435] "Ekstremizmin güclənməsi, o cümlədən Pakistanın cənub-qərbində İŞİD-ə dəstək yönümlü divar yazılarının peyda olması Pakistanın azsaylı zikri icmasında qorxu yaradır. 2014-cü ildə baş vermiş amansız hücumlardan və 2015-ci ilin avqustunda "Ləşkəri-Xurasan" yaraqlıları tərəfindən altı zikrinin qətlə yetirilməsindən sonra zikrilərin çoxu kimliklərini gizlətməyə və tarixi torpaqlarından ölkənin digər hissələrinə köçməyə məcbur olublar". AHBQ,

Müşahidəçilər qeyd edirlər ki, 2014-cü ildən başlayaraq zikri icmasının üzvləri ekstremist qruplar tərəfindən törədilən məqsədyönlü hücum və qətl hallarına məruz qalırlar.[436] 26 iyul 2015-ci ildə zikri icmasının mənəvi lideri Seyid Zəfər Nuri, məlumatlara görə, Pasnidə (Bəlucistan əyaləti) silahlı şəxslər tərəfindən oğurlandı.[437] Həmçinin məlumatlara əsasən 28 avqust 2014-cü ildə Avan rayonunda (Bəlucistan əyaləti) silahlı şəxslər zikrilərin ibadət etdikləri binaya hücum edərək altı nəfəri öldürdülər, yeddi nəfəri yaraladılar. "Laşkəri-Xurasan" adlanan ekstremist islamçı qruplaşma, məlumatlara görə, bu hücuma görə məsuliyyəti öz üzərinə götürdü, bundan əvvəl qruplaşma zikriləri hədələyərək bildirmişdi ki, zikri inanclarından əl çəkməyəcəkləri və ənənəvi islama dönməyəcəkləri təqdirdə onları öldürəcək.[438] Məlumatlarda bildirilir ki, 29 iyul 2014-cü ildə Bəlucistanın Xuzdar rayonunda məsafədən idarə olunan bombanın partlayışının zikri zəvvarları aparan avtobusu dağıtması nəticəsində yeddi nəfər xəsarət aldı.[439]

Məlumatlara əsasən zikri icmasını üzvləri zikrilərə qarşı məqsədyönlü hücumlarla və ayrı-seçkilik formaları ilə əlaqədar olaraq təhlükəsizliklərinə qarşı təhlükə yarandığına görə öz dini mənsubiyyətlərini gizlətmək məcburiyyətində qalırlar.[440]

Yuxarıdakıları nəzərə alaraq BMTQAK hesab edir ki, zikri icmasının üzvləri, hər bir konkret halın fərdi xüsusiyyətlərindən asılı olaraq, dini, etnik mənsubiyyətlərinə, (güman edilən) siyasi

---

*Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2016 – Pakistan*, 12 iyul 2016-cı il, http://www.refworld.org/docid/5796082215.html; Qaçqınların və vətəndaşlığı olmayan şəxslərin işləri üzrə Baş Komissarlıq (CGVS/CGRA), *Pakistan: Təhlükəsizlik sahəsində vəziyyət*, 16 iyun 2016-cı il, http://www.refworld.org/docid/55b7592f4.html, səh. 20; PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcpweb.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 122, 135. Məlumatlara görə 2015-ci ilin avqustunda Avaranda (Bəlucistan vilayəti) baş verən və altı zikrinin qətlinə səbəb olan məqsədyönlü hücumdan bəri 400-ə yaxın insan Pakistanın digər hissələrinə köçməyə məcbur olub və yalnız köçmək imkanına malik olmayanlar ərazidə qalıb. "*Dawn*" qəzeti, *Bəlucistanda zikrilər hücumların hədəfində*, 2 yanvar 2015-ci il, http://www.dawn.com/news/1154575. "Kvettada xəzər icmasına mənsub olan yüzlərlə insan və Bəlucistanın sahilyanı qurşağındakı zikrilər evlərini və bizneslərini tərk edərək yüzlərlə kilometr uzağa – cənubdakı Kvadar, Pasini, Türbət və Maşkey şəhərlərinə köçüblər. "Diplomat" jurnalı, *Pakistan azlıqlarının təqib olunmasında təqsirkar kimdir?* 12 noyabr 2014-cü il, http://thediplomat.com/2014/11/who-is-responsible-for-persecuting-pakistans-minorities/.

[436] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html; PİHK, *2014-cü ildə insan hüquqlarının vəziyyəti*, mart 2015-ci il, http://hrcpweb.org/hrcpweb/data/HRCP%20Annual%20Report%202014%20-%20English.pdf, səh. 135; "*Dawn*" qəzeti, *Hədəfdə*, 16 sentyabr 2014-cü il, http://www.dawn.com/news/1132189.

[437] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2015-ci il tarixli hesabat – Pakistan*, 10 avqust 2016-cı il, http://www.refworld.org/docid/57add84315.html; "*Dawn*" qəzeti, *Zikrilərin mənəvi lideri oğurlandı*, 27 iyul 2015-ci il, http://www.dawn.com/news/1196645.

[438] AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2015 – Pakistan*, 2 iyul 2015-ci il, http://www.refworld.org/docid/55a4fa494.html; "*Dawn*" qəzeti, *Azlıqlara qarşı müharibə*, 24 sentyabr 2015-ci il, http://www.dawn.com/news/1133908; "Əl-Cəzirə" telekanalı, *Pakistanda silahlı şəxslər azlıq icmasını hədəfə aldılar*, 29 avqust 2014-cü il, http://www.aljazeera.com/news/asia/2014/08/gunmen-target-minority-sect-pakistan-20148299211109311.html; Bəlucistandakı separatçılar Pakistanın təhlükəsizlik qüvvələrini Avarandakı hücumun arxasında dayanmaqda təqsirləndirdilər: Azad Avropa/Azadlıq Radiosu, *Pakistanın təhlükəsizlik qüvvələri azlıq qrupuna hücumda təqsirləndirildi*, 2 sentyabr 2014-cü il, http://gandhara.rferl.org/content/balochistan-zikri/26562816.html. Avaran rayonundakı hücumdan bir həftə əvvəl Bəlucistan əyalətindəki qəsəbədə peyda olmuş divar yazısında zikrilərə çağırış edilirdi ki, ya islama dönsünlər, ya da ölümlə üzləşəcəklər. AHBQ, *Dünyadakı azlıqların və yerli xalqların vəziyyəti, 2015 – Pakistan*, 2 iyul 2015-ci il, http://www.refworld.org/docid/55a4fa494.html.

[439] Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Beynəlxalq din azadlığına dair 2014-cü il tarixli hesabat – Pakistan*, 14 oktyabr 2015-ci il, http://www.refworld.org/docid/5621056615.html.

[440] "*United Press International*" xəbər agentliyi, *Müsəlman təriqətinin üzvləri radikal yaraqlıların hücumlarından ehtiyat edirlər*, 18 uyun 2015-ci il, http://www.upi.com/Top_News/World-News/2015/06/18/Pakistani-Muslim-sect-fears-attack-from-hard-line-militants/21424259832246/.

əqidələrinə və (və ya) digər müvafiq əsaslara görə qaçqın qismində beynəlxalq himayəyə ehtiyac duya bilərlər.[441]

## VI. Ölkə daxilində başqa yerə köçürülmə və ya yerdəyişmə alternativi

Alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmənin mümkünlüyünü qiymətləndirmək üçün ətraflı analitik baza bu mənbədə əks olunub: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 4: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu kontekstində ölkə daxilində başqa yerə köçürülmə və ya yerdəyişmə alternativi*.[442]

Alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmənin hər hansı konkret halda nəzərdən keçirilməsinin məqsədəuyğunluğu üçün ərazi praktiki cəhətdən, təhlükəsizlik baxımından və hüquqi cəhətdən əlçatan olmalı və orada sığınacaq axtaran şəxsi yeni ciddi ziyana, o cümlədən həyatını, təhlükəsizliyini, azadlığını və ya sağlamlığını ciddi riskə, yaxud da ciddi ayrı-seçkilik təhlükəsinə məruz qoya biləcək amillər olmamalıdır.[443]

Pakistan kontekstində alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmə, bir qayda olaraq, hazırda təhlükəsizlik qüvvələri ilə hərbçilərin qiyamçılara qarşı əməliyyatlarının və yaraqlıların qisasçı hücumlarının təsirinə məruz qalan ərazilərdə mümkün deyil. Bu ərazilərdən savayı qalan yerlərdə alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmənin mümkünlüyü fərdi qaydada qiymətləndirilməlidir. Bununla belə, nisbətən stabil hesab edilən ərazilər, əgər oraya gediş-gəliş yolları təhlükəli hesab edilərsə, əlçatmaz sayıla bilər.

Bəzi yaraqlı qrupların geniş coğrafi ərazilərə yayıldığını (şəhər mərkəzlərinə qarşı həyata keçirilən iri miqyaslı hücumlar bunu təsdiqləyir) nəzərə alsaq, alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmə, bir qayda olaraq, belə qrupların hədəfinə məruz qalma riski altında olan şəxslər üçün reallıqda mümkünsüz ola bilər.[444] Bundan başqa, təqibləri həyata keçirən bəzi

---

[441] Dini səbəblərə görə sığınacaq üçün müraciətlə bağlı əlavə təlimat üçün bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 6: Dini səbəblərlə əlaqədar olaraq Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu əsasında qaçqın statusu üçün müraciətlər*, HCR/GIP/04/06, 28 aprel 2004-cü il, http://www.refworld.org/docid/4090f9794.html.

[442] Alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmənin mümkünlüyünün qiymətləndirilməsi iki əsas təhlilin aparılmasını, yəni köçürülmə və ya yerdəyişmənin i) **məqsədəuyğun** və ii) **ağlabatan** olub-olmadığının nəzərdən keçirilməsini tələb edir. Mənşə ölkəsinin məhdud miqyasda müəyyən yerlərində təqiblə bağlı qorxunun əsaslı olduğu təsdiqləndiyi hallarda köçürülmə və ya yerdəyişmə üçün təklif olunan ərazilərin müvafiq şəxs üçün münasib alternativ olub-olmadığının müəyyənləşdirilməsi zaman keçdikcə qiymətləndirmə aparılmasını tələb edir, bu zaman təkcə şəxsin qorxusunun səbəbi olan riski doğurmuş və onu doğma ərazisindən köçməyə vadar etmiş şərait deyil, həm də təklif olunan ərazinin gələcəkdə təhlükəsiz və etibarlı alternativ təşkil edib-etməməsi qiymətləndirilməlidir. Həmçinin konkret ərizəçinin işinin fərdi halları və köçürülmə ərazisindəki şərait nəzərə alınmalıdır; bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 4: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu kontekstində ölkə daxilində başqa yerə köçürülmə və ya yerdəyişmə alternativi, HCR/GIP/03/04*, 23 iyul 2003-cü il, http://www.unhcr.org/refworld/docid/3f2791a44.html.

[443] Bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 4: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu kontekstində ölkə daxilində başqa yerə köçürülmə və ya yerdəyişmə alternativi, HCR/GIP/03/04*, 23 iyul 2003-cü il, 7, 18-21-ci bəndlər, http://www.unhcr.org/refworld/docid/3f2791a44.html.

[444] Belə qrupların strukturu, təşkili, fəaliyyət imkanları və coğrafi əhatə dairəsi ilə bağlı əlavə məlumat üçün bax: Terrorizmlə bağlı Cənubi Asiya Portalı, *Pakistanın terrorçu və ekstremist qrupları* (1 noyabr 2016-cı il tarixinədək olan məlumatlar), http://www.satp.org/satporgtp/countries/pakistan/terroristoutfits/group_List.htm. Həmçinin bax: BBQ, *Pakistanlı cihadçıların mərkəzi: Cənubi Pəncab*, 30 may 2016-cı il, http://www.refworld.org/docid/574d2dbb4.html. Pakistanda zorakılıq insidentləri ilə bağlı bax: ACLED, *Pakistanda dini azlıqların hədəfə alınması*, 19 oktyabr 2016-cı il, http://www.crisis.acleddata.com/targeting-religious-minorities-in-pakistan/; ACLED, *Pakistanda zorakılıq tendensiyaları – 2015-ci il*, http://www.crisis.acleddata.com/violent-trends-in-pakistan-2015/. 2016-cı ildə şəhər ərazilərində baş vermiş bir sıra zorakılıq insidentlərinə aid nümunələr üçün bax: Ceymstaun Fondu, *Pakistan: Qiyamçı qruplar Kvetta xəstəxanasına hücuma görə məsuliyyəti öz üzərlərinə götürdülər*, 19 avqust 2016-cı il, "*Terrorism Monitor*" *jurnalı*, № 14, buraxılış 17, http://www.refworld.org/docid/57bacb804.html; Azad Avropa/Azadlıq Radiosu, *Pasxadakı*

qeyri-dövlət adamları, məsələn, yerlərdəki nüfuzlu şəxslər, eləcə də mütəşəkkil cinayətkar elementlər, habelə yaraqlı qruplar, məlumatlara görə, yerli və mərkəzi hakimiyyət orqanlarındakı, hüquq-mühafizə və (və ya) məhkəmə orqanlarındakı nüfuzlu şəxslərlə sıx əlaqədədirlər.[445] Nəticədə çox vaxt onlar cəzalanmadan fəaliyyət göstərirlər və onların fəaliyyətləri bilavasitə nəzarətləri altında olan ərazilərdən xeyli kənara çıxa bilər.

Bir qayda olaraq, müvafiq şəxsin gedəcəyi yerdə Pakistanın küfr və (və ya) əhmədilər əleyhinə qanunvericiliyi əsasında cinayət təqibinə məruz qalacağını ehtimal etmək üçün əsaslı səbəblər olduqda, alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmə məqsədəuyğun sayılmır.

Dini mənsubiyyətləri ilə əlaqədar olaraq öz doğma yerlərində təqibə məruz qalma qorxusunun əsaslı olduğu müəyyən edilən əhmədilərə gəlincə, dövlət tərəfindən əhmədilərə qarşı yol verilən ayrı-seçkilik formalarının geniş yayıldığını və institusional hal aldığını, eləcə də əhmədi şəxslərin cəmiyyət üzvləri tərəfindən onlara qarşı eyni dərəcədə geniş yayılmış olan qəddar rəftar formalarından müdafiəsinin dövlət tərəfindən təmin edilmədiyini nəzərə alaraq BMRQAK hesab edir ki, alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmə onlar üçün real deyil.[446]

Təqib xarakterli dini normalar və ya zərərli ənənələr nəticəsində ziyan çəkəcəyindən ehtiyat edən və ölkənin başqa hissəsinə köçürülməsi məqsədəuyğun sayıla biləcək şəxslərin (məsələn, nikaha girməyə məcbur edilən və ya bu cür risk altında olan şəxslərin, dinini dəyişməyə məcbur edilmək və ya namus zəminində cinayətlərin qurbanına çevrilmək riski altında olan şəxslərin) ölkədaxili köçürülməsi məsələsinə baxılarkən cəmiyyətin geniş təbəqələri və yerli administrasiyadakı nüfuzlu mühafizəkar elementlər tərəfindən həmin dini normaların təqdir edilməsi faktı nəzərə alınmalıdır.

Alternativ variant kimi ölkədaxili köçürülmə və ya yerdəyişmənin ağlabatan olub-olmadığını hər bir halda fərdi qaydada müəyyənləşdirmək lazımdır və qərar qəbul edilən zaman potensial köçürülmə ərazisindəki təhlükəsizlik və insan hüquqları məsələlərini və humanitar mühiti nəzərə almaq gərəkdir. Bu məqsədlə aşağıdakı elementlər nəzərə alınmalıdır: i) potensial köçürülmə ərazisində zəruri infrastrukturun, sanitariya, səhiyyə və təhsil xidmətləri kimi əsas xidmətlərə çıxışın, habelə ərzaq təhlükəsizliyinin olması; ii) potensial köçürülmə ərazisində ənənəvi dəstək mexanizmlərinin, məsələn, qohumların və dostların olması; iii) potensial köçürülmə ərazisinə köçlərin miqyası və köçürüləcək şəxslərin özlərini dolandıra bilmə qabiliyyəti, o cümlədən yaşayış üçün vəsait qazanma imkanları; iv) yerdə quraşdırılmış minaların və partlamamış sursatların olması;[447] və v) xüsusən şəhər ərazilərində cinayətkarlığın səviyyəsi və bunun nəticəsi olaraq təhlükəsizlik dərəcəsi. Məlumatlara görə mərkəzi şəhərlərdə müşahidə edilən kəndlərdən şəhərə miqrasiya tempinin artması zəruri müəssisə və xidmətlərin, o cümlədən təhsil, məşğulluq, mənzil təminatı, içməli su təchizatı və sanitariya xidmətlərinin yükünün artmasına səbəb olur. Məlumatlara əsasən bu həm də cinayətkarlıq səviyyəsinin artması ilə müşayiət olunur.[448]

---

*partlayışdan sonra Pakistan 5.000-dən artıq yaraqlını şübhəli şəxs qismində saxladı,* 29 mart 2016-cı il, http://www.refworld.org/docid/5768ffb815.html.

[445] Misal üçün bax: HRW, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat*, 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html; BBQ, *Pakistanda zorakılıqların baş verdiyi şəhərlərdə asayişin qorunması*, 23 yanvar 2014-cü il, *Asia Report N°255*, http://www.refworld.org/docid/52e117608.html; BBQ, *Pakistanın dağılmış məhkəmə sistemində islahatlar aparılması*, 6 dekabr 2010-cu il, http://www.unhcr.org/refworld/docid/4d00dee42.html.

[446] Bax: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 4: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin A(2) bəndi və (və ya) 1967-ci il Protokolu kontekstində ölkə daxilində başqa yerə köçürülmə və ya yerdəyişmə alternativi*, 23 iyul 2003-cü il, HCR/GIP/03/04, http://www.unhcr.org/refworld/docid/3f2791a44.html, 13-14-cü bəndlər.

[447] Misal üçün bax: "*Landmine Monitor" təşəbbüsü – 2015*, 26 noyabr 2015-ci il, http://www.the-monitor.org/en-gb/reports/2015/landmine-monitor-2015.aspx; *"Landmine and Cluster Munition Monitor"* təşəbbüsü: *Ölkələr üzrə icmal: Pakistan, 1994-2014,* http://archives.themonitor.org/index.php/cp/display/region_profiles/find_profile/PK/2014; Davamlı Sülh və İnkişaf Təşkilatı, *Yerdə quraşdırılan minaların və müharibədən qalan partlamamış partlayıcı qurğuların təsirlərinin aradan qaldırılması*, noyabr 2012-ci il, http://spado.org.pk/publications/addressing-theimpacts-of-landmines-and-explosive-remnants-of-war-in-pakistan/.

[448] Misal üçün aşağıdakı mənbələrdə istinad edilən mənbələrə bax: Mənşə Ölkəsi Barədə Məlumatlar və Sığınacaq Məsələləri Sahəsində Tədqiqat və Sənədləşdirmə İşləri üzrə Avstriya Mərkəzi, *Pakistan: Mənşə ölkəsi barədə*

## VII. Qaçqınlar üçün beynəlxalq himayədən xaric edilmə

Pakistanda təriqət zəminində zorakılıqların, yaraqlıların fəaliyyətinin və silahlı münaqişələrin uzunmüddətli tarixçəsini[449] və insan hüquqlarının ciddi pozuntularının qeydə alındığını nəzərə alsaq, Pakistanda dini azlıqların üzvlərinin sığınacaq üçün fərdi müraciətlərinə baxılarkən 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndində nəzərdə tutulmuş istisnaedici mülahizələr meydana çıxa bilər. Ərizəçinin sığınacaq üçün ərizəsində onun 1-ci maddənin "F" bəndinin tətbiq dairəsinə düşən cinayət əməllərinin törədilməsi ilə əlaqəsi olduğunu və ya törədilməsində iştirak etdiyini güman etməyə əsas verən elementlər olarsa, o halda istisnaedici mülahizələr meydana çıxır. Qaçqınlar üçün beynəlxalq himayədən xaric edilmənin ciddi nəticələr doğura biləcəyini nəzərə alaraq, istisnaedici müddəalar dar çərçivədə şərh edilməli və ehtiyatla tətbiq edilməlidir. Bütün hallarda hər bir konkret işin fərdi hallarının tam qiymətləndirilməsi tələb olunur.[450] Yuxarıda qeyd edilən hadisələrdə və silahlı münaqişələrdə iştirak etmiş şəxslərin ərizələrinə baxılmasında 1-ci maddənin F(a) bəndi xüsusi aktuallıq kəsb edə bilər. Şəxs silahlı münaqişə ilə əlaqədar törədilən və ya həmin münaqişəyə aidiyyəti olan hərəkətlərdə iştirak etmiş sayıla bilərsə, istisnaedici halların təhlili üçün başlanğıc nöqtəsi kimi həmin hərəkətlərin beynəlxalq humanitar hüququn qüvvədə olan normalarını və beynəlxalq cinayət hüququnun müvafiq müddəalarını pozub-pozmadığı və beləliklə 1-ci maddənin F(a) bəndində göstərilən

---

*məlumatların toplanması*, 31 avqust 2016-cı il, http://www.refworld.org/docid/57c6e9ee4.html; Sığınacaq axtaranlara dəstək üzrə Avropa Bürosu, *Mənşə ölkəsi barədə məlumatlara dair məruzə: Pakistanda təhlükəsizlik sahəsində vəziyyət*, iyul 2016-cı il, http://www.refworld.org/docid/5798b74f4.html. Həmçinin bax: OCHA, *Pakistan: Xeybər Paxtunxva və FİTƏ – Didərginlərin tərk etdiyi, üz tutduğu və geri qayıtdığı ərazilər (31 avqust 2016-cı il tarixinədək olan məlumatlar)*, 19 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57ea66f14.html; OCHA, *Humanitar bülleten – Pakistan, 37-ci buraxılış (dekabr 2015-ci il – yanvar 2016-cı il)*, 4 aprel 2016-cı il, https://www.humanitarianresponse.info/en/operations/pakistan/document/humanitarian-bulletin-pakistan-issue-37-december-2015-january-2016. Pakistanda humanitar vəziyyətlə bağlı məlumatlar üçün, məsələn, bu mənbələrə bax: Pakistan Humanitar Forumu, http://pakhumanitarianforum.org/new-reports-publications/; Qaçqınların İşləri üzrə Norveç Şurası / Ölkədaxili Köçlərin Monitorinqi Mərkəzi, *Pakistan: Yeni didərgin düşənlər və uzunmüddətli məcburi köçkünlər üçün əlçatmaz olan həll yolları*, 24 avqust 2015-ci il, http://www.refworld.org/docid/55ffb7514.html; IRIN, *Pakistanda bir il müharibədən sonra təhsil fəaliyyətləri hələ də yubanır*, 18 iyun 2015-ci il, http://www.refworld.org/docid/5261065b4.html. http://www.refworld.org/docid/558a995f4.html. Həmçinin aşağıdakı mənbədə istinad edilən mənbələrə bax: "*Asylum Research Consultancy*" təşkilatı, *Ölkəyə dair məruzə: Pakistan*, iyun 2015-ci il, http://www.refworld.org/docid/558909364.html; BBQ, *Pakistanda zorakılıqların baş verdiyi şəhərlərdə asayişin qorunması*, 23 yanvar 2014-cü il, *Asia Report N°255*, http://www.refworld.org/docid/52e117608.html; Pakistan Statistika Bürosu, *Cinayətlər barəsində onların növləri üzrə məlumatlar (2003-2012)*, http://www.pbs.gov.pk/content/crimes-reported-type-2003-2012.

[449] Müstəqillik qazandıqdan bəri Pakistan Hindistana qarşı üç müharibə aparıb, sərhəd məsələləri üstündə Əfqanıstanla bir neçə münaqişəsi olub və 1999-cu ildə Hindistanla sərhəddə atışmalar baş verib, hazırda isə Pakistan Əfqanıstanla sərhəd rayonlarında silahlı qruplara qarşı hərbi əməliyyatlar aparır. Ötən bir neçə ildə Pakistan, məlumatlara görə, qeyri-beynəlxalq xarakterli üç silahlı münaqişəyə, yəni hərbçilərlə Bəlucistan əyalətində muxtariyyət tələb edən qiyamçılar arasında; Əfqanıstan sərhədi boyunca hərbçilərlə sərhədi keçən islamçı yaraqlılar arasında; və Svat vadisi regionunda hərbçilərlə Taliban dəstələri olduğu güman edilən yaraqlılar arasında münaqişələrə cəlb olunub; misal üçün bax: ACLED, *Pakistanda zorakılıq tendensiyaları – 2015-ci il*, http://www.crisis.acleddata.com/violent-trends-in-pakistan-2015/; Amerika Birləşmiş Ştatlarının Sülh İnstitutu, *Münaqişə tendensiyalarının xəritəsi*, 7 fevral 2014-cü il, http://www.usip.org/sites/default/files/PW93-Mapping_Conflict_Trends_in_Pakistan.pdf; Beynəlxalq Humanitar Hüquq və İnsan Hüquqları üzrə Cenevrə Akademiyası, *Silahlı münaqişə dövründə qanunun aliliyi*, (məlumatların sonuncu yenilənmə tarixi: 13 aprel 2012-ci il), http://www.adh-geneva.ch/RULAC/current_conflict.php?id_state=166.

[450] 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndinin şərhinə və tətbiqinə dair ətraflı təlimatı bu mənbədən tapmaq olar: BMTQAK, *Beynəlxalq himayəyə dair rəhbər prinsiplər № 5: İstisnaedici müddəaların tətbiqi: Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndi*, HCR/GIP/03/05, 4 sentyabr 2003-cü il, http://www.refworld.org/docid/3f5857684.html; *İstisnaedici müddəaların tətbiqinə dair məlumatlandırıcı qeydlər*: *Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndi*, 4 sentyabr 2003-cü il, http://www.refworld.org/docid/3f5857d24.html.

hərbi cinayət təşkil edib-etmədiyi araşdırılmalıdır.[451] Pakistanda silahlı münaqişələrdə iştirak edən müxtəlif tərəflərin törətdiyi və 1-ci maddənin F(a) bəndinə uyğun olaraq beynəlxalq himayəni istisna edən hərəkətlər sırasına, digərləri ilə yanaşı, bunlar daxildir: insanların oğurlanması və zorla yoxa çıxarılması; heç kimə fərq qoymadan mülki şəxslərə hücumlar edilməsi; köçməyə məcbur edilmə; işgəncə və digər qəddar, qeyri-insani və ləyaqəti alçadan rəftar; siyasi qətllər; kütləvi qətllər; məhkəmədənkənar və sadələşdirilmiş icraat qaydasında edamlar; uşaqlar da daxil olmaqla insanları zorla hərbi xidmətə və (və ya) məcburi əməyə cəlb etmə.

Hərbi qüvvələrin, polis, təhlükəsizlik və kəşfiyyat xidmətlərinin üzvləri, habelə vəzifəli şəxslər, xüsusən hakimiyyət səlahiyyətli vəzifə tutanlar 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndinin tətbiqinə səbəb ola biləcək müxtəlif hərəkətlərdə iştirak etmiş ola bilərlər. Bu hərəkətlər aşağıdakıları özündə ehtiva edir, lakin təkcə onlarla məhdudlaşmır: şəxsi qanunsuz həbsə alma; şəxsi ətraf aləmdən tam təcrid olunmuş halda və heç bir ittiham irəli sürülmədən həbsdə saxlama; işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçadan rəftar; insanların yoxa çıxarılması; siyasi motivlərdən qaynaqlanan qətllər; və məhkəmədənkənar edamlar.

"Terror" xarakterli sayılan hərəkətlərlə əlaqəli olduğu düşünülən şəxslərə münasibətdə istisnaedici mülahizələrin tətbiqi nəzərdən keçirilə bilər. BMTQAK-ın rəyinə görə, belə cinayətlər müvafiq meyarlara uyğun gəlirsə, 1-ci maddənin "F" bəndində nəzərdə tutulmuş istisnaedici əsasların tətbiq dairəsinə düşə bilər. Belə halların çoxunda 1-ci maddənin F(b) bəndi tətbiq edilir, belə ki, böyük ehtimalla şiddətli terror aktları həmin bəndin tətbiqi üçün tələb olunan ağırlıq dərəcəsinə çatmış olur, amma belə aktların çoxu cinayətin siyasi xarakterli olub-olmadığını, yəni cinayətdə siyasi çaların üstünlük təşkil edib-etmədiyini müəyyənləşdirmək üçün istifadə edilən meyarlara uyğun gəlmir.[452] Müəyyən hallarda belə hərəkətlər, əgər onlar silahlı münaqişə zamanı törədilibsə və beynəlxalq humanitar hüququn və beynəlxalq cinayət hüququnun müvafiq normalarının ciddi pozuntusunu təşkil edirsə, insanlıq əleyhinə cinayətlər və ya hərbi cinayətlər sayıla və beləliklə 1-ci maddənin F(a) bəndinin tətbiq dairəsinə düşə bilər.[453]

---

[451] Hərbi cinayətlər beynəlxalq humanitar hüququn ciddi pozuntularıdır və birbaşa beynəlxalq hüquq əsasında fərdi məsuliyyətə səbəb olan pozuntulardır. Qüvvədə olan beynəlxalq humanitar hüquq normalarının və beynəlxalq cinayət hüququnun müvafiq müddəalarının tətbiqi məsələsi münaqişənin beynəlxalq (işğal situasiyaları da daxil olmaqla) və ya qeyri-beynəlxalq xarakterli olmasından asılı olaraq fərqlənir. Daha ətraflı təlimat üçün bax: BMTQAK, *İstisnaedici müddəaların tətbiqinə dair məlumatlandırıcı qeydlər*: *Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndi*, 4 sentyabr 2003-cü il, http://www.refworld.org/docid/3f5857d24.html, 30-32-ci bəndlər. Qeyri-beynəlxalq silahlı münaqişə kontekstində "hərbi cinayətlər" termini beynəlxalq humanitar hüququn müvafiq normalarının (məsələn, 1949-cu il tarixli dörd Cenevrə konvensiyasının hamısı üçün ümumi olan 3-cü maddənin, II Əlavə Protokolun müəyyən müddəalarının və beynəlxalq adət hüququ normalarının) 1990-cı illərin əvvəllərindən etibarən törədilmiş ciddi pozuntularına şamil oluna bilər. Keçmiş Yuqoslaviya üzrə beynəlxalq cinayət tribunalı (KYBCT) bildirib ki, qeyri-beynəlxalq silahlı münaqişələrə şamil olunan beynəlxalq humanitar hüquq normalarının həmin dövrdə törədilmiş pozuntuları beynəlxalq adət hüququ əsasında cinayət məsuliyyətinə səbəb ola bilər; bax: *"Dule" kimi tanınan Duşko Tadiçə qarşı prokuror tərəfindən qaldırılmış iş*, *Yurisdiksiya məsələsi üzrə aralıq apellyasiya şikayəti verilməsi üçün müdafiə tərəfinin qaldırdığı vəsatətə dair qərar*, IT-94-1, 2 oktyabr 1995-ci il, http://www.refworld.org/docid/47fdfb520.html, 134-cü bənd. Yuxarıda qeyd edilən beynəlxalq humanitar hüquq normalarının həmin tarixdən əvvəl baş vermiş ciddi pozuntuları "hərbi cinayətlər" sayıla bilməz, amma "qeyri-siyasi xarakterli ağır cinayətlər" anlayışının (1-ci maddənin F(b) bəndi), yaxud da işin hallarından olaraq "insanlıq əleyhinə cinayətlər" anlayışının (1-ci maddənin F(a) bəndi) tətbiq dairəsinə düşə bilər.

[452] 1-ci maddənin F(b) bəndində nəzərdə tutulmuş istisnaedici əsasların tətbiqi üçün həmin bənddə nəzərdə tutulmuş coğrafi ("şəxsin cinayəti sığındığı ölkənin xaricində törətməsi") və zaman ("şəxsin cinayəti ölkəyə qaçqın kimi buraxılmazdan əvvəl törətməsi") meyarlarına da riayət edilməlidir; bax: BMTQAK, *İstisnaedici müddəaların tətbiqinə dair məlumatlandırıcı qeydlər*: *Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndi*, 4 sentyabr 2003-cü il, http://www.refworld.org/docid/3f5857d24.html, 41 və 81-ci bəndlər.

[453] Beynəlxalq humanitar hüququda "terrorizm" termininin anlayışı verilməyib. Bununla belə, beynəlxalq humanitar hüquq silahlı münaqişə zamanı törədilən bir çox elə hərəkətləri qadağan edir ki, həmin hərəkətlər adətən dinc dövrdə törədilmiş olduqları təqdirdə terror aktı sayılır. Burada həlledici sual ondan ibarətdir ki, hərəkət onun beynəlxalq humanitar hüquqda nəzərdə tutulmuş hərbi cinayət olduğunu müəyyən etmək üçün tələb olunan maddi və psixoloji elementləri özündə ehtiva edirmi? Əsas məqsədi mülki əhali arasında qorxu yaymaqdan ibarət olan hərəkətlər və ya zorakılıq təhdidləri konkret olaraq 1949-cu il tarixli Cenevrə Konvensiyalarının I Əlavə Protokolunun 51-ci

Müəyyən hallarda terror xarakterli sayıla bilən hərəkətlər 1-ci maddənin F(c) bəndi əsasında istisnaedici müddəaların tətbiqinə səbəb ola bilər. Bu o halda baş verə bilər ki, sözügedən hərəkətlər 1-ci maddənin F(a) bəndində nəzərdə tutulmuş hərbi cinayət və (və ya) insanlıq əleyhinə cinayət təşkil etmiş olsun,[454] amma bu sözlər terrorizmlə bağlı beynəlxalq konvensiyalar və protokollar əsasında qadağan edilən cinayətlərə də aiddir, bu şərtlə ki, onlar yuxarıda qeyd edilən, beynəlxalq müstəvidə daha geniş təsiri ilə xarakterizə olunan xüsusiyyətlərə malik olsun.[455]

Beynəlxalq himayədən xaric edilmənin əsaslı olması üçün 1-ci maddənin "F" bəndində nəzərdə tutulmuş cinayətlə əlaqədar fərdi məsuliyyət məsələsi müəyyən edilməlidir. Belə məsuliyyət o halda təsdiqlənmiş sayılır ki, şəxs cinayət əməlini törətmiş olsun və ya onun törədilməsində cinayət məsuliyyətinə səbəb olan tərzdə iştirak etsin, cinayət törətmə barədə göstəriş versin, cinayətə təhrik etsin, yardım göstərsin, yaxud ümumi məqsəd naminə hərəkət edən şəxslər qrupu tərəfindən cinayətin törədilməsinə şərait yaratsın. Hərbi və ya mülki xidmətin vəzifəli şəxsi qismində hərəkət edən şəxslərin fərdi məsuliyyəti onların komandir (rəis) qismində cinayətə görə məsuliyyət daşımaları əsasında yarana bilər. Cinayət məsuliyyətinə qarşı müdafiə arqumentləri (əgər varsa) dinlənilməli, habelə mütənasiblik prinsipinə aid mülahizələr tətbiq edilməlidir. Döyüşçü sıralarına məcburi cəlb edilmə, o cümlədən xüsusən uşaqların cəlb edilməsi praktikası barədə sübutlar bu məsələlərdə nəzərə alınmalıdır. Dövlətin silahlı qüvvələrinin, polis orqanlarının, kəşfiyyat və ya təhlükəsizlik aparatının, yaxud silahlı qrupun və ya könüllü yaraqlılar dəstəsinin üzvü olma özü-özlüyündə şəxsə qaçqın statusu verilməsinin mümkünlüyünü istisna etmək üçün yetərli əsas deyil. Eyni sözlər dövlət qulluqçularına və mülki qulluqçulara da aiddir. Bütün belə hallarda müvafiq şəxsin beynəlxalq himayəni istisna edən hərəkətlərə şəxsən aidiyyəti olub-olmadığını, yaxud belə hərəkətlərin törədilməsində müvafiq beynəlxalq hüquq meyarları əsasında cinayət məsuliyyətinə səbəb olan tərzdə iştirak edib-etmədiyini nəzərdən keçirmək zəruridir. Hər bir konkret işin hallarının diqqətlə qiymətləndirilməsi tələb olunur.

Pakistan kontekstində müəyyən xarakteristikalara malik olan və müəyyən kateqoriyalara aid olan dini azlıq üzvlərinə münasibətdə beynəlxalq himayəni istisna edən mülahizələr meydana çıxa bilər. Xüsusən aşağıdakı kateqoriyalara aid dini azlıqlara mənsub olan şəxslərin müraciətlərinə ehtiyatla yanaşmaq lazımdır:

---

maddəsinin 2-ci bəndi və II Əlavə Protokolunun 13-cü maddəsinin 2-ci bəndi ilə qadağan olunur. II Əlavə Protokolun 13-cü maddəsinə dair şərhində Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) qeyd edib ki, "qorxu yaymaq məqsədi daşıyan hücumlar bütövlükdə hücumların yalnız bir növüdür, amma xüsusilə qınanmalı növüdür". Bax: BQXK, *1977-ci il tarixli II Əlavə Protokolun 13-cü maddəsinin şərhi*, http://www.icrc.org/ihl.nsf/COM/475-760019?OpenDocument, 4785-ci bənd. Terrorizm və silahlı münaqişələrlə bağlı hüquq normalarına dair daha ətraflı məlumatı BQXK-nın İnternet saytında tapmaq olar: http://www.icrc.org/eng/resources/documents/faq/terrorism-faq-050504.htm. Həmçinin bax: KYBCT, *Qaliçə qarşı prokuror tərəfindən qaldırılmış iş*, İş № IT-98-29A, Apellyasiya Palatasının 30 noyabr 2006-cı il tarixli qərarı, http://www.refworld.org/docid/47fdfb565.html, 98 və 102-104-cü bəndlər.

[454] Bu iki istisnaedici bəndlərdəki əsaslar qismən üst-üstə düşür, belə ki, 1-ci maddənin F(a) bəndinin tətbiq dairəsinə düşən hərəkətlər də "Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə ziddir"; bax: BMTQAK, *Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyası və 1967-ci il Protokolu əsasında qaçqın statusunun müəyyənləşdirilməsi üçün prosedurlara və meyarlara dair təlimat və rəhbər prinsiplər*, dekabr 2011-ci il, HCR/1P/4/ENG/REV. 3, http://www.refworld.org/docid/4f33c8d92.html, 162-ci bənd.

[455] Terror aktlarını özündə ehtiva edən halları araşdırarkən 1-ci maddənin F(c) bəndinin düzgün tətbiqi üçün rəhbər tutulmalı olan etibarlı prinsip ondan ibarətdir ki, hərəkətə "terrorizm" damğasının vurulub-vurulmadığına diqqət yetirməkdənsə, "ağırlıq dərəcəsi, beynəlxalq təsiri və beynəlxalq sülhə və təhlükəsizliyə göstərdiyi təsirlər baxımından həmin hərəkət beynəlxalq səviyyəli akt sayıla bilərmi" sualına diqqət yetirmək lazımdır. BMTQAK-ın rəyinə görə, yalnız bu geniş xarakteristikaları ilə fərqlənən terror aktları həmin bəndin əsasında beynəlxalq himayəni istisna edən hərəkətlər sayıla bilər. Daha ətraflı təlimat üçün bax: BMTQAK, *İstisnaedici müddəaların tətbiqinə dair məlumatlandırıcı qeydlər*: *Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının 1-ci maddəsinin "F" bəndi*, 4 sentyabr 2003-cü il, http://www.refworld.org/docid/3f5857d24.html, 46-49-cu bəndlər. Həmçinin bax: BMTQAK, *Yasser Əl-Sirri (şikayətçi) Birləşmiş Krallığın daxili işlər nazirinə (cavabdeh) qarşı və DD (Əfqanıstan) (şikayətçi) Birləşmiş Krallığın daxili işlər nazirinə (cavabdeh) qarşı: Bir-biri ilə əlaqəli olduqlarına görə BMTQAK tərəfindən bir icraatda birləşdirilmiş iki məhkəmə işi*, 23 mart 2012-ci il, http://www.refworld.org/docid/4f6c92b12.html.

i) yaraqlı qrupların üzvləri,[456] yaxud məzhəb zorakılıqlarına hər hansı digər formada cəlb olunmuş şəxslər;
ii) hərbi, polis, təhlükəsizlik və kəşfiyyat qüvvələrinin üzvləri, xüsusən terrorizm əleyhinə kampaniyalarda iştirak edənlər;[457]
iii) yerli və federal administrasiyaların rəsmiləri; və məhkəmə hakimiyyətinin nümayəndələri.[458]

---

[456] Pakistandakı əsas islamçı yaraqlı qruplar və onların fəaliyyətləri barədə əlavə məlumat üçün bax: Terrorizmlə bağlı Cənubi Asiya Portalı, *Pakistanın terrorçu və ekstremist qrupları* (23 avqust 2016-cı il tarixinədək olan məlumatlar), http://www.satp.org/satporgtp/countries/pakistan/terroristoutfits/group_list.htm; Mənşə Ölkəsi Barədə Məlumatlar və Sığınacaq Məsələləri Sahəsində Tədqiqat və Sənədləşdirmə İşləri üzrə Avstriya Mərkəzi, *Pakistan: Mənşə ölkəsi barədə məlumatların toplanması*, 31 avqust 2016-cı il, http://www.refworld.org/docid/57c6e9ee4.html; aşağıdakı mənbədə istinad edilən mənbələrə bax: Sığınacaq axtaranlara dəstək üzrə Avropa Bürosu, *Mənşə ölkəsi barədə məlumatlara dair məruzə: Pakistanda təhlükəsizlik sahəsində vəziyyət*, iyul 2016-cı il, http://www.refworld.org/docid/5798b74f4.html; BBQ, *Pakistanlı cihadçıların mərkəzi: Cənubi Pəncab*, 30 may 2016-cı il, Asia Report N°279, http://www.refworld.org/docid/574d2dbb4.html; aşağıdakı mənbədə istinad edilən mənbələrə bax: "*Asylum Research Consultancy*" təşkilatı, *Ölkəyə dair məruzə: Pakistan*, iyun 2015-ci il, http://www.refworld.org/docid/558909364.html.
[457] Misal üçün bax: HRW, *"Bu əyintili sistem" – Pakistanda polis orqanlarında sui-istifadə halları və islahat*, 25 sentyabr 2016-cı il, http://www.refworld.org/docid/57e8d0f64.html; Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; aşağıdakı mənbədə hüquq mühafizə orqanlarına (qanunçuluğa, habelə həbsxanalara, məhbuslara və insanların yoxa çıxması hallarına) aid bölmələrə bax: PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/hrcp-annual-report-2015/; aşağıdakı mənbədə istinad edilən mənbələrə bax: Kanada: İmmiqrasiya və qaçqınların işləri üzrə Kanada Şurası, *Pakistan: Polis orqanlarında korrupsiya; Polisə qarşı şikayətlərin qəbul edilməsinə, o cümlədən onlara baxılmasının səmərəliliyinə görə cavabdeh olan orqanlar; Polisə qarşı şikayət vermə prosedurları (2012 – yanvar 2016)*, 14 yanvar 2016-cı il, PAK105368.E, http://www.refworld.org/docid/56af1a9f4.html; aşağıdakı mənbədə istinad edilən mənbələrə bax: "*Asylum Research Consultancy*" təşkilatı, *Ölkəyə dair məruzə: Pakistan*, iyun 2015-ci il, http://www.refworld.org/docid/558909364.html. Həmçinin məsələn 24-cü mətnaltı qeyddə göstərilən mənbələrə də bax.
[458] Məhkəmə orqanlarının müstəqil olmaması ilə bağlı əlavə məlumat üçün, məsələn, bu mənbəyə bax: Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti, *Ölkələr üzrə insan hüquqları sahəsində praktikaya dair 2015-ci il tarixli hesabat – Pakistan*, 13 aprel 2016-cı il, http://www.refworld.org/docid/57161227c.html; HRW, *Pakistan: 2015-ci ilin hadisələri*, yanvar 2016-cı il, https://www.hrw.org/world-report/2016/country-chapters/pakistan; BHK, *Məhkəmə prosesi: Pakistanın küfr əleyhinə qanunlarının icrası*, noyabr 2015-ci il, http://www.refworld.org/docid/565da4824.html; aşağıdakı mənbədə qanunun aliliyinə dair bölmələrə bax: PİHK, *2015-ci ildə insan hüquqlarının vəziyyəti*, mart 2016-cı il, http://hrcp-web.org/hrcpweb/hrcp-annual-report-2015/; aşağıdakı mənbədə istinad edilən mənbələrə bax: "*Asylum Research Consultancy*" təşkilatı, *Ölkəyə dair məruzə: Pakistan*, iyun 2015-ci il, http://www.refworld.org/docid/558909364.html; BMT-nin İnsan Hüquqları Şurası, *Hakimlərin və vəkillərin müstəqilliyi məsələsi üzrə xüsusi məruzəçinin məruzəsi, Əlavə: Pakistan missiyası*, 4 aprel 2013-cü il, A/HRC/23/43/Add.2, http://www.refworld.org/docid/51b9a0794.html.